# AİLƏ QADIN UŞAQ

2016 № 18







**TƏSİSÇİ**

Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri
üzrə Dövlət Komitəsi

**REDAKSİYANIN ÜNVANI**

AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi
80, Hökumət Evi, IV alaqapı
**Tel**: (+994 12) 498 80 93
www.scfwca.gov.az
**E-mail:** office@scfwca.gov.az

**BAŞ REDAKTOR**

Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri
üzrə Dövlət Komitəsinin sədri

**NƏŞRİYYATIN ÜNVANI**

"Günəş-B" nəşriyyatı
Bakı şəhəri, S.Rüstəm, 59
Tel. (+99912) 493-41-11

# MÜNDƏRİCAT

**Baş redaktordan**

**"Müstəqillik dövründə ailə siyasətinin formalaşması - ənənələr, perspektivlər" mövzusunda elmi-praktik konfrans....8**

**Nəşrlərimiz....37**

***"Azərbaycan ailəsi" kitabının təqdimatı***

**Komitə xəbərləri....38**

***Tədbirlər***

***Görüşlər***

***Regional qəbullar***

***Səfərlər***

**Uşaq və Ailələrə Dəstək Mərkəzləri alternativ qayğı modelinin bariz nümunəsidir.......56**

**"Məişət zorakılığı insan alverinə şərait yaradan sosial problemlərdən biri kimi" mövzusunda konfrans........................................................................................................61**

**"Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" layihəsi uğurla həyata keçirilir...........................................................................78**

**Vətənpərvərlik ən ali hissdir.......................................................................................80**

**Azərbaycan qadını - həm ana, həm də qəhrəmandır........................................................83**

**"Müasir cəmiyyətdə milli geyimlərə olan maraq artıb"....................................................85**
***Bakı Milli Geyim Evinin direktoru Könül Vəlibəyli ilə müsahibə***

**Yubileylər.....................................................................................................................88**
***Azərbaycanın tanınmış və tanıdan qadınları***

**Qeyri-Hökumət Təşkilatlarının fəaliyyətində ailə, qadın və uşaq məsələləri prioritet istiqamətlərdəndir.........................................................................................................92**
***Uşaqların iştirakçılığının təmin edilməsi***
***Maarifləndirmədə beynəlxalq təcrübənin tətbiqi və yeni yanaşmalar***
***Əməkdaşlığımızın perspektivləri***

**Uşaqlarda estetik zövqün formalaşmasında valideynlərin iştirakı..................................96**

**İstedadlı uşaqlar festivalı- 2016.....................................................................................97**

**Onları siz də tanıyın......................................................................................................99**

# Baş Redaktordan



***Əziz və hörmətli oxucular!***

Sizlərlə növbəti görüşümüz bir çox əhəmiyyətli və əlamətdar günlərə təsadüf edir.

Keçən il olduğu kimi bu il də bütün dünyanın diqqəti ölkəmizə yönəldi. Cari ildə Dünya Azərbaycanlılarının IV Qurultayı keçirilmişdir. Bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların ölkəmiz naminə daha fəal iş görmək, bu istiqamətdə səyləri birləşdirmək, əlaqələndirməni daha da möhkəmləndirmək üçün əhəmiyyətli platforma oldu. Eyni zamanda Azərbaycan bu illər ərzində dünyada multikulturalizmin inkişafına çox böyük töhfələr vermişdir. Xüsusən də, ölkə başçısı cənab İlham Əliyev tərəfindən bu ilin "Multikulturalizm ili" elan edilməsi Azərbaycanın tolerantlıq və sivilizasiyalararası mədəniyyətlərə böyük önəm verən ölkələrdən olduğunun göstəricisidir. Xüsusilə qeyd etməliyik ki, bu il BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu da Bakıda keçirildi. Forumun ölkəmizdə baş tutması dünya ölkələrinin Azərbaycandakı tolerant mühitə olan münasibətinin real ifadəsidir. Bu Qlobal Forum çərçivəsində əhəmiyyətli məsələlər müzakirə olundu və bunlarda biri də "Münaqişə zonalarında sülhün bərqərar edilməsi prosesində qadınların rolu" mövzusunda bölmə iclasının keçirilməsi idi.

Paytaxt Bakı növbəti dəfə dünya əhəmiyyətli mötəbər idman yarışına ev sahibliyi etdi. Dünyanın ən nüfuzlu idman yarışlarından biri olan "Formula-1" beynəlxalq əməkdaşlığa öz töhfəsini verməklə bərabər, həmçinin Azərbaycana gələn xarici qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı imkan yaratdı və yarış iştirakçıları, turistlər, həm də şəhər sakinləri üçün yaddaqalan oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarında bildirmişdir ki, sosial layihələrin həyata keçirilməsi ilə bağlı olaraq 12 il ərzində üç minə yaxın məktəb, 600-ə yaxın xəstəxana tikilmiş, əsaslı təmir edilmişdir. Məktəblərimizin sayı təqribən 5 minə yaxındır, bunlardan üç mini 12 ildə tikilmişdir. Eyni zamanda bölgələrimizdə 41 Olimpiya Mərkəzi inşa edilmişdir, 89 köçkün qəsəbəsi tikilmiş, 225 min insan yeni evlərə, mənzillərə köçürülmüşdür. Ölkə başçısı, eyni zamanda, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, maddi rifah halının artırılması və işlə təmin olunma məsələlərinə toxunaraq qeyd etmişdir ki, cari ilin altı ayında 78 min daimi iş yeri açılmışdır.

Komitə də bu il ölkə başçısının ailə, qadın və uşaq sahəsində təyin etdiyi siyasəti uğurla həyata keçirmək istiqamətində və Dövlət Proqramları çərçivəsində vacib tədbirlərin icrasını təmin etmişdir. "Müstəqillik dövründə ailə siyasətinin formalaşması- ənənələr, perspektivlər" adlı elmi-praktiki konfrans, Komitə Daxili İşlər Nazirliyi ilə birgə "Məişət zorakılığı insan alverinə şərait yaradan sosial problemlərdən biri kimi" mövzusunda konfrans təşkil edilmişdir. Əlavə olaraq qeyd etmək istərdim ki, hər il olduğu kimi bu il də Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" mövzusunda məqalə müsabiqəsinin final tədbiri, görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın 93-cü ildönümünə həsr olunmuş ümumrespublika üzrə "Qələbəyə doğru" intellektual yarışın isə final oyunu keçirilmişdir. Eyni zamanda "Mediada ailə, qadın və uşaq məsələlərinin işıqlandırılması: nailiyyətlər və perspektivlər" mövzusunda konfrans keçirildi və bir çox media qurumları və jurnalistlər mükafatlandırıldılar. Həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Respublikasının müstəqilliyinin 25 illiyinə həsr olunmuş "Azərbaycan Ailəsi" adlı kitab oxuculara təqdim edilmişdir. Jurnalın müvafiq bölməsində adıçəkilən tədbirlər haqqında ətraflı məlumat alacaq, həmçinin edilən çıxışlarla tanış olacaqsınız.

Bildiyiniz kimi, son vaxtlar düşmən təxribatı nəticəsində Vətən uğrunda qəhrəmanlıqla şəhid olan və yaralanan hərbçilərimiz var. Və bunun nəticəsində həlak olan Azərbaycan oğullarına Allahdan rəhmət, yaralananlara isə şəfa diləyirik. Döyüşlərdə qəhrəmancasına vuruşan, ölümdən belə qorxmayan bu gənclər hamıya nümunədir. Bu hadisələr bir daha göstərdi ki, ailədə alınan düzgün tərbiyə çox vacibdir və bu işdə sağlam düşüncəli ailənin rolu danılmazdır. Xüsusilə, cənab Prezident İlham Əliyevin və ölkənin Birinci xanımı Mehriban Əliyevanın bu ailələrə göstərdiyi dəstək və qayğı dövlətimizin və xalqımızın birliyini və vətənpərvərliyini bir daha nümayiş etdirdi. Bu il həm də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunmasının 25-ci ildönümü qeyd ediləcək. Jurnalımızın bu nömrəsində xüsusi olaraq bir bölmə məhz vətənpərvərlik mövzusuna həsr olunub.

Müsbət haldır ki, ailə, qadın və uşaq siyasətinin möhkəmləndirilməsi istiqamətində qanunvericilik bazası daim təkmilləşdirilir. Uşaq hüquqlarının müdafiəsi, onların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması, həmçinin anaların əmək hüquqları və digər mühüm məsələlər dəyişikliklərlə qanunvericilikdə öz əksini tapır.

Bundan əlavə, jurnalın səhifələrində, bu il yubileyi olan tanınmış Azərbaycan qadınları, Qeyri-hökumət təşkilatları ilə uğurlu əməkdaşlığımız, "İstedadlı uşaqlar festivalı-2016", Moda dünyası və digər maraqlı mövzular ətrafında məlumatlar mütaliə edə biləcəksiniz. Xüsusən də 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə uşaqlara aid mövzular öz əksini tapmışdır.

**Əziz oxucular!**

Sizi ölkənin ictimai-siyasi və mədəni həyatında daim fəal iştirak etməyə, aktiv və layiqli vətəndaş mövqeyi tutmağa çağırırıq. Çünki Azərbaycanın parlaq gələcəyi və sürətli inkişafı həm də sizin səmərəli fəaliyyətinizdən asılıdır.

***Hörmətlə, Hicran Hüseynova***

*Azərbaycan Respublikasında yüksək əzmkarlıqla həyata keçirilən inkişaf strategiyası bütün sahələrdə səmərəli nəticələrini göstərir. Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə ön sıralarda gedərək islahatçı ölkə kimi tanınır.*

*Azərbaycanda iqtisadi inkişafın, sosial tərəqqinin, eyni zamanda, insanların həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər dövlət siyasətinin prioritetinə çevrilir və bu gün də davam etdirilir.*

*Bu gün Azərbaycanın hər bir bölgəsi öz simasını dəyişir. Cənab Prezidentin regionlarımıza səfəri qeyri-neft sənayesi, kənd təsərrüfatı sahələri də daxil olmaqla hər bir sahənin öz uğurlu inkişafını tapdığının əyani nümunəsidir. Müxtəlif sahələrə aid olan bir sıra müəssisələrin paytaxdan kənarda- regionlarda istifadəyə verilməsi, eyni zamanda, əhalinin məşğulluq səviyyəsinin artırılması baxımından da xüsusi əhəmiyyət kəsb edir.*



















***Bu il aprel ayının əvvəllərində qoşunların təmas xəttində düşmən tərəfindən atəşkəsin pozulması nəticəsində Vətən uğrunda qəhrəmanlıqla şəhid olan və yaralanan hərbçilərimiz döyüşlərdə qəhrəmancasına vuruşaraq bütün gənclərimiz üçün nümunə oldular.***

***Bu döyüşlər dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini və vətənpərvərliyini bir daha nümayiş etdirdi. Xüsusilə, cənab İlham Əliyevin və ölkənin Birinci xanımı Mehriban xanım Əliyevanın şəhid ailələrini, yaralı əsgərlərimizi ziyarət etməsi, göstərilən dəstək və qayğını bir daha təsdiq edir.***









***İlin birinci yarısında keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı bir daha dünyanın hər bir yerində yaşayan azərbaycanlıların birliyini nümayiş etdirməklə yanaşı, onların ölkəmiz naminə daha fəal iş görmək üçün bütün səyləri birləşdirmək, əlaqələri daha da möhkəmləndirmək üçün əhəmiyyətli bir platform oldu.***






*Multikulturalizmin inkişafına xüsusi əhəmiyyət verən ölkə başçısı cənab Prezident İlham Əliyev tərəfindən 2016-cı il "Multikulturalizm ili" elan edildi. Təsadüfi deyil ki, BMT-nin Sivilizasiyalar Aliyansının VII Qlobal Forumu da Bakıda keçirildi.*

*Forumun ölkəmizdə baş tutması dünya ölkələrinin Azərbaycandakı tolerant mühitə olan münasibətinin real ifadəsidir.*




*Ölkəmiz keçən il olduğu kimi, bu il də dünya əhəmiyyətli mötəbər idman yarışlarına və festivallara ev sahibliyi etdi. Həm paytaxtımızda, həm regionlarda keçirilən genişmiqyaslı tədbirlər Azərbaycanın dünyada qazandığı yüksək nüfuzun göstəricisidir. "Formula-1", Qəbələdə "VIII Beynəlxalq Musiqi Festivalı" xarici qonaqların ölkəmizlə yaxından tanışlığı və beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin daha da gücləndirilməsi üçün də geniş imkan yaratdı.*

















*Bütün bu beynəlxalq tədbirlər və Azərbaycanın bu tədbirlərdə fəal iştirakı dövlətimizin önəmini göstərir, eyni zamanda, ölkəmiz üçün yeni imkanlar yaradır. Öz inkişaf tempinə görə qabaqcıl ölkələrlə yanaşı addımlayan Azərbaycanda həm daxili, həm də xarici siyasət uğurla inkişaf edir, dövlətimiz inamla irəliləyir.*




# *"Müstəqillik dövründə ailə siyasətinin formalaşması - ənənələr, perspektivlər"*
# *Elmi-praktik konfrans*

Mayın 12-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə "Müstəqillik dövründə ailə siyasətinin formalaşması-ənənələr, perspektivlər" adlı elmi-praktik konfrans keçirilib.

Konfransın keçirilməsində məqsəd tarixi Azərbaycan ailəsi modelinin inkişaf tendensiyası və ailə ənənələrinin qorunması, milli-mənəvi dəyərlərimizin təbliği, gənc nəslə vətən, millətə sevgi hisslərinin aşılanması, onların vətənpərvərlik ruhunda tərbiyə edilməsi işinə dəstək verilməsidir. Akademiyada baş tutan konfransda aidiyyatı dövlət qurumları və ictimaiyyət nümayəndələri, elm və mədəniyyət xadimləri, görkəmli ziyalılar iştirak edib.

Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov konfransı giriş sözü ilə açaraq əvvəlcə tədbir iştirakçılarını salamlayıb. O bildirib ki, ölkəmiz iqtisadi-siyasi inkişaf səviyyəsinə görə, lider ölkələr sırasına daxil olub.

Daha sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova ölkə başçısı cənab İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsini vurğulayaraq bildirib ki, ölkəmiz təkcə azərbaycanlıların deyil, həm də burada yaşayan digər millətlərin vətənidir. Burada hər bir ailənin dəyərlərinə hörmətlə yanaşılır, qorunur. Hicran Hüseynova bildirib ki, sosial-mənəvi mühitin saflığının və əxlaqi dəyərlərin qorunması, gələcək nəslə ötürülməsi müasir dövrün qlobal problemlərindən biridir: "Əfsuslar olsun ki, müasir dünyada sosial kataklizmlər fonunda ailə institutunda da müəyyən dəyişikliklər müşahidə olunur. Ona görə də biz bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirməli, gənc nəsli sağlam ruhda tərbiyələndirməliyik".








Milli Məclisin sədr müavini Bahar Muradova çıxış edərək bildirib ki, bu gün Azərbaycan dövləti tərəfindən - həm parlament, həm də hökumət səviyyəsində ailə proseslərini tənzimləyən qanunlar mövcuddur. Ailə dəyərlərinin qorunmasına bu qanunlar öz töhfəsini verir. “Biz ailə institutunu qorumalıyıq. Cəmiyyətin müvafiq təbəqələrinin birgə səyləri nəticəsində bu sahədəki problemləri aradan qaldıra bilərik. Eyni zamanda, biz çalışmalıyıq ki, uğurların qazanılmasında Azərbaycan ailələrinin yaxından iştirakını təmin edək. Biz hamımız ailənin hər bir insanın, cəmiyyətin və ölkənin həyatında necə mühüm əhəmiyyət daşıdığını bilirik. Məhz ailə hər bir insan üçün sevgi və dayaq mənbəyidir. Ailədə əxlaq, mənəviyyat və vətənpərvərliyin əsasları qoyulur. Sağlam, möhkəm ailə - hər bir cəmiyyətin çiçəklənməsinin qarantıdır. Ailə münasibətləri insan həyatının mühüm aspektlərindən birini təşkil edir”, - deyə xanım Bahar Muradova bildirib. Milli Məclisin sədr müavini qeyd edib ki, Azərbaycan ailə mədəniyyətinin zəngin nümunələri ilə dünyada tanınan ölkələrdəndir. Yaşlılara, qadınlara, analara və uşaqlara qayğı - bizim xalqın ən gözəl xüsusiyyətlərindəndir. Ailə, qadın və uşaq sahəsində aktiv və hərtərəfli dövlət siyasəti ilk növbədə gender bərabərliyi və ailə siyasətində sosial məsuliyyətin milli mexanizmlərinin əsasını qoymuş ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Bahar xanım diqqətə çatdırıb ki, Azərbaycanın müasirləşdirilməsi və sürətli inkişafına istiqamətlənmiş dövlət siyasəti ailə maraqlarını nəzərə almadan heç vaxt reallaşa bilməzdi. Dünya dəyişir və onun ilk baxışdan əbədi görünən dəyərləri transformasiyaya uğrayır. Hazırda Qərb dünyasında dərin ailə böhranı yaşanır. Klassik, ənənəvi ailə arxa plana atılır. O deyib ki, Azərbaycan ailənin qorunması və milli ənənələrin saxlanması üçün geniş spektrdə ehtiyatlara malikdir. Azərbaycan Respublikasında ailə, ana, ata və uşaqların dövlət dəstəyi tam təmin olunur. Müasir ailə problemləri müxtəlif şaxəliliyi ilə seçilir. Odur ki, ailə institutuna dayaq məqsədilə bütün resurslarında istifadə olunmalıdır.

Ombudsman Elmira Süleymanova ailənin hüquqi statsusu ətrafında çıxış edərək bildirib ki, Azərbaycanda ailə institutu addım-addım təkmilləşməkdədir: “Ölkəmizdə ailə ilə bağlı məsələlər qanunvericiliklə tənzimlənir. Azərbaycan Respublikasının Konstitusiyasında ailəyə ayrılan xüsusi maddələr var”.

Daha sonra Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı qeyd edib ki, ailə hər bir insanın, cəmiyyətin və ölkənin həyatında mühüm əhəmiyyət daşıyır: “Ailə münasibətləri insan həyatının mühüm aspektlərindən birini təşkil edir. İnsanın maraqlarının əhəmiyyətli hissəsi məhz ailədə öz həllini tapır”.

Çıxış edən Milli Televiziya və Radio Şurasının sədr müavini, “Kaspi” qəzetinin təsisçisi Sona Vəliyeva ailə dəyərlərinin təbliğində və qorunmasında KİV-in əsas rol oynadığını qeyd edərək bildirib: “Yad təsirlərdən qorunmağın ən yaxşı üsulu isə KİV-in məsələyə xüsusi diqqət və həssaslıqla yanaşması, cəmiyyətin düzgün maarifləndirilməsi, dəyərlərimizin lazımi dərəcədə təbliğ edilməsidir”.

Daha sonra Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev, BMT-nin İnkişaf Proqramının Azərbaycan Respublikasındakı Rezident Nümayəndəsinin müavini Natalia Alhazişvili, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, “Simurq” Azərbaycan Assosiasiyasının prezidenti Fuad Məmmədov ailə siyasətinin həyata keçirilməsi, ailə dəyərlərinin qorunub saxlanılması, gənc nəsil arasında milli-mənəvi dəyərlərin təbliğ edilməsi və digər mövzular ətrafında çıxışlar ediblər.

**Qeyd olunduğu kimi, konfransda aktual mövzu ilə bağlı maraqlı cıxışlar edildi. Konfransın əhəmiyyətini nəzərə alaraq, materialları təqdim edirik.**



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hicran Hüseynova**

# Azərbaycan ailə institutunda baş verən proseslər. Dövlət ailə siyasəti və onun təkmilləşdirilməsi yolları

Bu gün qloballaşma və modernləşmə şəraitində ailələr texnoloji və iqtisadi inkişafın gətirdiyi müxtəlif problemlərlə qarşılaşır. Qərb cəmiyyətində müşahidə olunan mənfi dəyişikliklər bir sıra ənənəvi dəyərlərin itirilməsinə səbəb olur. Dünya millətlərinin bəziləri artıq ailə institutunu bir dəyər kimi deyil, investisiya vasitəsi kimi qəbul etməyə başlamışlar. Qlobal səviyyədə ailə həyatı innovasiyaların təhdidi altındadır, mənəvi dəyərlərin zəifləməsi ailənin sosial statusuna fundamental təsir göstərir. Bir sıra ölkələrdə demoqrafik problemin kəskinləşməsi danılmaz faktdır.

Artıq ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi, cəmiyyətin saflığının və əxlaqi dəyərlərin qorunması, gələcək nəslə ötürülməsi dünyada aktual problemdir. Ailənin mahiyyəti görkəmli şəxsiyyətlərin, elm və dövlət xadimlərinin fikirlərində də əks olunmuşdur. Ümummilli Lider Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq qeyd edirdi: “Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir”.

Azərbaycan ailəsi həmişə uzunömürlülüyü və möhkəmliliyi ilə seçilib. Bu, əsasən milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasından, müasir dövrə uyğunlaşdırılmasından irəli gəlir. Məhz buna görə də Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən biri hesab olunur. Tarixən ailə Azərbaycan milli mentalitetində mühüm yer tutmuş, sosial strukturun ayrılmaz elementini, cəmiyyətin özəyini təşkil etmişdir. Milli-mənəvi dəyərlər məhz ailədə qorunub saxlanaraq nəsildən-nəslə ötürülmüşdür. Müxtəlif mərhələlərdə ailə institutu tarixi dəyişikliyə məruz qalsa da, bu sahədə mövcud olan fundamental dəyərlər dəyişməz qalmış və müasir dövrə qədər gəlib çatmışdır. Buna görə də Avropaya inteqrasiya etsək də, klassik ailə modeli deformasiyaya məruz qalmır. Bir çox Avropa və MDB ölkələrinin vətəndaşları xalqımızın möhkəm ailə ənənələrinə çox böyük rəğbətlə yanaşır. Bəzi ölkələrdə ailə ənənələrinin zəif olması bir sıra sosial-psixoloji fəsadların yaranmasına yol açır ki, bu da, öz növbəsində, cəmiyyətdə deqradasiyanı sürətləndirir. Bütün bu spesifik xüsusiyyətlərin qabarıq şəkildə özünü büruzə verməsi, təbii ki, xalqımızı digərlərindən yaxşı mənada fərqləndirir. Bu əxlaq normaları, İslam və ümumbəşəri dəyərlər məişətimizdə, adət- ənənələrimizdə, həmçinin, folklorumuzun hər bir janrında mühafizə edilir və gələcək nəsillərə ötürülür.

Bu gün dövlət ailə siyasəti Azərbaycan Hökumətinin diqqətində olan mühüm məsələlərdəndir. Ölkə başçısı cənab İlham Əliyev qeyd edir ki, “Güclü ailə-güclü dövlətdir”. Məhz güclü və sağlam ailələr dövlətin əsasını təşkil edir. Ailə nə qədər güclüdürsə, cəmiyyət də bir o qədər möhkəm və toxunulmazdır. Hazırda Azərbaycanda 2 milyon 62 min 30 ailə vardır. Hər il orta hesabla ölkədə 80 mindən çox ailə qurulur. Ailənin inkişafı və sosial təminatı, qadın və uşaq hüquqlarının müdafiəsi “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında öz əksini tapıb. Həmin Konsepsiyaya əsasən "Azərbaycan Ailəsi Strategiyası"nın, Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Uşaq Milli Fəaliyyət Planının, “Uşaq Strategiyası”nın, "Ailə psixoloqu" İnstitutunun hazırlanması nəzərdə tutulur. Bu gün Azərbaycan öz cəmiyyəti üçün layiqli, sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşması üçün çalışır.

Ailə siyasətinə xüsusi diqqət və qayğı ilə yanaşan cənab Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və onun nəzdində fəaliyyət göstərən 11 Regional Mərkəz alternativ qayğı modeli olaraq ailə, qadın və uşaqlara göstərilən dəstəyi özündə birləşdirir, vətəndaşların müraciəti əsasında onları müxtəlif xidmətlərə yönəldir. Əhali arasında müxtəlif maarifləndirmə işləri aparılır. Mərkəzlər tərəfindən ailələrə psixoloji, hüquqi, tibbi yardım göstərilməsinə köməklik edilir. Əlbəttə ki, Komitənin fəaliyyətinin əsas istiqaməti ailələrə sadəcə yardım göstərmək deyil, eyni zamanda onları ictimai həyata cəlb etməkdir. Bununla əlaqədar ailələrə, xüsusilə qaçqın və məcburi köçkün ailələrinə xarici dil, kompyuter və peşə kurslarında təlimlər keçirilmişdir. Təlimlər nəticəsində ailələrin məşğulluğu artırılır və onların cəmiyyətə inteqrasiyasına yardım edilir, eyni zamanda həyata keçirilən tədbirlərin nəticəsi olaraq qadınlar arasında erkən nikah və məişət zorakılığı halları gündən-günə azalır.

Biz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq, gənc nəsil arasında ailədaxili münasibətlərin, ailə dəyərlərinin, yaşlı nəslə hörmət və məhəbbətin qorunub saxlanılması istiqamətində ardıcıl olaraq geniş miqyaslı layihələr həyata keçiririk. 15 may Beynəlxalq Ailə Gününün qeyd olunması artıq ölkəmizdə ənənəyə çevrilmişdir. Bu tarix BMT-nin Baş Assambleyasının 20 sentyabr 1993- cü il tarixli qətnaməsinə müvafiq olaraq həyata keçirilir. Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulub. Bayramın əsas xüsusiyyəti ondan ibarətdir ki, dünya miqyasında bütün insanların diqqəti ailə problemlərinin həllinə yönəlir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Ailə Bayramı hər il müxtəlif bölgələrdə təşkil olunur və Azərbaycanın bütün rayonlarından yüzlərlə ailə iştirak edir. Ölkəmizin əksər rayonlarından bu tədbirə toplaşmış nümunəvi ailələr müasir Azərbaycan cəmiyyətinin yüksək inkişaf səviyyəsinin təcəssümüdür. Bayramda bu ailələrin hər biri öz xüsusi bacarığını göstərir. Ailə bayramı bu günə kimi Şamaxı, Qax, Xaçmaz, İsmayıllı, Abşeron, Şəmkir rayonlarında, Lənkəran, Şəki şəhərlərində təşkil edilmişdir. Bayramın rəngarəngliyini təmin etmək üçün bir-birindən fərqli nominasiyaların təşkili mühüm əhəmiyyət kəsb edir. Bayramda həm müxtəlif sərgilərlə tanışlıq, həm bölgələrin milli mətbəxini əks etdirən xörəklərin və əl işlərinin nümayişi həyata keçirilir, həm də ailələr arasında müxtəlif əyləncəli və intellektual oyunlar keçirilir. Ailə Bayramının ən sevilən hissəsi isə xalqımızın toy adət-ənənələrinin nümayişidir. Bayramda eyni zamanda müxtəlif xalqlar öz adət- ənənələrini, milli-mənəvi dəyərlərini, milli mahnılarını, milli geyimlərdə rəqslərini nümayiş etdirmək imkanı əldə edirlər. İştirak edən azsaylı xalqlar arasında dağ yəhudiləri, tatlar, talışlar, kürdlər, ingiloylar, saxurlar, avarlar, ləzgilər kimi etnik qruplar olmuşdur. Qeyd olunan xalqların nümayəndələri, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlamışdır. Bayramda bu ailələrin hər biri öz xüsusi bacarığını, milli mətbəxini, musiqisini, mədəniyyətini göstərməklə azərbaycanlılarla necə bir ailə kimi yaşadıqlarını, ölkə hüdudlarında necə məskunlaşdıqlarını və dəyərlərinin mübadiləsini göstərmişlər. Kütləvi xarakter daşıyan bu tədbirlərdə müxtəlif yaş kateqoriyasından və sosial təbəqələrdən olan nümayəndələr cəlb olunur. Ailə institutunun möhkəmləndirilməsi, reproduktiv sağlamlığın qorunması, ailə dəyərlərinin nəsildən-nəslə ötürülməsi, məişət zorakılığın aradan qaldırılması, valideyn məsuliyyətinin artırılması bizim əsas vəzifələrimizdəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “Bu gün Azərbaycan dünya birliyinə inteqrasiya edir. Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır”. Ailə dəyərlərinin qorunub saxlanılması sahəsində görülən maarifləndirmə işlərinin mühüm bir hissəsi kimi 2009-cu ildən başlayaraq “Azərbaycan ailəsi” qısametrajlı film festivalı uğurla davam etdirilir. Keçən müddət ərzində 31-i xarici rejissorlar tərəfindən olmaqla, təşkilat komitəsinə 209 film təqdim edilmişdir. 2014-cü ildən etibarən isə festival çərçivəsində “Həyatdan şəkilə” adlı foto müsabiqə də həyata keçirilir. İştirakçılar tərəfindən müsabiqəyə 173 fotoşəkil daxil olmuşdur. Festivalda iştirak edən müxtəlif xalqların təqdim etdiyi filmlər onların mədəniyyətlərinin, milli-mənəvi dəyərlərinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Əgər ailənin təməli düzgün qurularsa, onun dağılmaq təhlükəsi də az olar. Bəs ailə qurarkən hansı şərtlər önəmlidir? Ailə sevgi üzərində qurulmalıdır. Fərdi xoşbəxtlik ümumi mənafedən üstün olmamalıdır. Nikaha daxil olan tərəflərin intellekt və dünyagörüşlərində ümumilik olmalı, mədəni səviyyələri üst-üstə düşməlidir. Uzunömürlü və sağlam ailənin qurulması üçün kişinin və qadının həyata baxışları, mədəni səviyyələri bir-birini tamamlamaqla yanaşı, tərəflər arasında məsuliyyət və hörmətin mövcud olması zəruridir. Qloballaşma dövründə Qərbə meyl edən şəxslər unutmamalıdırlar ki, insan sosial varlıqdır, onun fərd kimi formalaşması üçün isti ailə mühiti mütləq şərtdir.

Azərbaycan ailəsində ənənəvi olaraq kişi qərarverici funksiyasını yerinə yetirir. Lakin müasir ailədə qadının çiyinlərinə böyük məsuliyyət düşür. Qadının dözümü və müdrikliyi ailəni qoruyur və onun möhkəmliyini təmin edir. Azərbaycan qadını özünün fədakarlığı ilə bir sıra digər millətlərin qadınlarından çox fərqlənir. Azərbaycanda qadın ilk növbədə ailə ocağının qoruyucusu adı ilə assosiasiya olunur. Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik, insanpərvərlik kimi keyfiyyətlər Azərbaycan qadınına xas xüsusiyyətlərdir.

Qadın ana olmaqla bərabər, eyni zamanda cəmiyyətin əsas dayaqlarından biridir. Qadın dünyaya yeni nəsillər gətirir, onu böyüdür və tərbiyə edir. Bu gün dünyaya gələn uşağı milli ruhda böyütmək, cəmiyyətə layiqli vətəndaş hazırlamaq baxımından qadınların üzərinə böyük məsuliyyət düşür.Ailə üçün ideal model bundan ibarətdir ki, qadın və kişi əl-ələ verərək öz vəzifələrini yerinə yetirsin. Ailə mübarizə meydanı yox, həmrəylik və əməkdaşlıq ocağıdır. Ailə birgəyaşayışın ilk modeli olaraq millətin həyatı baxımından müqəddəs bir dəyərdir. Bu təməlin düzgün qurulması və yaşadılması üçün müasir Azərbaycan ailəsi zamanın sınaqlarından keçib milli-mənəvi dəyərlərimizi mühafizə etməli, böyüyə hörmət, kiçiyə diqqət, mərhəmət kimi amilləri üstün tutmalıdır. Eyni zamanda, demokratik prinsipləri qavramalı,

zamanın, dövrün nəbzini tutub müsbət ənənələrimizə zərbə vurmayacaq yenilikləri qəbul etməli, fərdlərin müstəqil düşüncə tərzinə, seçiminə qadağalar qoyulmamalıdır.

Müstəqil Azərbaycan Respublikasında qadınların cəmiyyətdə rolunu daha da artırmaq məqsədi ilə dövlət tərəfindən məqsədyönlü işlər aparılır. Azərbaycan Respublikasının ailə, qadın və gender problemləri ilə bağlı götürdüyü öhdəliklər bu sahədə aparılan siyasət və qanunvericilikdə öz əksini tapır. Dövlətin hərtərəfli dəstəyi sayəsində qızların məktəbdən yayınması, erkən yaşda nikah qurması ilə ciddi mübarizə aparılır.

2000-ci ildə yeni Ailə Məcəlləsinin qəbul edilməsi, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması dövlət siyasətində ailə məsələlərinə önəm verilməsinin göstəricisidir. Hal-hazırda ölkədə gender strategiyasını inkişaf etdirmək üçün səmərəli milli mexanizm yaradılmışdır. Ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində atılmış mühüm addımlardan biri "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi olmuşdur. Ailə Məcəlləsində nikah yaşı qızlar üçün 18-ə qaldırılmış və kişilərlə hüquqları bərabərləşdirilmişdir. Cinayət Məcəlləsində qadını, xüsusən yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. Xüsusilə ailəyə, qadına və uşağa yönəlmiş tibbi xidmət infrastrukturunun, o cümlədən reproduktiv sağlamlığın qorunması sisteminin daha da təkmilləşdirilməsi üçün "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014-2020-ci illər üçün) Dövlət Proqramı təsdiq edilmişdir. Eyni zamanda, Ailə Məcəlləsinə dəyişiklik edilərək tərəflərin nikahdan əvvəl icbari olaraq tibbi müayinədən keçməsi qaydası qüvvəyə minmişdir.

Azərbaycan Respublikası beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi məqsədilə BƏT-in "Kişi və qadın işçilər-ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli, BMT- nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Uşaq hüquqları haqqında", "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" və digər Konvensiyalara qoşulmuşdur.

Təəssüflər olsun ki, biz müstəqilliyimizə çox mürəkkəb bir şəraitdə nail olmuşuq. Bir tərəfdən dövlətimiz keçid dövründə yaşayırdı, digər tərəfdən isə Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdu. Bunun nəticəsində bir milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür ki, onlardan
400 mindən çoxu qadınlar, 300 mindən çoxu uşaqlardır. Lakin Dağlıq Qarabağ münaqişəsi nəticəsində ciddi sosial-psixoloji çətinliklərlə qarşılaşan qaçqın və məcburi köçkün ailələrinə, həmçinin şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması daim dövlətin diqqət mərkəzində olmuşdur. Bu gün cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət ailələrin rifahının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə, gənc nəslin mənəvi cəhətdən güclü nəsil kimi formalaşdırılmasına istiqamətlənmişdir və bu məqsədə xidmət edir. Hər bir ailənin inkişafı üçün dövlət tərəfindən xüsusi proqramlar həyata keçirilir. Aztəminatlı və çoxuşaqlı ailələrin, tənha və tək valideynli ailələrin bir çox problemləri artıq həll olunmuşdur. Onların maddi- sosial rifahının yaxşılaşdırılması üçün müxtəlif meyarlar üzrə müavinətlər, ünvanlı sosial yardımlar təyin olunmuşdur. Ailələrin hərtərəfli inkişafı üçün şəraitin yaradılması, onların müxtəlif problemlərinin həll edilməsi məqsədilə 2016-cı ilin birinci rübü ərzində 112730 ailəyə ünvanlı sosial yardım verilmişdir, çoxuşaqlı ailələrdə hər bir uşağa görə ayrıca müavinətlər təyin olunmuşdur. Eyni zamanda ailələrin aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi üçün özünüməşğulluq proqramlarının həyata keçirilməsinə başlanılmışdır. Beləliklə, aztəminatlı ailələr üçün aktiv məşğulluq proqramlarının tətbiqinə keçid edilmişdir. Eyni zamanda cəzaçəkmə müəssisələrində cəza çəkən qadınların və tərbiyə müəssisələrində olan uşaqların problemlərin həlli məqsədilə mütəmadi olaraq rebabilitasiya proqramları icra edilir, hüquqi yardımlar göstrərilir, ixtisasartırma kurlarına cəlb olunurlar.



Ailə dəyərlərimizin təbliğində ictimai rəy və maarifləndirmə tədbirləri böyük rol oynayır. Milli-mənəvi dəyərlərin təbliği mətbuatın, qeyri-hökumət təşkilatlarının, hər bir vətəndaşın başlıca fəaliyyət prinsiplərindən birinə çevrilməlidir. Bəzi media orqanları sosial mövzulu proqramlarda yalnız cəmiyyətin neqativ hissəsini nümayiş etdirirlər. Halbuki Azərbaycan cəmiyyətinin nümunəvi ailələri müqayisə olunmayacaq dərəcədə üstünlük təşkil edir. Düzdür, ailələrin problemlərini işıqlandırmaqla cəmiyyətin qüsurlarını göstərmək olar, lakin burada balans pozulmamalıdır. KİV-in dünyaya inteqrasiyası nəzərə alınaraq xalqı təmsil edən ailələrin həmin xalq haqqında rəy formalaşdırması unudulmamalıdır. Media həm də müxtəlif sosial təbəqələrdən olan, adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaşadan nümunəvi ailələri təbliğ etməlidir. Belə ailələrin uzunömürlüyünün sirlərini açmaqla yeni həyat quracaq gəncləri maarifləndirmək zəruridir.

Azərbaycan ailəsinin nümunəviliyi xarici mətbuat orqanlarının diqqətini də cəlb etmişdir. Beynəlxalq mediada ailə dəyərlərimiz haqqında geniş məqalələr öz əksini tapır. "Beynəlxalq Ailə

Günü" nün qeyd olunmasının 20 illiyi ilə əlaqədar olaraq Böyük Britaniyada "Family Futures" jurnalında "Azərbaycan ailə modeli" haqqında geniş məqalə dərc olunmuşdur. Məqalədə vurğulanır ki, Azərbaycan ailələri uzunömürlüyü və möhkəmliyi ilə seçilirlər. Həmçinin, məqalədə Azərbaycanın çoxmillətli ölkə olduğu və burada insanların sülh və əmin- amanlıq şəraitində yaşaması, məskunlaşan azsaylı xalqların, milli etnik qrupların və milli azlıqların yerli Azərbaycan xalqı ilə sıx münasibətdə olduğu, onların ailə dəyərlərinə hörmətlə yanaşıldığı və öz ailə mədəniyyətlərini qoruyub saxlamaqla yanaşı, qarışıq nikahlara daxil olması da qeyd olunmuşdur.

Dövlət başçısının müvafiq sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması digər milli-mənəvi dəyərlərlə yanaşı, ailə dəyərlərimizin qorunub saxlanmasına, fərqli mədəniyyətlərə hörmət və dövlət dəstəyi şəraitində inkişafına təkan verir. Azərbaycanda mədəni müxtəlifliyin inkişafına xidmət edən strateji kurs ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilir. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən cənab İlham Əliyevin müxtəlif xalqların mədəniyyətlərinin qorunması və inkişaf etdirilməsi ilə bağlı siyasəti müasir dövrün reallıqları ilə şərtlənir. Qloballaşma prosesinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın mənəvi dəyərlərinin qorunması məsələsini aktual problemlərdən birinə çevirmişdir. . Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO- nun xoşməramlı səfiri, Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyeva qeyd etmişdir: "Ailə mühitini müəyyənləşdirən amillər çoxdur, amma, yəqin ki, başlıcası bir ümumi dalğaya köklənən fikir və dəyərlərin birliyidir". Ölkəmizdə mədəni müxtəlifliyin, sivilizasiyalararası dialoq mühitinin qurulmasında Heydər Əliyev Fondunun xidmətləri də xüsusi qeyd olunmalıdır. Fond mədəniyyət diplomatiyasına və mədəniyyətlərarası dialoqa töhfələr verən, Qafqazda və keçmiş sovet məkanında analoqu olmayan uğurlu layihələri ilə bütün dünyada tanınmışdır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Fond hər bir layihəsi ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına öz töhfəsini verir. Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları və öz dəyərlərini, o cümlədən ailə dəyərlərini gənc nəslə çatdırmaları üçün bütün zəruri şərait yaradılmışdır.

Bütün bu sadalananlar bir daha göstərir ki, Azərbaycan ailələrinin yaşayış səviyyəsinin yüksəldilməsi, sosial rifahının yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən əsaslı addımlar atılır, qanunvericilik bazası təkmilləşdirilir, maarifləndirmə tədbirləri davam etdirilir. Bu gün cəmiyyətimiz öz layiqli, sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşması üçün çalışır. Qeyd etmək istərdik ki, sağlam və nümunəvi ailələrin qurulması üçün ailə dəyərləri yaşadılmalı və təbliğ edilərək gələcək nəslə ötürülməlidir. Bu məqsədlə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən maaarifləndirmə xarakterli çap materialları hazırlanaraq ictimaiyyətə təqdim edilir. Bu istiqamətdə mühüm məsələlərin əks olunduğu növbəti nəşr "Azərbaycan Ailəsi" adlı kitabdır. Kitabda Azərbaycan ailəsinin inkişaf tarixi təhlil olunur, zəngin adət - ənənələrə və əxlaqi-mənəvi dəyərlərə söykənən uzunömürlü ailələrin cəmiyyətin inkişafındakı rolundan bəhs edilir. Eyni zamanda, müasir dövrdə ailə institutunun möhkəmləndirilməsi istiqamətində həyata keçirilən dövlət siyasəti, respublika səviyyəli layihələr haqqında ətraflı məlumat verilir.

Sonda birmənalı şəkildə deyə bilərik ki, ailə cəmiyyətin təməl daşıdır. Onun özülü nə qədər möhkəmdirsə, cəmiyyət də bir o qədər güclü və sağlamdır. Sağlam ailə sağlam cəmiyyətin və güclü dövlətin əsasıdır. Mədəniyyət, qarşılıqlı hörmət və bu hörmətdən yaranan davranış qaydaları ailə mənəviyyatının özülüdür. Biz bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirməli, gənc nəsli sağlam ruhda tərbiyələndirməliyik.



## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) professor Elmira Süleymanova

# Ailə institutunun hüquqi statusu insan hüquqları kontekstində

Müasir Azərbaycan Respublikası dövlət müstəqilliyinin yenidən bərpasından ötən dövr ərzində mürəkkəb və eyni zamanda şərəfli bir yol keçmişdir. XX əsr Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni inkişafı tarixində mühüm mərhələ olmuşdur.

İctimai həyatın bütün sahələrinin tənzimlənməsində, davamlı inkişafın, rifah səviyyəsinin təmin olunmasında, peşəkar və səmərəli dövlət qulluğunun formalaşdırılmasında həyata keçirilən islahatlar insan hüquqlarına da mühüm töhfələr vermişdir.

Ulu öndərin ölkəyə rəhbərliyi dövründə, hazırda isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət quruculuğu və idarəetmənin təşkili ilə bağlı aparılan ardıcıl və məqsədyönlü islahatlar idarəetmə mexanizmlərinin formalaşdırılmasına, o cümlədən insan hüquq və azadlıqlarının təmini baxımından daha da təkmilləşdirilməsinə gətirib çıxarmış, icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin təkmilləşməsinə, onlar arasında qarşılıqlı, ahəngdar əməkdaşlığın dərinləşdirilməsinə imkan vermişdir. Bütün bunlar isə vətəndaşların ən ümdə maraqlarının təmininə xidmət etməkdədir.

Müstəqil dövlətlər, bütün dünya ictimaiyyəti cari minillikdə bəşəriyyətin davamlı inkişaf məqsədlərini müəyyənləşdirərkən, sosial ədalət və tolerantlığı, sülh mədəniyyətini insan hüquqları, gender bərabərliyi kontekstində uğurlu ailə institutunun formalaşmasından, eləcə də müsbət ölkə təcrübəsi ilə sıx əlaqəli olduğunu müəyyənləşdirmişdir.

Bu baxımdan ötən dövr ərzində ölkəmizdə həyata keçirilən, siyasi, iqtisadi, sosial və mədəni islahatlar bir çox sahələrə töhfə verməklə yanaşı, hər bir xalqın ən böyük sərvəti onun milli-mənəvi dəyərləri, bu dəyərlərdən formalaşan adət-ənənələrimizin qorunmasını önə çəkdi ki, beləliklə Azərbaycan ailəsi də yeni inkişaf mərhələsinə qədəm qoydu.



Dövlət müstəqilliyinin ilk illərindən Azərbaycan Respublikası ailə siyasətini, ailə ənənəsini milli dəyərlərə daxil edərək, bunlara böyük önəm vermiş, məhz dövlət siyasətinin tərkib hissəsi kimi bu sahədə fəaliyyəti həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanı yaradılmışdır.

Dövlət müstəqilliyinin daha bir neməti, Azərbaycan Respublikasının yeni Konstitusiyası da cəmiyyətin əsas özəyi kimi ailənin müdafiəsinə dövlət nəzarəti əsasında təminat verir.

Belə ki, geniş hüquq və vəzifələr müəyyən edən ölkə Konstitusiyası - Yetkinlik yaşına çatanadək uşağın qayğısına qalmağı valideynlərə, 18 yaşına çatmış əmək qabiliyyətli övladlara isə, əmək qabiliyyəti olmayan valideynlərini saxlamağı vəzifə, eyni zamanda nikah, sosial təminat kimi hüquqların həyata keçirilməsini isə xüsusi normalar olaraq bəyan edir.

Eləcə də, ailə qanunvericiliyi və digər milli qanunvericilik aktları da daxil olmaqla gender bərabərliyi, ailə münasibətlərinin yaranması və möhkəmlənməsi, habelə onlara xitam verilməsinin prinsipləri, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrinin tənzimlənməsi, dövlət orqanlarının bu sahədə vəzifələrini müəyyənləşdirən normalar əsasında demokratik dövlət quruculuğu prosesində geniş hüquqi bazanın yaradılması, milli siyasətin, bir çox dövlət proqramlarının, strategiya və islahatların həyata keçirilməsinə şərait yaratmışdır.

Burada vurğulamaq istərdim ki, dövlət siyasətinin tərkib hissəsi kimi Ailə institutunun möhkəmləndirilməsinin mərkəzində tarixin bütün mərhələlərində olduğu kimi, bu gün də cəmiyyətdə gedən dinamik proseslərdə fəal iştirak edən, dövlət müstəqilliyinin geniş imkanlar verdiyi Azərbaycan qadını dayanır. Bu baxımdan ölkəmizdə qadın, ilk növbədə, ailə ocağının qoruyucusu kimi dəyərləndirilir, qadınlarımız ana nəvazişi və qayğısı ilə övladlarını tərbiyələndirir, onların layiqli vətəndaşlar kimi yetişməsinə həyatlarını həsr edirlər.

Bütün bu məziyyətlər çoxcəhətli fəaliyyətində müasir dünya təcrübəsi ilə milli ənənələri birləşdirən, şəxsi nümunəsi ilə qadınlarımıza örnək olan Azərbaycanın birinci xanımının, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı xanım Mehriban Əliyevanın simasında təzahür edir. O, qadınlarımızın ictimai fəallığının artırılması, onların qərar qəbuletmədə, ailə, qadın və uşaq hüquqlarının qorunması və həyata keçirilməsində, onların öz problemlərinin həllində iştirakının təmin edilməsində, sülh yaradılması proseslərinə cəlb edilməsində də böyük səylər göstərir, öz töhfələrini verir.

Ailə ənənələrin, keçmiş nəsillərin təcrübəsinin qoruyucusu və ötürücüsüdür. Adət-ənənələrdən əsasını götürmüş, tarixi köklərə malik ailə institutu ölkəmizdə insani dəyərlərin, mədəniyyət və nəsillərin tarixi varisliyinin qoruyucusu, sabitlik və inkişaf meyarı kimi qiymətləndirilir.

Tarixdən günümüzədək ötən dövrdə müqəddəs ittifaq kimi dəyərləndirilən ailə institutu öz inkişafı ilə yanaşı, bu gün bir sıra problemlərlə qarşılaşır, dəyişikliklərə məruz qalmaqdadır. Ənənəvi ailə modeli artıq zəifləmək üzrədir.

Bununla yanaşı, müxtəlif istiqamətli təsirlərin mövcudluğu nəticəsində insanlar arasında milli-mənəvi dəyərlərdən uzaqlaşma kimi tendensiya da müşahidə olunmaqdadır. Tədqiqatlara əsasən dünya miqyasında 52 faiz ailələrdə valideynlər və yaşlı nəslin nümayəndələrinin böyük əksəriyyəti qismən, 5 faizi isə xalqın adət-ənənəsinə heç əməl etmir. Bunun təsiridir ki, artıq dünyada məktəblilərin 50 faizdən çoxu adət-ənənəyə sadiqliyi vacib saymır.

Müasir dövrdə informasiya texnologiyalarının inkişafı, internetin və virtual ünsiyyətin sərhəd tanımadan və sorğu tələb etmədən insanların həyatına daxil olması faktı da ailə institutunun zəifləməsinə gətirib çıxarır. Aparılmış araşdırmaların nəticəsində bəlli olub ki, ənənəvi, mental dəyərlərə söykənən ailə münasibətlərinə sosial şəbəkələrin gəlməsi bəzən ailənin daxilində olan münasibətlərə xələl gətirir. Beləliklə də, ailə məkan kimi qalır, amma daxilində olan dəyərlər dağılmağa başlayır.

Respublikada ailə institutunun zəifləməsində əsas problem kimi çıxış edən, məişət zorakılığı, erkən nikahlar, valideyn məsuliyyətsizliyi, boşanmalar, habelə bu zamanı meydana çıxan aliment, əmlak mübahisələrini, digər sosial problemləri göstərmək olar.

Burada gender bərabərsizliyi, xüsusilə  ucqar kənd rayonlarda yaşayan qadınların texniki bacarıqlardan, resurslar və informasiyalardan məhdud istifadə imkanları, onların ətraf mühitlə əlaqədar qərar qəbul etmə vəzifələrində səmərəli iştirakına maneələr də təsir edən amillər sırasındadır.

Bunlarla yanaşı, reproduktiv sağlamlığın təmini, məktəbə gedən qızların sayının və davamiyyətinin artması, gənc analara dəstək mexanizmlərinin yaradılması, qeyri-formal təhsil imkanlarının genişləndirilməsi və texniki peşə yönümlü təhsilə qızların daha çox cəlb olunması dəstək tələb edən əsas ehtiyaclardandır.

Bəzi hallarda qadın və qızlara qarşı ayrı-seçkilik, qeyri-etik münasibət və hərəkətlər, həmçinin oğlan və qızlara aid bəzi stereotiplər qızların potensial imkanlarını məhdudlaşdırır, reproduktiv sağlamlıq və müəyyən spesifik situasiyalar barədə məlumatsızlıq, üzərilərinə düşən ağır ev işləri, erkən nikahlar, məişət zorakılığı ailə institutunun zəifləməsində əsas amil kimi çıxış edir.

Bu sırada boşanmaların sayının artması daha qlobal problem olmaqla, ailə sütunun, eləcə də onun formalaşmasında mühüm rol oynayan adət-ənənələrin tənəzzülünə gətirib çıxarır**.** Ötən ilin statistikasına görə qeydə alınmış 68,8 min nikaha münasibətdə boşanmaların sayı 12,8 min olmuşdur.

Boşanmanın səbəbləri kimi çox vaxt ya maddi vəziyyət, ya insanların xasiyyəti, intellektual və psixoloji uyğunsuzluğu, ya da ailənin qeyri-müstəqilliyi, kənar müdaxilələr göstərilir. Təcrübə isə göstərir ki, ailələrin tez dağılmasında əsas səbəb tərəflərin buna hazır olmaması, ilk uyğunlaşma dövründə bir-birinə güzəştə getməməsidir.

Bu məsələlərdə önəm daşıyan barışdırma ənənələri, ağsaqqalların, böyüklərin ailənin dəstəklənməsi baxımından məsələyə effektiv təsiri, habelə dünya təcrübəsində mövcud olan, təkliflərimdə də yer alan vasitəçilik (mediasiya) institutunun formalaşdırılması məqsədəmüvafiq olardı.

Daha bir vacib məsələ, nikahdan öncə deyil, qapalı saxlanılaraq nikah sonrası meydana çıxan digər uyğunsuzluqlar, daha çox fizioloji çatışmazlıqlar bu səpkidə əsas problemdəndir.

Bu sırada onların ailə planlaşdırılması, reproduktiv sağlamlığının təmin olunması, xüsusilə də məlumatsızlıqları ciddi məsələ olaraq qarşıda durur. Odur ki, gənclərin nikaha hazırlanması üçün kompleks yanaşmalara ehtiyac vardır.

Təkliflərimiz də nəzərə alınmaqla, 1 iyun 2015-ci ildən nikaha daxil olmaq istəyən vətəndaşların tibbi müayinədən keçrilməsinə dair Ailə qanunvericiliyində dəyişikliklərin edilməsi, bu sahədə preventiv və uğurlu tədbirlərdən oldu. Lakin etiraf etməliyik ki, problemlər hələ tam həllini tapmamışdır.

BMT-nin Əhali Fondunun ölkə nümayəndəliyi ilə birgə Universal Dövrü İcmal Prosesi və BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəsi çərçivəsində ölkəyə verilmiş tövsiyələrin icra vəziyyətinin qiymətləndirilməsi üzrə həyata keçirdiyimiz tədbirlər cinsi və reproduktiv sağlamlıq hüquqlarının təmini baxımından çətinliklərin mövcudluğunu bir daha müəyyən etmiş oldu.  Burada oğlan və qızların cinsi və reproduktiv sağlamlıq hüquqları haqqında məlumatsız olmaları, yerlərdə bu sahədə işin ümumən təşkil olunmaması, antenatal xidmətin xeyli yaxşılaşdırılmasına baxmayaraq bəzi boşluqların hələ də qalması, hamilə qadınların məlumatsızlığı, onlarda anemiya göstəricilərinin yüksək olması, abortlar, keysəriyyə əməliyyatlarına üstünlük verilməsi, gender stereotiplərinin mövcudluğu, patronaj xidmətlərinə, icma əsaslı alternativ xidmətlərə ehtiyacın olması mövcud çətinliklərdir ki, onların aradan qaldırılması üçün birgə çalışmalıyıq.

BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəsi də tövsiyə edir ki, ailə planlaşdırması və reproduktiv tibbi maarifləndirmə işi qızlar və oğlanlar arasında geniş aparılsın, xüsusi ilə cinsi yolla yoluxan, o cümlədən HİV və AİDS xəstəliklərinin aradan qaldırılmasına, erkən nikahlar və məişət zorakılığı ilə mübarizə məsələlərinə diqqət yetirilsin.

Son statistika ölkəmizdə ana və uşaq ölümlərinin sayının xeyli azalmasını göstərir, bu müsbət haldır. Lakin burada da qabaqlayıcı tədbirlərin gücləndirilməsi, mənfi göstəricilərin aradan qaldırılması olduqca zəruridir.

Digər bir məsələ isə, doğulan uşaqlar arasında oğlanların çoxluq təşkil etməsidir. Belə ki, doğulanların 53,6 faizini oğlan, 46,4 faizini isə qız uşaqları təşkil edir.

Bu gün Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının qadağan olunmasına dair Konvensiya (CEDAW) da daxil olmaqla, insan hüquqları sahəsində beynəlxalq sənədlərlə müdafiə olunan cinsi və reproduktiv sağlamlıq hüquqları ailə institutunun möhkəmləndirilməsi ilə yanaşı yoxsulluqla mübarizədə əhəmiyyətli rol oynayır və Minilliyin İnkişaf Məqsədlərində hədəflənmiş əsas istiqamətlərdən olmuş, hazırda isə Davamlı İnkişaf Məqsədləri sırasında bir daha təsbit olunmuşdur.

Bir sıra bölgələrdə erkən, məcburi nikahların bağlanması, hüquqi məlumatsızlıq özü təhsildən yayınma, məişət zorakılığı, müxtəlif problemlər, habelə boşanma halları ilə müşayiət olunur.

Bəzi bölgələrdə "Adət-ənənə" adı altında qalmaqda olan belə hallar həyat tərzində yer almaqla, sonda sağlam ailə institutunun deformasiyaya uğramasına gətirib çıxarır.

Onu da qeyd edim ki, erkən nikahlara görə daha çox cənub regionlarının adının çəkilməsinə baxmayaraq, realda digər regionlarda daha çox rast gəlinir. Biz bunun təsdiqini açıqlanan statistika ilə yanaşı, İnsan hüquqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı üzrə regionlarda keçirdiyimiz ictimai dinləmələr zamanı yerlərdə müşahidə etdik. Əlbəttə ki sayının az və ya çox olmasından asılı olmayaraq hərtərəfli tədbirlər gücləndirilməlidir.

Ailə institutunun zəifləməsinə təsir edən amillərdən biri də, artıq göstərildiyi kimi məişət zorakılığıdır. Çox təəssüf olsun ki, məişət zorakılığının da statistikası artır. Burada həm inzibati, həm də cinayət işləri üzrə qəbul olunan qərarları misal göstərmək olar ki, bu da məsələnin həlli yolu deyildir. Eləcə də müxtəlif zorakılıq halları ilə bağlı məlumatların ailədə qapalı qalmasının özü gələcəkdə müxtəlif problemlərin səbəbi olur. Deməli ictimai fikirdə daha çox dəyişiklik yaratmağa çalışmalıyıq.

Məişət zorakılığı özlüyündə təhsildən yayınma, intihar hallarının, erkən nikahların sayının çoxalmasına gətirib çıxarır . Öz doğma övladı üçün aliment ödəməkdən imtina edən valideynin hərəkətləri, ailəsinə fiziki zorakılıqla müşaiyyət olunan təsirləri əlbəttə ki, cəmiyyət üçün problem yaradır. Belə hallardan isə daha çox uşaqlar əziyyət çəkir.

Qabaqlayıcı tədbir kimi ictimaiyyətin geniş şəkildə, layihə xatirinə deyil, effektiv maarifləndirilməsi, mədəni dəyərlərin təbliği ən böyük zərurət kimi qarşıda durur. Bura hüquq normalarının işlək mexanizmə çevrilməsi, müvafiq qurumların fəaliyyətinin təkmilləşdirilməsi, aşkarlıq, real və işlək modellərin (Məsələn, Aliment Fondu), alternativ və icma əsaslı xidmətlərin yaradılması, xüsusilə də keyfiyyətli psixoloji və hüquqi yardımın yerlədə əlçatanlığının təmin edilməsi, müxtəlif sığınacaqların və mərkəzlərin, televiziyada isə sosial verlişlərin sayının artırılması və digər tədbirləri daxil etmək olar.

2004-cü ildə təsdiqlənmiş, demoqrafik proseslərin ölkənin sosial-iqtisadi strategiyasına uyğun inkişafına nail olmaq, əhalinin orta ömür yaşını artırmaq, ana və uşaqların sağlamlığını, ailələrin möhkəmləndirilməsini və miqrasiyanın tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın icrası ilə müəyyən irəliləyişlərə nail olunsa da, həllini gözləyən məsələlər hələ də qalmaqdadır.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının 7.3-cü bəndində ölkənin uzunmüddətli inkişaf xəttinə uyğun olaraq, "Demoqrafiya və əhali sakinliyi" sahəsində 2025-ci ilədək dövrü əhatə edən Dövlət Proqramının qəbul edilməsi, həmin proqramda əhalinin kəmiyyət və keyfiyyət artımı məsələlərinin öz əksini tapması ilə bağlı müddəaların təsbit edilməsi təqdirəlayiqdir və icraçı qurumlar üzərinə mühüm vəzifələr qoymaqla, ictimaiyyətin təşəbbüslərini də tələb edir.

Təqdirəlayiq haldır ki, Konsepsiyanın 7.4-cü bəndi Gender bərabərliyinin təmin olunması və ailənin inkişaf etdirilməsini məqsəd və vəzifə olaraq qarşıya qoyur.

Bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə tədbirlərin görülməsi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların yaradılması, qadınların işdə irəli çəkilmək, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi əsas məqsədlərdən biridir.

Eləcə də Ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi, BƏT-in ratifikasiya olunmuş "Ailə öhdəlikləri olan işçilər haqqında Konvensiya"sına uyğun olaraq, işləyən valideynlər üçün uşağa baxmanın asanlaşdırılması, uşaq bağçalarının sayının artırılması, həmçinin ailə planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi əsas hədəflərdəndir.

Bunlarla bağlı "Azərbaycan ailəsi Strategiyası"nın, Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Uşaq Məcəlləsinin və Milli Uşaq Strategiyasının, o cümlədən təklifimizlə "Uşaqların cismani cəzadan müdafiəsi haqqında" Qanunun qəbul edilməsi, habelə 2008-ci ildə imzalanmış "Uşaqların cinsi istismarı və sui-istifadədən müdafiəsinə dair Avropa Konvensiyası"nın ölkəmiz tərəfindən ratifikasiyası, eyni zamanda, "Ailə psixoloqu" institutu, məişət zorakılığına məruz qalmış şəxslər üçün ölkənin şəhər və rayonlarında yardım mərkəzləri və

sığınacaqlar, həmçinin ölkədə zorakılıq, təhsildən yayınma və erkən nikah halları üzrə monitorinq sisteminin yaradılması kimi, məsələlər qarşıda durur ki, qeyd edilən tədbirlərin reallaşdırılması üçün ictimai iştirakçılıqla birgə, məqsədli addımlar atmalıyıq.

Ümumilikdə müxtəlif istiqamətlərdə həyata keçiriləcək fəaliyyətlər çərçivəsində müvafiq dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti institutlarının, icmaların imkanlarını səfərbər etməliyik.

Hesab edirəm ki, müraciət edəcəyimiz ilk sənədlərdən biri cənab Prezidentin müvafiq Sərəncamı ilə təsdiqlənmiş "İnsan hüquqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın müvafiq bəndləridir ki, bu istiqamətdə sistemli işə öz töhfəsini verəcəkdir.

Burada, Qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili (2.13), Məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması (2.14), Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması (2.15), bölgələrdə zorakılıq və insan alveri qurbanları, kimsəsizlər, narkomaniyadan və alkoqolizmdən müalicəyə ehtiyacı olanlar üçün krizis mərkəzlərinin yaradılması (2.19), Reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə əhalinin maarifləndirilməsi üçün könüllülərin hazırlanması (4.18) kimi məsələlər əsas hədəflərdəndir və yeni, daha uğurlu yanaşmalar tələb edir.

Bunlarla yanaşı dəfələrlə illik məruzələrimdə təkliflər sırasında yer almış, artıq uğurlu nəticə olaraq Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin yaradılmasını və səmərəli fəaliyyətini alqışlayıram.

Müzakirə etdiyimiz aktual mövzu, eləcə də bir çox məsələlərin qaldırılması və həllində Komitə ilə səmərəli əməkdaşlıq, yeni yanaşmalar ailə, qadın və uşaq siyasətinə, bundan irəli gələn iqtisadi, sosial və mədəni sahələrə qanunvericiliyə əsaslanan islahatlar baxımından öz töhfəsini verəcəkdir. Bu yeni yanaşmalar işlək mexanizmlərin yaradılması üçün cəmiyyətimizdən də böyük dəstək tələb edir.

Biz də Milli İnsan Hüquqları Təsisatı olaraq, Ombudsman haqqında AR-nın Konstitutsiya qanununa müvafiq şəkildə çıxışımda qeyd etdiyim istiqamətlər üzrə pozulmuş insan hüquqlarının bərpası, geniş miqyaslı hüquqi maarifləndirmə tədbirlərinin təşkili, dövlət orqanları, beynəlxalq təşkilatlar, QHT və KİV-lər, icmalar və əhali qrupları ilə əməkdaşlıqda geniş fəaliyyəti həyata keçiririk.

Ümumən müstəqilliyimiz dövründə yeni mərhələyə qədəm qoyan ailə dəyərlərinin qorunmasında cəmiyyətin bütün təsisatları aktiv və məsuliyyətli olmalı və cəmiyyəti narahat edən problemlərin əsas səbəblərinin öyrənilməsinə, araşdırılmasına və həllinə çalışmalıyıq.

Bu da yalnız sistemli birgə əməkdaşlıq, təşəbbüslərin dəstəklənməsi, yerlərdə geniş əhali qruplarının təklif və tövsiyələrinin öyrənilməsinə imkan verən ictimai dinləmələrin keçirilməsi nəticəsində mümkündür.

Bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə tədbirlərin görülməsi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların yaradılması, qadınların işdə irəli çəkilmək, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi əsas məqsədlərdən biridir.

Eləcə də Ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi, BƏT-in ratifikasiya olunmuş "Ailə öhdəlikləri olan işçilər haqqında Konvensiya"sına uyğun olaraq, işləyən valideynlər üçün uşağa baxmanın asanlaşdırılması, uşaq bağçalarının sayının artırılması, həmçinin ailə planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi əsas hədəflərdəndir.

Bunlarla bağlı "Azərbaycan ailəsi Strategiyasi"nın, Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Uşaq Məcəlləsinin və Milli Uşaq Strategiyasının, o cümlədən təklifimizlə “Uşaqların cismani cəzadan müdafiəsi haqqında” Qanunun qəbul edilməsi, habelə 2008-ci ildə imzalanmış “Uşaqların cinsi istismarı və sui-istifadədən müdafiəsinə dair Avropa Konvensiyası”nın ölkəmiz tərəfindən ratifikasiyası, eyni zamanda, "Ailə psixoloqu" institutu, məişət zorakılığına məruz qalmış şəxslər üçün ölkənin şəhər və rayonlarında yardım mərkəzləri və sığınacaqlar, həmçinin ölkədə zorakılıq, təhsildən yayınma və erkən nikah halları üzrə monitorinq sisteminin yaradılması kimi, məsələlər qarşıda durur ki, qeyd edilən tədbirlərin reallaşdırılması üçün ictimai iştirakçılıqla birgə, məqsədli addımlar atmalıyıq.

Ümumilikdə müxtəlif istiqamətlərdə həyata keçiriləcək fəaliyyətlər çərçivəsində müvafiq dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti institutlarının, icmaların imkanlarını səfərbər etməliyik.

Hesab edirəm ki, müraciət edəcəyimiz ilk sənədlərdən biri cənab Prezidentin müvafiq Sərəncamı ilə təsdiqlənmiş “İnsan hüquqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın müvafiq bəndləridir ki, bu istiqamətdə sistemli işə öz töhfəsini verəcəkdir.

Burada, Qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili (2.13), Məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması (2.14), Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması (2.15), bölgələrdə zorakılıq və insan alveri qurbanları, kimsəsizlər, narkomaniyadan və alkoqolizmdən müalicəyə ehtiyacı olanlar üçün krizis mərkəzlərinin yaradılması (2.19), Reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə əhalinin maarifləndirilməsi üçün könüllülərin hazırlanması (4.18) kimi məsələlər əsas hədəflərdəndir və yeni, daha uğurlu yanaşmalar tələb edir.

Bunlarla yanaşı dəfələrlə illik məruzələrimdə təkliflər sırasında yer almış, artıq uğurlu nəticə olaraq Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin yaradılmasını və səmərəli fəaliyyətini alqışlayıram.



Müzakirə etdiyimiz aktual mövzu, eləcə də bir çox məsələlərin qaldırılması və həllində Komitə ilə səmərəli əməkdaşlıq, yeni yanaşmalar ailə, qadın və uşaq siyasətinə, bundan irəli gələn iqtisadi, sosial və mədəni sahələrə qanunvericiliyə əsaslanan islahatlar baxımından öz töhfəsini verəcəkdir. Bu yeni yanaşmalar işlək mexanizmlərin yaradılması üçün cəmiyyətimizdən də böyük dəstək tələb edir.

Biz də Milli İnsan Hüquqları Təsisatı olaraq, Ombudsman haqqında AR-nın Konstitutsiya qanununa müvafiq şəkildə çıxışımda qeyd etdiyim istiqamətlər üzrə pozulmuş insan hüquqlarının bərpası, geniş miqyaslı hüquqi maarifləndirmə tədbirlərinin təşkili, dövlət orqanları, beynəlxalq təşkilatlar, QHT və KİV-lər, icmalar və əhali qrupları ilə əməkdaşlıqda geniş fəaliyyəti həyata keçiririk.

Ümumən müstəqilliyimiz dövründə yeni mərhələyə qədəm qoyan ailə dəyərlərinin qorunmasında cəmiyyətin bütün təsisatları aktiv və məsuliyyətli olmalı və cəmiyyəti narahat edən problemlərin əsas səbəblərinin öyrənilməsinə, araşdırılmasına və həllinə çalışmalıyıq.

Bu da yalnız sistemli birgə əməkdaşlıq, təşəbbüslərin dəstəklənməsi, yerlərdə geniş əhali qruplarının təklif və tövsiyələrinin öyrənilməsinə imkan verən ictimai dinləmələrin keçirilməsi nəticəsində mümkündür.



Millət vəkili, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlı

# Ailə qanunvericiliyinin təkmilləşdirilməsi: zamanın çağırışı və Azərbaycan ailə mədəniyyəti ənənələrinin qorunması

Biz hamımız ailənin hər bir insanın, cəmiyyətin və ölkənin həyatında necə mühüm əhəmiyyət daşıdığını bilirik. Məhz ailə hər bir insan üçün sevgi və dayaq mənbəyidir. Ailədə əxlaq, mənəviyyat və vətənpərvərliyin əsasları qoyulur. Sağlam, möhkəm ailə hər bir cəmiyyətin çiçəklənməsinin qarantıdır. Ailə münasibətləri insan həyatının mühüm aspektlərindən birini təşkil edir. İnsanın maraqlarının əhəmiyyətli hissəsi məhz ailədə öz həllini tapır.

Eyni zamanda ailə əsasını təşkil etdiyi cəmiyyətin həyatına təsir edir. Azərbaycan ailə mədəniyyətinin zəngin nümunələri ilə dünyada tanınan ölkələrdəndir. Yaşlılara, qadınlara, analara hörmət, uşaqlara qayğı – bizim xalqın ən gözəl xüsusiyyətlərindəndir. Ailə, qadın və uşaq sahəsində aktiv və hərtərəfli dövlət siyasəti ilk növbədə gender bərabərliyi və ailə siyasətində sosial məsuliyyətin milli mexanizmlərinin əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycanın müasirləşdirilməsi və sürətli inkişafına istiqamətlənmiş dövlət siyasəti ailə maraqlarını nəzərə almadan heç vaxt reallaşa bilməzdi. Prezident İlham Əliyev əzəli ailə dəyərlərinin, ailə institutunun möhkəmlənməsini mühüm dövlət tapşırığı kimi irəli sürür. Ailədə, cəmiyyətdə olduğu kimi münasibətlər daima dəyişir və daha da mürəkkəbləşir. Ancaq təkcə ailə dəyişmir. Dünya dəyişir və onun ilk baxışdan əbədi görünən dəyərləri transformasiyaya uğrayır. Məlumdur ki, qərb dünyasında dərin ailə böhranı yaşanır. Klassik, ənənəvi ailə arxa plana atılır. Prezident İlham Əliyev qeyd edir ki, - "Bu gün Avropa məkanında baş verən böhran – mənəvi böhrandır. Bəs harada qaldı tolerantlıq? Hanı multikulturalizm? Hanı xeyirxahlıq və mərhəmət?". Odur ki, Azərbaycan ailəsini kənar təsirlərdən, bizə xas olmayan "dəyərlərdən" qorumaq lazımdır.

Ailənin möhkəməndirilməsi – ümumilikdə dövlətin yüksəlişi və möhkəmlənməsi yoludur. Möhkəm klassik ailə ümumilikdə iqtisadi vəziyyətə təsir edir. Beləki, normal ailə cəmiyyətin əsası kimi iqtisadi göstəricilərin və ümumilikdə dövlətin inkişafının qarantıdır. Prezident İlham Əliyev dövlətin inkişafi, dövlət idarəçiliyi prioritetlərini təyin edən məsələləri müəyyənləşdirir. Və parlament dövlət başçısının qeyd olunan strategiyasına adekvat reaksiya verməyi öz öhdəsinə götürür. Milli Məclisdə qəbul olunan hər bir qanun ilk növbədə insan azadlıqları və vətəndaşların konstitusion hüquqları tələblərinə cavab verməlidir.

Bizim ölkədə ailə siyasəti sahəsində aydın qanunvericilik bazası yaradılmışdır. Bu qanunvericilik bazası nəinki MDB-də həm də dünya siyasi mühitində ən mükəmməllərdən biridir.

Əminliklə demək olar ki, Azərbaycan ailə siyasətinin hüquqi təminatında lider mövqelərdən birinə sahibdir. Ailə hüquqları prinsipləri Azərbaycan dövlətinin hüquq siyasətinin humanizmini və demokratiklitiyini möhkəmləndirir.

Ailə, qadın və uşaqlara dəstəyi nizamlayan qanunverici aktların mühüm hissəsi beynəlxalq normaların ailə qanunvericiliyinə birbaşa göstəricisidir. Ailəli işçilər haqqında 1981-ci il Konvensiyasının (№156) və 2000-ci il analığın qorunması Konvensiyasının (№183) ratifikasiyası üzrə milli proseduralar tamamlanmışdır. Mən təsadüfi olaraq sizin diqqətinizi bu konvensiyalara cəlb etmirəm. Bir çox dövlətlərin hökumətləri, hətta Aİ-nın bir çox inkişaf etmiş ölkələri və ABŞ bu qanunvericilik aktlarının qəbul edilməsini onlar üçün problem olmasını bildirir və onların ratifikasiyasından imtina edirlər. Azərbaycan öz siyasi iradəsi sayəsində bu beynəlxalq sənədlərin ratifikasiyasını zəruri saydı.

Azərbaycan ailənin qorunması və milli ənənələrin saxlanması üçün geniş spektrdə ehtiyatlara malikdir. Azərbaycan Respublikasında ailə, ana, ata və uşaqların dövlət dəstəyi tam təmin olunur, ailənin müdafiəsi məqsədi ilə sosial müavinətlər və digər təminatlar müəyyən olunur. Ana və uşaqların qorunması, ailə münasibətlərinin nizamlanması sahəsində dövlət siyasəti və milli qanunlar beynəlxalq gender bərabərliyi prinsipləri ilə uzlaşır və azərbaycan ailə mədəniyyəti ənənələrinin möhkəmləndirilməsində əsas faktor rolunu oynayır.

Müasir ailə problemləri müxtəlif şaxəliliyi ilə səciyyələnir. Odur ki, ailə institutuna dayaq məqsədi ilə bütün resurslardan istifadə olunmalıdır. Hüquqi bazanın hazırlanması, siyasətin işlənilməsi, və institusional potensialın möhkəmləndirilməsindən savayı informasiya təlim fəaliyyəti də vacibdir. Xüsusən də dövlət ilə ictimai birliklər, xeyriyyə cəmiyyətləri və sahibkarlarla əməkdaşlıq, hakimiyyət, biznes və KİV-lərin sosial tərəfdaşlığı daha vacibdir.

Ailə - mürəkkəb sosial institutdur və ailədaxili münasibətlərin və ər-arvad arasında münasibətlərin formalaşması ilk növbədə milli mədəniyyət və tarixi ənənələrlə təyin olunur. Bu isə qeyd olunan halların ailə qanunvericiliyi normalarında adekvat əks olunmasını tələb edir. Bizim üçün ailə dəyərlərini, cəmiyyətin inkişafının mənəvi və əxlaqi səviyyəsini yüksəltmək və ailə dəyərlərini dağıdan sosial texnologiyalara mane olmaq çox vacibdir.

Ancaq ailə münasibətlərinin nizamlanması zamanı hər zaman ər-arvad arası şəxsi münasibətlərə qarışmaq riski yaranır. Odur ki, ailə daxilində hüquq normalarının imkanları hər-zaman məhduddur. Bu elə bir sahədir ki, cütlüyün üzvləri tərəfindən öz imkanlarının bərabər nisbətdə reallaşdırılmasının təmin olunması olduqca çətindir. Azərbaycanda mövcud ailə qanunvericiliyinin təkmilləşdirilməsi “ailə- cəmiyyət-dövlət” sistemində münasibətlərin tənzimlənməsinə yönəldilib.

Qanunvericiliyin təkmilləşdirilməsi – sadəcə yeni qanunların qəbul olunması demək deyil. Bu konstitusional hakimiyyətlə cəmiyyətin əməkdaşlığı kimi mürəkkəb bir prosesin formalaşdırılmasıdır. Qanunvericiliyin təkmilləşdirilməsi – ölkədəki hüquq sahəsinin analizi, mövcud qanunvericiliyin qiymətləndirilməsi və eləcə də, qəbul olunacaq qərarların nəticələrinin proqnozlaşdırılması sisteminin hazırlanması və qanunvericilik bazasının dövlət siyasətinin əsas prinsiplərinə uyğunluğunun müəyyən edilməsinin təyinindən ibarətdir. Qanunvericiliyin təkmilləşdirilməsi yalnız qanun layihələrinin hazırlanmasından, qəbulundan, qanunların tətbiqindən və onların yerinə yetirilmələrinə nəzarətdən ibarət deyil. Ailənin müdafiəsi sahəsində eyni zamanda bir neçə nazirlik - əmək, maliyyə, sosial müdafiə, səhiyyə, gənclər və idman nazirlikləri və əlbəttə ki, ailə, qadın və uşaq işləri üzrə ixtisaslaşmış komitə fəaliyyət göstərir. Hal-hazırda ümummillidən tutmuş yerliyədək müxtəlif səviyyəli hökumət strukturları işə cəlb olunmuşlar ki, bu da sinergetika və əməkdaşlıq üçün geniş imkanlar yaradır.

Azərbaycan dövlət ailə siyasətinin vacib aspektlərindən biri də ailə hüquqlarının müdafiəsinin təmin olunmasından ibarətdir. Bu dövlət siyasəti qanunvericiliyin təkmilləşdirilməsini təmin edir. Onun əsasında üç prinsiplər qrupu durur:

Prioritet – həddi-buluğa çatmamışların maraq və hüquqlarının qorunması prinsipi; uşaqların ailə tərbiyəsi, onların rifahının qayğısına qalma prinsipi  Qarşılıqlı – qadın və kişi arasında nikah müqaviləsinin könüllülük prinsipi; ailədə ər-arvad hüquqlarının bərabərliyi prinsipi; ailədaxili münaqişələrin qarşılıqlı anlaşma ilə həlli prinsipi; əmək qabiliyyətini itirmiş ailə üzvlərinin maraq və hüquqlarının qorunmasının təmini prinsipi.  Dəyərlər – uşaqların yaşayışının keyfiyyətinin təmini, ailə fəaliyyətinin ana, ata və uşaqların təhlükəsizliyinin təmini prinsipi. Bu qanunvericilik prinsipləri Azərbaycan xalqının ailə ənənələri ilə hüdudlanır. Ailə qanunvericiliyinin təkmilləşdirilməsi yalnız sırf zahiri, formal-idarəçilik dəyişiklikləri ilə məhdudlaşmayaraq Azərbaycanın hüquq mədəniyyəti və praktikasında keyfiyyətcə yeni səviyyəyə çıxışını nəzərdə tutur.



Azərbaycan Respublikası Dini Qurumlarla
İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı

# Cəmiyyətdə qarşılıqlı hörmət və tolerantlıq mühitinin yaradılması, qorunması yolları

Cəmiyyətin inkişafı üçün başlıca şərt sabitlik və sülhdür. Bunlar olmadan nəyəsə nail olmaq qeyri-mümkündür. Sabitlik və sülhü bərqərar etmək üçün isə cəmiyyətdə qarşılıqlı hörmət və tolerantlıq mühiti formalaşdırılmalıdır. Çünki XXI əsrdə monoetnik və təkkonfessiyalı cəmiyyət, demək olar ki, yoxdur. Başqa sözlə, tolerantlığı cəmiyyətin inkişafı baxımından ilkin şərt kimi də qəbul etmək olar. Bunun ən bariz nümunəsi Azərbaycandır.

Azərbaycan milli və dini baxımdan həmişə tolerant ölkə olmuşdur. Tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş ölkəmiz bu gün də öz missiyasını uğurla yerinə yetirir. Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab etməmiş, hətta yerli əhali ilə qaynayıb-qarışmışlar. Tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi-mədəni kökləri mövcuddur. Azərbaycan xalqı daim bu bölgədə yaşayan insanlar arasında sülh və əmin-amanlıq şəraitinin yaradılmasına əvəzsiz tarixi töhfələr vermişdir. Dözümlülük, başqa dinlərin nümayəndələri ilə dinc yanaşı yaşamaq azərbaycanlıların milli mentalitetinin əsas xüsusiyyətlərindəndir. Ölkəmizdə tarixən İslam dini ilə yanaşı, Xristianlığa, Yəhudiliyə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşamışlar.

Xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışı Ümummilli Liderimiz Heydər Əliyevin növbəti xilaskarlıq missiyasının başlanğıcı olmuşdur. Məhz Ulu Öndərin sayəsində milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişmiş, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılmış, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar olmuşdur. Vətəndaşların vicdan azadlığı Konstitusiyamızın 48-ci maddəsində öz əksini tapmış və Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında" Qanununda geniş şəkildə təsbit olunmuşdur. Zaman keçdikcə cəmiyyətdəki inkişaf, qloballaşma nəticəsində sürətlə dəyişən və inkişaf edən dünyamızda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, sosial rifahın daha da yüksəldilməsi, milli və ictimai təhlükəsizliyin daha etibarlı şəkildə təmin edilməsi istiqamətində qanunvericilik sistemində islahatların aparılması zərurətə çevrilmişdir.

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, tam qətiyyətlə deyə bilərik ki, beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində qurulmuşdur. Bu gün Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir.

Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması da Ümummilli Liderin adı ilə bağlıdır. O, tolerantlığın, birgəyaşayış mədəniyyətinin İslam dininin və Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu belə ifadə etmişdir: "Hesab edirəm ki, Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var".

Vətəndaşlarının böyük əksəriyyəti müsəlmanlar olan ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. Hələ 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 27 may 2001-ci il tarixdə bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermişdir. Kilsənin açılış mərasimində Ulu Öndər Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri və dini icmaların başçıları iştirak etmişlər.

Eyni zamanda, ölkəmizdə 1997-ci ildə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir. Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icması beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar.

Bir faktı da xüsusilə vurğulamaq lazımdır ki, 2003-cü il martın 9-da Bakıda açılmış yeni sinaqoq Avropada ən böyük yəhudi məbədidir.

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir.

Azərbaycan öz mədəniyyəti, tarixi, adət-ənənələri ilə fəxr etməyə layiq az sayda dövlətlərdən biridir. Tolerantlığın dövlət strategiyası olaraq əsasını Ümummilli Lider Heydər Əliyev qoymuş, bu zəngin ənənə hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına yüksək səviyyədə diqqət və qayğı göstərir. Azərbaycanda dini və milli tolerantlığın tarixən mövcud olduğunu və bu tolerantlığın indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz rol oynadığını vurğulayan Prezident İlham Əliyev bu fikrini belə şərh etmişdir: “Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüz illərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır”.

Prezident İlham Əliyev son 13 ildə tarixi-mədəni irsin, milli- mənəvi dəyərlərin dirçəldilməsinə, xüsusən də, tarixi-dini ziyarətgahların əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırmışdır. Maddi- mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının sərəncamlarına uyğun olaraq son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların bərpası ilə bağlı görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilmiş, Gəncədəki İmamzadə kompleksi, Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Şamaxı Cümə məscidi artıq dindarların istifadəsinə verilmişdir. İslam abidələrinin inşasından danışarkən 2014-cü ilin dekabr ayında açılışı olmuş Qafqazın ən böyük məscidini – memarlığında İslam dininin möhtəşəmliyini,bununla bərabər, Azərbaycanın milli, dini ənənələrə sadiqliyini nümayiş etdirən Heydər məscidini xüsusi vurğulamaq lazımdır. Ölkəmizin müxtəlif bölgələrindən gələn dindarların, ictimai xadimlərin, Şimali Qafqaz müftilərinin də iştirak etdiyi açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məscidin müsəlmanların birliyini təsdiq edə biləcək bir simvola çevriləcəyini qeyd etməklə dövlətimizin din siyasətinin gələcək spektrlərini də cızmış oldu.



Azərbaycanda dini tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın misilsiz xidmətləri vardır. Mehriban xanım Əliyeva hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə, ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırır, xalqlar arasında dostluq münasibətlərinin, qarşılıqlı yardımlaşma və təcrübə mübadiləsinin vacibliyini daima vurğulayır. Onun rəhbərliyi altında Heydər Əliyev Fondu hər bir layihəsi ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına öz töhfəsini verməyə çalışır. Uğurla həyata keçirilən “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində ölkədəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılır. Son 10 ildə Fondun dəstəyi ilə Bakının Mərdəkan qəsəbəsində XVI əsrə aid Pir Həsən ziyarətgahında, Binə qəsəbəsindəki Möhsün Səlim və İmam Rza məscidlərində, Buzovna qəsəbəsindəki Cümə məscidində, Mərdəkan qəsəbəsindəki Heydər Cümə məscidində, Gəncədə Həzrəti Zeynəb məscidində əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılmışdır. Qəbələdə isə 2013-cü ildə yeni məscid inşa olunaraq istifadəyə verilmişdir. 2007-ci ildə Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmışdır. Bakıda yaşayan yəhudi uşaqları üçün “Xabad-Or-Avner” Təhsil Mərkəzi “Tolerantlığın ünvanı – Azərbaycan” layihəsi çərçivəsində Heydər Əliyev Fondu və “Or-Avner” Beynəlxalq Fondu tərəfindən inşa edilmişdir.

Hazırda Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanması və onun daha da möhkəmləndirilməsində görülən işlər nəticəsində respublikamızda rəsmi olaraq 668 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 643-ü İslam, 25-i qeyri-islam təmayüllü dini icmadır. Eyni zamanda, ölkəmizdə 13 kilsə, 7 sinaqoq fəaliyyət göstərir.

Ölkəmizdə dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması Ümummilli Lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticəsidir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin tərkibinə daxil edilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirmişdir. Fəxrlə qeyd edə bilərəm ki, ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir. Daim xalqımızın milli-mənəvi dəyərlərinin mütərəqqiliyini vurğulayan dövlət başçısı İlham Əliyev gələcək inkişafımızı zəngin tarixi keçmişə söykənən adət-ənənələrimizlə müasir ideyaların sintezində görməklə, ölkəmizdə milli- dini dəyərlərin qorunub saxlanılması istiqamətində ardıcıl işlər həyata keçirir. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli-mənəvi dünyasına daha çox bağlı olsunlar.

...Zaman keçir və çox şeyi dəyişir. Amma dəyişməyən bir həqiqət var: tolerantlıq Azərbaycan xalqının xarakterik keyfiyyəti, Azərbaycan cəmiyyətinin nailiyyəti, dözümsüzlük burulğanında müvazinətini itirmiş dünyanın məqsədidir.



**Milli Televiziya və Radio Şurasının sədr müavini, filologiya elmləri namizədi Sona Vəliyeva**

## Ailə dəyərlərinin qorunub saxlanmasında KİV-in rolu



"Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri, əslində bizim milli dəyərlərimizdir. Azərbaycan dünya birliyinə inteqrasiya edir. Əlbəttə ki, dünyada gedən qloballaşma prosesi bizdən də yan keçmir. Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan əgər tarixə də nəzər salsaq, görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır".

Prezident İlham Əliyevin bu fikirləri ailə dəyərlərinin Azərbaycan cəmiyyəti üçün nə dərəcədə əhəmiyyətli olduğuna əyani sübutdur. Min illər ərzində formalaşmış, tarixin sınaqlarından üzüağ çıxmış, öz möhkəmliyi və uzunömürlülüyü ilə dünyaya örnək olan bir modelə çevrilmiş Azərbaycan ailəsi həqiqətən də ölkəmizin dayanıqlı inkişafının təməl daşıdır. Etiraf etmək lazımdır ki, ailə kiçik dövlət olsa da, əslində daha böyük amallara - dövlətçilik və milli-mənəvi dəyərlərin möhkəmlənməsinə xidmət edir. Ailə dəyərlərinin sağlamlığı son nəticədə bütövlükdə cəmiyyətin də sağlam düşüncəyə malik olması deməkdir. Bu mənada həmin dəyərlərin nə dərəcədə qorunub saxlanması həm də gələcək inkişafımıza birbaşa təsir edən amildir. Lakin onu da etiraf etməliyik ki, sürətli qloballaşma prosesi, informasiya texnologiyalarının görünməmiş vüsətlə inkişafı dünyanın istənilən yerində olduğu kimi, bizdə də ənənəvi ailə dəyərlərinə mənfi təsir edir. Nəticədə onların qorunub saxlanması da günü-gündən çətinləşir. Odur ki, indi bu prosesin əhatə dairəsinin genişləndirilməsinə hər zaman olduğundan daha çox ehtiyac duyulur. Başqa sözlə, artıq ailə dəyərlərinin qorunub saxlanması tək bir ailə, yaxud bir nəslin borcu olmaqdan daha çox ümumilkdə cəmiyyətin vəzifəsinə çevrilib. Bu vəzifənin düzgün dərki və keyfiyyətli yerinə yetirilməsi isə xüsusilə kütləvi informasiya vasitələrinin (KİV) sözügedən prosesdəki rolundan asılıdır.

KİV-in ailə dəyərlərinin qorunub saxlanmasında rolu onun şəxsiyyətin formalaşdırılması prosesində rolu ilə demək olar ki, eynidir. Düzdür, hər bir fərdin şəxsiyyətə çevrilməsi heç də asan deyil və bəlkə də mümkünsüzdür. Yəqin elə buna görədir ki, kamil şəxsiyyət yetişdirmək axtarışlarının kökü tarixin dərinliklərinə gedib çıxır.

Kamil insan axtarışları başlayandan düz indiyədək bu mürəkkəb prosesin dərk edilməsi və ona təsir göstərən amillərin müəyyənləşdirilməsi istiqamətində saysız-hesabsız tədqiqatlar aparılıb. Bu axtarışların bu gün də davam etdirilməsinə baxmayaraq, hələ də şəxsiyyətin formalaşması prosesinin dəqiq formulunu müəyyən etmək, nəyin daha çox təsirə malik olduğunu konkret demək çətindir. Bununla belə, danılmaz faktdır ki, müasir insanın sadə bioloji varlıqdan bütövləşmiş şəxsiyyətədək keçən yolu öz sələfləri ilə müqayisədə daha mürəkkəbdir. Elə müasir insanın bir şəxsiyyət kimi formalaşmasında rol oynayan amillərin xarakteri də əvvəlkilərdən fərqlidir. Bu mənada müasir şəxsiyyətin formalaşmasında ayrıca bir amil kimi KİV-in rolunu xüsusi fərqləndirməyimiz təsadüfi deyil. Çünki müasir KİV-in işi təkcə cəmiyyəti informasiya ilə təmin etməklə yekunlaşmır. O, yeni şəxsiyyətin formalaşmasında, deməli, son məqsədi məhz kamil insan yetişdirmək olan ailə dəyərlərinin qorunub saxlanmasında da mühüm rol oynayır. Çünki şəxsiyyət olmaq ilk növbədə mənsub olduğun ailə və millətin dəyərlərini ümumbəşəri dəyərlərlə uzlaşdırmağı bacarmaq, əsrlərlə qazanılan dəyərləri yad təsirlərdən qorumaq deməkdir. Yad təsirlərdən qorunmağın ən yaxşı üsulu isə KİV-in məsələyə xüsusi diqqət və həssaslıqla yanaşması, cəmiyyətin düzgün maarifləndirilməsi, dəyərlərimizin lazımi dərəcədə təbliğ edilməsidir. Bunun üçün də bizə yad olan ailə dəyərləri təbliğ olunmamalı, "azad" adlandırılan nikaha və deməli, qarşılıqlı məsuliyyətə əsaslanmayan ailə modelləri nümunə kimi göstərilməməli, boşanmaların "müstəqillik" əldə etməyə yox, cəmiyyətin əsaslarını sarsıtmağa xidmət etdiyi xüsusi vurğulanmalıdır. Nəzərə almaq lazımdır ki, gənc müstəqil dövlət olan Azərbaycanın sarsılmaz ailə modelinin məhv edilməsi düşmənlərimizin çoxdankı arzusudur və heç bir vəchlə bu arzunun gerçəkləşməsinə yol vermək olmaz.

Məlumdur ki, ailə dəyərlərinin insana aşılanması prosesinə onun həyatı qavramağa başlaması anından start verilir. Elə KİV-in şəxsiyyətin formalaşması prosesində rolu da insanın kiçik yaşlarından başlayır. Məsələn, bu gün cizgi filminə baxmayan hansısa uşağın olduğunu təsəvvür etmək belə çətindir. Burada KİV-in əsas vəzifəsi ailə dəyərlərinə zidd olmayan şəkildə tərbiyəedici funksiyasını seçməkdir.

Məlumdur ki, milli ailə modelimizdə uşağa sülhpərvərlik, ailəcanlılıq, anaya, qadına, böyüyə-kiçiyə hörmət, əxlaq qaydaları, milli-mənəvi dəyərlərə sadiqlik aşılanır. Effekt əldə etmək üçün öz növbəsində KİV də bu tərbiyəni tamamlamalı və daha da zənginləşdirməlidir. Çünki əks təbliğat nəinki insanın şəxsiyyətinin formalaşmasına mane olur, həm də bütün ailə dəyərlərini ciddi zərbə altında qoyur.

Aydındır ki, müasir dövrdə KİV-lə təmas insanı ömrü boyu müşayiət edən bir prosesdir. Bu prosesdə insan sadəcə bir seyrçi rolunda çıxış etmir. O, televiziya və bütövlükdə KİV vasitəsilə lazımi məlumatları əldə edir, dünyagörüşünü artırır və nəticədə qəbul etdiyi informasiyanı qavrama səviyyəsinə uyğun şəkildə formalaşır. Bax əsas məqam da məhz budur. Göründüyü kimi, insan bir şəxsiyyət kimi formalaşarkən, qəbul etdiyini necə qavraması, başqa sözlə, bu informasiyanın məzmunu ona ciddi təsir göstərir. Deməli, bu mənada KİV-in üzərinə düşən məsuliyyət yükü də böyük və ağırdır. Ən azı ona görə ki, KİV toplumdan ayrı yaşayan bir fərdi deyil, ailəsinin təmsilçisi, xalqının nümayəndəsi, yaşadığı ölkənin vətəndaşı, son nəticədə isə milli mənəvi dəyərlərin dünyaya daşıyıcısı olan bir şəxsiyyəti formalaşdırmalıdır. Bu o deməkdir ki, bir şəxsiyyəti formalaşdırma zamanı KİV paralel olaraq həm də bütöv bir xalqın inkişafı prosesində iştirak edir. Daha dəqiq ifadə etsək, KİV-in şəxsiyyətin formalaşdırılmasında iştirakı prosesi bir fərdin kamil insana çevrilməsi sərhədlərini aşır və ailə dəyərlərinin qorunması, xalq, dövlət, dövlətçilik kimi mühüm anlayışlara bağlanır. Bu isə, etiraf edək ki, artıq ciddi əhəmiyyət daşıyan taleyüklü bir missiyadır. Prezident İlham Əliyevin bununla bağlı söylədiyi fikirlər bu baxımdan hər zaman aktualdır: "Bütövlükdə Azərbaycan jurnalistikası öz dövlətinə, xalqına, dövlətçiliyinə bağlıdır. Siyasi baxışlardan asılı olmayaraq, əksər hallarda dövlətin maraqları üstünlük təşkil edir. Ancaq elə hallar var ki, şəxsi maraqlar, yaxud da, partiya maraqları, korporativ maraqlar ön plana çıxır. Buna əlbəttə ki, yol vermək olmaz. Xüsusilə gənc müstəqil dövlətlərdə vətənpərvərlik hissləri daha da güclü olmalıdır və daim mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirirəm. Bir daha demək istəyirəm ki, bu, sadəcə olaraq bir şüar, bir söz deyil, bu, zərurətdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda böyüməlidir, tərbiyə almalıdır və jurnalistikanın bu sahədə çox böyük rolu vardır".

Göründüyü kimi, dövlət başçısı Azərbaycan jurnalistikasının öz dövlətinə, xalqına və dövlətçiliyinə bağlılığını məhz gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından nəzərdən keçirir. Tarixi torpaqları işğal altında olan və qarşısında hər an haqq savaşına hazır olmaq kimi müqəddəs bir vəzifə dayanan ölkəmizin vətəndaşları üçün isə vətənpərvərlik və şəxsiyyətləşmək həqiqətən də bir-birinə sıx bağlı məsələlər olmalıdır. Haqq işimizə bütövləşmiş şəxsiyyətlər ordusunun əsgərləri kimi yanaşmaq və bu zaman həqiqi vətənpərvərlik nümayiş etdirmək o qədər zəruridir ki, bu prosesdə layiqincə iştirak etmək istənilən bir KİV orqanı üçün başlıca vəzifəyə çevrilməlidir. Burada KİV-in mühüm vəzifələrindən biri də xüsusilə formalaşmaqda olan gənc nəslə həssas yanaşmaqdır. Çünki bəzən adi bir ehtiyatsızlıq və ya səhlənkarlıq vətəndaşın ən ülvi vətənpərvərlik hisslərinə də mənfi təsir göstərə, nəticədə onun öz ölkəsi üçün faydalı bir şəxsiyyət kimi formalaşmasına zərbə vura bilər. Xoşbəxtlikdən Azərbaycan ailəsinin təməlində dayanan mühüm dəyərlərdən biri də məhz budur – övladın vətənə layiq şəkildə yetişdirilməsi. Çox xoşdur ki, aprelin əvvəlində cəbhədə baş verən hadisələr zamanı

Azərbaycan KİV-i nöqsanlara yol vermədi və həssaslıq nümayiş etdirərək öz missiyasını məhz vətənpərvərlik aşılayan ailə dəyərlərini tamamlamaqla uğurla yerinə yetirdi. Elə uşaqdan böyüyədək bütün ölkə vətəndaşlarında son illər görünməmiş dərəcədə güclənmiş ruh yüksəkliyi də müəyyən mənada KİV-in məsələyə düzgün yanaşmasının nəticəsidir. Bu, həm də hər bir vicdanlı və peşəkar jurnalistin özünün genişmiqyaslı, məhz vətənpərvər şəxsiyyətin formalaşdırılmasına yönəlik məsuliyyətini dərk etməsindən irəli gəlir. Yeri gəlmişkən, Prezident İlham Əliyev öz çıxışlarından birində jurnalistlərin məsuliyyəti ilə bağlı məsələyə də toxunub və bunun daim müzakirə mövzusu olduğunu bildirib: "Xüsusilə azad mətbuat olan halda jurnalistlərin məsuliyyəti ön plana çıxır. Mən şadam ki, son illər ərzində bu istiqamətdə də müsbətə doğru irəliləyiş vardır, jurnalistlər öz məsuliyyətini daha da dolğun şəkildə dərk edirlər, mətbuatda gedən, həqiqəti əks etdirməyən təhqiramiz yazılara da az-az rast gəlmək olur. Bu da jurnalistlərin məsuliyyətindən xəbər verən amillərdir. Eyni zamanda, müasir cəmiyyətdə, internet dövründə hər hansı bir yalan məlumatın ömrü uzun ola bilməz. Ona görə, jurnalistlərin məsuliyyəti, hesab edirəm ki, gələcəkdə də daim diqqət mərkəzində olmalıdır. Bilirəm ki, jurnalist ictimaiyyəti, Mətbuat Şurası bu məsələləri daim diqqət mərkəzində saxlayır. Necə ki, hər bir insan qanun qarşısında, cəmiyyət qarşısında məsuliyyət daşıyır, əlbəttə, jurnalistlər də bu məsuliyyəti daşımalıdırlar və eyni zamanda, onların məsuliyyəti bəlkə də daha da böyük olmalıdır".

KİV-in şəxsiyyətin formalaşmasına və ailə dəyərlərinin qorunub saxlanmasına təsiri onun cəmiyyətdə qanunçuluğa riayət olunmasına düzgün yanaşması ilə də birbaşa əlaqəyə malikdir. Aydındır ki, ən yaxşı vətəndaş qanunun aliliyi prinsipinə təkcə cəmiyyətdə deyil, həm də öz ailəsində riayət edən vətəndaşdır. İstənilən cəmiyyət və dövlətin inkişafı ilk növbədə qanunlara nə dərəcədə diqqət və məsuliyyətlə əməl olunmasından asılıdır. KİV isə qanunçuluqla bağlı maarifləndirmə prosesində ən azı ailə və məktəb qədər geniş rol oynamalıdır. KİV-də qanunazidd əməllərə yol verilməməsinə dair tələblər məhz bu zərurətdən qaynaqlanır.

Deyilənləri ümumiləşdirsək, məlum olur ki, ailə dəyərlərinin qorunub saxlanması KİV-dən birbaşa asılı məsələlərdəndir. Sözün həqiqi mənasında kamil insan olan, ailəsinə, vətəninə və dövlətinə layiq şəxsiyyətlər yetişdirmək üçün KİV birmənalı olaraq yüksək dəyərlərlə işləməyi bacarmalıdır. Xoşbəxtlikdən dəyərlərimizin KİV-də təbliği ilə bağlı təcrübə axtarmaq üçün heç də uzağa getmək lazım deyil. Nəzərə almaq lazımdır ki, Azərbaycanda sözün qüdrətini dərk edən, qələmin müqəddəs vəzifəsini xalqa xidmətdə görən yüzlərlə dahi şəxsiyyət olub. Bu gün Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyli, Ömər Faiq Nemanzadə və yüzlərlə digər dahimizin yaradıcılığına nəzər salmaq kifayətdir ki, KİV-in şəxsiyyətin formalaşması prosesində iştirakının mahiyyəti tam aydın olsun. Əgər bir vaxtlar bu dahi yazarlarımız dövri mətbuatda yazılarla çıxış edərək qələmlərini cəhalətin ifşasına, Azərbaycan ailəsinin tarixi dəyərlərinin qorunub saxlanmasına, xalqın maariflənməsinə həsr etmişdilərsə, bu gün oxşar problemlərin həllində onların təcrübəsindən niyə də yararlanmayaq? Üstəlik onu da yaddan çıxarmaq olmaz ki, o dövrdəkindən fərqli olaraq, indi Azərbaycan müstəqil dövlətdir, yazarlarımızın dünyaya çıxış imkanları isə sələflərindən qat-qat çoxdur. Bu gün müasir Azərbaycan KİV-nin cəbhəxanasında informasiya texnologiyaları, internet media və s. ciddi resurslar var. Bu resursları maarifpərvər dəyərlərimizlə birləşdirməklə nələrə nail olmağın mümkünlüyünü təsəvvür etmək çətin deyil. Əgər bu gün KİV-də çalışan hər bir şəxs öz məsuliyyətini lazımınca dərk edib mövcud potensialı düzgün istiqamətə yönəltməyi bacarsa, şübhə yoxdur ki, Azərbaycanın ailə dəyərlərinə düzgün münasibətin mühümlüyünü hamı dərk edəcək. Nəticədə hər bir vətəndaşın "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" şüuruna sahib şəxsiyyətə çevrilməsi prosesi də qısa müddətdə reallığa çevriləcək.



BMT-nin İnkişaf Proqramının (BMTİP) Rezident Nümayəndəsinin müavini Natalia Alhazişvili

# Müasir dünyada ailə institutuna təsirlər

Məlum olduğu kimi, ailə, cəmiyyətin istər yaşlılar, istərsə də uşaqlar üçün təhlükəsiz və sağlam ev mühiti, təhsil, koqnitiv inkişaf, eyni zamanda sosial-iqtisadi və sağlamlıq baxımından müsbət nəticələr də daxil olmaqla, çoxsaylı faydası olan, mühüm bir hissəsini təşkil edir. Bundan əlavə, ailələr, fərdləri tək uşaqlıq illəri ərzində deyil, bütün həyat dövrü ərzində mühüm dəstək sistemi ilə təmin edir.

Bunlarla yanaşı, biz, həmçinin, etiraf etməliyik ki, ailələr son bir neçə onilliklər ərzində xeyli dəyişikliklərə məruz qalmışlar. Sosial demoqrafik qruplar arasında resursların qeyri-bərabər bölgüsü, gündəlik ev işlərinin gender zəminində qeyri-bərabər bölgüsünün hələ də mövcudluğu, boşanmaların sayının artması və nəsilartırma və nikah yaşında səngimə, ailəyə dəstək şəbəkələrinin zəifləməsi, habelə uşaq və yaşlı insanlara qayğı ilə bağlı yükün artması da daxil olmaqla, bir sıra demoqrafik, iqtisadi və sosial-mədəni sahələrdə baş verən dəyişikliklər nəticəsində əvvəlki dövrlərlə müqayisədə ailələr daha çox problemlərlə üzləşirlər.

Azərbaycanda xidmət etdiyim son beş il ərzində, mən müşahidə etmişəm ki, ölkə, ailələrin və bununla bağlı dəyərlərin və ənənələrin qorunmasına verilən önəmə görə həqiqətən qürur duya bilsə də, bu irəliləyişlərə kölgə salan ciddi problemlər də mövcuddur. Son dövrlərdə baş verən əhali artımı, yaşlanma, urbanizasiya, habelə miqrasiya prosesləri ilə yuxarıda qeyd olunan məsələlərin mürəkkəb qarşılıqlı əlaqəsini nəzərə alaraq , uşaq nikahları, məişət zorakılığı, cins əsasında edilən abortlar və bu kimi digər problemlərin bütün maraqlı tərəflərin iştirakı ilə ardıcıl yanaşma vasitəsilə təxirə salınmadan aradan qaldırılması zəruridir. Ailələrin qorunması və möhkəmləndirilməsi məqsədini daşıyan effektiv dayanıqlı siyasətlər işləyib hazırlamaq və həyata keçirmək üçün, biz, iqtisadi inkişaf proseslərinin, mövcud təhsil və məşğulluq imkanlarının, sosial müdafiə proqramlarının, səhiyyə xidmətlərinə çıxış imkanının, habelə yerli kontekstlə bağlı səciyyəvi xüsusiyyətlərin kənar mühitə, ailədaxili münasibətlərə və fərdi əlamətlərə necə təsir göstərdiyinə dair məlumatlara ehtiyac duyuruq.

Yalnız sözügedən məlumatları əldə etdikdən sonra, biz, fərdlərin insan hüquqlarına xələl gətirmədən ailələrin dəyişən şəraitə təhlükəsiz şəkildə uyğunlaşa bilməsini təmin etmək iqtidarında olacağıq.

Bu, kifayət qədər iddialı, lakin nail oluna bilən bir fəaliyyət yoludur. "Azərbaycan 2020: gələcəyə baxış" adlı milli inkişaf konsepsiyasında da aydın şəkildə təsbit olunmaqla, Azərbaycanda bu problemləri həll etmək və ailələrin effektiv şəkildə qorunmasını təmin etmək üçün siyasi iradəni müşahidə etmək çox sevindiricidir. Eyni zamanda, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malik olaraq cəmiyyətin təbii və mühüm birlikləri qismində ailələrə effektiv yardım və müdafiəni təklif edən insan hüquqlarına dair bütün əsas sazişlər də hökumət tərəfindən ratifikasiya edilmişdir. Mən, həmçinin, görürəm ki, Hökumət, heç kimin inkişaf proseslərindən kənarda qalmaması və hamı üçün bərabər imkanlar yaradaraq insan hüquqlarının və əsas azadlıqların qorunmasını təmin etmək üçün fəaliyyət dairəsini genişlədirməyə və eyni zamanda, dayanıqlı inkişafın iqtisadi, sosial və ətraf-mühitlə bağlı ölçülərini də bir araya gətirməyə səy göstərməklə daha da irəli gedən Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləyərək öz fəaliyyətini MİM-lərin davam etdirilməsi üzərində qurmaq niyyətindədir.

BMT-nin Azərbaycanda Ölkə üzrə İdarə Heyəti Azərbaycan hökumətinin tərəfdaşı olmaqdan məmnundur və biz, bu məsələdə göstərdiyi siyasi iradəyə görə Dövlət Komitəsinin rəhbəri, xanım Hicran Hüseynovaya öz minnətdarlığımızı bildiririk. Fürsətdən istifadə edərək, mən, Azərbaycan hökuməti, vətəndaş cəmiyyəti və bütün digər maraqlı tərəflərlə birgə, ölkədə ailələrin müdafiəsi işinin təkmilləşdirilməsinə yönələn müştərək proqramların yerinə yetirilməsi istiqamətində səyləri davam etdirməyə hazır olduğumuzu bir daha bəyan etmək istərdim.



Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, h.e.f.d.,
Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının dosenti
Ceyhun Qaracayev

# Ailə münasibətlərinin qorunmasında məhkəmə konstitusiya nəzarətinin rolu

Ailə institutu dövlətdən əvvəl yaransa da, bu gün müasir dövlətlərin sabit sosial hüceyrəsini təşkil edir. İnsanların təxminən 85 %-i ailələrdə yaşayır. 9 milyondan bir qədər çox əhalisi olan Azərbaycanda yalnız 2015-ci ilin 8 ayı ərzində təxminən 45.000 nikah bağlanıb. Tarix boyu ailə öz formasını və funksiyasını dəyişsə də onun mahiyyəti dəyişməz qalır. Məhz ailə münasibətlərinin ahəngliyi ictimai siyasi vəziyyətin, adət və ənənələrin qorunmasının, iqtisadi sabitliyin göstəricisi kimi çıxış edir. Ailə qədim dövrlərdə yalnız mülki münasibətlərin obyekti kimi çıxış edirdi. Mürəkkəb quruluşu olan müasir cəmiyyətlərdə isə ailə institutunda daha publik xüsusiyyətlər formalaşır və onun hüquqi əsasları dövlət tərəfindən qorunur. Ailə münasibətlərin qorunmasının dövlət təminatı neqativ və pozitiv öhdəliklərlə bağlıdır. Neqativ dedikdə, beynəlxalq hüquqi aktlar, ölkələrin qanunvericiliyi, məhkəmə təcrübəsi, inzibati icra sahəsində ailə münasibətlərinə qanunsuz müdaxilələrin qarşısının alınması başa düşülür. Pozitiv öhdəlik isə dövlət tərəfindən ailə üzvlərinə hüquqlarının müdafiəsi üçün şəraitinin yaradılması, ailənin inkişafına və qorunmasına verilən dəstək başa düşülür. Ailə münasibətlərinin müdafiəsi sahəsində dövlətin neqativ və pozitiv öhdəliklərini tam fərqləndirmək mümkün deyil. Ailə özü sosial məhsuldur və ailəyə dövlət tərəfindən hər hansı bir müdaxilə digər tərəfdən pozitiv öhdəliklər yaradır və onların təminatı isə dövlətin sosial vəzifəsinə çevrilir.

İnsan hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra - İHAM) Lombardo İtaliyaya qarşı işi üzrə 2013-cü il 29 yanvar tarixli qərarında bildirdi ki, dövlət-iştirakçı mübahisə hətta valideynlər arasında yarandığı halda belə uşaqların valideynlə görüşmək imkanını yaratmalıdır. Bu cür halda məhkəmələr, habelə icra orqanları çalışmalıdırlar ki, ailə üzvləri arasında “zaman faktoru” (mübahisə nəticəsində əlaqənin olmadığı zaman) uşaqla valideynlərin münasibətinə təsir göstərməsin.

Qeyd edilən iş üzrə İHAM bildirdi ki, milli məhkəmələr 7 il ərzində uşaqla atanın görüşünə ananın maneələr göstərməsini yalnız bildirirdilər və təkrarən görüşün təşkili haqda qərar qəbul edirdilər. Lakin dövlət belə bir vəziyyətdə ailə üzvlərinin hər birinə psixoloji yardım almaq üçün şərait yaratmalı idi. Bu halda şikayət edən ata uşağa psixoloji zədə gətirməyərək öz hüquqlarını realizə edə bilərdi. Beləliklə, dövlətin passivliyi nəticəsində İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi üzrə Avropa Konvensiyasının (bundan sonra - İHAMK) 8-ci maddəsi pozulub.

İHAM T. Çexiya Respublikasına qarşı işi üzrə 2014-cü il 17 iyul tarixli qərarında isə birbaşa qeyd etdi ki, məhkəmələr valideynlə uşaq arasında münasibətlərin yalnız istisna hallarda qarşısını ala bilərlər. Bu kontekstdə dövlətin neqativ və pozitiv vəzifələri ayrılmazdır və hər iki halda rəqabətli maraqlar arasında tarazlığa nail olmaq lazımdır. Qeyd etmək lazımdır ki, Avropa hüququ ailə anlayışını kifayət qədər geniş şərh edir. İHAM mövqeyinə əsasən ailə yalnız valideyn və uşaqlar deyil, hətta ailədə yaşayan baba, nənə, nəvə və digər yaxın qohumlardır. Bu mövqeyi Avropa insan hüquqları məhkəməsi hələ 1979-cu ildə Marks Belçikaya qarşı işi üzrə qərarında bildirmişdir. Məhz bu baxımdan məhkəmələr ailə mübahisələrində ailə üzvlərin maraqlarını təhlil edərkən bu sosial birliyin hər bir üzvünün qanuni maraqlarını nəzərə almalıdırlar. Təbii ki, ailə üzvləri arasında ən vacibi uşaqdır. İHAM Drenk Çexiya Respublikasına qarşı işi üzrə 2014-cü il 04 sentyabr tarixli qərarında bildirdi ki, məhkəmələr ailə mübahisələrində valideyn və uşaq maraqları arasında balansı əldə etməlidirlər və bu halda uşağın marağı üstün olmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 34-cü maddəsinin IV və V hissələri bəyan edir ki, uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar. Öz növbəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi (bundan sonra - Konstitusiya Məhkəməsi) “Azərbaycan Respublikası Ailə Məcəlləsinin 80 və 81-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair” 2015-ci il 27 yanvar tarixli Qərarında qeyd etmişdir ki, “uşaq hüquqlarının həyata keçirilməsi, uşaqların yüksək mənəviyyatlı, hərtərəfli şəxsiyyət kimi formalaşmasına şərait yaradılması Azərbaycan Respublikasının dövlət siyasətinin üstün istiqamətlərindən biridir.

Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir"[3].

Həmin Qərarda Konstitusiya Məhkəməsi alimentin tutulması qaydalarına aydınlıq gətirərək qeyd etmişdir ki, Ailə Məcəlləsinin 81.2-ci maddəsinə uyğun olaraq valideynlərin əlavə xərclərə cəlb olunması qaydasını məhkəmə müəyyən edir. Bu xərclərin miqdarı məhkəmə tərəfindən valideynlərin və uşaqların ailə və maddi vəziyyəti, eləcə də tərəflərin diqqətəlayiq olan digər maraqları nəzərə alınmaqla, hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən olunur. Məhkəmə valideynləri nəinki faktiki çəkilmiş xərclərdə iştiraka, habelə gələcəkdə çəkilməsi zəruri olan xərclərə də cəlb edə bilər (Ailə Məcəlləsinin 81.3- cü maddəsi). Bu barədə məhkəməyə müraciət edən şəxs gələcəkdə çəkilməsi zəruri olan xərcləri mötəbər sübutlarla əsaslandırmalıdır. Valideynlərin verməli olduğu əlavə xərclərin miqdarı hər bir işin konkret halından asılıdır, əlavə xərclər dəyişməz deyildir. Belə ki, sonralar daha yüksək xərclərin çəkilməsi tələb edilərsə, bu məqsədlə təkrarən məhkəməyə müraciət etmək imkanı istisna edilmir.

Konstitusiya Məhkəməsi bu Qərarla xüsusi qayğıya ehtiyacı olan uşaqların təminatını qanunvericiliyə müvafiq valideyn borcu kimi şərh etdi, valideynlərdən tutulan digər xərcləri isə məhkəmələrin səlahiyyətinə aid etdi.

Ümumiyyətlə, Konstitusiya Məhkəməsi sosial ədalət prinsipinin təminatı məsələsini daha çox qanunvericilik orqanının səlahiyyətinə aid edir. Məsələn, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Konstitusiya Məhkəməsinə müraciət edərək mirasda məcburi pay almaq hüququ olan şəxslərin (daha çox ailə üzvlər olan uşaqların)dairəsini mülkiyyət hüququ baxımından daraltmağı təklif etmişdir.

Konstitusiya Məhkəməsi "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2011-ci il 20 oktyabr tarixli Qərarında bildirdi ki, Mülki Məcəllənin 1193-cü maddəsi hüquq sisteminin ayrılmaz tərkib hissəsi olan sosial ədalətlilik prinsipi baxımından Konstitusiyanın 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II, III və V hissələrinə uyğun hesab edilsin. Mirasda məcburi pay almaq hüququ olan şəxslərin dairəsi və vərəsələrin məcburi payının həcminin dəyişdirilməsi məsələsini zamanın tələbi baxımından Azərbaycan Respublikasının Milli Məclisi öz səlahiyyəti çərçivəsində müəyyən edə bilər[4].

Konstitusiyanın 17-ci maddəsinin I hissəsinə əsasən cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Konstitusiyanın 34- cü maddəsi bəyan edir ki, nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Nikah və ailə dövlətin himayəsindədir. Ər ilə arvadın hüquqları bərabərdir.



Ailə Məcəlləsinin 1.3-cü maddəsinə əsasən isə ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir.

Məhz qanunvericiliyi rəhbər tutaraq Konstitusiya Məhkəməsi ailənin qorunması ilə əlaqədar bir sıra qərarlar qəbul etmişdir. Bu qərarlarda Konstitusiya Məhkəməsi mahiyyət etibarı ilə boşanma prosesinin həyata keçirilməsi prosesini icra orqanlarına yox məhkəmələrin səlahiyyətinə aid edilməsini üstün hesab etmişdir.

Əksər Avropa ölkələrində boşanma prosesi tam olaraq məhkəmələrin səlahiyyətindədir. Məsələn, Almaniyanın Mülki Məcəlləsinin tələblərinə əsasən boşanma yalnız məhkəmə qaydasında həyata keçirilir və hətta həmin Məcəllənin 1567 § əsasən boşananlar məhkəmədə bir il ayrılıqda yaşadığını sübut etməlidirlər.

Konstitusiya Məhkəməsi də "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 17.2.3-cü maddəsinin və 182-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 2013- cü il 9 iyul tarixli Qərarında boşanma prosesində üstünlüyü məhkəmə araşdırmasına vermişdir.

Belə ki, Ombudsmanın sorğusu əsasında Ailə Məcəlləsinin 17.2.3-cü maddəsi məhkəmə müdafiəsi baxımından testdən keçirilməsi təklif edildi. Həmin maddəyə müvafiq olaraq yetkinlik yaşına çatmayan ümumi uşaqlarının olmasından asılı olmayaraq ərin (arvadın) ərizəsi əsasında nikaha xitam verilməsi ər (arvad) cinayət törətməyə görə ən azı 3 il müddətinə azadlıqdan məhrum olunduqda müvafiq icra hakimiyyəti orqanında aparılır.

Konstitusiya Məhkəməsi bu iş üzrəqərara gəldi ki, nikah və ailə hüquqlarının məhkəmə təminatı ailə qanunvericiliyinin əsasını təşkil edən "ər və arvadınhüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunması və bu hüquqların məhkəmədə müdafiəsi imkanları" prinsipindən və Konstitusiyanın 60-cı maddəsinin I hissəsində təsbit olunan hər kəsin hüquq və azadlıqlarının məhkəmə müdafiəsi hüququndan irəli gəlir. Məhz bu baxımdan Ailə Məcəlləsinin 17.2.3-cü maddəsi Konstitusiyanın hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verən 60-cı maddəsinin I hissəsinə uyğun olmadığından qüvvədən düşmüş hesab edildi[5].

Konstitusiya Məhkəməsinin digər "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 15-ci maddəsininşərh edilməsinə dair" 2015-ci il 16 oktyabr tarixli Qərarında bildirdi ki, "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 15-ci maddəsinin "uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz" müddəası uşağın ölü doğulduğu və ya doğulduqdan sonra 1 il müddətində öldüyü halları da ehtiva edir"[6].

Konstitusiya Məhkəməsinin qeyd edilən qərarları ailə münasibətlərinin sabitliyinə, ailə dəyərlərinin qorunmasına və ailələrdə yarana bilən mübahisələrin ədalətli həll edilməsinə yönəliblər. Ailə mübahisələri ilə bağlı məhkəmə təcrübəsinin təhlili göstərir ki, əksər bu mübahisələr mülki iddia ilə əlaqəlidir. Təbii ki, mübahisələrin ədalətli həlli ərlə arvad arasında nikah müqaviləsinin olmamasından birbaşa asılıdır. Məsələn, nikah müqaviləsinin olmaması məhkəmələrdə aliment tələbini obyektiv qiymətləndirməyə çətinlik yaradır. Bu halda məhkəmələr aliment kimi sabit pul məbləği müəyyənləşdirmək məcburiyyətində qalır.

Digər problem boşanmış qadınların yaşayış yerindən məhrum olmalarıdır. Yalnız Konstitusiya Məhkəməsində Mülki Məcəllənin 228-ci maddəsinin şərhi ilə 6-dan çox işə baxılıb. Həmin maddədə qeyd edilir ki, nikaha girən şəxslər, mülkiyyətçi ilə notarial qaydada təsdiq olunmuş müqavilə bağlamalıdır. Lakin təcrübədə çox nadir hallarda bu fakt baş verir. Nikah bağlandıqdan sonra qadın həyat yoldaşının valideyinlərinin mülkiyyətində olan mənzilə gəlin gəlir və heç də müqavilə bağlamaq haqda düşünmür. Boşanma nəticəsində isə yalnız mülkiyyətçinin iradəsindən asılı olaraq müvəqqəti olaraq istifadə hüququnu əldə edə bilər. Yemin Mənzil Məcəlləsinin şərtlərinə əsasən isə mülkiyyətçi ilə notarial müqavilə olmadığı halda heç kompensasiya almaq hüququndan da məhrum olur.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.1 və 228.2-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.1 və 30.2-ci maddələrinin şərh edilməsinə dair" 2014-cü il 16 dekabr tarixli Qərarında Mülki Məcəllədə "istifadə" sözünün mahiyyətcə müxtəlif institutlarla bağlı müddəalarda geniş şəkildə işlədilməsini qeyd edərək, "istifadə hüququ" ifadəsinin əmlak hüquqlarının hər hansı bir növünü deyil, müəyyən bir hüququn həyata keçirilmə şəklini (formasını) ifadə etdiyini göstərmişdir[7].

Mülki Məcəllənin 228-ci maddəsi istifadə hüququna xitam verildikdə kompensasiyanın ödənilməsini nəzərdə tutur. Lakin bu o halda baş verə bilər ki, istifadə hüququna xitam verilən şəxsin digər yaşayış yeri olmasın. Konstitusiya Məhkəməsi Mülki Məcəllənin 228-ci maddəsilə əlaqədar sonuncu "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə əsasən əmələ gələn istifadə hüququna xitam verilməsinə dair" 2016-cı il 29 mart tarixli Qərarında bildirdi ki, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə əsasən əmələ gələn keçmiş ailə üzvünün yaşayış binasının tərkib hissəsindən istifadə hüququna müvafiq kompensasiya ödənilmədən xitam verilməsi həmin hüququn əldə edilməsini zəruri edən əsas (yaşayış sahəsinə ehtiyac) aradan qalxdıqda mümkündür" [8].

Sonda qeyd etmək lazımdır ki, Konstitusiya Məhkəməsi subsidiar orqandır. İlk növbədə ona görə ki, mübahisəyə mahiyyəti üzrə baxılmır və konstitusiya məhkəmələri şikayətçinin maraqlarından daha çox hüquq sisteminin konstitusionallaşma tələbini əsas götürür.

Subsidiarlıq daha çox beynəlxalq ədalət mühakiməsi orqanlarına məxsusdur. Lakin konstitusiya məhkəmələri də özlərinin xüsusi məhkəmə icraatı xarakterinə görə dövlətlərin daxilihüquq sistemlərində insan hüquqların müdafiəsi vasitəsi qismində əlavə fakültativ vasitə kimi fəaliyyət göstərirlər.

***Konstitusiya Məhkəməsinin daxili hüquq sistemində sonuncu instansiya kimi nəzərdə tutulmaması onun xüsusi icraat xarakteri ilə bağlıdır. Nisbi diskretsion səlahiyyətlərə malik olan Konstitusiya Məhkəməsi konstitusion şikayətlərə baxılmasında üstünlüyü daha çox mübahisənin geniş ictimai tələbata səbəb olmasına verir. Məhz buna görə Konstitusiya Məhkəməsinə ailə hüquqların müdafiəsi ilə müraciət və ya şikayət ünvanlayanda həmin problemin geniş aktuallığı qeyd edilməlidir.***



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi
nazirinin müavini Mətin Kərimli

# Ailələrin sosial maraqlarına toxunan məsələlərin həlli

Ailə institutu tarix boyu dövlətlərin siyasi, sosial-iqtisadi, mədəni mühitinin formalaşmasında mühüm rol oynamışdır. Ailə cəmiyyətin aparıcı qüvvəsi olan vətəndaşları yetişdirir, dəyərlər sistemini formalaşdırır, sosial münasibətlərin nizamlayıcısı rolunda çıxış edir. Bir sözlə, güclü ailə güclü dövlət deməkdir. Təsadüfi deyil ki, ailələrin rifahının təmin olunması, onların sosial müdafiəsi ilə bağlı məsələlər hökumətlərin gündəliyində ən yüksək yerlərdən birində durur.

Müasir dövrdə ailə institutunun rastlaşdığı problemlər özünü əsasən ənənəvi dəyərlər sistemini və ailə modelini təftiş etmək cəhdlərində, sosial-iqtisadi təbəqələşmədə, ailə gəlirlərinin azalmasında, demoqrafik tarazlığın pozulmasında, ailə üzvlərinin sağlamlıq vəziyyətinin pisləşməsində, ailədaxili zorakılıqda və s. göstərir. Göründüyü kimi, bu problemlərin bir çoxu sosial xarakterlidir və dünyada qəbul olunmuş ailələrin gücləndirilməsi proqramları məhz, bu kimi riskləri aradan qaldırmağa istiqamətlənir.

Azərbaycanda ailə məhfumu hər zaman müqəddəs sayılmışdır. Ölkə Konstitusiyasına əsasən, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir, vətəndaşların sosial müdafiəsinin təşkili dövlətin qarşıya qoyduğu başlıca vəzifədir. Bunun üçün sosial müdafiə sisteminin təkmilləşdirilməsi və milli qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində xeyli iş görülmüş və bu işlər davam etdirilməkdədir.

Təkcə, cari ilin yanvar-mart aylarında sosial ödənişlərin artırılması sahəsində Azərbaycan Prezidenti tərəfindən imzalanmış 30-dan çox fərman və sərəncamların icrası 4 milyondan artıq şəxsə şamil olunmuşdur. Ölkə başçısının müvafiq fərman və sərəncamlarına əsasən əhaliyə ödənilən sosial müavinətlər, əmək pensiyalarının baza hissəsi, məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətlər, təqaüdlər, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları orta hesabla 10 faiz artırılmışdır. Böyük Vətən müharibəsi əlillərinin, 20 Yanvar və Çernobıl əlillərinin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir.

Respublikamızda dövlət uşaq müəssisələrində valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 9,8 mindən çox uşaq dövlət himayəsində yaşayır. Bəli, məhz dövlət bu uşaqların ailəsidir. Ötən ildə dövlət uşaq müəssisələrini tərk etmiş məzunların müvafiq yaşayış yeri ilə təmin olunması məqsədilə Abşeron rayonunun Masazır qəsəbəsində 13 mərtəbəli, 120 mənzilli “Məzun evi” sosial müəssisəsi inşa edilərək həmin kateqoriyadan olan gənclərin istifadəsinə verilmişdir. Gündəlikdə duran məsələlərdən biri də "Məzun evi"ndə yaşayan gənclərin məşğulluğunun təminatı üçün onları aktiv məşğulluq tədbirlərinə, o cümlədən əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı kurslarına cəlb etməkdir.

“Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən şəhid ailələri və müharibə əlilləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə inşa olunan yaşayış binalarında mənzillə təmin edilirlər. İndiyədək Nazirlik tərəfindən 5329 ailə mənzillə təmin edilmişdir ki, onlardan 4838 ailə Qarabağ müharibəsi əlili və şəhid ailəsidir. Bundan əlavə, ötən ilin dekabr ayında Nazirliyin sifarişi ilə Nərimanov rayonunda tikilmiş 12 mərtəbəli 132 mənzilli yaşayış evi gözdən əlil şəxslərin istifadəsinə verilmişdir.

Ailələrin rifahının təmin olunmasında məşğulluğun rolu danılmazdır. Ölkəmizdə işsizliyin aradan qaldırılması, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində uğurlu tədbirlər həyata keçirilməsi davam etdirilir. 2015-ci il ərizində Dövlət Məşğulluq Xidmətinin yerli orqanları tərəfindən işaxtaran kimi qeydiyyata alınmış 59252 nəfərin 38936 nəfərinə işlə təmin olunmasında köməklik göstərilmiş, 4147 nəfər peşə hazırlığı kursuna cəlb olunmuşdur. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2016-cı il 7 aprel tarixli 1941 nömrəli Sərəncamına əsasən əhalinin özünü məşğulluğuna köməyin göstərilməsi məqsədi ilə Prezidentin ehtiyat fondundan 6 milyon manat vəsait ayrılmışdır ki, bu vəsait hesabına ölkə üzrə təqribən 1400 ailənin özünüməşğulluq proqramlarına cəlb olunması təmin ediləcəkdir.

Ailələrin sosial cəhətdən həssas qruplardan olan üzvlərinin əmək bazarına çıxış imkanlarına malik olmasına şəraitin yaradılması da daim diqqətdə saxlanılır. 2009-2015-ci illərdə Nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarına müraciət edən 2468 nəfər əlilliyi olan gənclərin 1089 nəfəri işlə təmin olunmuş, 60 nəfəri isə ödənişli ictimai işlərə göndərilmişdir. Paytaxtın Sabunçu rayonunun Ramana qəsəbəsindəki Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində yaradılan şərait də bir daha sağlamlıq imkanları məhdud gənclərin dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu nümayiş etdirir. Mərkəz tərəfindən 2015-ci ildə 378 nəfər 10 peşə istiqaməti üzrə peşə hazırlığına cəlb edilmişdir.

Azərbaycan Respublikasında sosial təminat sisteminin gücləndirilməsi və aztəminatlı ailələrin maddi rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən ən mühüm tədbirlərdən biri ünvanlı dövlət sosial yardımı mexanizminin tətbiq edilməsidir. 2006-cı ildən bütün respublika üzrə ünvanlı dövlət sosial yardımının təyinatına başlanılmışdır. Vətəndaşların sosial təminat sahəsində sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxışının təmin edilməsi, ünvanlı dövlət sosial yardımı üzrə dövlət orqanlarının fəaliyyətinin innovativ texnologiyaların tətbiqi ilə qabaqcıl dünya təcrübəsinə uyğun təşkil edilməsi və bu əsasda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" 2015-ci il 23 fevral tarixli 477 nömrəli Fərman imzalanmışdır. Fərmanın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) yaradılmış, ünvanlı dövlət sosial yardımının alınması üçün müraciətlər üzrə tələb olunan arayış və məlumatların müvafiq dövlət qurumlarından elektron formada nazirlik tərəfindən əldə olunması təmin edilmişdir. Cari ilin 1 aprel tarixinə 488558 üzvü olan 113417 ailəyə ayda orta hesabla 151 manat məbləğində sosial yardım təyin edilmişdir.

Hazırda ölkə üzrə ödənilən 30-a yaxın adda sosial müavinətlər içərisində uşaqlı ailələrə ödənilən müavinətlər çoxluq təşkil edir. Uşağın anadan olmasına görə, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə, 3 yaşınadək 53 uşağa qulluğa görə sosial məzuniyyətdə olan qadınlara, beşdən çox uşağı olan qadınlara, müddətli hərbi xidmətdə olanların uşaqlarına, müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl AES qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına şəhid uşaqlarına, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə (uşaqlar daxil olmaqla) müalicə üçün müavinətlər ödənilir. Cari ilin 1 aprel tarixinə olan məlumata görə Nazirlik tərəfindən 353845 nəfərə sosial müavinət ödənilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 avqust 1993-cü il tarixli 433 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi nəqliyyat vasitəsi almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında" Təlimata əsasən xüsusi nəqliyyat vasitəsinə tibbi göstəriş barədə tibbi sosial ekspert komissiyasının rəyi olduğu halda müharibə əlillərinə Nazirlik tərəfindən növbəlilik qaydasında avtomobil verilir. 1998-ci ildən bu günədək 5750 nəfər müharibə əlili avtomobillə təmin edilmişdir.

Çətin həyat şəraitində olan şəxslərin və onların ailələrinin sosial müdafiəsinin təmin edilməsi məqsədilə artıq 4 ildir ki, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dövlət sifarişi ilə həssas əhali qruplarından olan şəxslərin (əlillər, sağlamlıq imkanları məhdud uşaqlar, valideyn himayəsindən məhrum uşaqlar, sosial təhlükəli vəziyyətdə olan baxımsız uşaqlar, qanunla münaqişədə olan uşaqlar və s.) çox olduğu regionlarda onların sosial xidmətlərlə təmin edilməsi, sosial reabilitasiyası, ailələrinə dəstək göstərilməsi məqsədilə bir sıra sosial layihələr həyata keçirilir. Əgər 2013-cü ildə 15 prioritet istiqamət üzrə ölkənin 19 şəhər və rayonunda 30 layihə həyata keçirilmişdirsə, 2014-cü ildə 23 prioritet istiqamət üzrə 28 qeyri-hökumət təşkilatı tərəfindən 32, 2015-ci ildə 24 prioritet istiqamət üzrə 23 qeyri-hökumət təşkilatı tərəfindən 33 layihə icra edilmişdir. İlkin olaraq həyata keçirilən layihələr iki əsas istiqaməti - sağlamlıq imkanları məhdud uşaqların və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların sosial reabilitasiyasını və onların ailələrinə dəstək xidmətlərinin göstərilməsini nəzərdə tuturdusa, sonradan digər kateqoriyadan olan çətin həyat şəraitində olan şəxslərə sosial xidmətlərin təşkili, onların ölkə daxilində və ölkə hüdudlarından kənarda reabilitasiya və müalicəsinin təmin edilməsi, sanatoriya-kurort və müalicə müəssisələrinə yollayışların alınması, asudə vaxtlarının təşkili məqsədi ilə istirahət zonalarına göndərilməsi layihələri də icra edilmişdir. Ümumiyyətlə, sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin əsas məqsədi həssas kateqoriyadan olan əhali qruplarından olan şəxslərə sosial xidmətlərin təşkili, onların ailələrinə dəstək xidmətlərinin göstərilməsi, problemlərinin həlli məqsədilə müvafiq qurumlara yönləndirilməsi, uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması, çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi, insan alverinin və məcburi əməyin qarşısının alınması, ölkədə insan alveri və məcburi əməyin, o cümlədən məişət zorakılığının potensial və ehtimal olunan qurbanlarına hüquqi, sosial, tibbi, psixoloji yardımın göstərilməsi yolu ilə onların sosial rifah halının

yaxşılaşdırılması, əhalinin digər kateqoriyaları ilə bərabərsizliyinin aradan qaldırılmasından ibarətdir. Bundan əlavə layihələrin icrası istiqamətində həssas əhali qruplarından olan şəxslərə və onların ailələrinin problemlərinə ictimaiyyətin diqqətinin artırılması üçün təbliğat kampaniyaları təşkil edilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2013-cü ildən etibarən "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə Günərzi mərkəzlərin xidmətinin göstərilməsi" adlı layihə həyata keçirilir. Mərkəzlərə əsasən mərkəzin yerləşdiyi ərazidə yaşayan aztəminatlı ailələrin uşaqları, hər iki valideynini itirmiş və aztəminatlı genişlənmiş ailənin (nənə, baba, əmi, bibi, dayı, xala, yetkinlik yaşına çatmış bacı və ya qardaş) himayəsində olan uşaqlar qəbul edilirlər. 2013-2015-ci illərdə icra edilən layihələr aztəminatlı ailədən olan 1000 nəfərdən artıq dövlət uşaq müəssisələrinə düşmə riski yüksək olan uşaq və onların ailələrini əhatə etmişdir. Cari ildə də ölkənin 13 şəhər və rayonunda layihənin icrası davam etdirilir. Bu xidmətlərə uşaqların qidalanması, onların maraq və bacarıqlarından asılı olaraq dərnəklərə cəlb edilməsi, asudə vaxtlarının səmərəli təşkili və ev tapşırıqlarının hazırlanmasına kömək edilməsi, gündəlik həyat vərdişlərinin aşılanması, qavrayış, emosional və fiziki inkişafına və onların sosial uyğunlaşmasına yardım, dərketmə bacarıqlarının inkişaf etdirilməsi aiddir. Xidmətlərə ilk növbədə aztəminatlı, təkvalideynli ailələrin uşaqlarının cəlb edilməsi layihənin həmin ailələrin büdcəsinə də faydasını təmin edir.

Sağlamlıq vəziyyətlərinin yaxşılaşdırılması, hüquqi yardım göstərilməsi, həyat səviyyəsinin qorunması məqsədilə Sabunçu rayonunun Zabrat qəsəbəsi ərazisində yetkinlik yaşına çatmayan və risk qrupuna daxil olan uşaqlar üçün hər biri 50 yerlik ixtisaslaşmış reabilitasiya mərkəzi və sosial sığınacaq inşa edilmişdir. Bu müəssisələr yetkinlik yaşına çatmayanları kimsisizlik və nəzarətsizliyə gətirib çıxarmış səbəblərin aşkar edilərək aradan götürülməsinə, çətin həyat şəraitinə düşmüş uşaqların müvəqqəti yaşayışının təmin olunmasına xidmət edəcəkdir. Eyni zamanda müvəqqəti yaşayış yerində onların sosial statuslarının bərpası və ailələrinə qayıtmasına yardım olunması, həmçinin valideynlərinə və ya digər qanuni nümayəndələrinə sosial, psixoloji və digər xidmətlərin göstərilməsi təmin olunacaqdır.

Müasir dövrün ən aktual problemlərindən biri də ailədaxili zorakılıqdır. Ölkədə bununla mübarizənin kompleks şəkildə həyata keçirilməsi, məişət zorakılığının profilaktikasının təmin edilməsi məqsədilə 2010-cu ilin 22 iyun tarixində “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda məişət zorakılığının qurbanı olan şəxslərin sosial və hüquqi müdafiəsi, eləcə də məişət zorakılığının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi nəzərdə tutulur. Uşaqlara qarşı zorakılıq hallarının aradan qaldırılması və zorakılığa məruz qalmış uşaqların reabilitasiyası məqsədilə 2011-ci ilin avqust ayında Azərbaycanda ilk dəfə “Zorakılığın və Cinayətin Qurbanı olan Uşaq və Gənclər üçün Psixo-Sosial Reabilitasiya Mərkəzi” yaradılmışdır. Mərkəzə 5-23 yaş arası müxtəlif növ zorakılıq və cinayətin qurbanı olmuş və ya risk altında olan uşaq və gənclər qəbul edilirlər. Mərkəzdə həmçinin fiziki, psixoloji və ya cinsi zorakılığa məruz qalmış və etinasızlıqdan əziyyət çəkən uşaqların təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvəqqəti sığınacaq fəaliyyət göstərir.

Ötən müddət ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım göstərən 10 qeyri-dövlət mərkəzi akkreditə edilmişdir. Bu mərkəzlər yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, əlilliyi olan qadın və uşaqların ailədə yaşadığı zorakılığın və onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, onların hüquqi yardımla təmin edilməsi və s. istiqamətlərdə fəaliyyət göstərirlər.

Regionlarda ailədaxili zorakılıq qurbanı olan uşaqların sosial, psixoloji və hüquqi reabilitasiyasının təmin edilməsi məqsədilə Nazirliyin dəstəyi ilə Gəncə və Lənkəran şəhərləri, həmçinin Ucar rayonunda təsis edilmiş “Məişət zorakılığına məruz qalmış uşaq və gənclər üçün Regional Sosial Reabilitasiya Mərkəzi” tərəfindən cinsi, fiziki, psixoloji və emosional zorakılıq, habelə etinasızlıqla üzləşmiş, əməyin istismarı ilə bağlı fəaliyyətlərə sövq edilmiş, işgəncə, kobud və alçaldıcı rəftara, məcburi yerdəyişməyə məruz qalmış, valideynləri və ya digər ailə üzvlərinin itkisindən psixoloji sarsıntı keçirmiş uşaq və gənclər, habelə onların ailələri sosial, psixoloji və hüquqi xidmətlərlə təmin edilmişlər.

Ümumilikdə, dövlətin sosial siyasətinin əsas məqsədi sosial təzadların olmadığı və ya kəskin münaqişələrsiz həll edildiyi yüksək həyat səviyyəsinə malik cəmiyyət formalaşdırmaqdan ibarətdir. Buna isə sağlam cəmiyyətin və güclü dövlətin təməli hesab edilən ailələrin hər bir üzvündə fəal həyat mövqeyinin formalaşdırılması, cəmiyyətin ümumi rifahının yüksəldilməsi, insanların tələbatlarının və maraqlarının ödənilməsi üçün şəraitin yaradılması, həssas əhali qruplarının sosial müdafiəsinin və reabilitasiyasının layiqli şəkildə təşkilinin təmin edilməsi yolu ilə nail olmaq olar.



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, "Simurq" Azərbaycan mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədov

# Azərbaycanda ailə mədəniyyəti və müasirlik

Şəxsiyyət və cəmiyyət üçün ailə mədəniyyətinin əhəmiyyətini qiymətləndirmək çox çətindir. Ailə qurma fəlsəfəsi, ailənin idarəolunması mədəniyyəti, onun məqsədləri, vəzifələri və metodları, ailənin davranışı mədəniyyəti və etik kodeksi, ər-arvadın qarşılıqlı münasibətləri mədəniyyəti, uşaqların təhsili və tərbiyəsi məsələləri Azərbaycanın hər bir mədəni insanı, ailə başçısı, təhsil və tərbiyə idarələrinin diqqət mərkəzində olmalıdır.

Ulu öndər Heydər Əliyev Azərbaycanda ailə mədəniyyəti haqqında həmişə böyük qayğı ilə yanaşırdı. Məhz o, ilk dəfə bu mühüm dövlət idarəçiliyi sahəsini dövlət siyasəti səviyyəsinə yüksəltmişdir. Ulu öndərin layiqli davamçısı, prezident İlham Əliyev ölkəmizdə azərbaycançılıq ideologiyasının və insan kapitalının formalaşması, uşaqların və gənclərin inkişafı üçün fundamental əhəmiyyət kəsb edən, alternativi olmayan bu kursu uğurla davam edir və inkişaf etdirir.

Milli maraqlarımız, ölkəmizin davamlı və təhlükəsiz inkişafına, onun etibarlı gələcəyinə xidmət edən bu dövlət siyasətinin həyata keçirilməsində aparıcı rolu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi oynayır. Azərbaycanda yüksək ruhi (əqli və mənəvi) mədəniyyətin inkişafı, uşaqların düzgün etik və vətənpərvər tərbiyəsi, eyni zamanda, ölkəmizdə multikulturalizm və insan kapitalının inkişafı dövlət siyasətinin uğurla həyata keçirilməsi üçün başlıca əhəmiyyət kəsb edir.

Şübhəsiz ki, yüksək ruhi mədəniyyət sahibi olan şəxsiyyətin formalaşması, vətəndaşın əmələ gəlməsində, böyük rolu sosial mühit – məktəb və müəllimlər, əmək kollektivi, cəmiyyət və dövlətin siyasi rejimi oynayır. Lakin bu prosesdə həlledici rolu ailənin özü oynayır.

Hər bir Azərbaycan ailəsinin əqli və mənəvi mədəniyyəti, onun üzvlərinin anadangəlmə mədəni keyfiyyətlərdən, təhsil, tərbiyə, yaradıcı əməyi, bilik, mənəviyyat, ağıl, vicdan, məhəbbət, inam, habelə biri birinə və başqa insanlara qarşı nəzakət və xeyir əməllərindən toplanır.

Dünya mədəniyyəti və sivilizasiyasının tarixi göstərir ki, ailə, ilkin sivilizasiyalarının təməlini qoymuş, bəşəriyyətin ilk dövlətlərinin timsalıdır. Nəsildən-nəslə insanların sosial təcrübəsi, müxtəlif xalqların və millətlərin nümayəndələrinin ənənələri, ideologiyaları, dini təsəvvürləri, dəyərləri, həyat fəaliyyəti məqsədləri və texnologiyalarının mənimsənildiyi həyat məktəbinə çevrilirdi. Pifaqor həyatı olimpiya oyunlarındakı böyük və izdihamlı toplantı ilə müqayisə edirdi ki, burada bəziləri – şöhrət, digərləri – mənfəət, üçüncülər isə - öz həyatını daha şüurlu qurmaq üçün təcrübə axtarır. Çoxlu sayda müxtəlif xarakterləri, adətləri, taleləri, qanunları, mədəniyyət və sivilizasiyaları öyrənərək, insan öz şüurunu təkmilləşdirir, həyat fəlsəfəsini formalaşdırır, həyat yolunu seçirdi. Mişel Monten deyirdi ki, dünya bir güzgüdür ki insan ona baxmalı və özünü dərk etməlidir. Bu yanaşma ailəyə münasibətdə də düzgündür.

Biz artıq bilirik ki, mədəniyyətin inkişaf amilləri anadagəlmə mədəni keyfiyyətlər, sosial mühit, təbii-coğrafi şərait, tarixi vəziyyət və mədəni mübadilədir. İnsan mədəniyyətinin formalaşdırılması ana bətnində başlayır və ailədə davam edir. Ailə - tərbiyə və təhsil prosesində uşağın təşəkkülünün baş verdiyi sosial mühitin ilk və həm də ən əsas pilləsidir. Onun gələcək həyatının bünövrəsi məhz burada qoyulur, dəyərləri və təsəvvürləri, xarakteri və idealları, intellektual, etik və estetik mədəniyyətinin əsasları formalaşır. Ailə - Con Lokkun əzəl və ən xoş vəziyyət adlandırdığı ilk həyat məktəbi, insan münasibətləri məktəbi, ruhi və maddi mədəniyyət məktəbidir.

Ailə - müxtəlif yaşlı və cinsli doğma insanların böyük olmayan qrupu, həyat əhəmiyyətli şəxsiyyətlərarası ünsiyyətin baş verdiyi "kiçik kollektivdir." Bu, vahid dünyagörüşü və yüksək məqsədlərlə bağlı olan, öz həyatlarının uşaqlarında və nəvələrində davam etdirilməsi, onların rifahı və daha yaxşı gələcəyi haqqında qayğıyla motivləşdirilmiş ruhən yaxın, doğma insanların məhəbbət, dostluq, həmrəylik və birgə dərk edilən həyat məbədidir. Uşaq ailədə ilk addımlarını atır, dil açır, biliklərin və davranış qaydalarının başlanğıcını mənimsəyir, özünün ilk həyat dərslərini alır.

Ailə - cəmiyyətin və dövlətin ən mühüm sosial dəyəridir. Bu, insanın təşəkkülü və inkişafı proseslərinin, əsas etibarilə digər insanların həyatının asılı olduğu cəmiyyətin gələcək liderləri və vətəndaşlarının formalaşmasının baş verdiyi kiçik və böyük insan dünyasıdır. Nəsildən-nəslə ötürülən yazılmamış qanunlar, təsislər və təyinatların

yaşamaq qabiliyyətini və şəxsiyyətin psixologiyası və davranışının formalaşmasına təsir gücünü təmin edərək, ailə onların "translyasiyasını" həyata keçirir. Anadangəlmə keyfiyyətlərin və əldə edilmiş biliklərin, tərbiyə və yaradıcı əməyin nəticəsi kimi, şəxsiyyətin ruhi mədəniyyətinin bünövrəsi məhz ailədə qoyulur. Dövlətin həyat qabiliyyəti bir çox cəhətdən ailə mədəniyyətindən – onun üzvlərinin təhsillilik və etik mədəniyyəti, yaradıcılıq fəaliyyəti və rifah səviyyəsindən asılıdır. Vətəndaşların biliyini və mənəviyyatını, şüurunu və vicdanını, məhəbbəti, inamı və yaxşılığını, yaradıcılığını və rifahını ifadə edən bu ən qiymətli sosial kapital, sosial şərin və sosial sabitsizliyin aradan qaldırılmasının əvəzedilməz vasitəsidir. Ailə mədəniyyəti həm valideynlərin şəxsi mədəniyyətindən, onların bilikləri, bacarıqları, mütəşəkkilliyindən, onların həyat fəlsəfəsi, mənəviyyatı və yaradıcı fəaliyyətindən, həm də bütövlükdə milli mədəniyyətdən, xalqın ənənələri, adətləri, milli psixologiyasından, dinindən asılıdır.

Xoşbəxt ailəni dostluq və məhəbbət hissləri olmadan təsəvvür etmək çətindir. Ailə üzvləri yaxşı qarşılıqlı münasibətlər, qarşılıqlı anlaşma və harmonik inkişafın formalaşdırılması üçün ilkin zəruri şəraiti yaradırlar. Həqiqi dostluq və əsl məhəbbət kimi, xoşbəxt ailəni də heç bir pulla almaq mümkün deyil. Onu yalnız öz zəhmətin və ailə üzvlərinin əməyi ilə qurmaq, yaratmaq, idrakın və qəlbin gücü ilə, ruhi mədəniyyətlə, məhəbbətlə əldə etmək olar. Öz uşaqlarını, öz yaxınlarını xoşbəxt etmədən, ailə həyatında ruhi harmoniyaya nail olmadan, insan özü xoşbəxt ola bilməz.

Ailə, bir sistem kimi, geniş münasibətlər spektri ilə bağlıdır. Bu, valideynlər arasındakı münasibətlər, övladlar arasındakı münasibətlər, valideynlər və övladlar arasındakı münasibətlər, uzunömürlülükdən asılı olaraq, ulu nənələrin və ulu babaların da daxil olduğu müxtəlif nəsil nümayəndələrinin bir ailə çərçivəsi daxilindəki münasibətlərdir. Daha geniş kontekstdə bu, həm də ailənin qohumlarla olan münasibətləridir. Ailənin və onu təşkil edən şəxsiyyətlərin qarşılıqlı əlaqələri mürəkkəb sistemdən ibarətdir ki, onu dərk etmədən ailə münasibətlərini idarə etmək mümkün deyil. Ailə əlaqələrini möhkəmləndirən amillər sırasında mədəni dəyərlər sisteminin vahidliyini, ailənin mahiyyəti və məqsədləri haqqında, uşaqların tərbiyəsinə yanaşmalar haqqında, ər-arvadın rolu, məsuliyyəti və vəzifələri haqqında təsəvvürlərin uyğunluğunu, ər-arvadın emosional ümumiliyini və s. göstərmək olar. Hər bir mədəni ailə insan həyatının dəyərləri və mənası haqqında, öz əcdadlarının cəmiyyət qarşısındakı nailiyyətləri və xidmətləri haqqında, özünün tarixi missiyası, məqsədləri, imkanları və gözləmələri haqqında, şərəfli keçmişi haqqında, övladlarının və yeni nəsillərin ləyaqətli gələcəyi haqqında aydın təsəvvürə malik olmalıdır. Müasir ailənin rifahı, əsas etibarilə ailənin yaşadığı cəmiyyətlə və onu cəmmiyyətlə bağlayan çoxlu sayda görünməz tellərlə - xarici mühitlə qarşılıqlı əlaqəsindən asılıdır. Ailə beynəlxalq münasibətlərin qeyri-rəsmi subyekti də ola bilər və bununla millətin və yaşadığı dövlətin imicinə təsir göstərə bilər. Üzvlərinin səviyyəsi və sosial-siyasi fəallığından asılı olaraq o, xalqların qarşılıqlı anlaşması, həmrəyliyi və əməkdaşlığının inkişafı üçün əlverişli xarici mühitin yaranmasına imkan yaradaraq, beynəlxalq münasibətlər mədəniyyətinə də təsir göstərə bilər.

Ailə idarəçiliyi mədəniyyətinin şərtsiz prioriteti, həm milli mədəniyyətin və sivilizasiyanın ən əhəmiyyətli nailiyyətlərinin mənimsənilməsini, həm də müstəqillik, məsuliyyət və yaradıcılıq fəaliyyəti qabiliyyətlərini nəzərdə tutan şəxsiyyət mədəniyyətinin bütöv, harmonik formalaşdırılmasıdır. Ailənin tərbiyə etdiyi şəxsiyyət ictimai-faydalı fəaliyyətə istiqamətlənməli, onun intellektual və etik mədəniyyət səviyyəsini xarakterizə edən işi bilməklə qərar qəbul etmək qabiliyyətinə malik olmalı, məqsədə nail olmaq üşün ağıllı, düzgün və humanist vasitələr seçməlidir. Yüksək ailə mədəniyyətinin formalaşdırılması sözlə əməlin bütövlüyünə sadiqliyi, "ikili əxlaq" kimi məlum olan - biliklə davranış arasındakı ziddiyyətin aradan qaldırılmasını, makiavellizm (mənəviyyat normalarına məhəl qoymayan, kobud qüvvəyə əsaslanan siyasət) prinsiplərindən şüurlu imtinanı nəzərdə tutur. Ailənin idarə edilməsi mədəniyyətində insanın mədəni dəyərlər sistemi, həyat fəlsəfəsi, dünyagörüşü, əqidələr, ailə etikası, məhəbbət və dostluq böyük rol oynayır.

Ailə mədəniyyəti cəmiyyətdəki destruktiv təzahürlərin və böhranların aradan qaldırılması üçün də böyük əhəmiyyətə malikdir. O heç də həmişə mənəviyyatın qorunması və inkişafı ilə müşayiət olunmayan biliklərin, informasiya mədəniyyətinin, elm, texnologiya, istehsalın sürətli inkişafının xarakterik olduğu, mədəniyyətin eroziyasının, etika və humanizm dəyərlərinin devalvasiyasının yer tutduğu texnogen sivilizasiya şəraitində xüsusilə aktualdır. Dünya mədəniyyəti və sivilizasiyasının inkişaf qanunauyğunluqları, Qədim Romanın süqutu tarixi inandırıcı surətdə təsdiqləyir ki, yüksək etik mədəniyyətə laqeydlik, hədsiz eqoistlik, tamahkarlıq, riyakarlıq, təkəbbür, qəddarlıq, zorakılıq, xəyanət və digər neqativ insan keyfiyyətləri sosial və siyasi gərginliklərə və böhranlara səbəb olur.

Ailənin idarə edilməsi - təbii və zəruri prosesdir, çünki ailə hər hansı digər kollektiv kimi, ümumi məqsədlərə yetişmə üçün qüvvə və maraqların razılaşdırılmasını tələb edir. O, müvafiq həyat fəaliyyəti ideologiyası və texnologiyalarının yaradılmasını, vəzifələrin və gözlənilən nəticələrin müəyyən edilməsini, öhdəliklərin bölüşdürülməsi və səlahiyyətlərin həvalə edilməsini, ailənin hər bir üzvünün motivasiyasını və qiymətləndirilməsini, məhəbbətin və biri-birinə bağlılığın qorunmasını, ailə rifahının möhkəmləndirilməsini nəzərdə tutur. Ailənin inkişafının idarə edilməsi mədəniyyəti - yaxşı təhsili, mənəvi tərbiyəni, uşaqların peşə təlimini və peşəkar inkişafını, ailə münasibətlərinin düzgün formalaşdırılmasını, ailənin digər insanlarla pozitiv əlaqələrinin qurulması üçün şəraitin yaradılmasını nəzərdə tutur. O, həyat fəaliyyətinin fiziki mədəniyyət, tibbi və ekoloji təhlükəsizlik, əmək və istirahət mədəniyyəti sahələrinin tənzimlənməsinə də yardım etməli, əqli və mənəvi mədəniyyətin təkmilləşdirilməsini, etik,

estetik mədəniyyətin və beynəlxalq münasibətlər mədəniyyətinin inkişafını təmin etməlidir. Ailə həyatının tənzimlənməsinin əsas prinsipi hüquq deyil, mənəviyyatdır. Ailə üçün spesifik funksiya ilə tərbiyə və təhsil, ailə büdcəsinin idarə edilməsi, həyat fəaliyyətinin proqram və layihələrinin reallaşdırılması adətən qeyri-formal, qeyri-hüquqi xarakter daşıyır. Ailə mədəniyyəti psixologiyası onların qan qohumluğu ilə əlaqəliliyi, bir-birinə bağlılığı, borc hissi ilə, ənənələrlə, bir-birinin qarşısında və digər insanlar qarşısında, cəmiyyət və dövlət qarşısındakı mənəvi məsuliyyətlə şərtlənir.

Ailə həyatının hər bir tarixi mərhələsində tələbatlar və maraqlar dəyişir, ailə qarşısında duran vəzifələri görməyə və reallaşdırmağa prinsip etibarilə yeni yanaşmalar tələb edən yeni sərait və imkanlar yaranır. Lakin bu zaman ailənin mənəvi prinsipləri və ənənələri həmişə qorunmalıdır. Ailənin rifahı, inkişafı və təhlükəsizliyinə görə məsuliyyət, onun idarə edilməsində aparıcı rol oynayan ailə başçısının üzərinə düşür. Ailə münasibətlərindəki harmoniya bir çox cəhətdən onun şəxsi mədəni səviyyəsindən – intellekti, etikası, iradəsi, xarakteri, enerjisi, məsuliyyəti, xarizmatik keyfiyyətlərindən asılıdır. Ailə başçısı favoritlikdən qaçmalı, qızıl orta həddi gözləməli və ifrata varmamalı, ailənin bütün üzvlərinə qarşı ədalətli, dürüst və alicənab olmalıdır. O, ailənin həyat fəaliyyəti prosesindəki dialektik ziddiyyətləri və gözlənilməz çətinlikləri aradan qaldırmaq üçün lazım olan dözümə və təmkinə malik olmalı, anlaşma və qayğı, nəzakət və dərdə şəriklik göstərməli, natura bütövlüyünə və yumor hissinə malik olmalıdır.

Məlum olduğu kimi, ailədə insanın davranış mədəniyyəti onun intellektual və etik mədəniyyəti, onun gerçəkliyə olan bütün münasibətlər sistemi ilə, hər şeydən əvvəl, onun ətrafdakı insanlara münasibəti ilə müəyyən edilir. Ailə - insan qəlbinin qorunduğu ocaqdır. Buna görə də məhz ailədə qarşılıqlı anlaşma, ailənin hər bir üzvünü narahat edən problemlərin müzakirəsi və həlli çox vacibdir. Onda bizi başa düşən başqa insanların, dostların, qohumların axtarışına ehtiyac qalmayacaq, deməli, uzaqlaşma üçün şərait yaranmayacaq.

Ailədə davranış şəxsiyyətin daxili mədəniyyətini, onun xarakteri, temperamenti, tələbatları, istəklərini, dünyagörüşünü, etik prinsipləri, emosiyaları və hisslərini, əhval-ruhiyyəsini əks etdirir. Belə münasibətin meyarı məhəbbət, insanlıq, humanizmdir. Mədəni insan özünün pis əhval-ruhiyyəsini nümayiş etdirməməli və öz qayğıları və həyəcanları ilə ailə üzvlərinə əziyyət verməməli yaxud onları özünün gur emosiyaları ilə yormamalıdır. O yalnız öz hərəkətlərinə deyil, həm də ailə üzvlərinə və insanın özünə təsir edən sözlərinə fikir verməlidir. Xeyirxah söz və xeyirxah əməl, səmimiyyət, valideynlərini, qardaşları və bacılarını və ailənin digər üzvlərini dinləmək bacarığı - əlverişli ailə münasibətlərini formalaşdırmağın ən yaxşı üsuludur. Bu zaman etik normaları və ailədə davranış qaydalarını bilmək azdır, real həyatda onların təsadüfi xarakter daşımaması, amma ailənin bütün üzvlərinin həyatına kömək edən şəxsiyyət keyfiyyətinə çevrilməsi üçün onlara daim əməl etməyi bacarmaq lazımdır.

Ailə üzvlərində nöqsanları deyil, yaxşı cəhətləri axtarmaq və onların inkişafını stimullaşdırmaq lazımdır. Doğma insanı başa düşmək və onun haqqında düzgün mühakimə üçün onun hərəkətlərinin yaxud münasibətinin səbəbini axtarmaq, öz davranışında əsaslandığı motivlərə nüfuz etmək lazımdır. Bu zaman kənardan özünə də baxmaq, öz xarakterini, vicdanını, dəyərlər sistemini, öz düşüncələrini, niyyətlərini və əməllərini obyektiv qiymətləndirmək çox vacibdir. Bütövlükdə cəmiyyətdə olduğu kimi, insanın ailədəki hərəkətləri həmişə yaxşı düşünülməli, nəzakətliliyi, həssaslığı və müdrikliyi ilə fərqlənməlidir, çünki onlar öz arxasınca müəyyən nəticələri çəkib gətirir. Buna görə də çalışmaq lazımdır ki, onlar həm ailə üzvləri üçün, həm də insanın özü üçün yaxşı nəticələrə malik olsunlar, yaxşı əhval-ruhiyyə, sevinc və ilham mənbəyi olsunlar. Vicdan, məhəbbət, humanizm, xeyirxahlıq, borc, ədalət, şərəf, heysiyyət kimi mənəvi kateqoriyalar aprior xarakter daşıyır, zamanla və ya şəraitdən asılı olaraq dəyişmirlər. Onlar insanın daxili əqidəsinə və keyfiyyətinə çevrilərək, böhran şəraitində və ya mürəkkəb situasiyalarda aydın şəkildə üzə çıxaraq ailənin ruhi mədəniyyətinin güclü mənəvi amili olurlar.

Beləliklə, ailənin möhkəmliyi və rifahı onun etik mədəniyyətindən, onun üzvlərinin davranış kodeksinin əsaslandığı mənəvi prinsiplər və ənənələrdən asılıdır. Yüksək mənəvi prinsiplər əsasında yaşayan Azərbaycan ailəsi mədəniyyətinin tipik göstəriciləri - böyüyə hörmət, uşaqlara məhəbbət, həmrəylik, qarşılıqlı yardım, sədaqət, səbr, məhəbbət, dostluq, qonaqpərvərlikdir. Ailə əxlaq kodeksi aşağıdakıları onun hər bir üzvünün öhdəsinə qoyur:

Ailənin ruhi rahatlığı, maddi rifahı və mənəvi prestijinin saxlanılması üçün zəruri qüvvələri sərf etmək. Ailənin və şəxsiyyətin yüksək ruhi mədəniyyət prinsiplərinə sədaqətini tanış olmayan və yad insanların loyallığından üstün tutmaq. Dürüstlük, ədalət və xeyirxahlıq, böyüklərə hörmət və kiçiklərə məhəbbət, yaşlılar, uşaqlar və əlillər haqqında qayğını nəzərdə tutan yüksək mənəvi həyat prinsiplərinə tərəfdar olmaq. Ailə maraqlarının prioritetliyini yadda saxlayaraq, öz maraqlarını ailə maraqları ilə harmonik surətdə uyğunlaşdırmaq. Ailə üzvləri və dostları tərəfindən göstərilən etimadı yüksək qiymətləndirmək və doğrultmaq. Daim məhəbbət, dostluq və sədaqət, inam və dözüm, hörmət, məsuliyyət və dürüstlük, ailə üzvlərinin sağlamlığına qayğı nümayiş etdirmək. Kamilliyə can atmaq, özündə pozitiv xarakter, kompromisə getmək bacarığı, vicdan, doğruluq, dürüstlük formalaşdırmaq. Ətrafdakılara pislik etməmək, ailədə sağlam və xoş psixoloji mühitin yaradılmasına yardım predmeti vasitəsilə öz hərəkətlərinə şüuru ilə nəzarəti müntəzəm olaraq həyata keçirmək. Qonşular, iş yoldaşları, tanışlar və dostlarla xeyirxah münasibətlər saxlamaq. Qanunun aliliyini qorumaq, cəmiyyət üzvlərinə və legitim hakimiyyətə hörmətlə yanaşmaq, dövlət simvollarına hörmət etmək.

İdealda hər bir ailənin əxlaq kodeksi yalnız ailənin deyil, həm də milli və ümumbəşəri mədəni dəyərləri əks etdirməli, özündə bəşəriyyətin vətənpərvərlik və humanizm ideallarını harmonizasiya etməlidir.

Tərəfimizdən aparılmış sistemli kulturoloji təhlil göstərir ki müasir dünya Azərbaycan ailəsi qarşısında mürəkkəb vəzifələr irəli sürmüşdür. Biz, Azərbaycan xalqı tərəfindən əsrlərlə yaradılmış öz yüksək mənəvi keyfiyyətlərimizi qoruyub saxlamalı, yeni nəsillərə ulu babalarımızın irsini aşılamalı, eyni zamanda dünya sivilizasiyasının yeni şəraitinə uyğunlaşmalı və müasir çağırışlarına cavab verməyə qadir olamalıyıq. Eyni zamanda dünya mədəniyyəti və sivizasiyasının əldə etdiyi nailiyyətlərdən “alovu götürüb, külü atmaq”, o alovu da milli maraqlarımıza uyqun, peşəkar səviyyədə yaradıcı istifadə etməyi bacarmalıyıq.

Azərbaycan xalqının kulturogenezi, cəmiyyətimizin bütün sosial təbəqələrinin harmonik və konverqent inkişafını təmin edən, ənənələrin və mütərəqqi innovasiyaların, elmi cəhətdən əsaslandırılmış və məqsədyönlü kulturoloji sintezi əsasında həyata keçirilməlidir. Bu baxımdan həyata passiv uyqunlaşmaq yox, milli maraqlara uyqun, davamlı və təhlükəsiz inkişaf naminə cəmiyyətin tələbatlarına əsasən xalqın mütərəqqi dəyişdirilməsində fəal iştirak etmək vacibdir. Bunun üçün Azərbaycançılıq ideologiyası, insan kapitalının inkişafı və multikulturalizm kimi milli dəyərlər və məqsədləri nəzərə almaqla, hər bir Azərbaycan ailəsinin mədəniyyətini inkişaf etdirmək lazımdır. Kulturoloji təhsil və maarif vasitəsilə hər bir ailədə, yüksək əqli və mənəvi mədəniyyəti olan şəxsiyyət və liderlərin formalaşdırılmasına kömək etmək olduqca zəruri vəzifədir. Zahiri çağırışlar şəraitində belə bir fəaliyyət xalqımızın yüksək həyat bacarığının, ölkəmizin rəqabətədözümlü inkişafına əvəzsiz yardım olacaq.

Azərbaycanın milli inkişafı tələbatları və məqsədlərinin sistemli kulturoloji təhlilinə əsaslanaraq, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinə və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına müraciət edərək, təklif etmək istərdim ki, “Simurq” Azərbaycan mədəniyyət Assosiasiyası ilə birlikdə, Assosiasiyanın «Homo culturalis» antropoloji modeli əsasında yüksək mədəniyyətli insanın formalaşmasına yönəlmiş Milli proqramının hazırlanması və Azərbaycan xalqının həyat vəfəaliyyətində tətbiq edilməsi məsələsini nəzərdən keçirəsiniz.

Bu strateji milli vəzifənin reallaşmasında hər bir Azərbaycan ailəsi, dövlət və biznes strukturları, müvafiq qeyri-hökumət təşkilatları, elmi, pedaqoji və yaradıcı ziyalılar, qadınlar və gənclər yaxından iştirak etməlidirlər. Bəlkə də bu strateji vəzifənin həllini Azərbaycan Mədəniyyətinin Milli İnkişafı Onilliyi çərçivəsində təmin etmək məsələsini nəzərdən keçirmək də məqsədəuyğun olardı.

«Homo culturalis» Milli proqramı çərçivəsində “Multikultural Azərbaycanda insan kapitalı” adlı müsabiqə keçirmək və onun nəticələri əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və “Simurq” Azərbaycan mədəniyyət Assosiasiyasının aşağıdakı fəxri diplomlarını vermək dövlət idarəetməsi mədəniyyəti baxımıdan yaxşı bir motivasiya olardı:

“Yüksək mədəniyyətli ailə”

“Yüksək mədəniyyətli qadın”

“Yüksək mədəniyyətli uşaq”

“Yüksək mədəniyyətli insan”

“Yüksək mədəniyyətli idarəedici”

Əminəm ki, ölkəmizdə «Homo culturalis» tipli yüksək bilik, bacarıq, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyətə malik olan antropoloji insan modelinin formalaşdırılması Azərbaycan ailəsinin mədəniyyəti və həyat qabiliyyətinin inkişafına, insan kapitalının tərəqqisi və multikulturalizm dövlət siyasətinin həyata keçirilməsinə, habelə mədəniyyətlərin və sivilizasiyaların dialoquna layiqli töhfə olacaq.




# “Azərbaycan ailəsi” kitabının təqdimatı

Ailənin şəxsiyyətin formalaşmasında və inkişafında əhəmiyyəti böyükdür. Ailə cəmiyyətin insan qruplarının ilkin mərhələsi olub ər-arvadı, uşaqları öz ətrafında birləşdirən insan qrupudur. Ailə təşkilatı cəmiyyətdə ən təsirli formalaşdırıcı mövqeyə malikdir. Ailə birgə yaşayışın ilk modeli olaraq xoşbəxtlik qaynağı, millətin həyatı baxımından müqəddəs bir təməldir. Bu təməlin düzgün qurulması, bu dəyərlərin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi üçün müasir Azərbaycan ailəsi həm yenilikçi, həm də mühafizəkar ruhda olmalıdır.



Azərbaycan ailəsi öz növbəsində möhkəmliyi, sağlamlığı, uzunömürlülüyü ilə dünya ailə modelləri arasında seçilir. Uzun tarixi inkişaf yolu keçmiş, zamanın sınaqlarında süzülərək hər zaman öz fərqliliyini və üstünlüyünü qoruyan Azərbaycan ailəsi gələcək nəsillərə bir ərmağandır. Ailədə yaşadılan adət- ənənələrimiz milli dəyərlərimiz hər bir azərbaycanlı üçün dəyişilməz bir qüvvə olmuş və bunları əks etdirən kitablar çap olunmuşdur.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Respublikasının müstəqilliyinin 25 illiyinə həsr olunmuş “Azərbaycan Ailəsi” adlı kitab oxuculara təqdim edilmişdir. Kitabın təqdimatı 12 may 2016-cı il tarixində keçirilən “Müstəqillik dövründə ailə siyasətinin formalaşması - ənənələr, perspektivlər” adlı elmi-praktiki konfransda baş tutmuşdur.



Kitabda Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan ailə institutu, onun inkişaf tarixi təhlil olunur, zəngin adət-ənənələrə və əxlaqi-mənəvi dəyərlərə söykənən uzunömürlü və möhkəm ailələrin cəmiyyətin inkişafındakı rolundan bəhs edilir. Kitabda həmçinin ailənin forması, quruluşu, ailədə qadınların rolu, qədimliyi ilə bütün ailə modellərindən seçilən adət-ənənələr şərh olunur.

Üç fəsildən ibarət olan kitabın bölmələrində yer alan sağlam ailə haqqında fikirlər əsasən nəsillərin bir-birinə əmanəti olan əxlaqın, mədəniyyətin özündə cəmlədiyi mənəvi dəyərlərə, yüzillərin sınağından çıxmış adət-ənənələrimizə söykənir. Eyni zamanda, Azərbaycanda hər il keçirilən Beynəlxalq Ailə Bayramı haqqında məlumatlar və onları əks etdirən fotoşəkillərə yer ayrılmışdır. Bu xüsusi bayram olduqca əhəmiyyətli dəyərləri özündə birləşdirməklə, dünya miqyasında bütün insanların diqqətinin ailə problemlərinə yönəlməsini təmin edir. Ölkəmizin əksər rayonlarından bu tədbirə toplaşmış nümunəvi ailələr müasir Azərbaycan cəmiyyətinin yüksək inkişaf səviyyəsinin təcəssümüdür. Bayramda görülən işlər, toy ənənələri nümayiş edilir ki, burada eyni zamanda müxtəlif xalqların da adət-ənənələrinin əks olunduğunu görə bilərik.

Azərbaycanda ənənəvi ailələlər böyük nüfuza malik olmuş və əsrlər boyu tarixin müxtəlif mərhələlərində ciddi dəyişikliklər şəraitində belə nüfuzunu, saflığını qorumağı əsas vəzifələri bilmişlər. Xalq adət-ənənələrinə sadiq qalmış ailələr hər zaman yeni yaranmış ailələrə örnək olmuşlar. Azərbaycan ailəsində çoxəsrlik tarixə malik olan “Ağsaqqal” və “Ağbirçək” institutu mövcuddur. Məhz bu institutun fəaliyyəti ilə ailə üzvləri, eləcə də, ailələr arasında ünsiyyətin formalaşmasında, ailə xüsusiyyətlərinin nəsildən-nəsilə ötürülməsində mühüm rol oynayır. Müasir qloballaşma şəraitində uzunömürlü, davamlı ailələrdən bəhs etmək, onlar barədə gənclərə məlumat vermək önəmlidir. “Azərbaycan Ailəsi” kitabında bu mövzuya da toxunulmuş, müxtəlif bölgələrdə yaşayan bir çox uzunömürlü ailələr haqqında geniş məlumatlar və fotoşəkillər oxucu auditoriyasına təqdim edilmişdir.

Bu vəsait bütün yaş təbəqələrindən olan auditoriya üçün nəzərdə tutulmuşdur. Kitab həmçinin, gənclərimiz üçün çox dəyərli, əhəmiyyətli bir material olaraq həm istiqamətverici, həm yol göstəricisi, həm də məsləhətverici olmaqla, ailə həyatından götürülmüş nümunə və təcrübələrlə zəngindir. Kitab azərbaycanlıların milli ailə dəyərlərini öyrənmək istəyənlər, bu sahədə araşdırma aparan tədqiqatçılar, eyni zamanda, geniş oxucu kütləsi üçün faydalı ola bilər.

## 4 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən məhkum qadınlar üçün peşə hazırlığı kursları keçirildi



Komitə mütəmadi olaraq Ədliyyə Nazirliyi Penitensiar Xidməti 4 saylı Cəzaçəkmə Müəssisəsində məhkum qadınların problemlərinin həllinə, onların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər həyata keçirir. Komitə, Ədliyyə Nazirliyi Penitensiar Xidməti, və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti ilə birgə 4 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən qadınların azadlığa hazırlanması, habelə azad olunduqdan sonra onların qısa müddət ərzində işlə təmin olunmalarında köməklik məqsədilə məhkumların istəklərinə uyğun olaraq 19 məhkum qadın üçün 6 oktyabr-28 dekabr 2015-ci il tarixlərində 3 aylıq "aşbaz köməkçisi" üzrə peşə hazırlığı kursu təşkil edilib. 26 yanvar 2016-cı il tarixində isə peşə hazırlığı kursunu uğurla bitirən məhkumların sertifikatla təltif edilməsi mərasimi keçirilib. Tədbirdə həmçinin, məhkum qadınların problemləri dinlənilib, onların həlli istiqamətində işlərin aparılması üçün qeydiyyata alınıb.

## 20 Yanvar faciəsi ilə bağlı tədbirlər təşkil edilib



Komitə hər il olduğu kimi, bu il də faciə qurbanlarını yad etmək, xalqımızın qəhrəmanlıq tarixində xüsusi iz qoymuş 20 yanvar faciəsi həqiqətlərini lazımi səviyyədə gənc nəslə çatdırmaq məqsədilə 19 yanvar 2016-cı il tarixində C.Naxçıvanski adına Hərbi Liseydə tədbir təşkil edib. Tədbirdə bildirilib ki, Azərbaycanın dövlətçilik tarixində 20 Yanvar günü xalqımızın milli müstəqillik, Vətənimizin azadlığı uğrunda mübarizə ruhunun və yenilməz iradəsinin rəmzinə çevrilib. Bu ümummilli hüzn, eyni zamanda, xalqımızın birlik və vəhdətini təcəssüm etdirən qürurlu tarixin ildönümü gününü yüksək səviyyədə qeyd etmək, şəhidlərimizin əziz ruhlarını anmaq bütü vətəndaşlarımızın Vətən qarşısında müqəddəs borcudur.

Həmçinin Uşaq və Ailələrə Dəstək Mərkəzləri də 2( yanvar şəhidlərinin anım günü münasibətilə silsilə tədbirlə keçirib. Tədbirdə Mərkəzin xidmətindən bəhrələnən uşaqla təhsil müəssisələrinin müəllim və şagird kollektivi, müxtəli idarə və təşkilatların nümayəndələri iştirak edib.






## Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş tədbir keçirilib





Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatının Dialoq və Əməkdaşlıq üzrə Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-dən başlayan "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində 25 fevral 2016-cı il tarixində Komitədə tədbir keçirilib. Xocalı haqqında həqiqətin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycanın bütün zəruri addımları atdığını qeyd edən Komitənin sədri Hicran Hüseynova Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra ölkəmizin informasiya blokadasından çıxaraq, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasını vurğulayıb. Komitə sədri bildirib ki, hazırda ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət qurumları, vətəndaşlarımız, xaricdəki soydaşlarımız tərəfindən Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm addımlar atılır. O, bu təbliğat işlərinin aparılmasında Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələrin Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması istiqamətində təqdirəlayiq işləri olduğunu diqqətə çatdırıb. "Xocalı soyqırımı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, nəticələri, soyqırımla bağlı həqiqətlərin geniş miqyasda təbliğ edilməsi, maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, bu hadisələrin hamının yaddaşında həkk edilməsi istiqamətində "Xocalıya Ədalət" kampaniyasının rolu danılmazdır." Daha sonra "Xocalıya Ədalət" Beynəlxalq Kampaniyası İctimai Birliyinin nümayəndəsi Fərid Cəfərov kampaniyanın Xocalı soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət verilməsi istiqamətində həyata keçirdiyi fəaliyyət, soyqırım haqqında hazırlanan müxtəlif təbliğat və maarifləndirmə vasitələri barədə məlumatları diqqətə çatdırıb. Tədbirin sonunda məktəblilərin də iştirakı ilə yekun müzakirələr aparılıb.

Eyni zamanda 23 fevral 2016-cı il tarixində Komitə Sabunçu RİH ilə birgə Xocalı faciəsi qurbanlarının xatirəsinin yad edilməsi, faciə haqqında uşaqların ətraflı məlumatlandırılması məqsədilə Sabunçu rayonunda 11 nömrəli İnteqrasiya təlimli İnternat məktəbinin yuxarı sinif şagirdlərinin, eləcə də "Gələcək" Uşaqların İnkişafına Dəstək İctimai Birliyinin fəal nümayəndələrinin iştirakı ilə tədbir keçirib.



## "Bizim gücümüz birliyimizdədir" adlı layihə



2015-ci ildən etibarən yerli icra hakimiyyətləri ilə birgə cəmiyyət üzvləri arasında Azərbaycan ailəsinə xas dəyərlərin və sağlam həyat tərzinin təbliği, ailələrin asudə vaxtının səmərəli təşkili məqsədilə "Bizim gücümüz birliyimizdədir" adlı maarifləndirmə layihəsi həyata keçirilir. Tədbirlərdə Multikulturalizm–Azərbaycanın Dövlət siyasəti, tolerantlıq mədəniyyətinin təbliği, digər millətlər, milli azlıqlar və etnik qruplardan olan ailələrin tarixi ənənələrinin və milli dəyərlərinin qorunub saxlanılması, Milli-mənəvi və ailə dəyərlərinin təbliği, sağlam həyat tərzinin təbliği, Ailə - məktəb münasibətlərinin düzgün təşkili, Ailə büdcəsinin idarə olunması, Ailə və cəmiyyətdə etik davranış qaydaları kimi mövzular ətrafında müzakirələr aparılır.

Layihə çərçivəsində 2 mart 2016-cı il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Lənkəran Şəhər İH ilə birgə Lənkəran şəhərində konfrans keçirilib. Tədbirdə mövzu ətrafında çıxışlar edilib. Tədbirin ikinci hissəsində iştirakçı ailələr təmsil etdikləri xalqların milli adət-ənənələrindən ibarət konsert proqramı ilə çıxış ediblər.

26 may 2016-cı il tarixində YAP Qadınlar Şurası və Nərimanov rayon İcra Hakimiyyəti ilə birgə 28 may "Respublika günü" ərəfəsində tədbir keçirilib. Tədbirdə Komitənin, YAP Qadınlar Şurasının, Nərimanov RİH-nin, AMEA-nın nümayəndələri, Nərimanov rayon Ağsaqqallar Şurasının üzvləri və eyni zamanda Nərimanov rayonu ərazisində yaşayan nümunəvi ailələr, digər millətləri təmsil edən ailələr iştirak ediblər.





## "Sağlam ailə sağlam gələcəyin təminatıdır" mövzusunda maarifləndirici tədbir keçirilib







11 mart 2016-cı il tarixində Komitə Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Qaradağ rayon İcra Hakimiyyəti ilə birgə Qaradağ rayonu ərazisində yerləşən məktəbləri təmsil edən şagirdlər, eləcə də onların ailələrinin talassemiya və hemofiliya kimi irsi qan xəstəlikləri haqqında maarifləndirilməsi istiqamətində "Sağlam ailə sağlam gələcəyin təminatıdır" mövzusunda tədbir keçirib. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov ölkəmizdə uşaqların icbari dispanserizasiyası, qan donorluğunun inkişafı, irsi qan xəstəlikləri ilə mübarizə istiqamətində görülmüş işlərdən danışıb. Komitə sədri Hicran Hüseynova çıxış edərək sağlam həyat tərzi ilə bağlı kütləvi maarifləndirmə işinin aparılmasının, hemofiliyalı və talassemiyalı uşaqlar üçün donor günlərinin,qan vermə aksiyalarının keçirilməsinin zərurətini qeyd edib. Komitə sədri yeni ailələrin qurulması zamanı yarana biləcək ciddi problemlərin qarşısının alınması üçün nikaha daxil olmadan öncə sağlamlıq haqqında arayışın vacibliyini vurğulayıb. Tədbirdə digər çıxışçılar ölkədə talassemiyanın yayılmasının qarşısının alınması məqsədilə əhalinin maarifləndirilməsinin aparıldığını, bu fəaliyyətin gücləndirilməsi nəticəsində talassemiya hallarının daha tez aşkarlanması barəsində çıxış edərək fikir və tövsiyələrini qeyd ediblər. Eyni zamanda vətəndaşların tibbi müayinəsi keçirilib.



## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Beynəlxalq Qadınlar münasibətilə tədbir keçirdi

Martın 2-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Beynəlxalq Qadınlar Günü münasibətilə Beynəlxalq Muğam Mərkəzində tədbir keçirilib.

Azərbaycanın görkəmli qadınlarının, millət vəkillərinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Prezidenti İlham Əliyevin 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik məktubunu səsləndirib.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycan elminin və mədəniyyətinin inkişafında, ictimai-siyasi sahədə xidmətləri olan bir qrup qadına Azərbaycan Prezidentinin təltiflərini təqdim edib.

Komitə sədri qeyd edib ki, Azərbaycanda qadınlara hər zaman xüsusi münasibət olub. Keçən il keçirilmiş parlament seçkilərində qadınlar çox fəal iştirak ediblər. Hicran xanım qeyd edib ki, gender bərabəliyi və qadınların imkanlarının genişləndirilməsi inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur. O qeyd edib ki, bu gün dünya ölkələrinin qarşısında dayanan əsas məqsədlərdən biri cəmiyyətin inkişafında qadınların daha səmərəli fəaliyyəti üçün imkanların yaradılmasıdır.

Komitə sədri Hicran Hüseynova ölkəmizin Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü fəal işlərlə yanaşı, gender problemlərinin, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirdiyini vurğulayıb. O eyni zamanda qeyd edib ki, beynəlxalq aləmdə Azərbaycan qadınlarını ləyaqətlə təmsil edən Mehriban xanım uşaq və qadın hüquqlarının müdafiəsi, aztəminatlı ailələrə dəstək, elm, təhsil, mədəniyyət və digər sahələrlə bağlı irimiqyaslı layihələrin gerçəkləşdirilməsində xüsusi fəaliyyət göstərir. Bütün bu xüsusiyyətləri ilə birinci xanım Azərbaycan qadınlarına həmişə örnəkdir.

Daha sonra BMT-nin İnkişaf Proqramının ölkəmizdəki rezident əlaqələndiricisi Ercan Murat çıxış edərək Azərbaycanda qadınların inkişafı ilə bağlı bir sıra uğurların əldə edildiyini, bununla yanaşı, problemlərin də olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, ölkədə hələ də erkən nikah halları müşahidə edilir. Bundan başqa, selektiv aborta qarşı mübarizə aparmalı, həmçinin ərləri tərəfindən tərk edilən qadınlar qorunmalıdırlar.

Milli Məclisin deputatları Aqiyə Naxçıvanlı və Hadı Rəcəbli çıxış edərək qadınlarımızı təbrik edib və Azərbaycan qadınlarının bu günə kimi əldə etdiyi uğurları qeyd ediblər.

Çıxışlardan sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdindəki Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin rəhbərləri olan qadınlara səmərəli fəaliyyətlərinə görə Komitənin fəxri fərmanları və mükafatlar təqdim olunub. Tədbir konsert proqramı ilə davam edib.









## "Məzun evi"nin sakinləri ilə görüş





17 mart 2016-cı il tarixində Komitə Abşeron RİH və bir qrup sahibkar qadınla birgə Novruz bayramı ərəfəsində Masazır qəsəbəsindəki Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan "Məzun evi" Sosial Müəssisəsinin sakinləri ilə görüşüb. Görüşdə sakinlərin qayğıları öyrənilib. Tədbirdə çıxış edən Komitə sədri Hicran Hüseynova valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərilən dövlət qayğısından və bu kateqoriyadan olan gənclərin fəal həyat tərzi keçirməsi üçün reallaşdırılan layihələrdən danışıb. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova çıxışında bildirib ki, müəssisə sakinlərinin qayğıları yerli qurumların hər zaman diqqət mərkəzində olub. "Sahibkar qadınlar" İctimai Birliyinin sədri Zemfira Ağayeva isə məzunların işlə bağlı problemlərinin birdəfəlik həllinə hazır olduqlarını deyib. Bildirib ki, bu görüşə respublikamızın 10-dək sahibkar qadını qatılıb. Tədbirdə məzunlara iş yerləri təklif olunub, onlara kompyuter və peşə təhsili almaq imkanı yaradılıb. Sonda ictimai sahədə fəallıq göstərən bir qrup iş adamına Komitənin fəxri fərmanları verilib.



## "Azərbaycan ailəsi-2016" filmlər festivalının açılış mərasimi keçirildi

29 mart 2016-cı il tarixində Komitə, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə "Azərbaycan ailəsi-2016" filmlər festivalının açılış mərasimi keçirilib. Tədbirdə kinematoqrafiya və fotoqrafiya sənətçiliyinin imkanlarından istifadə etməklə dövlət ailə siyasətinin həyata keçirilməsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, mövcud problemlərin işıqlandırılması məqsədilə həyata keçirilən festivalın əhəmiyyəti vurğulanıb. Tədbirin çıxışçıları festivalın hədəfləri, mövcud problemlərin həlli yollarının axtarılması, ailə institutunun daha da gücləndirilməsi haqqında fikirlərini bildiriblər. Festivala olan maraq və diqqətin ildən-ilə daha da artmasının nəticəsi olaraq 2014-cü ildən etibarən festival çərçivəsində "Həyatdan şəkilə" adlı fotomüsabiqənin təşkili də böyük uğurla həyata keçirilir. 7 il ərzində Təşkilat Komitəsinə 209 film və 173 fotoşəkil təqdim edilmiş və bu işlərdən ibarət kino fond yaradılmışdır. 2016-cı ildən isə "Ailə albomu" adlı fotomüsabiqə əlavə olunmuşdur. Festivalın məqsəd və ideyasına uyğun olan bədii, sənədli, animasiya filmləri, sosial çarxlar, televiziya verilişləri və fotoşəkillərin qəbulu aprel ayının 1-dən başlayıb və oktyabr ayının 1-dək davam edəcək.



## “Zorakılığa məruz qalmış uşaqlarla sosial iş və intervyuların aparılması” mövzusunda 2 günlük təlim



30-31 mart 2016-cı il tarixlərində Azərbaycan Sosial İş İctimai Birliyi və Komitənin təşkilatçılığı ilə ABŞ səfirliyinin dəstəyi ilə ABŞ-ın Dominik Universitetinin Sosial İş üzrə professoru xanım Letisya Villarreal-Sosa tərəfindən Komitənin nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin sosial işçiləri üçün “Zorakılığa məruz qalmış uşaqlarla sosial iş və intervyuların aparılması” mövzusunda 2 günlük təlim keçirilib. Təlimdə zorakılıq hallarının qarşısının alınması istiqamətində siyasətin qurulması və həyata keçirilməsi, uşaqlara qarşı zorakılığın növləri, cinsi zorakılığa məruz qalmış uşaqlarla işin təşkili, xüsusilə, onlarla müsahibənin keçirilməsi qaydaları, reablitasiya texnikaları barədə ətraflı məlumat verilib. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

## “Günəş hamı üçündür” adlı layihə



Sağlamlıq imkanları məhdud olan uşaqlara diqqət və qayğının artırılması, onların problemlərinin həllinə cəmiyyətin cəlb olunması, xüsusi qayğıya ehtiyacı olan uşaqları və onların ailələrini müəyyənləşdirmək, onların cəmiyyətə hərtərəfli qoşulması və inkişafını təmin etmək məqsədilə “Günəş hamı üçündür” adlı maarifləndirmə layihəsi həyata keçirilir. 2015-ci il-2016-ci ilin birinci yarısında layihə çərçivəsində Komitədə dəyirmi masa, Təhsil Nazirliyinin nəzdində Nizami rayonunda yerləşən 3 nömrəli xüsusi təhsil məktəbində, Təhsil Nazirliyinin nəzdində Sumqayıt şəhərində yerləşən Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində, Səhiyyə Nazirliyinin nəzdində Nəsimi rayonunda yerləşən Bakı Uşaq Bərpa Mərkəzində, Yasamal rayonunda yerləşən Səhiyyə Nazirliyi, 13 nömrəli Uşaq Poliklinikasında isə tədbirlər keçirilib.

## “Sağlam həyat naminə erkən nikaha YOX deyək!” adlı layihə



Komitə tərəfindən mütəmadi olaraq, cəmiyyətin diqqətinin ailə məsələlərinə yönəldilməsi, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunması, ailə həyatına hazırlığı, sağlam həyat tərzinin təbliği istiqamətində genişmiqyaslı maarifləndirmə layihələri həyata keçirilir. Bu istiqamətdə 2014-cü ildən etibarən keçirilən “Sağlam həyat naminə erkən nikaha YOX deyək!” adlı layihə çərçivəsində tədbirlər Zərdab, Oğuz, İsmayıllı, Hacıqabul, Qaradağ, Qobustan, Saatlı, Cəlilabad, Astara və Quba rayonlarında gənclər arasında keçirilib. Layihənin məqsədi gənclər arasında sağlam həyat tərzinin təbliği, onların erkən və qan qohumları arasında bağlanan nikahların yaratdığı fəsadlar barədə məlumatlandırılması və əldə edilən məlumatın digər gənclərlə bölüşdürülməsidir. 2016-cı ilin aprelin 6-da Masallıda, iyulun 13-də isə Sumqayıt şəhərində layihə çərçivəsində növbəti tədbirlər keçirilib.

## Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının iştirakı ilə seminar keçirildi



18 aprel 2016-cı il tarixində Sumqayıt şəhərindəki Tarix Muzeyində Komitənin təşkilatçılığı ilə Sumqayıt şəhər İcra Hakimiyyətinin və Abşeron rayon İcra Hakimiyyətinin Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının iştirakı əsasında seminar keçirilib. Tədbirdə gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları ilə görüşün məqsədi və ölkədəki vəziyyət, bu sahədə boşluqların aradan qaldırılması üçün tövsiyələr səsləndirilib. Bildirilib ki, bütün rayonlarda gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizmi olaraq yerli icra orqanlarının nümayəndələrindən ibarət monitorinq qrupları yaradılıb. Seminarda, eyni zamanda hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə və sosial sahələr üzrə nümayəndələrin də çıxışları dinlənilib.

## "İnsan alverinin qurbanı olma!" adlı layihə





Komitə tərəfindən əhali, xüsusilə gənclər arasında insan alveri və onun yaratdığı fəsadlara qarşı mübarizə üzrə təbliğat və maarifləndirmə işlərinin gücləndirilməsi istiqamətində mütəmadi olaraq genişmiqyaslı layihələr həyata keçirilir. "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası, əhalinin, xüsusilə gənclərin insan alveri və onun yaratdığı fəsadlar barədə maarifləndirilməsi məqsədilə 2016-cı ildə "İnsan alverinin qurbanı olma!" adlı genişmiqyaslı maarifləndirmə layihəsinə start verilmişdir. Layihə çərçivəsində aprelin 22-də Xətai rayonunda yerləşən 28 saylı Zəngilan rayon orta məktəbində tədbir keçirilib. Layihə çərçivəsində növbəti tədbir Abşeron Rayon İcra Hakimiyyəti ilə birgə iyulun 26-da rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə Abşeron rayonunda keçirilib. "İnsan alverinin qurbanı olma!" adlı layihə çərçivəsində tədbirlərin digər şəhər və rayonlarda da davam etdirilməsi nəzərdə tutulub.



Eyni zamanda Komitə tərəfindən 5-8 aprel 2016-ci il tarixlərində Bakı şəhərinin Səbail və Nəsimi rayonlarının 160, 189, 190, 5 və 16 nömrəli məktəblərinin 8-11-ci sinif şagirdlərinin iştirakı ilə maarifləndirmə təlimləri keçirilib. Təlimlərdə uşaq hüquqlarının müdafiəsi və insan alveri ilə mübarizə sahəsində mövcud vəziyyət və mübarizə üsulları haqqında məlumatlar verilib, bu problemin dünyada aktual olduğu, bu istiqamətdə dövlət tərəfindən Fəaliyyət Proqramlarının qəbul olunduğu qeyd edilərək insan alveri qurbanları üçün sığınacaqların fəaliyyət göstərdiyi və onlara psixoloji yardımların göstərilərək cəmiyyətə reinteqrasiyasının təmin olunduğu bildirilib. Təlimlərin sonunda mövzu ətrafında uşaqlarla müzakirələr aparılıb və iştirakçılara maarifləndirici çap materialları təqdim edilib.




# Zərifə xanım Əliyevanın 93-cü ildönümünə həsr olunmuş ümumrespublika üzrə "Qələbəyə doğru" intellektual yarışın final oyunu keçirildi

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hər il Azərbaycanın görkəmli oftalmoloq alimi, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş tədbirlər keçirir. Bu il Zərifə xanım Əliyevanın 93-cü ildönümünə həsr olunmuş ümumrespublika üzrə "Qələbəyə doğru" intellektual yarışın keçirilməsinə 29 mart 2016-cı ildə start verilmişdir. Bu məqsədlə 29 mart-19 aprel 2016-cı il tarixlərində 9 regionda ( Yevlax, Şəmkir, Xaçmaz, Masallı, Sumqayıt, Zəngilan, Qax, İmişli, Bakı) 75 şəhər və rayonu təmsil edən komandaların iştirakı ilə regional seçim turları keçirilmiş, seçim turlarında fərqlənən 12 komanda (Bərdə, Ağstafa, Siyəzən, Biləsuvar, Qubadlı, İsmayıllı, İmişli, Abşeron, Yasamal, Nizami, Xəzər, Nəsimi) final yarışında iştirak hüququ qazanmışdır. Bu məqsədlə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Nəsimi Rayon İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyası və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə akademik Zərifə Əliyevanın anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Qələbəyə doğru" kuboku uğrunda intellektual oyunun final mərhələsi keçirilib.

Tədbiri Komitənin sədri xanım Hicran Hüseynova giriş sözü ilə açaraq akademik Zərifə Əliyevanın şərəfli ömür yolundan danışaraq onun görkəmli oftalmoloq alim, ictimai xadim və bir ana kimi xalqımızın qəlbində dərin iz qoyduğunu bildirib. Komitə sədri Zərifə Əliyevanın Azərbaycanın inkişafı üçün yorulmadan çalışdığını xüsusilə qeyd edərək, onun yalnız Azərbaycanda deyil, həm də keçmiş Sovetlər məkanında tibb elmində böyük məktəb yaratdığını və göz xəstəlikləri sahəsində mühüm nailiyyətlər əldə etdiyini vurğulayıb.







BDU-nun rektoru, akademik Abel Məhərrəmov bildirib ki, Zərifə Əliyeva öz adını tarixə yazan görkəmli elm adamı, dəyərli şəxsiyyətlər sırasındadır. O, Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərindən, təhsil və elmin inkişafındakı rolundan danışıb. Zərifə Əliyevanın tibb elmi qarşısındakı xidmətlərdən söz açan Milli Məclisin səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov vurğulayıb ki, görkəmli alimin ən böyük uğuru onun yaratdığı elmi məktəbin davam etməsidir. Zərifə Əliyevanın adını daşıyan Milli Oftalmologiya Mərkəzində tələbələri onun əməllərini uğurla davam etdirirlər. Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov isə xalqımızın akademik Zərifə Əliyevanın anadan olmasının 93 illiyini böyük iftixarla qeyd etdiyini diqqətə çatdırıb.

Sonra 12 komandanın iştirakı ilə final mərhələsi keçirilib. Final mərhələsinin nəticəsində İsmayıllı rayonunun komandası I yer, Bakı şəhəri Nizami rayonunun komandası II yer, Bərdə rayonunun komandası isə III yer tutub. Qaliblərə mükafatlar və qiymətli hədiyyələr təqdim edilib.


















# BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu çərçivəsində "Münaqişə zonalarında sülhün bərqərar edilməsi prosesində qadınların rolu" mövzusunda bölmə iclası keçirildi






Bu il ölkəmiz daha bir beynəlxalq tədbirə ev sahibliyi edib. Aprelin 25-27 tarixlərində Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci qlobal Forumu keçirilib. Tədbirdə bir çox ölkələrin dövlət və hökumət başçıları, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri və fondlardan qonaqlar iştirak edib. Forum "İnklüziv cəmiyyətlərdə birgə yaşama: çağırış və məqsəd" devizi altında keçirilib. Forum çərçivəsində müxtəlif əhəmiyyətli mövzular ətrafında çıxışlar və müzakirələr baş tutub. Forumun ölkəmizdə keçirilməsi isə dünya ölkələrinin Azərbaycandakı tolerant mühitə olan münasibətinin real ifadəsidir.

Forum çərçivəsində plenar və bölmə iclasları keçirilib. Aprelin 26-da Bakı Konqres Mərkəzində "Münaqişə zonalarında sülhün bərqərar edilməsi prosesində qadınların rolu" mövzusu üzrə bölmə iclasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edib.

Komitənin sədri öz çıxışında Dağlıq Qarabağ münaqişəsinin nəticəsindən danışaraq vurğulayıb: "Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunub, bir milyondan çox əhali qaçqın və məcburi köçkünə çevrilib. Biz təcavüzdən əziyyət çəkən ölkə kimi münaqişələrin qarşısını almaq, insanların pozulmuş hüquqlarının bərpası üçün göstərilən səyləri tam dəstəkləyirik. Biz BMT Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsinin qəbul olunmasını müsbət bir addım kimi qiymətləndiririk". Komitə sədri qeyd edib ki, Ermənistan təcavüzkar siyasətini davam etdirir. Ermənistan qoşunların təmas xəttinə yaxın yaşayış məntəqələrimizi atəşə tutur. Atəşkəsin tez-tez pozulması nəticəsində mülki əhali mənəvi və maddi ziyana məruz qalır. Ermənistan BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərini yerinə yetirmir. Azərbaycan müharibə istəmir. Biz münaqişənin sülh yolu ilə ədalətli həllinin tərəfdarıyıq.



Digər ölkələrin nümayəndələri olan çıxışçılar da silahlı toqquşmalar zamanı qadınların və uşaqların böyük problem yaşadıqlarını, eyni zamanda qadınların sülh prosesində iştirakının münaqişələrin həllində böyük rol oynaya biləcəyini qeyd ediblər.

Sonda mövzu ilə bağlı müzakirələr aparılıb, suallar cavablandırılıb.

## Avropanın Gənclər Paytaxtı Gəncədə "Qadınlar zirvədə" adlı görüş keçirilib





5 may 2016-cı il tarixində Gəncə şəhərində "Gəncə-2016-cı il Avropa Gənclər Paytaxtı" layihəsi çərçivəsində "Qadınlar zirvədə" adlı görüş keçirilib. Görüşdə əsas diqqət gender bərabərliyinə yönəlib. Tədbirdə Komitə sədri Hicran Hüseynova çıxış edərək qeyd edib: "Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti, o cümlədən gender müəyyənləşməsinin sosial-iqtisadi islahatlarla uzlaşması çox böyük əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən ölkədə gender siyasətinin gücləndirilməsi kursuna sadiq qalaraq respublikamızda ən ağır böhran dövründə belə Azərbaycanda heç bir sosial yönümlü dövlət proqramının həyata keçirilməsi dayandırılmayıb. Ölkənin Birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın da gender siyasətinin təbliğ olunmasındakı böyük rolunu da xüsusi vurğulamaq lazımdır. Onun ictimai fəaliyyəti nəticəsində reallaşdırılan əksər layihələrdə gender komponenti ana xətt kimi keçir. Bunun ölkə qadınlarına böyük dəstək olmağı danılmaz faktdır". Komitə sədri qadınların dövlət idarəetməsində və qərar qəbuletməsində rolundan bəhs edərək bu sahələrdə uğurların artmasını xüsusilə qeyd edib. Digər çıxışçılar qadınların müxtəlif sahələrdə uğurlar əldə etməsi üçün mövcud stereotipləri qırmaqla bağlı təcrübələrindən söhbət açıblar.



## 15 may "Beynəlxalq Ailə günü" çərçivəsində tədbir



13 may 2016-cı il tarixində Sağlam Ailə Tibb Mərkəzi ilə birgə Sabirabad rayonu, Rüstəmli kəndi, Yeni Zəngilan qəsəbəsində məskunlaşmış Zəngilan rayonundan olan qaçqın və məcburi köçkün ailələr (161 ailə) üçün maarifləndirmə tədbiri keçirilib. Tədbirdə çıxışçılar ölkə rəhbərliyi tərəfindən qaçqın və məcburi köçkün ailələrinə hər zaman xüsusi diqqətin olduğunu, dövlət qurumlarının bu istiqamətdə hər zaman uğurlu layihələr həyata keçirdiyini bildiriblər. "Beynəlxalq Ailə günü" ərəfəsində həyata keçirilən tədbirin sağlam həyat tərzinin və nikahdan əvvəl tibbi müayinənin təbliği, əhalinin, xüsusilə gənclərin reproduktiv sağlamlıq, ailə planlaşdırılması, erkən nikah və ziyanlı vərdişlərin (narkomaniya, alkoqolizm, siqaret, QİÇS) yaratdığı fəsadlar barəsində maarifləndirilməsi məqsədi daşıdığı qeyd edilib. Çıxışlardan sonra qəsəbə sakinlərinin sualları dinlənilib və cavablandırılıb. Komitə tərəfindən hazırlanmış çap materialları maarifləndirmə tədbirlərində istifadə məqsədilə Zəngilan RİH-nin kitabxanasına təqdim edilib. Tədbirin ikinci hissəsində qəsəbədə məskunlaşmış qadın və uşaqların Sağlam Ailə Tibb Mərkəzinin həkimləri tərəfindən səyyar müayinəsi keçirilib.






# Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" mövzusunda məqalə müsabiqəsi keçirilib

Mayın 6-da Komitə tərəfindən Azərbaycan xalqının Ümummilli Lideri, müasir dövrün görkəmli siyasi xadimi Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" mövzusunda məqalə müsabiqəsi keçirilib.



Tədbirdə Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Elm, mədəniyyət xalq təhsili və sosial problemlər şöbəsinin müdiri İsmayıl Sadıqov, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü kimya elmləri doktoru, professor Rəfiqə Əliyeva , Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova, YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva, Milli Televiziya və Radio Şurasının sədr müavini Sona Vəliyeva və digər dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri və jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Komitə sədri Hicran xanım Hüseynova qeyd edib ki, müsabiqə Ümumilli Lider Heydər Əliyevin Azərbaycan qadını haqqında söylədiyi fikir və tövsiyyələri dövlət qadın siyasətinin inkişaf istiqamətlərinin proqramı kimi gənclər arasında təbliğ etmək, istedadlı jurnalistlərin yaradıcılıq imkanlarının aşkar olunmasına şərait yaratmaq məqsədilə keçirilir. Həmçinin Komitənin sədri ölkəmizdə aparılan ardıcıl və uğurlu siyasətin qadınların vəziyyətinə və cəmiyyətdəki mövqeyinə də öz müsbət təsirini göstərdiyini bildirib.

Tədbirdə Milli Televiziya və Radio Şurasının sədr müavini Sona xanım Vəliyeva, AzərTAC-ın baş redaktoru Yaşar Quluzadə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira xanım Süleymanova çıxış edərək dövlətin qadın siyasətinə olan xüsusi qayğısından, qanunlardan, fərman və sərəncamlardan bəhs edərək, Azərbaycanda qadınlarla bağlı məsələlərin dövlətin diqqət mərkəzində olduğunu vurğulayıblar.

Çıxışlardan sonra dövlət və hökumət rəsmilərinin, ictimaiyyət nümayəndələrinin və jurnalistlərin iştirakı ilə müsabiqə qaliblərinin mükafatlandırma mərasimi keçirilib. Üçüncü yerə "Mövqe" qəzetinin müxbiri Mübariz Bayramov, ikinci yerə "Kaspi" qəzetinin əməkdaşı Şəbnəm Mehdizadə, birinci yerə isə "SƏS" qəzetinin İnformasiya şöbəsinin müdiri Rəfiqə Kamalqızı layiq görülüblər.





## “Övladlığa götürmədə nəzarət mexanizmi” mövzusunda təlim



25 may 2016-cı il tarixində Nəsimi rayon İcra Hakimiyyətində Komitənin 2016-cı ilin Tədbirlər Planı çərçivəsində Bakı şəhəri (Nəsimi, Nərimanov, Nizami, Qaradağ, Binəqədi, Pirallahı, Xəzər, Xətai, Sabunçu, Suraxanı, Səbail, Yasamal rayonları) Sumqayıt şəhər və Abşeron rayon icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının rəhbərlərinin iştirakı ilə “Övladlığa götürmədə nəzarət mexanizmi” mövzusunda təlim keçirilib.

Təlimdə ölkədə qadınların statusunun yüksəlməsi, ailələrin möhkəm təməllər üzərində qurulması, uşaqların sağlam mühitdə böyüməsi, təhsil alması üçün bütün imkanların yaradılması qeyd edilib. Bildirilib ki, bəzi valideynlər övladlarını uşaq evlərinə atır, onların gələcəyini düşünmürlər, yaxud uşağı övladlığa götürən şəxslər onları istismar edir, yaxşı təhsil vermir, sağlam mühitdə yaşamasını təmin etmir, gələcəyi barədə düşünmürlər. Bu kimi problemlərin yaranmaması üçün ictimai işin təşkili də düzgün qurulmalı, övladlığa verilən uşaqlar hər zaman nəzarətdə saxlanılmalı, müvafiq qurumlara təkliflər verilməli, maarifləndirmə işləri gücləndirilməlidir. Təlim iştirakçıları övladlığa götürmə istiqamətində nəşr olunan materiallar və Azərbaycanda daxili və xarici övladlığa götürmə ilə bağlı proseslər haqqında məlumatlandırılıb.

## 1 İyun – “Uşaqların Beynəlxalq Müdafiəsi Günü” çərçivəsində silsilə tədbirlər



Komitə tərəfindən hər il 1 İyun – “Uşaqların Beynəlxalq Müdafiəsi Günü” münasibətilə silsilə tədbirlər təşkil olunur. Dekada çərçivəsində Komitə tərəfindən “Ulduz” şokolad fabrikində Bakı şəhəri Xətai rayonu 3 saylı uşaq evinin uşaqları üçün ekskursiya təşkil olunmuşdur. Daha sonra Komitə tərəfindən Milli Azərbaycan Tarix Muzeyində Pirşağı qəsəbəsindəki 10 nömrəli sanatoriya tipli internat məktəbinin uşaqları üçün ekskursiya təşkil edilmişdir.




Silsilə tədbirlər çərçivəsində Komitə Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Baş İdarəsi ilə birgə əməkdaşlıq çərçivəsində Azərbaycan Futbol Federasiyası ilə birgə Yetkinlik Yaşına Çatmayanlar üçün Tərbiyə Müəssisəsində İslah olunan uşaqların peşəkar yeniyetmə futbolçularla yoldaşlıq oyunu keçirilmişdir. Futbol yarışmasından sonra uşaqlar Komitə və Azərbaycan Futbol Federasiyası tərəfindən diplom və kubokla, eləcə də hədiyyələrlə mükafatlandırılmışdılar.



Bakının Nizami rayonunda yerləşən Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzində Komitə tərəfindən Qayğı-Sağlam Nəsil Naminə İctimai Birliyi və "Bechique" Azərbaycan brendi ilə birgə "Günəş uşaqları" adlı tədbir keçirilmişdir. Tədbirdə "Dəcəllər" Daun Sindromlu Şəxslərin Assosiasiyasının uşaqları iştirak etmişdir. Tədbirdə uşaqların iştirakı ilə dəb nümayişi, rəsm işlərindən ibarət sərgi keçirilmiş, eləcə də musiqili səhnəcik nümayiş olunmuşdur.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyası Muzey Sərgi Kompleksində "Saf rənglər" adlı Beynəlxalq Uşaq Rəsm Yaradıcılığı Festivalında "Azərbaycan mənim gözlərimlə" adlı müsabiqəyə nümayiş olunmaq üçün 6 ədəd rəsm əsəri təqdim olunmuş, müsabiqənin qalibinə isə Komitə tərəfindən hədiyyə təqdim olunmuşdur.







## "Mən həyatı seçirəm" adlı layihə



Komitə tərəfindən mütəmadi olaraq Respublikamızın şəhər və rayonlarında cəmiyyətin diqqətinin ailə məsələlərinə yönəldilməsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, sağlam həyat tərzinin təbliği, gənclərin ailə həyatına hazırlığı və digər mövzular ətrafında müxtəlif layihələr həyata keçirilir. 1 iyul 2016-cı il tarixindən "Mən həyatı seçirəm" adlı genişmiqyaslı maarifləndirmə layihəsinə start verilib. Layihə çərçivəsində keçirilən tədbirlərdə erkən nikah, qan qohumluğu, ziyanlı vərdişlərin yaratdığı fəsadlar, sağlam həyat tərzi və reproduktiv sağlamlıq, nikahdan əvvəl tibbi müayinənin əhəmiyyəti və digər mövzular ətrafında müzakirələr keçirilir. Layihə çərçivəsində ilk tədbir Xızı RİH ilə birgə rayon Mərkəzi Kitabxanasının binasında rayon gənclərinin, dövlət qulluqçularının, fəal qadınların iştirakı ilə keçirilib. Tədbirdə ölkədə erkən nikahların və məişət zorakılığının qarşısının alınması sahəsində aparılan tədbirlərin effektivliyi, maarifləndirmənin təsiri, layihənin məqsədləri haqqında iştirakçılar məlumatlandırılıb.

## "Öyrən, İdarə et, Lider ol" mövzusunda tədbir



Komitənin Nizami RİH ilə birgə 18-22 iyul, 2016-cı il tarixlərində "Öyrən, İdarə et, Lider ol" mövzusunda təşkil etdiyi 5 günlük təlimə yekun vurulub. Təlimdə Bakı şəhərinin rayonlarını təmsil edən 28 məktəbli iştirak edib. 5 günlük təlimdə məktəblilərə ekspertlər tərəfindən müxtəlif mövzularda təlimlər keçirilib, müzakirələr, qrup işləri aparılıb. Təlim zamanı uşaqlar liderlik keyfiyyətlərinin, lider üçün zəruri olan bacarıqların inkişaf etdirilməsi yollarını öyrənmiş, həmçinin uşaq hüquqlarına dair ətraflı məlumat əldə ediblər. Təlimin bağlanış mərasimində mövzu ətrafında çıxışlar edilib. Sonda təlim iştirakçıları Komitə tərəfindən təlimdə uğurlu iştirakına görə sertifikatla təltif edilib.

## "Məişət zorakılığı və qadın hüquqları" mövzusunda layihə





Dövlət Komitəsi Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) ilə birlikdə artıq 3 ildir ki, "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi" regional proqramı çərçivəsində məişət zorakılığı, ailə münasibətlərində qadın hüquqları mövzularında layihəni həyata keçirir. Cari il üçün layihə 8 rayonu əhatə edəcəkdir. Artıq Qazax, Şəmkir, Lənkəran, Astara, Cəlilabad, Lerik bölgələrində keçirilən seminarlarda 210 nəfər qadın və kişi iştirak edib. Qeyd edək ki, layihə çərçivəsində hər rayondan 30 nəfər qadın və kişi seçilərək hüquqi maarifləndirmə seminarlarına cəlb edilir. Layihə üzrə növbəti seminar Lerik rayonunda Heydər Əliyev Mərkəzində təşkil edilib. Seminarın məqsədi insan hüquqlarının və azadlıqlarının təmin olunmasında, bərabərlik və inkişaf strategiyalarının həyata keçirilməsində bu gün ən ciddi maneələrdən biri olan məişət zorakılığı ilə davamlı mübarizənin aparılmasının təmin olunması, qadınların cəmiyyətdə rolunun artırılması, sosial statuslarının yüksəldilməsidir. Təlimlər zamanı iştirakçılara hüquqi məsləhətlər verilib, psixoloji yardımlar göstərilib.

## "Dayaq" mentorluq proqramı

2012-ci ilin ikinci yarısından etibarən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə Azərbaycan qadın bələdiyyə üzvləri üçün "DAYAQ" Mentorluq Proqramının icrasına başlanılmışdır. İlkin mərhələdə Abşeron rayonu, Bakı şəhəri Qaradağ rayonu və Sumqayıt şəhərindən olan qadın bələdiyyə üzvləri ilə görüşlər keçirilmiş, proqramda iştirak etmək istəyən stajorlar seçilmişdir.

2016-cı ildə layihə davam etdirilmiş, "Fəal ol" adlı təlimat kitabçasının təbliği məqsədilə Bakı şəhəri Xətai rayonu, Suraxanı rayonu, Xəzər rayonu, Abşeron, Quba, Qusar, Xaçmaz, Ağsu, İsmayıllı, Şamaxı, Saatlı, Sabirabad, İmişli, Göyçay, Kürdəmir, Ucar, Mingəçevir şəhəri, Yardımlı, Cəlilabad, Astara, Lerik, Biləsuvar rayonunda bələdiyyə üzvləri üçün təlimlər keçirilmişdir.

## Azərbaycan regionlarında qadın mütəxəssislərin hazırlanması və qadın sahibkarların inkişafı” adlı layihə

Komitə Azərbaycan Mikromaliyyə Assosiasiyası ilə birgə “Azərbaycan regionlarında qadın mütəxəssislərin hazırlanması və qadın sahibkarların inkişafı” layihəsi çərçivəsində “Maliyyə savadlığı” və “Biznesinə başla və onu inkişaf etdir” adlı təlimlər həyata keçirməyi planlaşdırmışdır. “Maliyyə savadlılığı” üzrə təlimlərin əsas məqsədi maliyyə savadlılığının əsasları barədə zəruri biliklərin verilməsi, “Biznesinə başla və onu inkişaf etdir” təliminin əsas məqsədi kiçik və orta sahibkarlıqla məşğul olan və ya məşğul olmaq istəyən qadınlara biznes ideyasının yaradılmasında və biznes planın hazırlanmasında dəstək olmaqdır. Təlimlər 2016-ci ilin I yarısında Ağdaş, Quba, Göyçay, Şəmkir, Zaqatala rayonunda və Gəncə, Mingəçevir şəhərində keçirilmişdir. Layihə ilin sonuna kimi davam etdiriləcəkdir.

## “ASAN məktub” layihəsi

Komitə “ASAN Könüllüləri” Gənclər Təşkilatı ilə birlikdə ”ASAN məktub” layihəsini uğurla davam etdirir. Layihənin keçirilməsində məqsəd həssas təbəqədən olan, 14 yaşınadək uşaqların arzu və istəklərinin reallaşdırılmasıdır. 2016-cı ilin 1-ci yarım ili ərzində Şüvəlan, Ağdam, Goranboy Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin və Naftalan, Tərtər rayon İcra Hakimiyyətlərinin köməyi ilə həmin rayonlarda yaşayan, aztəminatlı ailələrdən olan uşaqların arzu və istəklərini qeyd etdikləri məktublar toplanmışdır. Ümumilikdə, uşaqlar tərəfindən 142 məktub yazılmışdır. Məktublarda əks olunan istəklərin 1 hissəsi vətəndaşların köməkliyi ilə reallaşdırılmışdır.











# "Mediada ailə, qadın və uşaq məsələlərinin işıqlandırılması: nailiyyətlər və perspektivlər" mövzusunda konfrans keçirildi



İyulun 20-də Beynəlxalq Mətbuat Mərkəzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Milli Mətbuat Günü münasibətilə dövlət orqanları, mətbuatın və ictimaiyyətin görkəmli nümayəndələri, jurnalistlərin iştirakı ilə "Mediada ailə, qadın və uşaq məsələlərinin işıqlandırılması: nailiyyətlər və perspektivlər" mövzusunda konfrans keçirilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbiri açıq elan edərək bildirib ki, bu gün ailə və mill-mənəvi dəyərlərin təbliği, qadınların fəallığının artırılması, uşaq hüquqlarının müdafiəsi istiqamətlərində, və eyni zamanda məişət zorakılığının, erkən nikahın, uşaq intiharlarının qarşısının alınması və digər istiqamətlərdə görülən işlər mətbuat orqanlarında geniş şəkildə işıqlandırılır. "Lakin bir məsələni də vurğulamaq istəyirəm ki, jurnalistlərimiz ailədaxili problemlərin, qadın və uşaqlarla əlaqəli məsələlərin mətbuatda işıqlandırılması zamanı xüsusilə həssas olmalıdırlar. Bundan başqa, ölkəmizin ailə, qadın və uşaq siyasətinin həyata keçirilməsində əldə olunan uğurlar əsaslı şəkildə ölkə və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalı, ölkəmizin müsbət təcrübəsinin təbliği baxımından xarici mətbuatda işıqlandırılması ilə bağlı daha böyük işlər görülməlidir. "

Daha sonra Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Milli Mətbuat gününün eyni zamanda xalqın bayramı olduğunu qeyd edərək bildirib ki, Azərbaycan mətbuatı "Əkinçi" qəzetindən başlamış bu günədək milli-mənəvi dəyərlərin möhkəmlənməsində, Azərbaycan dilinin saflığının qorunmasında müstəsna rol oynayıb. Mətbuat olmasaydı, ana dilimizdə səlis danışa bilməzdik. Çıxış edən Azərbaycan Respublikası Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev bildirib ki, biz bu gün qadın jurnalistlərin imzası olmadan Azərbaycan mediasını təsəvvür edə bilmirik. Burada təbii ki, əsası Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətin çox böyük rolu olub. Azərbaycanda senzura, Mətbuat və İnformasiya Nazirliyi ləğv edilib, medianın fəaliyyətinin tənzimlənməsi ilə bağlı mükəmməl qanunvericilik yaradılıb.Daha sonra Milli Televiziya və Radio Şurası sədrinin müavini Sona Vəliyeva çıxışında Həsən bəy Zərdabinin bütün ailələrə müraciət edərək övladlarını təhsil almağa çağırdığını xatırladıb. "O, çox gözəl bilirdi ki, millətin inkişafı maarifdən keçir. Azərbaycan ailə modeli dünya ailə modellərindən yaxşı mənada fərqlənir. Tarixin çətin sınaqlarından uğurla keçən Azərbaycan ailəsi inkişaf edir. Bugünkü inkişaf və müasirlik fonunda da ailə dəyərlərimizi tarixin sınağından üzüağ çıxarmalıyıq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "ASAN Radio"nun direktoru Emin Musəvi, Azərbaycan Televiziyası və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin redaktoru Tural Məmmədov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov bütün media nümayəndələrini peşə bayramları münasibətilə təbrik edərək, Azərbaycan mediasında ailə, qadın və uşaq problemlərinin işıqlandırılması ilə bağlı çıxış ediblər.

Konfransın yekununda dövlət ailə, qadın və uşaq məsələlərinin mediada işıqlandırılması və səmərəli əməkdaşlığa görə bir qrup media qurumları və mediada ailə, qadın və uşaq məsələlərinin peşəkar işıqlandırılmasına görə, eyni zamanda bu sahələrdə aparılan araşdırmalar və təhlillər üzrə 2016-cı ilin monitorinqinin nəticələrinə əsasən jurnalistlər mükafatlandırılıb.


BMM
BEYNƏLXALQ MƏTBUAT
MƏRKƏZİ






DİPLOM


DİPLOM


DİPLOM

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın görüşləri

***Komitə bir sıra ölkələrin aidiyyatı dövlət orqanları ilə sıx əməkdaşlıq münasibətlərinin qurulması, eləcə də beynəlxalq təşkilatlarla əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərir. Cari ilin birinci yarısı ərzində BMT-nin Uşaq Fondu, BMT-nin Əhali Fondu, BMT-nin Avropa üzrə İqtisadi Komissiyası, BMT-nin İnkişaf Proqramı və s. təşkilatlarla əməkdaşlıq edilib.***

***Fevralın 4-də Fransa Respublikasının Sosial İşlər Nazirliyinin Avropa və Beynəlxalq məsələlər üzrə məsul şəxsi Natali Nikitenko, fevralın 22-də Hindistanın Azərbaycan Respublikasındakı Səfiri Sanjay Rananı, martın 30-da İsveçin Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri İnqrid Tersman, martın 16-da Milli Məclisinin deputatı Məlahət İbrahimqızı, Belarus parlamentinin Respublika Şurasının (Yuxarı palata) elm, mədəniyyət və sosial inkişaf üzrə daimi komissiyasının üzvü Tatyana Niçişina, Belarus parlamentinin Nümayəndələr Palatasının (Aşağı Palata) iqtisadi siyasət üzrə daimi komissiyasının üzvü Lyudmila Kubrakovanın iştirakı ilə Belarus parlamentinin nümayəndələri, martın 31-də Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Rodrigo Labardinini, aprelin 25-də İran İslam Respublikasının Xüsusi Xəstəliklər Fondunun prezidenti Fatimə Haşimi ilə Komitə sədri Hicran Hüseynovanın görüşləri keçirilib. Görüşlərdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə edilib, təcrübə mübadilə aparılıb.***



## *Komitə ilə UNİCEF arasında “2016-2020-ci illər üçün Əməkdaşlıq Proqramı” çərçivəsində “2016-2017-ci illər üçün UHK-ın Koordinasiyasına dair Dövri İş Planı” imzalanıb*



Mayın 19-u Komitə sədri Hicran Hüseynova UNİCEF-in (BMT-nin Uşaq Fondu) Azərbaycan üzrə Nümayəndəliyinin rəhbəri Andro Şilakadze ilə görüşüb. Görüşdə uşaq hüquqlarının müdafiəsi, onların rifahının dəstəklənməsi, sosial xidmətlərlə əhatə olunması istiqamətində məqsədyönlü fəaliyyətin həyata keçirilməsi üçün birgə əməkdaşlığın genişləndirilməsi və bu sahədə yeni layihələr müzakirə edilib.

Hicran Hüseynova qeyd edib ki, Komitə bir sıra ölkələrin aidiyyəti dövlət qurumları, eyni zamanda beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq münasibətləri qurur. O bildirib ki, Komitə uşaqların müdafiəsinin gücləndirilməsi, onların hüquqlarının təmin edilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə müntəzəm olaraq tədbirlər keçirir. Xüsusən də Heydər Əliyev Fondunun və UNİCEF-in dəstəyi ilə Komitə tərəfindən 300-dək uşağın iştirakı ilə Ümumrespublika Uşaq Forumları keçirilib. Komitə sədri onu da vurğulayıb ki, ölkəmizdə UNİCEF-in səmərəli və geniş istiqamətli fəaliyyəti təqdirəlayiqdir. Andro Şilakadze uşaqların müdafiəsi sahəsində Azərbaycanın uğurlu iş təcrübəsini qeyd edərək bildirib ki, UNİCEF bu sahədə Azərbaycanla əməkdaşlığı davam etdirmək əzmindədir.

Görüş zamanı Azərbaycan Hökuməti və UNİCEF arasında 2016-2020-ci illər üçün Əməkdaşlıq Proqramı çərçivəsində 2016-2017-ci illər üçün UHK-ın Koordinasiyasına dair Dövri İş Planı imzalanıb. Və sənəd üzrə görüləcək işlər müzakirə edilib.

Sonda Andro Şilakadzeyə uğurlu əməkdaşlığa görə minnətdarlıq ifadə edilib və gələcək fəaliyyətində uğurlar arzu edilib.

## *Hicran Hüseynova BMT-nin Əhali Fondunun Türkiyədəki Nümayəndəsi və Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Ölkə Direktoru Karl Kulessa ilə görüşüb*



İyunun 8-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova ilə BMT-nin Əhali Fondunun Türkiyədəki Nümayəndəsi və Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Ölkə Direktoru Karl Kulessanın görüşü keçirilib.

Dövlət Komitəsinin sədri Hicran Hüseynova ölkədə qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi sahələri üzrə əldə olunan müsbət nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi dəstəyinin nəticəsi olduğunu vurğulayıb. Eyni zamanda, Komitənin sədri Ailə Strategiyası, Məişət Zorakılığı ilə Mübarizəyə həsr edilmiş Milli Fəaliyyət Planı layihələrinin hazırlandığını bildirib və selektiv abortlar, erkən nikah və ailədə zorakılıqla mübarizə sahələrini əhatə edəcəyini qeyd edib.

BMT-nin Əhali Fondunun Türkiyədəki Nümayəndəsi və Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Ölkə Direktoru Karl Kulessa qəbula görə xanım sədrə minnətdarlıq bildirib. Cənab K.Kulessa ölkədə qadın hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlərin müsbət hal olduğunu qeyd edib. O, ölkədə olan selektiv abortlar və məişət zorakılığı problemlərilə mübarizənin gücləndirilməsi ehtiyacını vurğulayıb. Bununla da bağlı yeni ikitərəfli layihələrin keçirilməsini təklif edib. Dövlət Komitəsinin sədri BMT-nin Əhali Fondu ilə inamlı və sıx münasibətlərin olduğunu bir daha vurğulayaraq, birgə maarifləndirici layihələrin davamlı olmasının əhəmiyyətini qeyd edib.



## *Komitə sədri Hicran Hüseynovanın BMT-nin Azərbaycandakı Rezident Nümayəndəsinin yeni təyin olunmuş müavini ilə görüşü keçirilib*



İyulun 12-də Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın BMT-nin Azərbaycandakı Rezident Nümayəndəsinin müavini Nato Alhazişvilini qəbul edib. Görüşdə BMT-nin Azərbaycandakı Rezident Nümayəndəsinin yeni təyin olunmuş müavini Alessandro Frankassetini iştirak ediblər.

Görüş zamanı Komitə sədri BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricilər ilə görüşlərini qeyd edərək, ölkəmiz ilə BMT arasındakı əməkdaşlığın səviyyəsindən və müxtəlif əhəmiyyətli layihələrin yüksək şəkildə həyata keçirilməsindən məmnunluğunu bildirib. Qarşılıqlı fikir mübadiləsi zamanı Komitə sədri ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət sahəsində Azərbaycan ilə BMT arasındakı əlaqələrin möhkəm təməllər üzərində qurulduğunu və yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb.

Daha sonra Nato Alhazişvili BMT-nin Azərbaycandakı Rezident Nümayəndəsinin yeni təyin olunmuş müavini Alessandro Frankassetini Komitə sədri Hicran Hüseynovaya təqdim edib. Sonda Nato Alhazişvili ilə bu illər ərzində olan uğurlu əməkdaşlığa görə minnətdarlıq bildirilib və gələcək fəaliyyətində uğurlar arzu edilib.



# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müxtəlif problemlərinin həllinə dair tədbirlər həyata keçirirlər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova 2016-cı ilin 7 ayı ərzində İmişli, Beyləqan, Samux, Tovuz, Hacıqabul, Zaqatala və Quba rayonlarında regional qəbullar keçirib. Qəbulda adları çəkilən və onlara yaxın olan ətraf rayonların sakinləri öz problemləri ilə bağlı Komitə sədrinə müraciət ediblər.



Regional qəbul zamanı ailələri daha çox narahat edən məsələlər, xüsusilə, erkən nikah və boşanmaların yaratdığı problemlər, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, övladlığa verilmə, qadın sahibkarlara dəstək, məşğulluq, alimentlərin ödənilməsindəki çətinliklər, qadın və uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığının qarşısının alınması, sağlamlıq və digər məsələlər dinlənilib.

Komitə sədri problemləri dinləyərək, bir çoxunun elə yerindəcə həll edilməsinə nail olub. Eyni zamanda, qəbulda vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərə dair müraciətləri Komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb, regionlardakı Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin rəhbərlərinə məsələlərin nəzarətdə saxlanılması tapşırılıb.

Qəbullardan sonra Komitə sədri Hicran Hüseynova rayonların bir qrup fəal qadınları ilə görüşüb. Onların məşğullunun artırılması, sahibkarlıq imkanlarının genişləndirilməsi, müxtəlif peşələrə yiyələnmələri və digər aktual mövzular istiqamətində müzakirələr aparılıb.

Qəbula gələnlər mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin mütəmadi olaraq bölgələrdə vətəndaşların qəbulunun təşkilindən razılıqlarını ifadə edərək, dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.








# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi əməkdaşlarının iştirak etdiyi beynəlxalq tədbirlər və xarici səfərlər



***2016-cı ilin 6 ayı ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları müxtəlif xarici səfərlər edərək beynəlxalq tədbirlərdə Komitəni təmsil ediblər. Ətraflı məlumat əldə etmək üçün Komitənin rəsmi saytını*** (www.scfwca.gov.az) ***izləyə bilərsiniz.***

3-4 Mart 2016-cı il tarixlərində Türkiyənin İstanbul şəhərində BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi və Reproduktiv Sağlamlıq üzrə Şərqi Avropa İnstitunun (EEİRH) "Şərqi Avropa və Mərkəzi Asiyada gender əsaslı zorakılıqla mübarizədə qurumlararası səmərəli cavab tədbirlərinin təşkili" mövzusunda keçirilən beynəlxalq təlimdə, 19-27 Mart 2016-cı il tarixlərində Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin təşkilatçılığı ilə Vaşinqton və Portland (Oregon ştatı) şəhərlərinə işgüzar səfərdə Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində Komitənin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov iştirak edib.

5-6 aprel 2016-cı il tarixlərində Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən Uşaq Hüquqları üzrə 2016-2020-ci illər üzrə Strategiyanın qəbul edilməsinə həsr olunmuş yüksək səviyyəli konfransda "Uşaqlardan heç zaman düşmən olmaz, onlar sevgi, sülh və dostluq rəmzidir!" şüarı ilə Komitənin sədr müavini Aynur Sofiyeva çıxış edib və Regional Mərkəzlərlə iş şöbəsinin müdiri Ceyran Rəhmətullayeva iştirak edib.



18-22 aprel 2016-cı il tarixlərində Xarici İşlər Nazirliyi və ADA Universitetinin dəstəyi ilə Brüssel və Lüksemburqda İxtisas Artırma Proqramlarının məzunları olan dövlət qulluqçuları üçün keçirilən təlimdə Komitə əməkdaşı Raidə Əmirbəyova iştirak edib.

19-21 aprel 2016-cı il tarixlərində Küveyt Universitetinin ictimai elmlər fakültəsinin nəzdində fəaliyyət göstərən Araşdırma və Tədqiqatlar Mərkəzində "Qadın və sağlamlıq" mövzusunda keçirilən VI illik simpoziumda Komitə əməkdaşı Nərgiz Alıyeva iştirak edib.

27-30 Aprel 2016-cı il tarixində Fransanın Strasburq şəhərində Avropa Şurasının Nazirlər Komitəsinin nəzdində fəaliyyət göstərən Gender Bərabərliyi üzrə Komissiyanın 9-cu iclasında Komitə əməkdaşı Elgün Səfərov iştirak edib.

26 aprel 2016-cı il tarixində Stokholm şəhərində Avropa Komissiyası tərəfindən (AK) ticarətin asanlaşdırılmasının və ticarət siyasətinin qadın və kişilərə təsirləri üzrə məlumatlılığın artırılmasının müzakirə edilməsi məqsədilə "Şərqi Avropada ticarət siyasəti və Avropa İttifaqının sazişləri: genderin əhəmiyyəti" mövzusunda keçirilən konfransda, 23-24 may tarixlərində Cenevrə şəhərində təşkil olunan "Qadınların iqtisadi güclənməsi aləti kimi ticarət" adlı mütəxəssis iclasında Komitənin Aparat rəhbəri Oqtay İbrahimov iştirak edib.

2-3 iyun 2016-cı il tarixlərində Ailə və Gənclər üzrə Avstriya Federal Nazirliyi tərəfindən təşkil edilmiş "Cismani cəzalardan azad uşaqlığa doğru" adlı Yüksək Səviyyəli Qlobal Konfransda Komitənin Regional Mərkəzlərlə iş şöbəsinin müdiri Ceyran Rəhmətullayeva iştirak edib.

21-22 iyun 2016-cı il tarixlərində Minskdə keçirilmiş Qadın Liderlərin Beynəlxalq Forumunda Komitənin sədr müavini Sədaqət Qəhrəmanova iştirak edib.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Qazaxıstan Respublikasının Milli İqtisadiyyat Nazirliyi nəzdində fəaliyyət göstərən Statistika Komitəsinin birgə təşkilatçılığı ilə 22-25 iyun 2016-cı il tarixlərində Almatı şəhərində "Kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatında gender statistikası" mövzusu üzrə regional seminarda Komitə əməkdaşı Raidə Əmirbəyova iştirak edib.




# Uşaq və Ailələrə Dəstək Mərkəzləri alternativ qayğı modelinin bariz nümunəsidir

Artıq 10 ildir ki, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu sahədə dövlət siyasətini formalaşdıran bir qurum kimi fəaliyyət göstərir. Bu illərdə qazanılan təcrübələrə, addım-addım inkişafa nəzər salarkən regionlarda müvafiq siyasətin daha da səmərəli həyata keçirilməsi məqsədi ilə yaradılan Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin əhəmiyyətini vurğulamaq yerinə düşərdi.

Respublikamız Müstəqillik qazandıqdan sonra ölkəmizdə bir sıra proqramların qəbulu ölkədə alternativ qayğı sisteminin yaradılması prosesinə başlanmış, bu istiqamətdə bir sıra əsaslı islahatlar aparılmışdır. Internat müəssisələrinə alternativ olan müəssisələrin yadadılmasının labüdlüyü Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin yaradılmasına gətirib çıxardı.

İcma Əsaslı Dəstək Xidməti dünyada mövcud olan və yerli səviyyədə xidmətlərin təşkili üçün nəzərdə tutulmuş müasir sosial yanaşmadır. İnkişaf etməkdə olan ölkələrin təcrübəsində sınaqdan çıxmış Böyük Britaniya təcrübəsinə əsaslanan "İcma Əsaslı Reabilitasiya" modelinə aid, internat müəssisələrinə alternativ olan "Uşaq və Ailələrə Dəstək mərkəzi" modeli Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən uğurla inkişaf etdirilmişdir. Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin yaradılması və inkişafı, yerlərdə, rayon və kənd icmalarında qarşıya qoyulan ali məqsədlərə nail olmaq üçün atılan ən effektiv addımlardan biridir.

İlkin olaraq, Azərbaycan Respublikasının Prezidentinin 24 avqust 2007-ci il 2355 nömrəli Sərəncamı ilə "Uşaq və Ailələrə Dəstək" adlı 2 mərkəz (Goranboy rayonu və Bakı şəhərinin Xəzər rayonu) daha sonra isə 15 fevral 2011-ci il 1328 nömrəli Sərəncam ilə 9 mərkəz (Saatlı, Sabirabad, Hacıqabul, Ağdam, Zərdab, Zaqatala, Göygöl, Qəbələ, İsmayıllı) Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeçiliyinə verilmişdir.

İlk fəaliyyət göstərdiyi zamanlarda Mərkəz xidmətləri yalnız icmada xüsusi qayğıya ehtiyacı olan (XQU) uşaqları əhatə edirdi, lakin 2011-ci ildən etibarən ailə, qadın və uşaq problemləri sahəsində müxtəlif istiqamətlər üzrə risk qrupuna aid ailələri də ehtiva etməyə başladı. Son 5 il ərzində Mərkəz işçiləri tərəfindən 2879 risk qrupundan olan ailəyə səfər edilmişdir.

Komitənin 10 illik fəaliyyəti dövründə ailə, qadın və uşaq siyasətinin formalaşdırılması yönümündə qəbul olunan Qanunlar Mərkəzlərin fəaliyyətinin təkmilləşməsinə və inkişafına təkan vermişdir. Xüsusi ilə vurğulamaq yerinə düşərdi ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunduqdan sonra məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, psixoloji və sosial yardım göstərilməsi, həmçinin məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində UADM-ların fəaliyyəti daha da genişlənmişdir. Son illər ərzində məişət zorakılığı ilə bağlı 431 müraciət qeydə alınmışdır. Bu faktlarla bağlı UADM əməkdaşları tərəfindən mütəmadi olaraq ailələrlə, məişət zorakılığı qurbanları ilə psixoloji iş aparılmış, fərdi hal qovluqları açılmış, ailələr haqqında məlumat toplanaraq nəzarətə götürülmüş, aidiyyatı qurumlarla əməkdaşlıq şəraitində müvafiq tədbirlər görülmüşdür.

Məişət zorakılığı hallarının azadılması məqsədilə mütəmadi olaraq müxtəlif mövzularda ("Zorakılığa yox deyək", "Erkən yaşda evlilik cinayətdir", "Sağlam həyat naminə erkən nikaha yox deyək", "İnsan alverinin qurbanına çevrilməyək".



“Hüquqlarımızı bilirikmi?” və s.) maarifləndirici tədbirlər, dəyirmi masalar, aksiyalar təşkil olunmuş və çap materialları paylanmışdır. Həmçinin Mərkəzlər 2013-cü ildən start verilmiş erkən nikahın qarşısının alınması ilə “Ailə başçısına məktub” aksiyası çərçivəsində 100 000-dən çox ailəyə məktub paylanmışdır.

Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin əsas benifisiarları risk qrupundan olan ailələr, qadınlar və uşaqlar, fiziki və əqli əlilliyi olan, habelə sağlamlıq imkanları məhdud olan uşaqlar, qadınlar və onların ailə üzvləri, valideyn himayəsindən məhrum olan, kimsəsiz və baxımsız uşaqlar, qaçqın və məcburi köçkünlər, habelə şəhid ailələri, uşaq müəssisələrindən olan uşaqlar və yeniyetmələr, zorakılığa məruz qalan şəxslər, cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslər, tək valideynli (qəyyum və himayəçisi olan) uşaqlar, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmamış şəxslər və onların ailələri, aztəminatlı və çoxuşaqlı ailələrdir.

Mərkəzlərin fəaliyyətinin ümumi istiqaməti bilavasitə uşaq əməyinin istismarı, uşaqların internat müəssisələrinə düşməsi, təhsildən yayınması, erkən nikahların, məişət zorakılığının, insan alverinin, narkomaniyanın, QİÇS-in və s. kimi mənfi halların qarşısının alınması və profilaktikası ilə bağlı tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Ümumilikdə, Dövlət Komitəsinin tabeçiliyinə verildiyi vaxtdan bu günə qədər Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə edilmiş müraciətlərin sayı 8424 olmuşdur, bundan da 3937-si uşaq məsələləri ilə bağlı müraciətlərdir. Müraciətlərin çoxluğu, müvafiq sahədə analitik araşdırmaların aparılmasını zəruri edir.

Bütün bu şəxslərlə işləyərkən Mərkəzlər regionda və ya onlara yaxın rayon və kəndlərdə ailə, qadın və uşaq problemləri ilə bağlı tədqiqatlar, monitorinqlər, vəziyyəti əks etdirən təhlillər aparır və sahənin inkişafı ilə bağlı təkliflər hazırlayır, fəaliyyət istiqaməti ilə əlaqədar məsələlərin həllinə yönəlmiş layihələri hazırlayır və həyata keçirir, maarifləndirmə və məlumatlandırma tədbirlərini təşkil edir. Mərkəz əməkdaşları tərəfindən müxtəlif (erkən nikah və qızların təhsilə cəlb olunması, narkomaniya, insan alveri ilə mübarizə, zərərli vərdişlər, sağlam həyat tərzi, reproduktiv sağlamlıq, insan hüquqları, məişət zorakılığının qarşısının alınması, ailədaxili münasibətlərin tənzimlənməsi, əlilliyin dərki və s. ) mövzularda 838 təlim keçirilmiş, 8728 nəfər iştirak etmişdir. Həmçinin 5 il ərzində Mərkəzlər tərəfindən 1090 tədbir keçirilmişdir, bunlardan 414 dövlət proqramlarının icrası ilə, digərləri isə əlamətdar günlərlə bağlı olmuşdur. Tədbirlərdə 41 721 nəfər iştirak etmişdir. Mərkəz fəaliyyətlərindən ümumilikdə 53 322 nəfər bəhrələnmişdir.

Risk qrupundan olan uşaqlar və onların ailələri ilə iş aparılması mərkəz işçilərindən xüsusi peşəkarlıq və səriştə tələb edir. Fərdi hal qovluqlarının idarə edilməsi (keys menecmentlik) sahəsində İngiltərə, Fransa təcrübəsinə yiyələnmiş, Türkiyənin Qazi Universitetində autizm üzrə nəzəri və təcrübi biliklərə yiyələnmiş, ABŞ-ın Colorado Universitetində “Denver II uşaq inkişafı üzrə skrininq testi” və İngiltərənin PORTEC sistemi üzrə ixtisaslaşmış, eləcə də əlilliyə erkən müdaxilə üzrə, məişət zorakılığı və insan alveri qurbanları ilə iş üzrə ABŞ, Türkiyə, Avstriya, Fransa, İspaniya və Sloveniya təcrübəsinə yiyələnmiş mütəxəssislər hər bir mərkəzdə bu sistemləri tətbiq etməklə mövcud problemləri operativ və peşəkar səviyyədə həll etməyə müvəffəq olur.




Mərkəzlərdə əhalinin ehtiyac duyduğu və icmada mövcud olmayan xidmətlərin ilkin modelini təklif etmək, icmanın bu istiqamətdə ilkin tələbatlarını ödəməklə yanaşı, gələcəkdə əsaslı xidmətin yaradılması istiqamətində də iş aparılır. Buna misal olaraq, aktiv terapiya məşğələləri (əlilliyi olan uşaqlar üçün), loqoped xidməti, psixoloji konsultasiya və təlimlər, reabilitasiya xidməti (incəsənət terapiyası, kompyuter, ingilis dili, rus dili, müxtəlif sənət kursları) həyata keçirilir.

Yarandığı gündən yenilikçi bir ruhda fəaliyyət göstərən mərkəzlər aşkarlanma testləri vasitəsilə uşaqların bacarıqlarının qiymətləndirilməsi və reabilitasiya proqramlarını həyata keçirir, uşaq inkişafı sahəsində inteqrativ qrup məşğələləri təşkil edilir, dərnəklər fəaliyyət göstərir. Qısa bir müddət olmasına baxmayaraq, Mərkəzdə keçirilmiş qrup və fərdi məşğələlərin sayı 19 532 və məşğələlərdən bəhrələnənlərin sayı 7629 nəfər olmuşdur. Portec erkən müdaxilə proqramı ilə keçirilən məşğələlərə 99 nəfər cəlb olunmuş, Denver II skrininq testindən isə 131 uşaq keçirilmişdir. Mərkəzlərdə uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə dil, incəsənət, kompyuter, şahmat, əl işləri dərnəkləri də fəaliyyət göstərir. Yaradıcı dərnəklərdən bəhrələnənlərin sayı 4695 nəfər olmuşdur. 2014-cü ildən başlayaraq Saatlı, Zərdab, Agdam, Goranboy, Qəbələ UADM-larında "Uşaq və yeniyetmə klub"ları fəaliyyət göstərir ki, hazırda klubun 121 nəfər iştirakçısı var.

Yerli səviyyədə həyata keçirilən fəaliyyətlə yanaşı beynəlxalq səviyyəli lahyihələrdə görülən işlər mütəxəssislərin bacarıq və imkanlarının inkişafını şərtləndirir. Buna misal olaraq, 2011-ci ildə Avropa Şurasının Ailə Hüququ üzrə Komitəsi ilə birgə "Uşaqların hüquqi statusu və valideyn məsuliyyətinə dair milli fikir və məsləhətləşmələrin keçirilməsi" mövzusunda uğurla həyata keçirilən layihəni göstərmək olar. Avropa Şurasının sifarişi ilə 47 uşaq arasında sorğu keçirərək təhlil aparılmış, geniş hesabat hazırlanmış və Şuraya təqdim edilmiş, nəşr olunmuşdur. 2015-2016-ci illərdə isə Avropa Şurası ilə birgə "Avropanı uşaqlar üçün quraq!" kampaniyası çərçivəsində Bakı Avropa liseyində və Göygöl rayonunda "Uşaq hüquqları" və "Zorakılıq" mövzularında məsləhətləşmələr aparılmışdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların da iştirak etdiyi tədbirin keçirilməsinə dair videoçarx hazırlanmış və Avropa Şurasında təqdimat keçirilmişdir.

Avropa İttifaqının və Beynəlxalq Miqrasiya Təşkilatının maliyyə dəstəyi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Əhali Fondunun (UNFPA) birgə səyi nəticəsində könüllü surətdə fəaliyyət göstərən Xaçmaz Uşaq və Ailələrə Dəstək Mərkəzində həyata keçirilən layihə çərçivəsində 2000 nəfər qadın təlimləndirilmiş, təlimin nəticəsində seçilmiş 24 qadına kiçik qrantlar verilmiş, ümumilikdə 68 fərdi hal üzərində iş aparılmışdır.

Beynəlxalq təşkilatlarla yanaşı yerli qurumlarla əlaqəli şəkildə də bir sıra layihələr həyata keçirilmişdir. Rayon qadınlarının məşğulluğunu və özünügerçəkləşdirməsini təmin etmək məqsədilə İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşəbbüsü əsasında 2013-cü ildə rayonda Tikiş fabriki açılmışdır. 56 nəfər risk qrupuna aid Mərkəz bəhrələnənləri sırasından seçilən tənha, aztəminatlı statusuna malik qadınların 45-i peşə kurslarına cəlb olunaraq fabrikdə işlə təmin olunmuşlar.

Belə tipli layihələrdən biri də uşaqlar arasında bərabər imkanlar yaratmaq və onların iştirak hüququnun təmin edilməsi məqsədi ilə Dövlət Komitəsi və "YARAT" Müasir İncəsənət Məkanı İctimai Birliyi ilə birgə aztəminatlı ailələrdən olan və valideyn himayəsindən məhrum olunmuş uşaqların yaradıcılıq bacarıqlarının dəstəklənməsinə yönəlmiş "BACARART" layihəsidir. "BACARART" layihəsinin birinci mərhələsində ölkənin 10 bölgəsindən (Bakının Xəzər rayonu, Göygöl, Sabirabad, İsmayıllı, Zərdab, Hacıqabul, Zaqatala, Saatlı, Goranboy və Ağdam) olan 50 istedadlı uşaq və yeniyetmə Saatlı və Göygöl rayonlarında keçirilən ustad dərslərdə iştirak etmiş, peşəkar rəssam və fotoqrafların rəhbərliyi ilə rəngkarlıq və foto çəkimi texnikalarına yiyələnmişlər. Layihənin ikinci mərhələsində əl işləri seçilmiş 30 uşaq Şəkinin Kiş kəndində təşkil olunmuş yay məktəbində iştirak etmişlər. Sonda balaca rəssamların əsərlərindən ibarət sərgi-satışdan əldə olunmuş vəsait 30 finalçı arasında bölüşdürülmüşdür ki, bu da onların potensialının reallaşdırılmasına təkan vermiş və sonrakı fəaliyyəti üçün stimul rolunu oynamışdır.

Uşaqların yay istirahətini və asudə vaxtının səmərəli təşkili məqsədi ilə Qəbələ, Saatlı, İsmayıllı UADM-larının xidmətlərindən bəhrələnən xüsusi qayğıya ehtiyacı olan uşaqlar və onların ailələri üçün İsmayıllı rayonunda "Salam həyat, biz də varıq!" devizi ilə yay düşərgəsi təşkil edilmişdir. Yay düşərgəsi zamanı uşaqların fiziki və əqli inkişafı məqsədilə fərdi proqramlar, müxtəlif əyləncəli oyunlar, ekskursiyalar təşkil edilmiş, uşaq hüquqlarının təbliği, müdafiəsi, eləcə də onların liderlik qabiliyyətlərinin və biliklərinin artırılması ilə bağlı təlimlər keçirilmişdir.

Bundan başqa, 2015-ci ildən başlayaraq Komitə "Asan Könüllüləri" təşkilatı ilə birgə "Asan" məktub aksiyasını həyata keçirir. "ASAN" könüllüləri UADM-lar fəaliyyət göstərən rayonlarda mərkəzlərin əməkdaşları ilə birgə 150-dən çox ailəyə səfər etmiş, uşaqların istəklərini əks etdirən məktublar toplamışlar. Uşaqların istəklərinə uyğun hədiyyələr alınaraq onlara təqdim olunmuşdur. Eyni zamanda səfərlər zamanı aztəminatlı ailələrə zəruri məişət avadanlıqları verilmişdir. Belə səfərlər içərisində cəbhənin təmas xəttində olan rayonlardakı ailələrə xüsusi diqqət və qayğı ilə yanaşılmış, köməklik göstərilmişdir.





Regionlarda aparılan fəaliyyət növlərindən biri də kütləvi maarifləndirmədir. Rayon sakinlərinin müxtəlif mövzularda mütəmadi olaraq məlumatlandırılması məqsədilə kütləvi tədbirlərlə yanaşı təlimlər də keçirilir. 2016-cı ilin əvvəlindən başlayaraq "Ailə büdcəsinin formalaşdırılması və idarə edilməsi" ilə bağlı maarifləndirici təlimlərin keçirilməsinə başlanmışdır. İlkin olaraq, Regional Mərkəzlərlə İş şöbəsinin əməkdaşları "Azərbaycan Mikromaliyyə Assosasiyası" İctimai Birliyi tərəfindən ailə büdcəsinin səmərəli idarə olunması məqsədilə təşkil olunan "Maliyyə savadlılığının artırılması" ilə bağlı müvafiq təlimlərdə iştirak etmişlər. Daha sonra bu təlimlər Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin əməkdaşlarına, eləcə də ölkənin bir sıra rayon və kəndlərində yerli icmadan olan ailələr arasında keçirilmişdir. Təlimlərdə ailə gəlirlərinin cəmlənməsi, aylıq gəlirlər, gəlir və xərclərin mövsümə uyğun təhlili, pulun idarə edilməsi və xərclərin gəlirlərə uyğun qurulması, vacib xərclər üzrə büdcənin qurulması, lazımsız xərclərdən qurtulmanın yolları və sairə mövzularda məlumatlar verilmiş, video-çarx nümayiş etdirilmiş, ailə büdcəsinin formalaşdırılması ənənəsi, ailə büdcəsində qadının rolu və bu mövzuda uğurlu təcrübələrdən bəhs edilmişdir.

Yuxarıda sadalanan məsələlər, ümumən Komitə nəzdindəki Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətinin mütəmadi surətdə təhlil olunması, monitorinqlərin və araşdırmaların aparılması onu deməyə əsas verir ki, regionlarda ortaya çıxan problemlərin, eləcə də vətəndaşların üzləşdiyi çətinliklərin kökündə məlumatsızlıq, hüquqi savadsızlıq, cahillik durur. Regionlarda bu tipli yardımçı qurumların yaradılması və fəaliyyət göstərməsi əhali arasında maarifləndirmənin səviyyəsini artırmağa, insanlara problemlərinin həllində sosial, psixoloji və hüquqi yardımların göstərilməsində müstəsna rol oynayır. Bu fəaliyyətin səmərəli surətdə həyata keçirilməsi üçün xidmət sahəsinin ölkə insanın ehtiyaclarına uyğun qurulması və genişləndirilməsi ilə yanaşı təbliğat və təşviqat işlərinin gücləndirilməsi də zəruri əhəmiyyət daşıyır. Belə ki, bu, regionlarda yaşayan insanların məlumatlılığını artırmağa və bir sıra xidmətlərdən bəhrələnməyə imkan yaradır. Ailə, Qadın və Uşaq Problemləri nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin əsas məramı da insanların rifah halının yaxşılaşdırılmasında, həyat səviyyəsinin yüksəldilməsində cəmiyyətə töhfə verməkdir. Çox qısa bir zaman kəsiyində cəmi 11 rayonda olan Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin çoxşaxəli fəaliyyəti bu məramın öhdəsindən bacarıqla gələn bir model olaraq özünü uğurla təsdiq etməkdə davam edir.



# “Məişət zorakılığı insan alverinə şərait yaradan sosial problemlərdən biri kimi” mövzusunda konfrans keçirildi

18 may 2016-cı il tarixində Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı” çərçivəsində Daxili İşlər Nazirliyinin akt zalında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Daxili İşlər Nazirliyi ilə birgə “Məişət zorakılığı insan alverinə şərait yaradan sosial problemlərdən biri kimi” mövzusunda konfrans keçirib.

Tədbir Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Baş Prokurorluq, Ədliyyə Nazirliyi və İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsman), eyni zamanda Bakı şəhər rayonlarının, Abşeron rayonunun və Sumqayıt şəhərinin monitorinq qruplarının sədrləri və hüquq mühafizə orqanlarının rəhbər vəzifəli şəxslərinin iştirakı ilə baş tutub.



Daxili İşlər nazirinin müavini Oruc Zalov çıxış edərək bildirib ki, son 5 ildə Azərbaycanda məişət zorakılığı zəminində törədilmiş cinayətlərin dinamikasında ciddi şəkildə azalma müşahidə olunub. “Azərbaycanda hər 100 min nəfərə düşən cinayətlərin sayı 255-dir. Bu isə istər Avropa, istər postsovet məkanındakı ölkələrlə müqayisədə olduqca yaxşı göstəricidir.

Daha sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova zorakılıqla bağlı həyata keçirilən mühüm layihələri tədbirləri vurğulayaraq qeyd edib ki, görülən işlərə baxmayaraq, hələ də zorakılıq faktlarına rast gəlirik. “Bütün rayonlarda məişət zorakılığının qarşısının alınması ilə bağlı yerlərdə monitorinq qrupları yaradılmışdır. Monitorinq zamanı bir daha aydın oldu ki, zorakılığa məruz qalan, eyni zamanda, zorakılıq törətmiş şəxslərin qeydiyyata götürülməsi və onlarla profilaktik işin aparılması, zərər çəkmiş şəxslərə yardımların göstərilməsi istiqamətində dövlət orqanları daha sıx əlaqəli işləməlidirlər. Ona görə də, monitorinq qruplarının real fəaliyyət göstərməsi və obyektiv qiymətləndirmə aparmasının böyük rolu var”. Komitə sədri onu da bildirib ki, güclü qanunvericilik bazasının mövcud olmasına baxmayaraq, əhali arasında maarifləndirmənin genişləndirilməsi mütləqdir.

Daha sonra çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı qeyd edib ki, ölkədə qadınlara qarşı baş vermiş cinayətlərin statistikasının təkmilləşdirilməsinə ehtiyac var. “Biz hesabatları Milli Məclisdə dinləyirik. Lakin bəzi hesabatlardakı rəqəmlər fərqli olur. Eyni zamanda, qeyd etmək istərdim ki, polis şöbələrində kişilərlə birgə ailədaxili məsələlərlə məşğul olan qadınlar da çalışmalıdır. Zorakılığa məruz qalmış qadın gedib kişi polisə dərdini deyə bilmir”.

Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Şərif Əsədullayev qeyd edib ki, istintaq olunmuş insan alveri cinayətlərinin təhlili göstərir ki, 2015-ci ildə müəyyən olunmuş 63 insan alveri qurbanının 11-i erkən nikaha daxil olmuş, 29 nəfəri isə müxtəlif formalarda məişət zorakılığına məruz qalmışdır.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi-təminat şöbəsinin müdiri Taliyə İbrahimova bildirib ki, 2010-cu ildən etibarən zorakılığa məruz qalan qadınlar haqqında az sayda mühafizə orderi tətbiq edilib. Qeyd edib ki, BMT-nin statistikasına əsasən, Azərbaycanda qadınların 8 faizi zorakılığa məruz qalır.









Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlı insan hüquqları və məişət zorakılığı mövzusu ətrafında çıxış edərək qeyd edib ki, bu hallar birbaşa olaraq vətəndaş hüquqlarının pozulmasına gətirib çıxarır. Maarifləndirmə işlərinin və nəzarət mexanizmlərinin gücləndirilməsinin vacibliyini vurğulayan Aparat rəhbəri eyni zamanda bu istiqamətdə təkliflərini diqqətə çatdırıb.

Konfransda Təhsil nazirinin müavini Firudin Qurbanov, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Cavanşir Məmmədov, Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin rəis müavini Zahir Əlizadə, Fövqəladə Hallar Nazirliyi Fövqəladə Halların nəticələrinin aradan qaldırılması işinin təşkili Baş İdarəsinin tibb xidməti və psixoloji yardım işinin təşkili şöbəsinin baş zabiti, tibb xidməti kapitanı Xanım Sofiyeva, Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Nurəli Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında İnsan alveri qurbanlarına Yardım Mərkəzinin direktoru Nəzakət Balabəyova və digər rəsmi şəxslər mövzu ətrafında çıxış ediblər.

# “Məişət zorakılığı insan alverinə şərait yaradan sosial problemlərdən biri kimi” mövzusunda konfransın materialları

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**
**Hicran Hüseynova**



### *“Ölkədə məişət zorakılığının qarşısının alınması sahəsində vəziyyət: qurumlararası əlaqələndirmə”*

Qadınlara qarşı zorakılığın qarşısının alınması müasir dövrün mühüm məsələlərindəndir. Zorakılıq, insan hüquqları və əsas azadlıqlarından istifadə edilməsinə, bərabərlik və inkişaf prosesinə ciddi maneə yaradır. Onun əsas səbəbləri, xüsusilə, hərbi münaqişələrin və konfliktlərin artdığı bir zamanda, qadının iqtisadi və psixoloji asılılığı, cəmiyyətdə qadının və kişinin statusunun dəyişməsi, erkən nikahlar, qadınların öz hüquqlarını bilməməsi, formalaşmış yanlış stereotiplər və s. amillərdir. Və bu bir daha göstərir ki, dünyanın diqqətində olan bu problem Azərbaycan cəmiyyətini də narahat edir. Biz inanırıq ki, Azərbaycanın uğurlu iqtisadi inkişafı fonunda, əhalinin rifahının yaxşılaşdırılması, ailədəki milli-mənəvi dəyərlərin daha da sağlamlaşdırılması və bütün region üzrə aparılan aktiv təbliğat bu problemlərin uğurlu həllinə gətirib çıxaracaqdır.

Bildiyimiz kimi, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizinin zəbt olunması, ölkədə bir milyondan çox vətəndaşın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi çətin ictimai-siyasi vəziyyət yaratmışdır. Xüsusilə, hərbi münaqişələrdə, ilk zorakılığa məruz qalan qadın və uşaqlar olurlar. Yaşadıqları stress, fiziki və psixoloji zorakılıq uzun müddət, bir çox hallarda isə həyat boyu davam edir. Məhz bu baxımdan zorakılığa məruz qalan qadınlara psixoloji, tibbi, hüquqi yardımın göstərilməsi və onların, reabilitasiya olunaraq, yenidən ailəyə, cəmiyyətə reinteqrasiya edilməsi çox vacibdir. Əfsuslar olsun ki, atəşkəsin elan olunmasına baxmayaraq, təmas xəttində hələ də dinc əhali zorakılığa məruz qalır. Bu baxımdan dövlət qurumlarının operativ olaraq həmin insanlara yardım göstərməsi, onların reabilitasiyası bütün imkanların yaradılması vacibdir.



Dövlətin əsas prioritetləri hansılardır? Qadınların öz hüququnu bilməsi, onların fəallığı artmasıdır. Bununla bağlı, hüquqi bazanın yenidən təkmilləşdirilməsi və bərabər hüquqların təmin edilməsi üçün bir sıra qanunlar və dövlət proqramları qəbul olunmuş, bəzilərinə isə dəyişikliklər edilmişdir. Gender əsaslı zorakılıqla mübarizə aparmaq, mövcud yalnış stereotipləri dəyişmək üçün müvafiq dövlət orqanları və qeyri- hökumət təşkilatları ilə səmərəli iş birliyinin olması diqqətəlayiqdir. Xüsusilə, əsas tərəfdaşlarımız olan Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondu ilə birgə güclü layihələr həyata keçiririk, araşdırmalar aparırıq. Məlumat üçün bildirmək istəyirəm ki, bu layihələrdən “XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə”, “Zorakılığa yox deyək”, “Azərbaycan ailəsi” adlı filmlər festivalı və bir çoxu artıq ənənəvi xarakter daşıyır.

Əfsuslar olsun ki, görülən işlərə baxmayaraq, hələ də zorakılıq faktlarına rast gəlirik. “Məişət zorakılığı haqqında” Qanunun qəbul olunmasından 5 il keçməsinə baxmayaraq, onun icra mexanizmi hələ də kifayət qədər aktiv deyil. Bizim üçün çox vacibdir ki, adiyyatı orqanlar profilaktik işləri daha da gücləndirsin. Dünyada qəbul olunmuş qaydada növündən asılı olmayaraq, zorakılıq faktı baş verəndə təcili olaraq psixoloq, sosial işçi, sosioloq, hüquq-mühafizə orqanlarının əməkdaşları əlaqələndirilmiş formada fəaliyyət göstərsin. Komitə tərəfindən məişət zorakılığı halları ilə əlaqədar statistik məlumatın toplanaraq onlayn məlumat bazası yaradılır.

Monitorinq zamanı bir daha aydın oldu ki, zorakılığa məruz qalan, eyni zamanda, zorakılıq törətmiş şəxslərin qeydiyyata götürülməsi və onlarla profilaktik işin aparılması, zərər çəkmiş şəxslərə yardımların göstərilməsi istiqamətində dövlət orqanları daha sıx əlaqəli işləməlidirlər. Ona görə də, monitorinq qruplarının real fəaliyyət göstərməsi və obyektiv qiymətləndirmə aparmasının böyük rolu var.

Erkən yaşda ailələrin qurulması, uşaqların təhsildən yayınması, əməyə cəlb olunması, onlara qarşı zorakılıq edilməsi uşaq hüquqlarının ciddi pozulması hallarıdır. Bəzən valideynlər övladlarına laqeyd münasibət bəsləyirlər. Bu isə, əlbəttə, xoşagəlməz fəsadlara gətirib çıxarır. Onların məruz qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Bununla bağlı, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunları qəbul edilib. Lakin bu istiqamətdə məlumatsızlığın olması maarifləndirmə işlərinə ehtiyacı daha da artırır. Əsasən də, regionlarda erkən nikahların azalması üçün biz qarşılıqlı surətdə ciddi işləməliyik. Buna görə də, icra hakimiyyəti, hüquq-mühafizə orqanları, təhsil müəssisələri, bələdiyyələr, qeyrihökumət təşkilatları ilə birgə bu prosesi daha da gücləndirməliyik. Burada bir əsas məsələni, adi vətəndaşların, xüsusilə KİV nümayəndələrinin hadisəyə münasibətini vurğulamaq istərdim. Möhtərəm cənab Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında ictimai qınaq haqqında fikirlərini bildirmişdir. Elə bu problemin qarşısının alınmasında da ictimai qınaq olmalıdır. Lakin hazırda cəmiyyətdə biz bunun yetərli olmadığını görürük, bəzən insanar bu cür hallara biganə yanaşırlar. Qeyd etməliyəm ki, Komitə erkən nikahlarla bağlı həm tədqiqat, həm də maarifləndirmə kampaniyalar aparır. Və bir çoxunuz bu layihələrdə Komitə ilə birgə fəaliyyət göstərmisiniz. Qadın və uşaq hüquqları, xüsusilə gender və məişət zorakılığı üzrə Ali Məhkəmə, Daxili İşlər Nazirliyi ilə birgə seminarlar, hakimlər, vəkillər üçün spesifik təlimlər keçirilmişdir. Son illər daxili işlər orqanları tərəfindən erkən nikah faktı ilə cinayət işləri açılır. Məhkəmə qərarlarında "Məişət zorakılığı qarşısının alınması haqqında" Qanuna və qoşulduğumuz konvensiyalara, o cümlədən, «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi» haqqında Konvensiyaya istinadlar edilir.

Boşanma hallarının olması, ailədaxili münasibətlərin pozulması, ailə münaqişəsi zəmnində baş verən cinayətlər onu göstərir ki, ailəni qurmaq nə qədər məsuliyyətlidirsə, onu qoruyub saxlamaq bir o qədər də çətindir. Burada mən xüsusilə, müvafiq dövlət qurumlarının, hüquq-mühafizə və xüsusilə, İcra hakimiyyətləri orqanlarının rolunu qeyd etmək istərdim. Bir çox hallarda rayon icra hakimiyyətləri nəinki bu xoşagəlməz halların qaşısını alır, hətta onlardan xəbərləri belə olmur. Lakin, vaxtında və yerində problem həll olunmayanda hüququ pozulmuş insanlar nazirliklərə, komitələrə üz tuturlar. Zərər çəkmiş şəxslərə sosial xidmət göstərilməsi üçün akkreditasiya olunmuş qeyri-dövlət mərkəzlərin sayı artmaqdadır. Amma biz istərdik ki, sığnacaqların da sayı çoxalsın. Bu sahədə rayon qeyri- hökumət təşkilatlarını cəlb etmək olar. Yaxşı olardı ki, yerli icra hakimiyyəti orqanları bu məsələyə diqqət yetirsinlər, belə təşkilatlarla daim əməkdaşlıq etsinlər, onlara fəaliyyət göstərməkdə dəstək olsunlar.

Ölkənin Birinci xanımı Mehriban Əliyevanın sözləri ilə desək hər bir insana ikinci şans vermək lazımdır. Bizim məqsədimiz insanları cəzalandırmaq deyil, onları cəmiyyətə inteqrasiya etməkdir. Bu problemin qarşısının alınması üçün isə güclü qanunvericilik, dövlət dəstəyi ilə yanaşı, cəmiyyət özü, xüsusilə vətəndaş cəmiyyəti zorakılıq hallarına adekvat reaksiya verməlidir. Yalnız birgə səylərlə əməli nəticələr əldə etmək mümkündür.



*Daxili İşlər Nazirinin müavini Oruc Zalov*

## *Azərbaycanda məişət zorakılığının qarşısının alınması dövlət siyasətinin prioritet istiqamətlərindəndir*

Ümumən məişət zorakılığı, xüsusən qadınlara və yetkinlik yaşına çatmayanlara qarşı zorakılıq fundamental insan hüquqlarını pozan dünya miqyaslı ciddi bir problemdir. Azərbaycanda ailəni qorumaq, qadına hörmət bütün dövrlərdə əsas mənəvi dəyərlərdən olmaqla, onlara qarşı hər cür zorakılıq xalqın mentalitetinə zidd və cəmiyyət tərəfindən kəskin pislənən hal kimi qəbul edilir. Bu məsələyə dövlət səviyyəsində də həssaslıqla yanaşılaraq zərərçəkən şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı xeyli iş görülmüş, əməli addımlar atılmışdır.

1995-ci ildə BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"sına qoşulan ölkəmiz həmin beynəlxalq sənədin müddəalarının yerinə yetirilməsi və qadınların hüquqi müdafiəsi ilə bağlı zəruri şəraitin yaradılması barədə könüllü olaraq öz üzərinə öhdəliklər götürmüşdür.

Bununla əlaqədar sonrakı dövrlərdə ölkəmizdə demokratik, bərabər imkanlara malik cəmiyyətin formalaşmasında, ailənin, qadınların cəmiyyətdə rolunun artırılmasında, məişət zorakılığının qarşısının alınmasında, gender balansının təmin edilməsində dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin gücləndirilməsi üçün lazımi təşkilati tədbirlər görülmüşdür.

Daxili işlər orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə ictimai təhlükəsizlik, istintaq, təhqiqat, cinayət-axtarışı xidmətlərinin zabit heyətindən olan 4000-ə yaxın əməkdaşı müxtəlif kurs və seminarlara cəlb edilmişdir.

Məişət zorakılığı ilə bağlı Nazirliyə və ərazi polis orqanlarına daxil olan müraciətlərin araşdırılmasına da xüsusi həssaslıqla yanaşılır. Münaqişəli ailələr uçota götürülərək onların ətrafında aidiyyatı qurumlar da cəlb edilməklə qabaqlayıcı tədbirlər görülür. Müafiq zəmində baş verən hər bir cinayət faktı üzrə xidməti təhqiqat aparılaraq ərazi polis orqanı əməkdaşının bu növ cinayətlərin qarşısının alınması üzrə gördüyü işlərə hüquqi qiymət verilir.



Məlumdur ki, gender bərabərliyinə nail olunması hər bir ölkənin inkişafının ayrılmaz komponentlərindən biridir. Bu mənada qadınlara qarşı zorakılıqların profilaktikası, onların insan alveri və cinsi istismar obyekti kimi istifadə olunması, xüsusən ayrı-seçkiliyin ağır və ictimai təhlükəli növlərindən olan məişət zorakılığının, bütövlükdə istənilən formada təzahür edən ayrı-seçkiliyin aradan qaldırılması daxili işlər orqanlarının əsas vəzifələrindən olmaqla müvafiq istiqamətdə tədbirlər sistemli şəkildə həyata keçirilir.

Digər tərəfdən, məişət zorakılığından zərər çəkən şəxslərin, o cümlədən qadın və azyaşlıların ictimai mənəviyyata zidd əməllərə cəlb edilməsi, "alver" obyektinə çevrilməsi, narkotik vasitələrin istehlakına təhrik edilməsi, onların hüquqlarının başqa şəkildə pozulması hallarının qarşısının alınması üzrə həyata keçirilən profilaktik tədbirlərin və əməliyyat-axtarış fəaliyyətinin gedişi diqqət mərkəzində saxlanılır.

Məişət zəminində törədilən qəsdən adam öldürmələrin, qəsdən sağlamlığa ağır və az ağır zərər vurmaların sayı əsasən sabit qalmış, bəzi illərdə isə xeyli azalmışdır. Bu növ cinayətlərin açılması isə tam təmin edilmişdir.

Məlumat üçün onu da qeyd edim ki, son 5 ildə əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı respublikamızda orta hesabla 255 fakt olmaqla, MDB və Avropa ölkələri ilə müqayisədə xeyli azdır.

Bu gün Azərbaycanda məişət zorakılığının qarşısının alınması, qadın hüquqlarının təmin edilməsi, onlara qarşı zorakılığın bütün formalarının ləğv edilməsi, qurbanlarının qayğı ilə əhatə olunması, zorakılıq hərəkətləri etmiş şəxslərin cəzasızlığına yol verilməməsi kimi tədbirlərin gücləndirilməsi və insan alverinə şərait yaradan problemlərin aradan qaldırılması dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Daxili İşlər Nazirliyi bu sahədə qanunvericiliklə müəyyən edilmiş funksiyalarını - aidiyyatı dövlət orqanları ilə birgə insan hüquq və azadlıqlarına hörmət, qanunçuluq humanistlik prinsiplərinin uzlaşdırılması əsasında həyata keçirərək qadınlara qarşı zorakılığın, o cümlədən məişət zəminində baş verən cinayətlərin qarşısının alınması və açılması fəaliyyətin səmərəliliyini daim artırır.



*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri,*
*Siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlı*

## *Məişət zorakılığı ilə mübarizə sahəsində mövcud boşluqların aradan qaldırılması yolları*

Azərbaycan zəngin ailə ənənələri ilə dünyada tanınan ölkədir. Ağsaqqallara, qadınlara, analara, uşaqlara hörmət xalqımızın ən gözəl xüsusiyyətlərindən biridir. Ölkəmizdə ailə siyasəti sahəsində aydın və səlis qanunvericilik bazası yaradılmışdır ki, burada ailənin dəstəklənməsi və möhkəmləndirilməsi, ana və azyaşlıların təşviqi, uşaq hüquqlarının müdafiəsi daxildir.

Azərbaycanda həmçinin bu və ya digər məişət zorakılığı törətmiş şəxslər haqqında məlumat bazası yaradılmışdır ki, onlarla da müvafiq tərbiyəvi-profilaktik işlər aparılır.

Ailədə zorakılığın qarşısının alınması üçün təkcə qanunvericilik tədbirləri kifayət deyil, amma əlbəttə ki, qanun həmişə birincidir.

Zorakılıq qurbanlarına və zorakılığın yer aldığı ailələrə təcili və uzunmüddətli kömək proqramlarının tətbiqi son dərəcə mühümdür.

Cəmiyyətdə zorakılıq problemlərinin əhəmiyyətinin qəbul edilməsini daha da gücləndirən proqramların işlənib hazırlanması vacibdir.

Yalnız zorakılıq qurbanlarını deyil, həmçinin zorakılığın səbəbkarının, iştirakçıların (xüsusən də uşaqların) da cəlb edildiyi psixoloji reabilitasiya sisteminin təşkil edilməsi vacibdir.

Müxtəlif xidmətlərin fəaliyyətləri koordinasiya edilməli, ailə zorakılığının qabaqlanması üçün hüquq-mühafizə orqanları, məhkəmələr, böhran mərkəzləri, sosial xidmətlər, əsəb-ruhi dispanserlər, ictimai hüquq-müdafiə və qadın təşkilatları, təhsil müəssisələrinin fəaliyyətləri uzlaşdırılmalı və əlaqələndirilmədə vahid yanaşma tətbiq edilməlidir.

Bir cinsin digəri üzərində üstünlüyü üzərində qurulmuş ənənəvi stereotiplərin dəyişdirilməsi üçün məlumatverici, təlim-tərbiyəvi işlər yerinə yetirilməli, qadınlara qarşı mümkün zorakılığın qarşısının alınması üçün xüsusi psixoloji və fiziki hazırlıqlar mütləq formada təhsil proqramlarına daxil edilməlidir.

Səhiyyə, təhsil və hüquq-mühafizə orqanlarında zorakılığa məruz qalmış vətəndaşlarla iş aparmaq üçün xüsusi ixtisaslı kadrların hazırlanması təşkil olunmalıdır.

Qadınlara qarşı baş vermiş cinayətlərin statistik hesabatları təkmilləşdirilməlidir.

Ailə-məişət zorakılığının qarşısının alınması və həll olunması üçün həyata keçirilən tədbirlərin effektivliyinin monitorinqinin aparlıması vacibdir.

Polis şöbələrində kişilərlə birlikdə məhz ailədaxili problemlərin həlli ilə işləyəcək qadınlara da yer verilməlidir. Bu halda qadınlara – zorakılıq qurbanlarına kömək məqsədi ilə müraciət etmək daha asan olacaqdır.

Həmçinin bu problemə dair filmlərin çəkilib televiziya ekranlarında, internet saytlarında verilməsi də yaxşı olardı.

Ailənin dağılması, ailəyə və onun hər bir üzvünə zorakılıq tətbiq olunması- insan həyatının itirilməsi, korlanmış talelər, atılmış uşaqlar və unudulmuş valideynlər deməkdir.

Ailə institutuna əsaslı (fundamental) əhəmiyyət verilməsi onun nüfuzunun artırılması – ictimaiyyətin stabil inkişafı, Azərbaycan dövlətinin möhkəmləndirilməsi deməkdir.



*Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Şərif Əsədullayev*

## *Məişət zorakılığı insan alverinə şərait yaradan sosial problemlərdən biri kimi*

BMT-nin 15 noyabr 2000-ci il və Avropa Şurasının 16 may 2005-ci il tarixli Konvensiyaları, həmçinin Avropa Şurasının İnsan alverinə qarşı mübarizə Ekspert Qrupunun (GRETA-nın) 7 iyul 2014-cü il tarixli 30 bənddən ibarət təklifləri, ABŞ Dövlət Departamentinin insan alverinə qarşı müabirəzəyə dair illik hesabatlarının tövsiyələri, Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə haqqında" 28 iyun 2005-ci il Qanunu və insan alverinə qarşı mübarizə üzrə üçüncü Milli Fəaliyyət Planında məişət zorakılığına məruz qalan şəxslər insan alverinin potensial qurbanları kimi nəzərdə tutulmamışdır.

İnsan alveri qurbanlarının sosial reabilitasiyasını tənzimləyən hökumətin 20-yə yaxın normativ-hüquqi aktlarında, həmçinin Nazirlər Kabinetinin 20 may 2011-ci il tarixli 81 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"da məişət zorakılığı insan alverinə şərait yaradan sosial problem kimi müəyyən edilməmişdir.

Qeyd olunmalıdır ki, Respublikanın bütün hüquq-mühafizə subyektləri üzrə 2015-ci ildə ümumilikdə qeydə alınmış 26.916 cinayətin yalnız 0.48 faizini insan alveri cinayətləri təşkil etmiş və bu cinayətlərin açılması tam təmin olunmuşdur.

İstintaq olunmuş insan alveri cinayətlərinin təhlili göstərir ki, 2015-ci ildə müəyyən olunmuş 63 insan alveri qurbanının 11-i erkən nikaha daxil olmuş, 29 nəfəri isə müxtəlif formalarda məişət zorakılığına məruz qalmışdır. Statistik məlumatlardan göründüyü kimi, insan alveri qurbanlarının 46 faizi məişət zorakılığına məruz qalmış şəxslər olmuşlar.

**Qeyd olunanları nəzərə alaraq təklif olunur:**

**Birinci**-Erkən və uğursuz nikah, eləcə də qanuni nikahda olmadan yaşayan qadınların, üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslərin məişət zorakılığına məruz qalma riskini nəzərə alaraq məişət zorakılığı hallarının Nazirlər Kabinetinin 20 may 2011-ci il tarixli, 81 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"a daxil edilməsinə baxılsın;

**İkinci**-Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə üzrə üçüncü Milli Fəaliyyət Planının 13-cü bəndinə, GRETA-nın ABŞ Dövlət Departamentinin təklif və tövsiyələrinə əsasən 2017-ci ilədək Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə, Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları tərəfindən regionlarda insan alveri qurbanlarına yeni yardım mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur. Bununla əlaqədar Daxili İşlər Nazirliyi hökumət qarşısında təkliflə çıxış etmiş, adı çəkilən qurumlarla yanaşı Gəncə, Lənkəran, Quba şəhər, rayon icra hakimiyyətləri məsələyə müsbət rəy bildirmiş, nəticələri ümumiləşdirilərək icraya yönəldilməsi üçün hökumətə təqdim olunmuşdur.

**Üçüncü**-Məişət zorakılığına səbəb olan erkən nikah, nikaha daxil olmağa məcbur etmə, nikah olmadan birgə yaşama hallarına qarşı mübarizədə mövcud olan cəzaların sərtləşdirilməsi məqsədəmüvafiq olardı.



*Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Cavanşir Məmmədov*

## *Məişət zorakılığının qarşısının alınması sahəsində daxili işlər orqanlarının rolu*

Ailə münasibətlərinin tərəflərinin cəmiyyət üçün qapalı olması, həmçinin ailəyə kənar müdaxilələrin bir çox hallarda problemi həll etməkdən çox onun dərinləşməsinə və ailənin dağılmasına gətirməsi təhlükəsi, bu sahədə mübarizəni aparmaq üçün xüsusi və həssas yanaşma tələb edir.

Məişət zorakılığı gender əsaslı ayrı-seçkiliyin bir növü olaraq bu problem dövlət və qeyri-dövlət orqanlarından ciddi diqqət, xüsusi və hərtərəfli yanaşma tələb edir. Bundan əlavə, sosial çarxların hazırlanması və KİV-də bu məlumatların daha ətraflı işıqlandırılması da zəruri məsələlərdəndir.

Ailə-məişət zəminində törədilən cinayətlərin qarşısının vaxtında alınması, profilaktik iş qurumlarının bu sahədə fəaliyyətinin yaxşılaşdırılması məqsədilə özündə qabaqlayıcı tədbirləri əks etdirən göstərişlər hazırlanıb, yerlərə göndərilmişdir. Digər tərəfdən, son 5 ildə 14 Kollegiya qərarında ailə münaqişəsi zəminində törədilən cinayət və hadisələrin, xüsusən qəsdən adam öldürmə və adam öldürməyə cəhd faktlarının baş vermə səbəbləri təhlil edilmişdir.

Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə bağlı Nazirliyə və ərazi polis orqanlarına daxil olan müraciətlərin araşdırılmasına xüsusi həssaslıqla yanaşılır, münaqişəli ailələr uçota götürülərək, ətraflarında aidiyyəti qurumlar da cəlb edilməklə, qabaqlayıcı əməliyyat-profilaktiki tədbirlər həyata keçirilir. Ailə-məişət zorakılığı zəminində baş verən hər bir cinayət faktı üzrə xidməti təhqiqat aparılaraq, ərazi polis orqanı əməkdaşının bu növ cinayətlərin qarşısının alınması üzrə gördüyü işlərə hüquqi qiymət verilir. Qadınların təqsirləndirilən və ya zərərçəkmiş şəxs qismində keçdikləri bütün cinayət işləri, o cümlədən materiallar mütəmadi təhlil olunur, onları cinayətə vadar və sövq edən amillərin öyrənilib aradan qaldırılması, aidiyyəti orqan və təşkilatlara vəsatətlər verilməsi təmin edilir.

Polisin fəaliyyət sahələrinə aid vəzifələrin icra mexanizmləri ilə bağlı qüvvədə olan normativ hüquqi aktlara dəyişikliklər edilməsi məqsədilə yuxarı və mərkəzi icra hakimiyyəti orqanlarına mərhələli olaraq təkliflər təqdim olunmuşdur. Həmin dəyişikliklər Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması, məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə qabaqlayıcı - tərbiyəvi işin aparılması və digər qaydalarda öz əksini tapmışdır.

Dünya təcrübəsində məişət zorakılığının qarşısının alınmasının həmin zorakılığı yaradan şərait və səbəblərin aradan qaldırılması hər bir fərdin və vətəndaşın, dövlətin məsuliyyəti olduğu önə çəkilir. Bunun üçün qabaqlayıcı hüquqi tədbirlərin - maarifləndirmənin həyata keçirilməsi, müvafiq məcburedici dövlət proqramlarının cəmiyyətdə tətbiqi yolu ilə daha effektiv nəticələr əldə edilməsi təqdirəlayiq haldır.



*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)*
*Aparatının rəhbəri, Hüquq üzrə fəlsəfə doktoru Aydın Səfixanlı*

## *Məişət zorakılığı insan hüquqlarının pozulması kimi*

Bu gün dünya dövlətləri tərəqqini, davamlı inkişafı məhz sosial ədalətin, tolerantlığın, sülh mədəniyyətinin təminində, zorakılıqlarsız cəmiyyətdə görürlər. Məlum olduğu kimi zorakılıq azadlıq hüququnu məhdudlaşdıran, şəx siyyətin toxunulmazlığını pozan, ləyaqəti alçaldan qeyri-hüquqi bir əməldir. Ləyaqət hüququ, mahiyyət etibarilə, insanın bütün qalan hüquqlarının əsasını təşkil edir. Məişət zorakılığı halları yalnız bir ailənin deyil, cəmiyyətin təhlükəsizliyinin əsasları üçün təhdiddir.
İkincisi, beynəlxalq hüquqa görə dövlətlər hər bir insanın qanunla bərabər müdafiəsinə təminat verir. Bu baxımdan əgər dövlət ailə üzvləri və digər şəxslər tərəfindən zorakılıq qurbanlarına münasibətdə törədilən eyni xarakterli hüquqa zidd hərəkətlərə fərqli yanaşma sərgiləyirsə və ya fərqli məsuliyyət növü müəyyən edirsə bu zaman bərabərlik hüququ pozulmuş olur və dövlət insan hüquqlarının müdafiəsi sahəsində üzərinə götürdüyü öhdəliyi yerinə yetirməmiş olur. Eyni zamanda əgər hüquq–mühafizə orqanları ailə üzvləri tərəfindən törədilən zorakılıq hallarına nisbətən, ailə üzvü olmayan digər insanlar tərəfindən törədilən zorakılıq hallarına daha tez reaksiya verirlərsə və ya məhkəmə tibbi ekspertizası tərəfindən ailə üzvü olmayan şəxslər tərəfindən yetirilən bədən xəsarətləri qiymətləndirilərək cinayətin tövsifi zamanı nəzərə alınırsa, ailə məişət zəminində yetirilən bədən xəsarətlərinə ciddi yanaşılmırsa və yaxud da hakimlər obyektiv və subyektiv cəhətdən eyni olan cinayətləri törətmiş lakin subyektləri fərqli olan, yəni ailə üzvləri və ailə üzvləri olmayan şəxslərin əməllərinə fərqli hüquqi qiymət verirlərsə bu zamanda bərabərlik hüququnu pozmuş olurlar.

Məişət zorakılığı özlüyündə təhsildən yayınma, intihar hallarının, erkən nikahların sayının çoxalmasına gətirib çıxarmaqla yanaşı, bir çox cinayətlərə, xüsusilə zorakılığın ən ağır formalarından biri olan insan alverinə də şərait yaradır.

Qeyd etmək istərdim ki, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mövcud digər mexanizmlərdə məişət zorakılığına qarşı bir sıra mühüm qərarlar qəbul etmiş və bu zaman Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə istinad etmişlər.



Avropa Məhkəməsi son illər baxdığı işlərdə aydın şəkildə qeyd edir ki, məişət zorakılığı yaşamaq hüququnun (mad 2), işgəncə, qeyri-insani, və alçaldıcı münasibətə məruz qalmamaq hüququ (mad 3); şəxsi və ailə həyatına hörmət (mad 8); ayrı-seçkiliyin qadağan olunması (mad 14) kimi hüquqların pozulmasına səbəb ola bilər.

Müvəkkil tərəfindən həmçinin, valideynlərin məsuliyyətinin artırılması məqsədilə qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi, "Uşaqların cismani cəzadan müdafiəsi haqqında" qanunun qəbul edilməsi, "Uşaqların cinsi istismardan və sui-istifadədən müdafiəsi haqqında Avropa Şurası Konvensiyasının ratifikasiya edilməsi, Avropa Şurasının "Qadınlara qarşı və ailədə zorakılıq hallarının qarşısının alınması və mübarizəyə dair Konvensiyası"nın ratifikasiya edilməsi, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında qeyd edilən istiqamətlərin reallaşdırılması üçün "Azərbaycan Ailəsi Strategiyası"nın, Uşaq Məcəlləsinin və Milli Uşaq Strategiyasının hazırlanması işinin sürətləndirilməsi, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaların əsasnaməsinə yenidən baxılaraq, onların lazımi maddi-texniki və insan resursları ilə təmin edilməsi, Milli Preventiv Qrupla əməkdaşlıqda QHT-lərin, ekspertlərin müntəzəm olaraq uşaq müəssisələrinə başçəkmələrin həyata keçirilməsi təklif edilmişdir.

Bunlarla yanaşı hesab edirik ki, "Ailə psixoloqu" institutu, məişət zorakılığına məruz qalmış şəxslər üçün yardım mərkəzləri və sığınacaqlar, həmçinin ölkədə zorakılıq, təhsildən yayınma və erkən nikah halları üzrə monitorinq sistemi yaradılmalı, bu istiqamətdə birgə, məqsədli addımlar atılmalıdır.

Ailə-məişət zorakılığı probleminin həlli kompleks yanaşma, məqsədli tədbirlərin həyata keçirilməsini tələb edir. Kompleks tədbirlər zəruri hüquqi bazanın, o cümlədən inzibati cəza və cinayət təqibinə imkan verən qanunvericilik aktlarının qəbulu, mexanizmlərin yaradılması, zorakılığın xəbərdar edilməsi, zorakılığın qarşısının alınması, qurbanların müdafiəsi, reablitasiyası kimi tədbirləri əhatə etməlidir.



***Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Nurəli Məmmədov***

## *Məişət zorakılığı halları üzrə aparılan cinayət təqibinə prokurorluq orqanlarının nəzarət tədbirləri haqqında*

Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanunu bu sahədə insan hüquq və azadlıqlarından tutmuş qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi və s. mütərəqqi prinsiplərə əsaslanmışdır.

Məişət zəminində fiziki zorakılıq əməlin ictimai təhlükəsizliyindən və vurulmuş xəsarətdən asılı olaraq inzibati və cinayət məsuliyyətinə səbəb olur. Zorakı hərəkətlərə qəsdən fiziki ağrı yetirmə və döymə İnzibati Xətalar Məcəlləsində (157-döymə) inzibati xəta qismində nəzərdə tutulmuş və beş yüz manatdan min manatadək cərimə və ya iki ayadək müddətdə inzibati həbslə cəzalandırılır. Bu əməllər sağlamlığa ağır, az ağır və ya yüngül zərər vurmaqla törədildikdə müvafiq olaraq Cinayət Məcəlləsinin 126, 127, 128-ci maddələri ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Məişət zorakılığı ilə əhatə olunan əməllərdən biri də Cinayət Məcəlləsinin 133-cü (əzab vermə) maddəsində təsbit edilmişdir. Cinayət Məcəlləsinin 126 və 127-ci maddələrində göstərilən nəticələrə səbəb olmayan mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə həmin Məcəllənin 133-cü maddəsi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur və iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Diqqətinizə çatdırmaq istərdim ki, 2015-ci il ərzində 109 insan alveri faktı üzrə 23 cinayət işi, 8 məcburi əmək faktı üzrə 7 cinayət işi, 62 fahişəliyə cəlb etmə faktı üzrə 56 cinayət işi, 134 əxlaqsızlıq yuvaları saxlama faktı üzrə 106 cinayət işi başlanaraq ibtidai istintaq aparılmışdır.

2016-cı ilin I rübü üzrə isə 68 insan alveri faktı üzrə 13 cinayət işi,15 fahişəliyə cəlb etmə faktı üzrə 14 cinayət işi, 42 əxlaqsızlıq yuvaları saxlama faktı üzrə 35 cinayət işi başlanaraq ibtidai istintaq aparılmışdır.

Ümumilikdə 2015-ci il ərzində 313 fakt üzrə 192cinayət işi, 2016-cı ilin I rübü ərzində isə 125 fakt üzrə 62 cinayət işi başlanaraq ibtidai istintaq aparılmışdır.

Bu cinayətlər üzrə 2015-ci il ərzində ümumilikdə 171 nəfər, 2016-cı ilin I rübü ərzində isə 29 nəfər məsuliyyətə cəlb edilmişdir (cəmi 200 nəfər).

Məişət zorakılığından zərər çəkmiş insanlardan vurğulanan cinayətlərin potensial qurbanları qismində mən diqqətinizi "həssas" kateqoriyaya aid uşaqlara yönəltmək istərdim. Çünki bu qisim problemlərdən ən çox əziyyət çəkən zərbə alan yetkinlik yaşına çatmayan şəxslərdir. Ona görə ki, onların insan alveri ilə məşğul olanların potensial qurbanlarına çevrilmə ehtimalı yüksəkdir.

Məişət zorakılığına məruz qalması ilə əlaqədar məktəbdə təhsildən yayınan, insan alverinin qurbanına çevrilmə riski olan uşaqlar, eləcə də dilənçiliyə məcbur edilən roman uşaqları ilə əlaqədar gələcəkdə qoruma mexanizmlərinin yaradılması və təkmilləşdirilməsi üzərində işlərin aparılması labüddür. İnzibati Xətalar Məcəlləsinin 189-cu maddəsinə əsasən uşaqlarının təlim-tərbiyəsi vəzifələri valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən yerinə yetirilmədiyi təqdirdə inzibati məsuliyyət yaranır. Lakin təkcə bu üsulla mübarizə təbii ki yetərli deyil, mexanizmlər işlənib hazlanmalıdır.




***Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin rəis müavini Zahir Əlizadə***

## *Məişət zorakılığı ilə bağlı verilmiş mühafizə orderlərinin icra vəziyyəti*

2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi ilə ölkəmizdə məişət zəminində baş verən zorakılıqlara qarşı mübarizənin yeni mərhələsi başlandı. Qanunda məişət zorakılığı törətmiş şəxsə *(onun zərər çəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə)* tətbiq olunan məhdudiyyətlər haqqında yerli icra hakimiyyəti orqanları tərəfindən qısamüddətli, məhkəmələr tərəfindən isə uzunmüddətli mühafizə orderlərinin verilməsi, onların icra haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada icra olunması təsbit olundu.

Mülki Prosessual Məcəllənin "Məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işlər üzrə icraat" adlanan yeni fəsilində məişət zorakılığı ilə bağlı məhkəməyə ərizə verilməsi, bu ərizəyə baxılması və onunla bağlı qərar qəbul edilməsi qaydaları müəyyən olundu. Qeyd olunmalıdır ki, həmin əlavələrdə məişət zorakılığı törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, zərər çəkmiş şəxslə yanaşı, yerli icra hakimiyyəti orqanının da uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququ, şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısının alınması məqsədi ilə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə qapalı məhkəmə iclasında baxılması nəzərdə tutulur.

İcra qanunvericiliyində borclunu, konkret halda məişət zorakılığı törətmiş şəxsi, müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədlərinin icrasının ümumi şərtləri müəyyən olunur. Bu qanunvericiliyə əsasən məişət zorakılığına yol verilməsi ilə bağlı verilmiş icra sənədini qəbul edən icra məmuru onun icra sənədinə aid tələblərə uyğun olmasını müəyyən etdikdən dərhal sonra icraata başlayır. Eyni zamanda, icra məmuru borcluya icra sənədində göstərilmiş hərəkətlərin könüllü icrasını təklif edir. Bunlardan başqa, icra məmuru borclunu, yəni məişət zorakılığı törətmiş şəxsi icra sənədində nəzərdə tutulan tələblərin yerinə yetirilməməsinin inzibati və cinayət məsuliyyəti yaratması barədə xəbərdar edir.

Borclu şəxs tərəfindən mühafizə orderinin tələblərinin yerinə yetirilməməsi müəyyən olunduqda, bu, məhkəmə və ya digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsi kimi qiymətləndirilir və icra məmuru tərəfindən həmin şəxs barəsində inzibati xəta haqqında protokol tərtib olunaraq məhkəməyə göndərilir *(İXM-in 528-ci maddəsinə əsasən məhkəmə və ya digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə görə fiziki şəxslərə 500 manatdan 1000 manatadək cərimə, və ya bir ayadək müddətə inzibati həbs tətbiq olunur)*.

İcra qanunvericiliyinə görə inzibati məsuliyyətə cəlb olunduqdan sonra borclu tərəfindən məhkəmənin icra sənədi *(uzunmüddətli mühafizə orderinin verilməsi haqqında qərarı)* qərəzli olaraq icra edilmədikdə, icra məmuru həmin borclunun cinayət məsuliyyətinə cəlb olunması haqqında Ədliyyə Nazirliyinin İstintaq İdarəsinə təqdimat verir. Cinayət Məcəlləsinin 306.1-ci maddəsinə görə isə qanuni qüvvəyə minmiş məhkəmə qərarını qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə cinayət məsuliyyəti yaradır *(CM-in 306.1-ci maddəsinə əsasən təqsirkar şəxslər 1000 manatdan 3000 manatadək cərimə və ya 320 saatdan 480 saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır)*.

Qeyd olunmalıdır ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qüvvəyə mindikdən ötən müddətdə icra məmurlarının icraatına məişət zorakılığı törətmiş cəmi 4 şəxs barəsində, 5-i qısamüddətli, 6-sı uzunmüddətli olmaqla, 11 mühafizə orderi daxil olub. İcra məmurları tərəfindən həmin mühafizə orderlərinin hər birinin icrası təmin edilmişdir.




***Fövqəladə Hallar Nazirliyi Fövqəladə Halların nəticələrinin aradan qaldırılması işinin təşkili Baş İdarəsinin tibb xidməti və psixoloji yardım işinin təşkili şöbəsinin baş zabiti, tibb xidməti kapitanı Xanım Sofiyeva***

## *Bədbəxt hadisələrdə və qəzalarda məişət zorakılığı faktoru*

Məişət zorakılığı halları cəmiyyətimiz tərəfindən həmişə mənfi qarşılanmışdır, çünki Azərbaycan cəmiyyətində qadına hörmət təməl dəyərlərdən olub, xalqımızın əxlaqının və mentalitetinin dərin qatlarına söykənir.

Fövqəladə Hallar Nazirliyinin sutka ərzində 24 saat fəaliyyət göstərən "101" və "112" qaynar xəttləri Respublikanın istənilən nöqtəsindən gələn müxtəlif xarakterli qəzalar, bədbəxt hadisələr haqda məlumatları qəbul edir. Təkcə kütləvi xarakterli fəlakətlər deyil, hər hansı məişət zorakılığı halını da ailədaxili fəlakət, böhran kimi qiymətləndirərək, bu zəmində baş verən qəza və bədbəxt hadisələr zamanı hər bir vətəndaşın xilas olması, onun fiziki və psixoloji təhlükəsizliyinin təmin olunması Nazirliyin fəaliyyətinin vacib istiqamətlərindəndir. "112" zəng mərkəzinə insan amili, təhlükə ilə bağlı daxil olan zənglər təcili olaraq FHN-in müvafiq xidmətlərinə və digər əlaqədar qurumlara ötürülür. Təkcə 2015-ci ildə Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasediciləri və psixoloqları 34 intihara cəhd hadisəsində iştirak etmişlər. Bu halların sonrakı araşdırılması onların çox faizinin məhz məişət zorakılığına məruz qalan insanlar olduğu müəyyən edilmişdir. Yardım edən xilasedici və psixoloqlarımız hadisə yerində insanların hisslərini və davranışlarını başa düşmək və hörmətlə yanaşmaq, açıq şəkildə tənqid etməmək, dürüst, səbirli, sakit və səmimi olmaq, bu hissləri qarşı tərəfə keçirməyi bacarmaq, onlara dəstək verməyə hazır olmaq, yanlış vədlər verməmək, hər konkret halda zərərçəkmişlə ünsiyyət yaratmağın doğru üsullarını bilmək, bu istiqamətdə səhv addımlar atmamaq, lazım gəldikdə susmağı, aktiv dinləməyi bacarmaq, kömək edə biləcək insanları səfərbər edə bilmək xüsusiyyətləri göstərməli olur. Bu cür ekstremal vəziyyətlərdə işləmək üçün hazır olmaq, həm zərərçəkənlərə, həm də özünə psixoloji yardım sahəsində təməl bilik və vərdişlər əldə etmək məqsədilə Nazirliyin şəxsi heyəti ilə psixoloji hazırlıq mövzusunda proqramlar, mühazirələr, treninq məşğələləri hazırlanıb keçirilir.



Qadınlar ailədaxili zorakılığın ən çox zərər çəkmiş hədəfidir. Yoldaşı ona qışqırır, döyür, təhqir edir, alçaldır, rəfiqələri, qohumları ilə görüşməyə qoymur, hədə-qorxu gəlir, işləməyə icazə vermir, ailədə yalnız özünün mövcud problemləri həll etməyə, qərarlar qəbul etməyə qadir olduğuna inandırır, daim tənqid edir, həmişə onda günah hissi aşılayır. Təcavüzə uğrama, yaralama və hətta öldürülmə halları da olur. Qadının ailədəki zorakılığa dözməsinin bir səbəbi var: özünü gücsüz hesab edir, maddi cəhətdən asılıdır, cəmiyyətin qınağından qorxur. Hətta maraqlıdır ki, bəzi hallarda qadın bunu normal hesab edir. Bu qadınların bir çoxu həyat yoldaşlarından "ümidi kəsmirlər", bir gün "düzələcək"lər ümidiylə yaşayırlar. Qadını adətən ailəni dağıtmağa qoymayan illüziyalardan biri də şiddətin bir daha təkrar olunmayacağına inanmasıdır. Təəssüf ki, əksər hallarda bu belə olmur. Qadın ailəsində "sülhü qoruyub saxlaya bilmədiyi", "yoldaşını yola verə bilmədiyi" üçün özünü günahkar hiss edir, belə bir tale, həyat seçdiyinə görə utanır, özünü uçurumun dibində hiss edir.

Ailədaxili zorakılıq görən qadınlarda qorxu, yuxusuzluq, kabus görmə, özünü günahlandırma, əziklik, özünə inam hissinin itməsi kompleks hiss etmə, sinir böhranları, tənhalıq, əsəbilik simptomları üzə çıxır. Qadın özünü ailədə aciz, köməksiz, heç kimə lazım olmayan hiss edir, yoldaşından qorxur, baş verən hər şeydə özünü günahlandırır, ancaq borc hissi ilə yaşayır. Onun keçirdiyi "Qəlb ağrısı" şəxsiyyətdaxili böhran ( krizis) hallarının ümumi əlamətidir. Bu ağrını artıq daşıya bilməmək, istənilən yolla ondan azad olmaq istəyi yaranır. Ona görə də daxili böhran yaşayan insana intihar, bütün problemlərin həlli yolu kimi gəlir.

Ailədaxili zorakılıqdan ən çox zərər çəkənlər uşaqlardır. Valideynlər arasındakı anlaşılmazlıqdan, davalardan, zorakılıqdan uşaqların da payına düşür. Zorakılıq şahidi olan uşaqlar dərin psixi və emosional travmalar alır. Bu cür uşaqlar qorxaq, utancaq, tündxasiyyət, qorxulu yuxular görən, depressiyaya meyilli olurlar. Onlarda güvənsizlik, şəxsiyyət pozğunluğu, cəmiyyətdən təcrid olunma, evdən qaçmaq, zorakılığa meyilli olmaq hissləri daha qabarıq olur. Azyaşlı uşaqlarda bu qorxu, həyəcan hissi yaradır. Evdə valideynləri arasında daim münaqişə və bir tərəfin əzab çəkməsini görən yeniyetmə isə bu vəziyyətə heç bir müdaxilə edə bilmədiyi, şiddəti dayandıra bilmədiyi üçün özünü günahkar hiss edir. O, gördüyü şiddət səhnələrinin təkrarlanacağı qorxusu ilə yaşayır. Uşaqlar özlərini hətta şiddət göstərən valideynə olan istəyinə görə də günahkar hiss edə bilər. Belə mühitdə böyüyən uşaq ona qarşı zorakılıq olunmasa belə, atalarını bir model olaraq görürlər və onu gələcəkdə öz ailəsində təlqin edirlər. Beləliklə, zorakılıq "irsi xəstəliyə" çevrilir.



***Səhiyyə Nazirliyinin tibbi yardımın təşkili şöbəsinin aparıcı mütəxəssisi Gülər Ağayeva***

## *Məişət zorakılığı qurbanlarına tibbi xidmətlərin göstərilməsi sahəsində vəziyyət*

**İnsanlara qarşı zorakılığın 4 əsas növü müəyyənləşdirilir:**

1. ***Fiziki***
2. ***Psixoloji ( emosional)***
3. ***Seksual***
4. ***Sosial ( etinasız münasibət, tələbatlardan boyun qaçırma)***

Məişət zorakılığına məruz qalmışlar üçün Səhiyyə Nazirliyinin tibb müəssisələri ayrılmışdır ( ambulator tibbi xidmət üzrə 25 saylı Şəhər poliklinikası, 7 saylı Qadın məsləhətxanası, stasionar xidməti üzrə - Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası, Ə.Qarayev adına 2 saylı Uşaq Klinik Xəstəxanası). 2015-ci ildə Respublika Klinik Xəstəxanasına 35 nəfər, 7 saylı qadın məsləhətxanasına 7 nəfər, Ə.Qarayev adına 2 saylı Uşaq Klinik Xəstəxanasına 9 nəfər, 25 saylı şəhər poliklinikasına 3 nəfər məişət zorakılığına məruz qalmış insan müraciət etmiş və müvafiq müayinə və müalicə tədbirləri ilə təmin olmuşlar.

Azərbaycan Respublikasında son illərdə aparılan bir neçə tədqiqata əsasən təxminən 13% insan məişət zorakılığına məruz qalır. Psixi Sağlamlıq Mərkəzində məişət zorakılığına məruz qalmış insanlara müxtəlif yardım formaları təşkil olunur. Bu yardım növlərindən biri Mərkəzdə yerləşən "İnam Telefonu" xətti vasitəsilə göstərilən təcili psixoloji müdaxilədir. (012) 566-50-61 əlaqə nömrəsi vasitəsilə "İnam Telefonu" xətti anonim fəaliyyət göstərir. 2015-ci il ərzində 700 zəngdən 47-si zorakılıqla bağlı olmuşdur. Onlara böhrana müdaxilə keçirilmiş və müxtəlif təşkilatlara istiqamətləndirilmişlər.

Mərkəzə birbaşa müraciət edən zorakılığa məruz qalan insanlara multidissiplinar yardım – həkim – psixiatr, klinik psixoloq, sosial işçi və digər tibb mütəxəssisləri birgə yardım göstərirlər. Bu yardıma psixiatriya, psixoloji və sosial müayinə, farmokoloji müalicə, fərdi və ya qrup psixoterapiya, sosial məsələlər üzrə konsultasiya və psixososial reabilitasiya aiddir. 2015-ci ildə Mərkəzə 320 nəfər ilkin müraciət etmişdir. Müraciət edənlərdən 21 nəfər bilavasitə məişət zorakılığına məruz qalmışdır. Müraciət edənlərdən 38 nəfərdə yüksək zorakılıq riski qeyd olunmuşdur. Zorakılığa məruz qalan və yüksək riskli şəxslərə multidistiplinar yardım göstərilmiş və zəruri tövsiyələr verilmişdir.

"Məişət zorakılığından zərər çəkmiş yetkinlik yaşına çatmamış şəxslər üçün xüsusiləşdirilmiş tibbi-psixoloji yardımın göstərilməsinə dair fərdi tövsiyələr" hazırlanıb və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi kollegiyasının 03 oktyabr 2013-cü il tarixli 30 saylı qərarı ilə təsdiq edilmiş Məişət zorakılığına məruz qalmış şəxslər üçün ayrılmış tibb müəssisələrinin mütəxəssislərinə xüsusiləşdirilmiş vəsait hazırlanıb və Səhiyyə Nazirliyi kollegiyasının 13 may 2014-cü il tarixli qərarı ilə təsdiq olunub.

Hər il 2 oktyabr tarixində Beynəlxalq qeyri-zorakılıq günü, 25 noyabr tarixdə Qadın zorakılığına qarşı mübarizə günü və s. analoji günlərdə müvafiq kütləvi aksiya və təşviqat kampaniyaları keçirilir. Buna misal olaraq 25 noyabr Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü ilə bağlı Bakı şəhər Binəqədi Rayon 283 saylı tam orta məktəbdə və Qaradağ Rayon 253 saylı tam orta məktəbdə İSİM tərəfindən "Qadınlara qarşı zorakılığa yox deyək!" mövzusunda maarifləndirmə tədbiri keçirildi və iştirakçılara İSİM tərəfindən tərtib və çap edilmiş maarifləndirmə bukletləri paylanmışdır.

# Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” texniki yardım layihəsi uğurla həyata keçirilir




2011-ci ildən başlayaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə Azərbaycanda “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” texniki yardım layihəsinə start verilmişdir.

Layihənin əsas məqsədi, kənd qadınlarının iqtisadi və icma həyatında iştirakı ilə bağlı ehtiyac və problemlərinin dəyərləndirilməsi, müsbət təcrübələri yerli şəraitə və kənd yerlərində yaşayan qadınların xüsusi ehtiyaclarına uyğunlaşdırıb onların işgüzar və sosial fəaliyyəti üçün əlverişli mühitin yaradılmasını təmin etməkdir. Layihənin keçirilməsi üçün məkan olaraq **Biləsuvar, Salyan, Sabirabad, Neftçala və Masallı** rayonları seçilmişdir. Layihə çərçivəsində 2013-ci ildə Sabirabad rayonunda, 2015-ci ildə isə Neftçala rayonunda Qadın Resurs Mərkəzi yaradılmışdır.

2014-cü ildə Qadın Resurs Mərkəzinin üzvləri üçün “Öz biznesinə başla və onu inkişaf etdir” mövzusunda təlim keçirilmişdir. Təlimdə 14 qadın iştirak etmişdir. Proqramı bitirən qadınlar arasında müsabiqə aparılmış və 7 ən yaxşı mikro layihə təklifi müəyyən edilmişdir. Müsabiqənin qaliblərinə arzuolunan biznesin qurulmasına lazım olan təhcizat qismində yardım göstərilmişdir.

**Hal - hazırda 7 mikro layihə fəaliyyət göstərir :**

- 3 heyvandarlıq,
- 1 cücə saxlama,
- 1 pərdə tikiş sexi,
- 1 kosmetika satışı
- 1 xınayaxdı mağazası.

Bizneslər dövlət qeydiyyatına alınmışdır.

2014-cü ilin dekabr ayından etibarən **“Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı”** adlı layihə Koka Kola Fondunun maliyyə yardımı ilə Neftçala rayonunda davam etdirilmişdir. Layihə **“Gənc və əlilliyi olan qadınların iqtisadi və sosial həyatda səlahiyyətləndirilməsi”** adı ilə həyata keçirilməyə başlanılmışdır.




***Layihənin ilk ayları ərzində görülən işlər:***

*· Əlilliyi olan qadınların layihədən bəhrələnməsi məqsədilə layihə çərçivəsində BMT İnkişaf Proqramı ilə Azərbaycan Əlil Qadınlar Cəmiyyəti ilə tərəfdaşlıq haqqında razılıq əldə olunmuşdur;*

*· 2014-cü ilin dekabr ayında Bakıda 21 əlil qadının iştirakı ilə “Öz Biznesini Yarat” təlimi həyata keçirilmiş, iştirakçılara sahibkarlıq fəaliyyətinə qoşulmaq üçün lazım olan biliklər verilmiş və ilk biznes planlar tərtib olunaraq maliyyələşmə üçün ekspert qiymətləndirilməsi və donorun təsdiqinə göndərilmişdir;*

*·2015-ci ilin yanvar ayında "Neftçala rayonunda əlil qadınların ehtiyac və tələblərinin araşdırılması" mövzusunda, 2015-ci ilin fevral ayında isə "Əmək bazarında qadınların məşğulluq imkanları" mövzusunda tədqiqatlar aparılmış, araşdırmaların nəticələrinə və ekspert tövsiyələrinə əsasən layihənin illik fəaliyyət planına düzəlişlər edilmişdir;*




*·2015-ci ilin aprel ayında qadınlar, o cümlədən əlil qadınlar üçün Neftçala Qadın Resurs Mərkəzində "Biznes Bacarıqlarının İnkişafı" mövzusunda təlim keçirilmiş, yeni biznes fəaliyyətinə başlamaq istəyən xanımlara biznes planlarının tərtib olunmasında praktiki yardım göstərilmiş və tamamlanmış biznes planlar maliyyələşmə üçün müstəqil ekspert qiymətləndirilməsinə və donor təsdiqinə göndərilmişdir;*

*· Neftçalalı qadınlar üçün aprel ayında təşkil olunmuş "Biznes Bacarıqlarının İnkişafı" təlimindən sonra təqdim olunmuş müxtəlif biznes layihələri qiymətləndirilmişdir.*

Seçim nəticəsində 7 biznes layihəsinin Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən dəstəklənməsi qərarı verilmişdir:

1. "Qadın Fitnes Klubu"
2. "Kompüter Xidmətləri"
3. "Xınayaxdı Mərasimlərinin Təşkili"
4. "Dərzilik xidməti"
5. "Qoyunçuluq təsərrüfatı" (Xıllı kəndində)
6. "Qoyunçuluq təsərrüfatı" (Aşağı Qaramanlı kəndində)
7. "Kəndli-Fermer İstehsal Təsərrüfatı" (seçim və müzakirələr davam edir)

Layihənin iyul-sentyabr ayları ərzində biznes layihələrinin müəllifləri ilə çoxsaylı görüşlər və müzakirələr keçirilmiş, həmin bizneslərin yaradılması üçün qadınların və BMTİP-in qarşılıqlı iştirakı (töhfəsi) razılaşdırılmış, tələb olunan material və avadanlıqların alınıb qadınlara çatdırılması üçün BMTİP-in satınalma prosedurları yerinə yetirilmişdir.



Layihə çərçivəsində 7 biznes sahəsi yaradılıb ki 9 nəfər qadın və onların ailələri üçün əlavə gəlir və məşğulluq yeri deməkdir.

Oktyabrın 15-də Beynəlxalq Kəndli Qadınlar Günündə, Neftçala rayon mərkəzində qadınlara məxsus 4 biznesin (Fitnes Mərkəzi, Xınayaxdı Xidməti, Dərzilik və Kompüter Xidmətləri) rəsmi açılış mərasimi təşkil olunmuşdur.

Hal-hazırda daha 3 kənd təsərrüfatı bizneslərinin (iki qoyunçuluq və bir fermer-istehsal təsərrüfatı) yaradılması istiqamətində işlər gedir.

Layihə 2016-cı ildən etibarən Biləsuvar, Salyan, Sabirabad rayonlarında davam etdirilir və daha 14 nəfər kəndli qadın üçün biznes sahəsinin yaradılması üçün təchizat alınmasına başlanılmışdır.



# Vətənpərvərlik ən ali hissdir

*"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpəvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir"*

*Heydər Əliyev*

Bu gün Azərbaycanda həyata keçirilən dövlət uşaq siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqillik yolunda qətiyyətlə irəliləyən Azərbaycana günümüzdə məhz milli şüura malik, vətənpərvər nəsil lazımdır. Təsadüfi deyil ki, Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Heydər Əliyev dəfələrlə müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişməsini qürur hissi ilə vurğulamışdır. Və bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən bu siyasətin ən mühüm nailiyyətlərindən biri artıq mütəşəkkil, dinamik qüvvəyə çevrilən, Azərbaycan həqiqətlərini dünyada təbliğ edən yüksək intellektli, vətənpərvər nəslin yetişməsidir.

Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq, və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə inam hissini gücləndirir. Vətənpərvərlik, eyni zamanda, qəhrəmanlığın əsasını qoyan amildir. Gənc nəsil arasında aparılan vətənpərvərlik tərbiyəsi, onların Vətənə məhəbbət və sədaqət ruhunda böyümələrinə, xalqımıza xas olan ən yaxşı mənəvi və əxlaqi keyfiyyətlərə yiyələnmələrinə müsbət təsir göstərir.

***Uşaqların fikirlərini öyrənmək üçün "Vətənpərvərlik sizin üçün nə deməkdir"? sualı ilə şagirdlərimizə müraciət etmək istədik...***



## Mehriban Əliyeva

***Bakı-Oksford məktəbi, 5-ci sinif şagirdi***

***Rəşid Behbudov adına musiqi məktəbinin 4-cü sinif şagirdi***

***"İstedadlı uşaqlar festivalı-2016"nın mükafatçısı***



Mən Bakı şəhərində anadan olmuşam. Müasirliyi və qədimliyi özündə birləşdirən bu şəhəri çox sevirəm və istəyirəm ki, şəhərimizi bütün dünyada tanıdım. Arzu edirəm ki, Ana Vətənin bütün gözəl guşələrini və tarixi abidələrini ailəmlə birgə gəzim. Vətənin hər qarış torpağı bizim üçün müqəddəsdir, ülvidir. Vətən bizim tariximiz, ənənələrimizdir. Onun hər şeyi – dağı, daşı, torpağı, suyu, səması bizim üçün əzizdir, doğmadır.

Vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən yaranır. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bizim bütün sevgilərimizin əvvəli də, axırı da Vətənlə bağlıdır.



## Fatima Keyseruxskaya

*2000-ci il 6 aprel tarixində Balakən rayonu*
*Nizami adına şəhər 1 saylı tam orta məktəbin 11-ci sinif şagirdi*

- ***2014-cü ildə Respublika 7-ci Gənclər Forumunun nümayəndəsi***
- ***2014-cü ilin noyabr ayında isə Respublika 3-cü Uşaq Forumunun nümayəndəsi və Respublika Uşaq Əlaqələndirmə Şurasının üzvü***
- ***2015-ci ildə 12-14 fevral tarixində keçirilən "Sabahın alimləri" müsabiqəsində kimya nominasiyası üzrə 2-ci yerin qalibi***
- ***2015-ci ildə 18-20 aprel tarixində keçirilən Respublika fənn olimpiadasında isə tarix fənni üzrə Qızıl medal***
- ***2016-cı ildə Respublika fənn olimpiadasında tarix fənni üzrə Gümüş medal***
- ***Ulu Öndər Heydər Əliyevin 93 illiyinə həsr olunmuş "Ən yaxşı təqdimat "müsabiqəsinin qalibi***
- ***2016-ci ilin 1 iyun tarixində 2015-2016-cı ildəki nailliyətlərimə görə "Azərbaycanın gələcəyi" mükafatına layiq görülmüşəm.***
- ***"İstedadlı uşaqlar festivalı-2016"nın mükafatçısı***

## Heydər Məmmədli



***Şimali Kipr Türk Respublikasında keçirilən Eco-Kids ətraf mühit layihəsinin qalibi (2013)***
***"A person a tree" Project Earth ətraf mühit layihə olimpiadasının qalibi (2013)***
***İNEPO olimpiadasında gümüş medal***
***"Xəmsə Milli İntellektual Oyunu" üzrə Azərbaycan çempionu***
***Breyn-Rinq intellectual oyunu üzrə Bakı çempionu***
***Nə? Harda? Nə zaman?oyunu üzrə Bakı çempionu***
***"Qələbəyə doğru" kubokunun qalibi***
***Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumunun iştirakçısı***

Vətən sevgisi əzəli və əbədi bir qəlb odudur, heç vaxt öz təravətini və gücünü itirmir və elə buna görədir ki, insan bu sevgiyə köklənəndə dünyanın bütün gücü onun qoluna toplanır, göyün bütün işığı və nuru onun qəlbinə, fikrinə dolur. Mən də bütün qəlbimlə gözəlliklər diyarı– Odlar yurduna, bu müqəddəs torpağa bağlıyam. Onun fərəhi mənim fərəhim, onun kədəri mənim kədərimdir.

Mən öz Vətənimi – doğma Azərbaycanımı tükənməz məhəbbətlə sevirəm. Mənim müqəddəs borcum Vətənə, onun çiçəklənməsinə xidmət etmək, Vətənin hər qarış torpağına sinəmi sipər edib onu qorumaqdır. Xüsusən, indiki vaxtda - Vətən torpağının böyük bir hissəsinin yağı tapdağı altında olduğu bir zamanda Vətən bizdən daha böyük hünərlər gözləyir və mən bütün qanımla, canımla onu qorumağa hazıram. Mən bu gün Vətənə borcumu oxumaqla, sabah isə müstəqil Azərbaycan ordusunda vuruşmaqla, müxtəlif sahələrdə çalışmaqla verəcəyəm. Vətəni qorumaq, onu inkişaf etdirmək və çiçəkləndirmək bizim hamımızın şərəf işi, vətəndaşlıq borcumuzdur.

Vətən dəyişmir, satılmır, köhnəlmir, qocalmır. O, tale qismətidir, ulu yaradan tərəfindən bizlərə bəxş olunub. Bu müqəddəs məkanda keçmişlə gələcəyimiz qovuşur. O əbədi və əzəlidir. Onun göylərində əcdadlarımızın narahat ruhları dolaşır.

Vətən qarşısında mən də bütün həyatımı, bütün varlığımı borcluyam. Lazım gələrsə, vətən uğrunda hər an canımı qurban verməyə hazıram. Bu, təkcə mənim yox, mənim kimi bütün gənclərin fikridir. Biz hər an vətənin keşiyindəyik, hər an canımızla, qanımızla onu müdafiə etməyə hazırıq.

Biz gərək özümüz üçün deyil, el üçün yaşayaq , bu gün üçün deyil, gələcək üçün yaradaq, "Mənim üçün" deyil, "Bizlər üçün", "Xalqımız üçün " düşünək.

## Quliyeva Nigar



***2006-cı il Bakı şəhəri***
***Bakı Oksford məktəbi, 5-ci sinif şagirdi***
***Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumunun iştirakçısı***

Azərbaycan mənim vətənimdir.

Bakı Azərbaycanın paytaxtıdır və dünyada ən gözəl şəhərdir. Azərbaycan hamımızın Vətənidir və bizim müqəddəs and yerimizdir. Hər kəs Vətənini fərqli sevir. İdmançılarımız yarışlarda qalib gələrək bayrağımızı ən yüksəyə qaldırmaqla. Bizim bayrağımız da dünyada ən gözəl bayraqdır.

Əsgərlərimiz Vətənimizi qorumaqla. Mənim anam kimi insanlar xarici ölkələrdə keçirilən tədbirlərdə öz sözünü deməklə.

Atam deyir ki, mən də Vətənə borcumu yaxşı oxumağımla, savadlı olub ölkəmə xidmət etməklə ödəyə bilərəm. Atam da , anam da, mən də Vətənimizi çox sevirik. Biz uşaqlar çox çalışmaqla, tariximizi, mədəniyyətimizi, mlli-mənəvi dəyərlərimizi öyrənməklə öz Vətənimizi qoruya bilərik.

Qarabağımız işğal edilib. Torpaqlarımızı azad etmək üçün Cənab Prezident İlham Əliyevin dediyi kimi onları öz gücümüzlə qorxudaraq torpaqlarımızdan qovacağıq.

Azərbaycan güclü dövlətdir. Buna görə də mən inanıram ki, bütün qaçqınlar öz evlərinə qayıdacaqlar. Mən də Əvəz babanın Füzulidəki evini yenidən tikəcək və yay tətilində dostlarımı ora qonaq çağıracam.

Mən Azərbaycanı çox sevirəm.Heydər babanın da söylədiyi kimi, "Mən fəxr edirəm ki, Azərbaycanlıyam"!




## Ömər Allahverdiyev

***26.11.2000 - Şuşalı***

- ***2015-ci il 25-29 noyabr tarixində "8th WOF Championship" yarışında dünya çempionu***
- ***Wing Chun idman klubunun 27.12.2015-ci il tarixli qərarı ilə "İlin idmançısı" seçilmişəm.***
- ***2016-cı il mayın 28-də Kungfu Sanda üzrə Respublika çempionu***
- ***2016-cı il iyulun 21-i Dünya Çempionatında Azərbaycanı təmsil etmişəm***
- ***"İstedadlı uşaqlar festivalı-2016"nın mükafatçısı***



Vətənpərvərlik - insanın daxilindəki ən ali hiss deməkdir. Vətənpərvərlik - himnimizi eşitdikdə göz yaşlarını saxlaya bilməmək deməkdir. Vətənpərvərlik - bayrağımızı başımızın üstündə dalğalandırmaq deməkdir. Vətənpərvərlik - torpağımızın azadlığı uğrunda mübarizə aparmaq deməkdir. Vətənpərvərlik - şəhidlərimizin intiqamını almaq hissi ilə yaşamaq deməkdir. Vətənpərvərlik - insani keyfiyyətlərin ən ümdə bariz nümunəsi deməkdir.

## Rüfət Bayramov



***Bakı şəhəri- 03.10.2001***
***Sabunçu rayonu 271 saylı tam orta məktəb.***

- ***06.11.2015-ci il tarixdə keçirilən Uşaq Paralimpiya oyunlarında və 18.12.2015-ci il tarixində "II SENI CUP" turnirinin BC/2 kateqoriyası üzrə 1-ci yer***
- ***01.06.2016-cı il tarixində Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunmuş Bacarıqlı Uşaq festivalında "Azərbaycanın Gələcəyi" mükafatına layiq görülmüşdür.***
- ***"İstedadlı uşaqlar festivalı-2016"nın mükafatçısı***

Vətən..... bu kəlimə nə qədər də mənalı və dərindir. Mənim Vətənim Azərbaycandır. Mən öz Vətənimi canım qədər çox sevirəm və ona çox bağlıyam. Vətəni diyar-diyar gəzməkdən zövq alıram. Olduğum dövlətlər arasında bizim diyarımız qədər gözəl məkan yoxdur. Onun laləli çölləri, coşqun çayları, yamyaşıl ormanları, əvəz olunmazdır. Vətən torpağı bizim üçün toxunulmazdır və müqəddəsdir.



**Azərbaycan qadını hər zaman öz müdrikliyi, sədaqəti, qəhrəmanlığı, cəsarəti və yüksək analıq keyfiyyətləri ilə xalqımızın adını uca tutub. Demək olar ki, tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsində də qadınlarımız yaxından iştirak ediblər. Məhz buna görə də, onların bir çoxunun adları Azərbaycan tarixinin səhifələrinə qızıl hərflərlə yazılıb.**

**XX əsrin sonlarında-torpaqlarımız erməni daşnaklarının təcavüzünə məruz qalanda igid oğullarımızla bərabər Vətənimizin mərd qızları da silaha sarılaraq, mənfur düşmənə qarşı qəhrəmancasına vuruşmuş və onların bir çoxu bu müqəddəs amal uğrunda həyatlarını qurban verərək, şəhidlik zirvəsinə yüksəlmişlər...**

**Şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman qadınlarımızdan ikisi məhz Daxili Qoşunların əməkdaşları olmuşdur. Onlar sıravi Könül Qəhrəmanova və mülki işçi Məlahət Nəsibovadır. Bu sayımızda Məlahət Nəsibova haqqında məlumat verəcəyik.**

Məlahət Ənvər qızı Nəsibova 1953-cü il martın 30-da Şəmkir rayonunun Zəyəm kəndində anadan olub. Orta təhsilini Zəyəm kənd orta məktəbində alıb. Sonra Bakıdakı Yüngül Sənaye Texnikumunu bitirən Məlahət xanım 1970-ci ildə doğma rayonuna qayıdaraq, orta-ixtisaslı mütəxəssis kimi əmək fəaliyyətinə başlayıb. Bir müddət sonra yenidən paytaxta qayıdaraq Bakıxanov adına Tikiş Fabrikində işləyib.

20-ci əsrin sonlarında respublikamızın səmasını bürüyən qara buludlar, bu vətənpərvər el qızının da taleyində yeni bir mərhələnin əsasını qoydu...

Bu barədə görkəmli jurnalist Firuzə Bəyməmməd qızının (Əsədullayeva) **"Vağzalı çalınır..."** adlı kitabında yer alan "Biri var idi, biri yox idi..." başlıqlı məqaləsində maraqlı məlumatlar dərc olunub: **"... 1988-ci il. Azadlıq aşiqləri kimi o da xalqımızın 70 illik köləliyinə dözmədi. Mübarizə meydanına atıldı. Azadlıq meydanında döyülənlər, əzilənlər sırasında Məlahət də var idi.**

**1990-cı ilin 20 yanvarı. O dəhşətli, qan qoxuyan, ürəkləri donduran gecə. Doğma Bakımızın küçələrinə o cəsur qızın da al qanı hopdu. Düşmən gülləsi 20 yanvardan ikinci dərəcəli əlil olan Məlahətin əzmini qıra bilmədi"**.

Müəllif həmçinin məqaləsində Məlahətin ermənilərin nankorluğuna dözə bilmədiyini, həmişə bütün varlığı ilə Qarabağa - döyüş meydanına can atdığını qeyd edərək, şəhid olmuş rəfiqəsinin vətənpərvərliyi ilə qürur duyduğunu bildirir: **"... Biz həmişə birlikdə idik. İkimiz də Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin üzvü idik. Cəmiyyətin xətti ilə qaçqınlara əl tutur, onlardan heç bir yardımı əsirgəmirdik. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da bir yerdə idik. Təlimatçı işləyirdik.**

**Avqustun 1-də Bakıxanov adına tikiş fabrikinin nümayəndələri Ağdam-Tərtər cəbhəsində döyüşən əsgərlərə yardım apararkən Məlahət onları müşayiət edirdi.**

**Səhər saat 7-də mən onları fabrikin qarşısından yola saldım. Nədənsə Məlahət çox həyəcanlı idi. Elə bil ki, şəhid olacağı ürəyinə dammışdı. Mən onunla sağollaşarkən o, mənə baxdı, gözləri doldu, dedi: "Firuzə, mən geri ancaq şəhid kimi qayıdacam. Səndən son xahişim budur ki, qəbrimin üstünə əsgər paltarında olan şəklimi vurasan"** (Müəllifin bu məqaləsi həmçinin "Ana gözü həsrətli qaldı" başlığı ilə **"Əsgər"** qəzetinin 02.02.1993-cü il tarixli sayında və T.Məmmədovanın müəllifi olduğu **"Oğullar verir ki, can, yaşasın Azərbaycan"** adlı kitabında dərc edilmişdir - A.Ə.).

Məlahət yardım aparanlarla geri dönmür, öz istəyi ilə ön cəbhədə qalaraq, igid oğullarımızla birgə erməni daşnaklarına qarşı vuruşmağı qərara alır.

**2 avqust 1992-ci il.** Ağdərə rayonunun Drambon kəndinin (indiki Kəlbəcər rayonunun Heyvalı kəndi - A.Ə.) düşməndən azad edilməsi uğurunda gedən döyüşdə Məlahət Nəsibova qəhrəmancasına həlak olur.

Vaxtı ilə Ağdərə cəbhəsində gedən ağır döyüşlərdə "leytenant" hərbi rütbəsində tağım komandiri kimi erməni daşnaklarına qarşı mərdliklə vuruşmuş Rəsul Vəliyev (hazırda Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik - A.Ə.) Məlahət xanımın mərdliyini və vətənpərvərliyini heç zaman unutmayacağını deyir: **"...1992-ci ilin isti yay günlərindən biri idi. Məlahət xanım yardım gətirən mülki vətəndaşlarla birgə cəbhə bölgəsinə gəlmişdi. O zaman bizim qərargahımız Ağdərə rayonunda Ortakənddəki məktəbdə yerləşirdi. Yardım gətirən heyət qayıtsa da, Məlahət xanım burada qalmaq üçün təkid edərək, bizimlə birgə döyüşlərdə iştirak etmək arzusunda olduğunu bildirdi.**

**Səhəri gün bölmələrimiz müxtəlif istiqamətlərdən düşmənin nəzarətində olan Drambon kəndinə hücum etməyə hazırlaşırdı. Bu vaxt Məlahət xanım da döyüşçülərimizlə birgə bu əməliyyatda iştirak etmək istədiyini bildirdi. Düzü qadın olduğu üçün onun bu döyüşdə iştirak etməsinə heç kim razı deyildi. Lakin buna baxmayaraq Məlahət xanımı bu inadından da döndərmək mümkün olmadı. Beləliklə, o, Eynullanın (kapitan rütbəsində olan bu zabitin soyadını unutduğunu deyir – A.Ə.) komandirlik etdiyi taqımın tərkibində Drambon kəndinin düşmən qüvvələrindən təmizlənməsi əməliyyatlarında iştirak edir. Az keçmir ki, hücuma keçən bölmələrimiz erməni daşnakları tərəfindən güclü minamyot atəşinə məruz qalır. Bu döyüşdə Məlahət xanım və bir-neçə döyüşçü yoldaşımız qəhrəmancasına şəhid oldu..."**

Məlahət Nəsibova 1992-ci il avqustun 18-də Bakıdakı Şəhidlər Xiyabanında dəfn olunub.

Zaur və Ramin adlı iki övladı yadigar qalıb. Şəhid M.Nəsibova artıq həm də nənədir. Onun Göyçək, Məlahət, Hüseyn, Zübeydə və Dilşad adlı nəvələri də var. Onlar Tomris, Həcər və Nigar qeyrətli nənələri ilə qürur duyurlar. Hər il oğlanları, gəlinləri və nəvələri onun doğum günündə və şəhid olduğu gün Şəhidlər Xiyabanına gələrək, Vətənimizin qəhrəman qızını ziyarət edir, məzarı üzərinə tər qərənfillər düzürlər.

Bu gün Zaur qəhrəman anasının timsalında Vətənimizin şəhid olmuş bütün qeyrətli oğul və qızları ilə qürur duyduğunu deyir: **"... Anam Vətənimiz, müqəddəs torpaqlarımız yolunda şəhid oldu. Erməni qaniçənlərinin Xocalıda və digər sərhəd bölgələrimizdə törətdiyi vəhşiliklərə heç cür dözə bilmirdi. Ona görə də cəbhə bölgəsində qalaraq, döyüşməyə qərar vermişdi...**

**Nə deyim, o, mənim təkcə anam yox, həm atam, həm də arxam-dayağım idi. Anam şəhid olanda mən Politexnik Texnikumunun birinci kursunda təhsil alırdım. Şəhid olandan sonra ona məxsus olan "Quran" kitabını və oğlanlarına yazdığı məktubunu evimizə gətirmişdilər. Məktubunda anam Vətənimizi öz canından və hətta öz övladlarından da çox sevdiyini, bu yolda sonadək mübarizə aparacağını qeyd etmişdi. Əlilliyə görə aldığı müavinətini də anam hər ay aparıb öz ata-baba ocağını məcburi tərk edərək Şuşadan Bakıya pənah gətirmiş aztəminatlı ailəyə yardım olaraq verirdi. Biz bu barədə ancaq anam dünyasını dəyişdikdən sonra onun yas mərasimində iştirak etmək üçün gəlmiş o ailənin dilindən eşitdik. Mən və qardaşım Ramin anamızın əsl vətənpərvər, əsl vətəndaş olması ilə ancaq fəxr edir və qürur hissi duyuruq..."**

Məlumat üçün qeyd edək ki, Məlahət xanımın həyat və döyüş yolu barədə məlumatlara həmçinin görkəmli ziyalımız Bənövşə Eyyubovanın 1997-ci ildə Bakıda nəşr olunan və Suraxanı şəhidlərindən bəhz edən **"Qırmızı qan"** adlı kitabında yer alan "Qəhrəman qadın" başlıqlı məqaləsində rast gəlmək olar.

Bundan əlavə, M.Nəsibovanın adı qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə **"1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"**nda 79-cu sıra nömrəsi ilə Daxili Qoşunların Baş İdarəsinin mülki işçisi kimi 02.08.1992-ci il tarixdə şəhid olması (Ağdərədə) qeyd olunmuşdur.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

***kapitan A.Əhmədov.***
***Daxili Qoşunların zabiti***




## *"Müasir cəmiyyətdə milli geyimlərə olan maraq artıb"-MÜSAHİBƏ*

***Bakı Milli Geyim Evinin direktoru***
***Könül Vəlibəyli***



***Azərbaycanın milli geyimləri uzun sürən və çox mürəkkəb inkişaf yolu keçmiş xalqın maddi və mənəvi mədəniyyətinin nəticəsidir. Xalqın tarixi ilə bağlı olan geyimlər onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdən biridir. Azərbaycan xalqının tarixi və milli mədəniyyətilə bağlı əsas atributlarından biri də milli geyimlərdir. Bu növ ona görə unikaldır ki, xalq yaradıcılığının bədii xüsusiyyətləri, onların müxtəlif halda formalaşmaları, bədii bəzək naxışları geyimlərdə öz əksini tapıb. Milli geyimlərin hazırlanması, müxtəlif bölgələrin geyim xüsusiyyətlərinin araşdırılması və tətbiq edilməsi böyük zəhmət tələb edir. Bakı Milli Geyim evi Azərbaycana xas milli geyimlərin hazırlanması və xalqa təqdim edilməsi üçün 2009-cu ildən uğurla və səmərəli fəaliyyət göstərir. Geyim Evinin direktoru modelyer Könül Vəlibəyova ilə müsahibəni təqdim edirik. Qeyd edək ki, Vəlibəyli K. uzun illər "Sara Xatun" qadın jurnalının baş redaktoru və təsisçisi kimi fəaliyyət göstərmişdir.***



### *1.Milli geyimə Azərbaycan gənclərinin marağı necədir?*

Artıq 10 ildən çoxdur ki, Azərbaycan milli geyimlərinin təbliği və gənclərimiz tərəfindən sevilməsi üçünn Geyim Evi xüsusi təşəbbüslə çalışır. Ötən illərə nisbətən gənclərimiz milli geyimlərimizlə daha çox maraqlanır. Xüsusilə Qarabağ milli geyimləri gənclərin maraq dairəsindədir. Bayramlarda, özlərinin xüsusi günlərində bu geyimlərdən daha çox istifadə edirlər. Milli geyimlərə olan marağı daha da artırmaq, təbliğat işlərini gücləndirmək və digər məqsədlər üçün Bakı Milli Geyim Evi "Ənənədən Gələcəyə" adı altında həm Azərbaycanda, həm də xaricdə milli geyimlərimizin dəfilə və sərgisini təşkil edir. Bu geyimlər Bakı Milli Geyim Evinin rəssamları, dizaynerləri və tikiş mütəxəssisləri tərəfindən hazırlanır. Gənclərin zövq və istəklərini nəzərə alaraq, onların gündəlik həyatda da milli və modern geyimlərin sintezi olaraq arxalıqlar hazırlayırıq. Bir məqamı da qeyd edim ki, hətta xaricdə təhsil alan tələbələr milli bayramlarımızla bağlı mərasim keçirərkən, yaxud hansısa gənclərimiz xaricdə ailə qurmağa, nikah mərasiminə hazırlaşarkən bununla bağlı milli geyim nümunələri sifariş edirlər.

### *2.Milli geyimləri hazırlayarkən hansı məqamlara xüsusi diqqət yetirirsiniz?*

Milli geyimləri ərsəyə gətirmək böyük diqqət istəyir, araşdırma tələb edir ki, hansı bölgədə hansı milli geyimlər mövcud olub. Hazırda bir neçə gənc modelyer və rəssamla əməkdaşlıq edirik. Geyimlər hazırlanmazdan öncə bölgələrin milli geyim xüsusiyyətlərini öyrənirik. Kəsimləri olduğu kimi saxlayırıq. Təbii ki, parça və naxışlarda müəyyən dəyişikliklər edilir. Biz bölgələrin geyimlərini hazırladıqdan sonra ilkin olaraq, Azərbaycanda sərgi keçirdikdən sonra xarici ölkələrdə keçirilən sərgilərdə iştirak edirik. Çox maraqla qarşılanır və bu bölgələrin geyimlərinin sərgisi zamanla unudulmur və gələcək nəsillərə ötürülür. Azərbaycanın 7 bölgəsinin geyimlərini hazırlamışıq. Bunlara İrəvan, Borçalı, Qarabağ, Şirvan, Naxçıvan, Lənkəran və Şəki daxildir. Bu istiqamətdə, eyni zamanda biz muzeylərimizdə saxlanılan qədim milli geyimləri təhlil edir, ensiklopediyalardan, milli geyimlərlə bağlı






araşdırmalardan, yaşlı nəslin məsləhətlərindən yararlanırıq. Məsələn, bir məqamı qeyd edim ki, bizim geyimlərimizdə heç bir ölkənin təsirinə rast gəlinmir. Azərbaycan bir neçə ölkə ilə həmsərhəddir. Amma maraqlıdır ki, bizim qədim milli geyim öz milliliyini qoruyub saxlayıb, əlavələr olmayıb. Geyimlərimiz, naxışlarımız çox zəngindir. Bizim qədim paltarlara baxanda gözəl naxışlar, əl işləri görürük.

***3. Gənc qızlar milli gəlinliklər sifariş verirlərmi?***

Ümumiyyətlə, son vaxtlar cəmiyyətimizdə milli dəyərlərə maraq çox artıb. Bizə çoxsaylı müraciətlər edilir. İstər müxtəlif tədbirlərin keçirilməsi üçün, istərsə də şəxsi müraciətlər əsasında biz milli geyimlər hazırlayırıq. Son zamanlar milli xınayaxdı gecələri və milli toylar dəbdədir. Həm xınayaxdı geyimləri, həm də milli gəlinliklər hazırlayırıq. Bir məqamı da qeyd edim ki, müasir dövrdə modern naxışlar, miniatür və xalçalardan götürülmüş milli naxışlarımız geyim üzərində də tətbiq olunur və ziyafət geyimləri üzərində daha çox işlənilir. İstərdim ki, gələcəkdə əksər gənclərimiz özəl günlərdən əlavə, gündəlik həyatda da geyimlərində milli ornamentlərə üstünlük versinlər.



***4. Bir modelyer üçün ən böyük uğur kimi nəyi qiymətləndirirsiniz?***

Bir geyim evi rəhbəri üçün Azərbaycan geyim sənətini həm ölkədə, həm xaricdə böyük səhnələrdə nümayiş etdirmək böyük uğur və fəxrdir.

***5.Milli geyimlərdən əlavə, başqa istiqamətdə libaslar dizayn etmək planlarınızda varmı?***

Milli geyimdən əlavə, ən çox sevdiyim sahə teatr, film, rəqs və səhnə üçün hazırlanan geyimlərdir. Azərbaycanın tarixi filmləri üçün kostyumlar hazırlamaq da istərdim. Çünki bu geyimlər sənət əsəri olaraq qalır və unudulmur. Amma ziyafət geyimləri ve gündəlik geyimlər də hazırlayırıq.

***6. İndiyədək ideal hesab etdiyiniz əl işiniz olubmu? Yəni xəyalınızdakı libası artıq ərsəyə gətirə bilibsinizmi?***

Hər il bir neçə geyimdən ibarət xüsusi kolleksiyalar hazırlayırıq. İşimizin ideal və gözəl görülməsi üçün böyük bir qrupla çalışırıq. Hər kolleksiya bir-birindən fərqlənir və hələ də axtarışdayıq ki, yeni-yeni sənət əsərləri yaradaq. Bütün hazırladığımız geyimlərin hər biri bizim üçün axtarışdır və nəticəsini mütəxəssislər deyə bilər.

***7. Azərbaycan milli geyimlərinin xaricdə sərgiləri necə qarşılanır***

Bakı Milli Geyim Evi bir çox xarici ölkələrdə ABŞ-da, Çində, Türkiyədə, ərəb ölkələrində, Rusiyada və Avropanın bir çox ölkələrində milli geyim sərgiləri və dəfilələri keçirmiş, böyük maraqla qarşılanmışdır. Hətta beynəlxalq yarışların paytaxtımızda keçirildiyi ərəfədə geyim evinə tez-tez xaricilər gələrək xüsusilə uşaqları üçün müxtəlif formada milli geyimlər alırdılar. Bütün xarici ölkələrdə həmişə bizə qarşı sevgi və hörmət görmüşük.

### *8. Milli geyimlərin təbliği üçün hansı layihələr həyata keçirirsiniz?*

Milli geyimlərimizin təbliği üçün “Ənənədən Gələcəyə” adlı layihə ilə ildə bir neçə dəfə geyim sərgisi, geyim dəfiləsi keçiririk. Həmçinin universitetlərdə, məktəblərdə gənclərimizlə görüşür, seminarlar təşkil edirik və onlarla öz təcrübələrimizi paylaşırıq.

### *9. Modelyer olmaq üçün təhsil mütləqdirmi? Olmasa da olar, fitri istedad kifayət edir deyə düşünürsünüz?*

Modelyer olmaq üçün istedada, zövqə, təhsilə və təcrübəyə böyük ehtiyac var. Həmçinin həmişə öyrənməlisən və bildiklərini də öyrətməyi bacarmalısan. Yaradıcılığın arxasında istedad durmalıdır.

### *10. Moda sevərlərə, dəblə geyinməyə çalışan xanımlarımıza tövsiyyələriniz?*

Tək dəblə deyil, özünə yaraşanı geyinməlisən. Geyim seçəndə yaş və görkəmə diqqət yetirmək lazımdır. Modada tarix həmişə təkrarlanır və Şərq üslubu həmişə dəbdədir. Bu səbəbdən modasevərlərə məsləhətim budur ki, keçmişə qayıdaq və öz effektiv stilinizdə milli naxışlarımızdan, milli kəsimlərimizdən istifadə edərək öz tərzimizi tapaq.










# Azərbaycanın tanınmış və tanıdan qadınları

## *Azərbaycanın ilk qadın məktəb direktoru Hənifə Məlikova (160 il)*

Azərbaycan xalqının ilk maarifçi qadınlarından olan Hənifə Məlikova 1856-cı il mayın 5-də Şimali Qafqazda, Nalçikdə anadan olmuşdur. Hənifə xanım Tiflisdə Müqəddəs Nina qız məktəbində təhsil almışdır. O zaman müsəlman qızların xristian ölkəsində təhsil alması çox nadir hadisə idi.



Bu gözəl, ziyalı, sədaqətli və dəyanətli xanım millətimizin və ailəsinin yolunda fədakarlıq göstərmiş, Həsən bəy Zərdabiyə tək həyat yoldaşı yox, həm də mübarizə yoldaşı olmuşdu.

Hənifə xanım 1875-1877-ci illərdə Həsən bəylə birlikdə "Əkinçi" qəzetinin nəşr edilməsində böyük əziyyətlər çəkmişdir. Bu ziyalı xanım və həyat yoldaşı Zərdabda yaşadıqları dövrdə, 1880-cı ildən başlayaraq öz evlərində, pulsuz məktəb açmışdılar, təqib və təzyiqlərə baxmayaraq, heç bir təmənna ummadan insanlara elm, savad bəxş etmişdilər.

Hənifə xanım Azərbaycan qadınlarının taleyində çox mühüm rol oynamışdır. O, "Nicat" cəmiyyətinin Azərbaycan qadın xeyriyyə cəmiyyətinin yaradıcılarından biri olmuş,1901-1905-ci illərdə Bakıda ilk müsəlman qız məktəbinin müdiri vəzifəsində işləmişdir. 1909-cu ildən 1919-cu illədək, düz 10 il ərzində Bakı şəhər dövlət birinci rus-tatar, yəni rus-Azərbaycan qız məktəbində müdir vəzifəsində çalışmışdır.

Hənifə xanımın adı, onun maarifçilik fəaliyyəti Zaqafqaziyanın demokratik dairələrində geniş şəkildə məşhurlaşmışdır. Mübarizə aparanın, təşəbbüsçünün həyatı asan olmur. O, həyatı boyunca əziyyət, sınaqlar, hətta bəzən təqiblərlə üzləşmişdir. Hənifə xanım deyirdi: "Həyatımın məqsədi - bacardığım qədər avam kütlənin, xüsusən də qadınların hüquqları və istismara qarşı mübarizədə türk qadınlarının mədəni səviyyəsini qaldırmaq olmuş və olacaqdır ".

Hənifə xanım 1920-1926-cı illərdə Azərbaycan Xalq Maarif Komissarlığında məsul vəzifədə çalışmışdır.

Hənifə xanım Məlikova 1929-cu ildə Bakıda vəfat etmişdir. Əvvəl şəhər qəbirstanlığında dəfn edilmiş, sonralar cənazəsi həyat yoldaşı H.Zərdabinin məzarına köçürülmüşdür.

## *İlk qadın klubunun yaradıcısı Ceyran Bayramova (120 il)*



Ceyran Şirin qızı Bayramova 22 mart 1896-cı ildə Quba rayonunun Zərqova kəndində qulluqçu ailəsində anadan olmuşdur. İlk təhsilini Bakı 3-cü rus-tatar qız məktəbində almış, sonra Qızlar Gimnaziyasında təhsilini davam etdirmişdir.

Ceyran xanımın Bakıda Əli Bayramlı adına klubun açılmasında böyük rolu olmuşdur. O, eyni zamanda, Azərbaycanın ictimai-siyasi həyatında fəallıq göstərərək, 1929-cu ildə Bakıda Azərbaycan qadınlarının birinci qurultayında iştirak etmişdir. Azərbaycan qadınlarının 1-ci qurultayının keçirilməsində böyük rol oynamışdır. 1930-cu illərdə repressiyaya məruz qalmış, Sibirə sürgün edilmişdir. 1956-cı ildə bəraət almış, Bakıya qayıtdıqdan sonra yenidən ictimai-siyasi həyata qatılmışdır.

Ötən əsrin 20-ci illərinin kübar Bakı mühitində aktiv ictimai fəaliyyəti, siyasi dairələrdə qadınlar mövzusunun ən müxtəlif aspektlərdə müzakirəçisi, onların hüquqlarının müdafiəçisi kimi adından tez-tez söz etdirərdi. Qadın azadlığı, onların təhsilə cəlb olunmasında, idarə və müəssisələrdə çalışması üçün şəraitin yaradılmasında, qadınlarla bağlı qurultay və toplantılarda hər zaman ön sıralarda yer alar, ötkəm danışar və bir az özündənrazı görkəmi ilə liderlik iddiasında da olardı. Onu xarakterizə edərkən Avropasayağı görkəmi, fərqli geyim tərzi, saç düzümü kimi zahiri özəlliklərini də xüsusi qeyd edirlər. Qadınlarla bağlı ilk ictimai qurumlardan biri, qaynı, inqilabçı Əli Bayramov adına klubun açılmasında xüsusi fəallıq göstərərək onun fəaliyyətinin daha da genişlənməsinə nail olmuşdur. Beləliklə, 1920-ci ildə Bakı və ətraf rayonların qadınlarını fəal ictimai həyata cəlb etmək üçün Əli Bayramov adına Qadınlar Klubu açıldı. Onun istər iş, istərsə də şəxsi həyatı, gözəl ailəsi və övladları başqa qadınlara nümunə kimi göstərilirdi.

Ceyran xanım iki dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir. O, 1987-ci ildə vəfat etmişdir.

## *Azərbaycanın ilk qadın musiqişünası Xurşid Ağayeva (110 il)*





Xurşid Həsən bəy qızı Ağayeva 1906-cı il aprelin 20-də Bakı şəhərində anadan olmuşdur.

Xurşid Ağayeva 1935-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Azərbaycan Dövlət Konservatoriyasında musiqi tarixindən dərs demiş, elmi işlər üzrə prorektor (1944-1946) olmuşdur.

Xurşid Ağayeva 1918-1920-ci illərdə Azərbaycan Respublikası Parlamentinin ilk sədrinin birinci müavini olmuş Həsən bəy Ağayevin qızıdır. O, 1930-cu ildə isə musiqiçi müəllimlərin Moskva ixtisasartırma İnstitutuna oxumağa göndərilmişdir. Xurşid xanım musiqi nəzəriyyəsi və tarixi üzrə tədris kitablarının Azərbaycan dilinə tərcüməsi üzərində işləmişdir.

O, 1940-cı ildən Azərbaycan Dövlət Konservatoriyasının prorektoru vəzifəsində çalışmışdır. Üzeyir Hacıbəyli haqqında ilk monoqrafiyanın, Azərbaycan musiqisinə aid məqalələrin, "XIX əsrdə Azərbaycan musiqi mədəniyyəti ocaqları" (ölümü ilə əlaqədar tamamlanmamışdır) əsərinin müəllifidir.

Xurşid Ağayeva 3 dekabr 1953-cü ildə vəfat etmişdir.

## *Azərbaycan alimi, tarixçisi və şərqşünası Sara Aşurbəyli (110 il)*



Aşurbəyovlar ailəsində beş bacı və bir qardaşın ilki olan Sara Aşurbəyli 1906-cı il yanvarın 27-də Bakı şəhərində anadan olmuşdur. 1925-ci ildə İstanbulda Müqəddəs Janna Dark adına fransız kollecini, 1930-cu ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq, 1941-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun xarici dillər fakültələrini bitirmişdir.

Ali təhsilini bitirdikdən sonra Sara xanım Azərbaycan Dövlət Universitetinin baş müəllimi, Azərbaycan Pedoqoji İnstitutunda isə dekan vəzifəsində çalışmışdır. Ali məktəblərdə Azərbaycan tarixi, qərb və şərq mədəniyyəti haqqında geniş və maraqlı mühazirələrlə yaddaqalan çıxışlar etmişdir. Sonralar isə o Azərbaycan Tarixi Muzeyində orta əsrlər tarixi şöbəsinin müdiri, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda baş elmi işçi, Tarix İnstitutunda elmi katib, baş elmi işçi və aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 1993-cü ildən ömrünün son illərinə qədər isə Sara Aşurbəyli Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi vəzifəsində işləmişdir.

Ümumiyyətlə, Sara xanım təkcə vurğunu olduğu tarix sahəsiylə kifayətlənmirdi. O həm musiqiçi, həm rəssam, həm də gözəl filosof idi. Hələ İstanbulda olarkən Müqəddəs Janna Dark kollecində yiyələndiyi alman dili, Pedoqoji İnstitutda təhsil alarkən mükəmməl şəkildə öyrəndiyi digər əcnəbi dillər həyatının ən çətin dönəmlərində ona yaxından kömək etmişdir. O, Üzeyir Hacıbəyovun dəvəti ilə uzun müddət Dövlət Konservatoriyasında xarici dildən dərslər demişdir. Rəssamlıq qabiliyyətinə sahib olması isə onun Azərbaycan Dövlət Dram Teatrında bir dekorator rəssam kimi fəaliyyət göstərib özünü və ailəsinin maddi cəhətdən təmin etməsinə şərait yaratmışdır. Sərgilərdən birində onun "Göygöl" əsərini Meksika nümayəndələri almışlar. Bu əsər indi Meksika muzeylərindən birində saxlanılır. 1946-cı ildə Sara xanım Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilmişdir.

Aşurbəyli Sara xanım Bakının tarixini əks etdirən çox qiymətli tədqiqatların - tarix, mədəniyyət, incəsənətinə dair əhəmiyyətli məqalələrin müəllifi olmuşdur. Azərbaycan tarixində bu gün də önəmli rol oynayan dəyərli tarixi kitabların, elmi monoqrafiyaların, yüzlərlə məqalənin müəllifi, bir sıra beynəlxalq konfransların iştirakçı olan Sara xanım tarix elmləri doktoru, əməkdar elm xadimi, dövlət mükafatı laureatı kimi yüksək adlara layiq görülüb. O, "Bakının tarixinə dair oçerklər", "Orta əsrlərdə Azərbaycan və Hindistanın iqtisadi və mədəni əlaqələri" və "Şirvanşahlar dövlətinin tarixi" kitablarının müəllifidir. Bu tədqiqatlarına görə Sankt-Peterburqda tarix elmləri namizədi, Tiflisdə isə 1966-cı ildə tarix elmləri doktoru adına layiq görülmüşdür. "Şöhrət ordeni" mükafatına isə Sara xanım 1996-cı ildə 90 illik yubileyi ərəfəsində layiq görülmüşdür. Təntənəli şəkildə qeyd olunan yubiley mərasimində Sara xanımı daha çox qürurlandıran isə bu mükafatı ona birbaşa Ulu Öndər Heydər Əliyevin təqdim etməsi olmuşdur.

Görkəmli alim 2001-ci il iyulun 17-də vəfat etmişdir.



## *Aktrisa Nəsibə Zeynalova (100 il)*



Azərbaycan teatrsevənləri arasında «qaynana» kimi sevilən, Milli Musiqili Komediya Teatrının inkişafında müstəsna rol oynayan, qırx ildən çox işlədiyi sənət ocağının repertuar ağırlığını ləyaqətlə çiyinlərində daşıyan Nəsibə xanım 20 aprel 1916-cı ildə Bakıda anadan olub. Azərbaycan milli realist aktyor məktəbinin banisi Cahangir Zeynalovun qızı olan Nəsibə Zeynalova atasının arzusunu inamla həqiqətə çevirmiş və Azərbaycan realist aktyor məktəbinin ən layiqli nümayəndələrindən biri kimi formalaşıb və şöhrətlənib.

O, eyni zamanda, orta məktəbdən rəqslə məşğul olmuş, milli oyun havalarının mürəkkəb və lirik incəliklərinə yiyələnmişdir. Hər zaman üzündən gülüş əskik olmayan aktrisamız insanları da gülüşlərə qərq etmiş, öz pozitiv enerjisini tamaşaçılara ötürmüşdür. Nəsibə Zeynalova 1932-ci ildə Rza Təhmasibin dram dərnəyinə üzv olmuş, 1934-cü ildən mövsümi fəaliyyət göstərən kolxoz və sovxoz teatrında aktrisa kimi işləməyə başlamışdır.



Bu teatr Bakıda truppa toplayır, özünə repertuar qurur, aprel ayından başlayaraq kənd təsərrüfatının qızğın çağında rayonlara gedib tamaşalarda oynamışdır. 1938-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasına birinci dərəcəli aktrisa götürülmüş, həmin il Bakı Teatr Məktəbinə daxil olaraq aktyorluq təhsili almışdır.

Ömrünü Musiqili Komediya Teatrı ilə bağlayan aktrisa sənət ocağının müəyyən fasilələrlə truppa, Filarmoniyanın nəzdində dəstə-ansambl şəklində fəaliyyət göstərdiyi illərdə də kollektivdən ayrılmamışdır. Aktrisa Azərbaycan klassik operettalarının tamaşalarında Gülpəri, Cahan xala, Sənəm ("Ər və arvad", "Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Mələk xanım və Kələk xanım ("Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov) kimi xarakterik səhnə obrazlarında çıxış etmişdir.

Azərbaycan televiziyasında onlarla yumoristik səhnəciklərdə, tele-tamaşalarda, intermediyalarda çıxış etmiş Nəsibə Zeynalova həmçinin «Azərbaycanfilm»in çoxlu ekran əsərlərinə çəkilib. Kino obrazları içərisində Fatmanisə («Ögey ana»), Telli («Böyük dayaq»), Züleyxa («Ulduz»), Cənnət xala («Qaynana»), Gülsüm («Molla Fətəlinin sərgüzəşti»), Əsli xala («Bəyin oğurlanması») rolları daha canlı və daha şöhrətlidir.

Nəsibə Zeynalovanın yaradıcılığının ən parlaq dövrü isə çağdaş bəstəkarların müasir mövzusu musiqili komediya əsərlərinin tamaşalarındakı bir-birindən fərqlənən komik personajların ifası ilə bağlıdır. Bu baxımdan aktrisa bir çox rolların əvəzsiz ifaçısı sayılır. Teatrımızın inkişafında böyük xidmətlərinə görə Nəsibə xanım müxtəlif illərdə mükafatlar və fəxri adlarla təltif edilmişdir.

Bu il Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, böyük gülüş ustası, Dövlət mükafatı laureatı, Xalq artisti Nəsibə xanım Zeynalovanın anadan olmasının 100 illiyinin tamam olması münasibətilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yubiley tədbiri yüksək şəkildə təşkil olunmuşdur.

Nəsibə Zeynalova 10 mart 2004-cü ildə Bakıda vəfat etmişdir.

## *Bəstəkarlıq təhsili almış ilk azərbaycanlı qadın Ədilə Hüseynzadə (100 il)*





Azərbaycan bəstəkarı, əməkdar incəsənət xadimi Ədilə Hüseynzadə 1916-cı ildə aprelin 28-də anadan olmuşdur. O, XX əsrin 40-cı illərində görkəmli bəstəkar Üzeyir Hacıbəyovun təşəbbüsü ilə musiqi aləminə gəlmiş, 1942-1948-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının xalq musiqisi şöbəsində Üzeyir bəydən dərs almışdır. O, Azərbaycan Dövlət Konservatoriyasını 1953-cü ildə bəstəkarlıq ixtisası üzrə bitirmiş ilk azərbaycanlı qadındır.

Ə. Hüseynzadə bir çox janrlarda uğurla çalışaraq simfonik poema, simli kvartet, kantata, xor miniatürləri yaratmışdır. Lakin bəstəkarın yaradıcılığında romans janrı daha çox üstünlük təşkil edir. Milli musiqimizdə romans janrının təşəkkülündə onun özünəməxsus yeri vardır. Ə. Hüseynzadənin Nizaminin sözlərinə yazılmış "Vəslin həvəsi" romansı, habelə Nəsimi, Füzuli, Natəvan, Səməd Vurğun, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Rəsul Rza, Nigar Rəfibəylinin şeirlərinə bəstələnmiş romansları və şəksiz nailiyyəti olan "Duyğular" vokal silsiləsi musiqimizin inciləridir.

Ə.Hüseynzadə Ü.Hacıbəyovun "Arşın mal alan" operettası əsasında çəkilmiş bədii filmdə (1945) Asya rolunu səsləndirmişdir. Onun yaradıcılığının əsasını, vokal əsərlərinin üstün olduğu kamera musiqisi təşkil etsə də, Ədilə xanım bir sıra iri həcmli əsərlər də yaratmışdır.

Ə.Hüseynzadə yaradıcılığından uzaqlaşmadan uzun illər Bülbül adına orta ixtisas musiqi məktəbində qabiliyyətli uşaqlara kompozisiyanın əsaslarını tədris etmişdir. Ədilə xanım uzun illər (1953-1988) Bülbül adına orta ixtisas musiqi məktəbində "bəstəkarlıq" fənnindən dərs demiş, gənc istedadların aşkarlanması işində əlindən gələni əsirgəməmişdir. Ədilə Hüseynzadə 1944-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü idi və onun xalq artisti tədbirlərində fəal iştirak edirdi.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi dahi Üzeyir Hacıbəyovun son və sevimli tələbələrindən biri Ədilə xanım Hüseynzadə 2005-ci ildə vəfat etmişdir.

# Uşaqların iştirakçılığının təmin edilməsi

**Uşaq Hüquqları üzrə QHT Alyansının İdarə Heyətinin Sədri, Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyinin Sədri Nazir Quliyev**



Müasir dövrdə uşaqların maarifləndirilməsində, onların hüquqlarının müdafiəsində və onlarla bağlı qərarların qəbul edilməsində uşaq iştirakçılığı mühüm yer tutur. Uşaqların iştirakçılığın təmin olunması onların inkişafında, qərar qəbulunda onların rolunun artmasında və uşaqların ən yaxşı maraqlarının qorunmasında mühüm yer turur. Uşaqların iştirakçılığının təmin olunması ailədən tutmuş məktəbə qədər hər bir sahədə təmin edilməlidir. Eyni zamanda uşaqlarla birbaşa və dolayı formada əlaqəli olan bütün təşkilatlar da öz fəaliyyətlərində uşaqların iştirakçılığını təmin etməlidir.

Azərbaycan Respublikasının da qoşulduğu BMT-nin Uşaq Hüquqları Konvensiyasında uşaq iştirakçılığına böyük önəm verilir və mütəmadi olaraq Konvensiyaya qoşulan dövlətlərə uşaqların iştirakçılığının daha yaxşı formada təmin edilməsi ilə bağlı çağırışlar edirlər. Eyni zamanda Konvensiyaya uyğun olaraq Uşaq Hüquqları Komitəsi ölkə üzrə hesabatları dinləyərkən və tövsiyələr təqdim edərkən uşaqların iştirakçılığı ilə bağlı məsələlərə də geniş yer ayırırlar. Qeyd edim ki, 2012-ci ildə Azərbaycan üzrə BMT-nin Uşaq Hüquqları Komitəsinin iclasında Azərbaycan nümayəndə heyətinin hesabatları dinlənərkən sessiyada müşahidəçi kimi iştirak edirdim və Komitə tərəfindən Azərbaycanda uşaqların iştirakçılığın gücləndirilməsi sahəsində görülən işlər müsbət qiymətləndirilmişdir. Bir çox ölkələrdən fərqli olaraq Azərbaycan uşaqları ölkədə Konvensiyanın tətbiqi və təbliği ilə bağlı öz hesabatlarını hazırlayıb Komitəyə göndərmişdilər. Bu da beynəlxalq səviyyədə uşaq iştirakçılığının təmin olunmasının ən yaxşı formalarından biridir.



Uşaq Hüquqları Haqqında Qanunun 26-cı maddəsinə əsasən uşaqların təhsil və ya yaşayış yerlərində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ictimai birliklər və ictimai öz fəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüququ vardır. Uşaqların və uşaq ictimai birliklərinin və ictimai özfəaliyyət orqanlarının siyasi fəaliyyətə cəlb edilməsinə yol verilmir. Qanunun bu müddəası uşaqların beynəlxalq səviyyədə nəzərdə tutulmuş birləşmək azadlığının təmin olunmasına və onların məktəblərdə iştirakçılığının təmin olunmasına hüquqi bazanı yaradır. Eyni zamanda QHT-lər haqqında Qanunun 9-cu maddəsinə əsasən Qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri - 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər. Burada qanun uşaqların öz ictimai təşkilatlarını yaratmağa və bununla da onların iştirakçılığının təmin olunmasına dəstəyi nəzərdə tutur.

Uşaqların iştirakçılığının bir forması da uşaq KİV-ləri və KİV-lərdə uşaqların iştirakçılığının təmin edilməsidir. 2009-cu ildə ölkə Prezidenti tərəfindən elan edilmiş “Uşaq İli” çərçivəsində nəzərdə tutulan tədbirlərdən biri də Uşaq Televiziyasının yaradılması idi. Təəsüf ki, hal-hazırda qədər Uşaq Televiziyası yaradılmayıb. Təşkilatımız tərəfindən ilkin olaraq internet Uşaq Televiziyası yaradılsa da, bunun daha geniş formada yayılmasına ehtiyac var. Uşaq Televiziyası və uşaq KİV-ləri uşaqların özlərini də cəlb etməklə uşaqların iştirakı təmin etmək üçün ən yaxşı vasitədir.

Biznes qurumları da öz fəaliyyətində uşaqların iştirakçılığını təmin etməlidirlər. Bir çox inkişaf etmiş ölkələrdə biznes qurumları hər hansı fəaliyyətləri həyata keçirərkən nəzərə aldığı məsələlərdən biri də uşaqların iştirakçılığının təmin edilməsi və həyata keçirilən fəaliyyətlərin uşaqların hüquqlarının pozulmamasına səbəb olmamasıdır. Biznes qurumları mütamadi olaraq uşaqlarla görüşlər keçirməli və fəaliyyət göstərdikləri ərazilərdə uşaqların iştirakçılığın təmin edilməsi üçün tədbirlər həyata keçirilməlidir. Eyni zamanda biznes qurumları uşaqlara aid meydançaların ərazisində biznes məqsədli obyektlərin tikintisini də həyata keçirməməlidir. Uşaq Hüquqları Haqqında Qanunda da bu birbaşa göstərilib və hüquqi məsuliyyət müəyyən edir.

Son dövrlər uşaqların iştirakçılığının təmin edilməsinin ən yaxşı formalarından biri də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunan Uşaq Forumlarıdır. Forumlar vasitəsi ilə uşaqlar bir araya gələrək öz problemlərini müzakirə edir, təkliflər səsləndirir və dövlət orqanlarının nümayəndələri ilə birbaşa görüşərək öz təkliflərini onlara çatdırırlar.

Uşaqların iştirakçılığının təmin edilməsinin yaxşı nümunələrindən biri kimi də 2009-cu ildə Parlamentdə uşaqlarla bağlı dinləmələrin keçirildiyini və bu dinləmələrdə uşaqların da iştirak etdiklərini vurğulamaq istərdim. Dinləmələr Uşaq Hüquqları Konvensiyasının qəbul edlməsinin 20 illiyi münasibəti ilə keçirilmiş və uşaqlar və uşaq təşkilatları parlamenti üzvləri ilə birbaşa ünsiyyət quraraq uşaqlarla bağlı müxtəlif məsələləri müzakirə etmişlər.

*Yuxarıda ölkəmizdə uşaqların iştirakçılığının təmin edilməsi üçün görülən müsbət işlərə toxunduq. Eyni zamanda hələ də uşaqların daha geniş səviyyədə iştirakçılığının təmin olunması üçün bir çox işlər görülməlidir. Xüsusən region uşaqlarının, xüsusi risk qrupuna daxil olan uşaqların iştirakçılığının təmin edilməsi vacib məsələlərdən biridir. Eyni zamanda qanunvericilikdə də uşaq iştirakçılığının genişləndirilməsi üçün fəaliyyətlər göstərilməlidir. Buna misal olaraq, İcitmai Televiziyanın Yayım Şurasına uşaqlarla işləyən təşkilatlar üçün ayrıca istiqamətin müəyyən edilməsi, Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasında ayrıca uşaq təşkilatları qrupunun yaradılması, Prezident yanında və ya Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yanında Uşaq Fondunun yaradılması və orta məktəblərdə uşaq hüquqları otağının yaradılması kimi işlərdə həyata keçirilməlidir.*






**Bu günlərdə uşaq məsələləri üzrə Azərbaycanın tanınmış mütəxəssisi, Uşaq Hüquqları Klinikasının direktoru, Uşaq Hüquqları üzrə QHT Alyansının İdarə Heyətinin Sədri, "Hüquq Dünyası" Hüquqi Təbliğat İctimai Birliyinin Sədri Nazir Quliyevin vaxtsız vəfatı ilə bağlı xəbər bizi çox sarsıtdı.**

**Mərhum Nazir Quliyevə Allahdan rəhmət, yaxınlarına dərin hüznlə başsağlığı diləyirik.**

**Nazir Quliyev gözəl ailə başçısı, zəhmətkeş insan, uşaq hüquqlarının müdafiə sahəsində peşəkar ekspert idi. Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli sosial şəraitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması istiqamətində həyata keçirilən fəaliyyətdə öz töhfələrini vermişdir. Xüsusən də uşaq hüquqlarının qorunması sahəsində maarifləndirmə işlərinin geniş miqyas almasında onun fəaliyyəti danılmazdır. Nazir Quliyev uşaqların problemlərinin həlli üçün əlindən gələni əsirgəməmişdir. O, yüksək peşəkarlığı ilə, göstərdiyi xidmətləri ilə ictimaiyyət arasında nüfuz sahibi olmuş, dərin hörmət qazanmış, eyni zamanda uşaqlara özünü sevdirməyi bacarmışdır.**



**Nazir Quliyev uşaq hüquqları sahəsində mütəxəssis kimi uşaq hüquqlarının müdafiəsi, xüsusilə baxımsız və çətin tərbiyə olunan uşaqlarla iş sahəsində mühüm layihələr icra etmiş, bu məsələyə xüsusi həssaslıqla yanaşmışdır. O, ölkəmizdə uşaqların müdafiəsinin təmin edilməsi, Bakıda və regionlarda "Uşaq hüquqları haqqında" Konvensiyanın təbliği və icrasının monitorinqi, uşaq alveri, uşaq əməyi, sağlamlıq imkanları məhdud uşaqların imkanlarının genişləndirilməsi və digər mühüm məsələlərlə bağlı səmərəli və məqsədyönlü fəaliyyət göstərmişdir.**

**Hüquqi maarifləndirmə, QHT sektorunun inkişafı istiqamətində məqsədyönlü addımlar atmış Nazir Quliyev mütəmadi olaraq, Yuvenal Ədliyyə sahəsində müxtəlif araşdırmalar aparmış, bu sahə üzrə bir çox tədbirlər həyata keçirmiş, faydalı fikir və tövsiyələri ilə çıxış etmişdir. Onun uşaq iştirakçılığı, onların fəallığının artırılması, liderlik keyfiyyətlərinin formalaşdırılması və digər istiqamətlərdəki əhəmiyyətli fikirləri, hökumət qarşısında bu məsələləri qaldırması, təkliflərini bildirməsi bu sahəyə diqqətlə yanaşdığının əyani sübutudur.**

**Xüsusilə qeyd etməliyik ki, Nazir Quliyev Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyətində yaxından iştirak etmiş, Ümumrespublika Uşaq Forumlarında və digər mühüm tədbirlərdə fəallıq göstərmişdir, həmçinin uşaqların təlimləndirilməsi, eləcə də "Uşaq hüquqları haqqında" Konvensiyanın icrası ilə bağlı birgə layihələr həyata keçirilmişdir.**

**Nazir Quliyevin həyat və fəaliyyəti onu peşəkar mütəxəssis, vətənpərvər şəxs, humanist və işgüzar insan, qayğıkeş və həssas ailə başçısı kimi tanımağa imkan vermişdir.**

***Allah rəhmət eləsin***

# Maarifləndirmədə beynəlxalq təcrübənin tətbiqi və yeni yanaşmalar

### “Gender Araşdırmaları Mərkəzi”nin sədri Kifayət Ağayeva



Universitetdəki akademik fəaliyyətim mənim ən prioritet sahəm olduğuna görə əsasən, innovativ metodları, yanaşmaları bu istiqamətdə tətbiq edirəm. Daima gender münasibətləri ilə əlaqəli tədqiqat aparan, ən aktual problemlərdən bəhs edən konfransları təşkil edən, aparıcı universitetlərin təcrübəsini yaxından izləyən biri kimi gender bərabərliyinin demokratiyanın ən əsas elementi olduğuna əminəm və bunun əldə edilməsinin məhz təhsildən başladığına inanıram. Ona görə də, genderlə bağlı tədris etdiyim sıllabıslara ən yeni materiallar daxil edirəm və innovativ tədris texnikasını auditoriyalarda tətbiq edirəm. Tədrisdə imperativ tədris sisteminə deyil, tələbələrlə əməkdaşlıq prinsipinə üstünlük verirəm. Tədris prosesinə pilot proqramı (öyrətmə-öyrənmə) daxil edilmişdir və bununla da, auditoriyada tələbələr müəllimdən çox daha aktiv olur, proqramın bir hissəsini tədris etmək tələbələrə həvalə edilir (müəllimin köməyi ola bilər). Qiymətləndirmə prosesində yeni üsullardan istifadə edilir, bu həm fərdi, həm də komanda şəklində ola bilir. Kursun sonunda tələbələr tədqiqat işləri aparır və analitik baxışlarını ortaya qoyurlar.

Tədris prosesində hər zaman vurğu inkişaf etmiş ölkələrin gender siyasətinin uğurları üzərinə qoyulur və daima Azərbaycanda gedən gender siyasəti ilə müqayisə edilir. Sözsüz ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin gördüyü işlər də tələbələrin nəzərinə çatdırılır və qurumun fəaliyyətinin genişləndirilməsinin ölkədə gedən demokratik proseslərə daha yaxşı təsir edə bilməsi faktı hər zaman önə çəkilir. Universitetin texniki imkanı nəzərdə tutduğum planları realizə etməyə gözəl imkan yaradır. Təəssüf ki, digər universitetlərdə belə fənləri bu qədər əhatəli tədrisini müşahidə etmirik və bizim universitetdə də genderlə bağlı fənlərə verilən saat yükləri azaldığı üçün nəzərdə tutduğum innovativ metodları lazım olan səviyyədə tətbiq edə bilmirəm.



# Əməkdaşlığımızın perspektivləri

### “Ümidli Gələcək” Gənclər Təşkilatının icraçı direktoru Kəmalə Aşumova



Artıq uzun illərdir ki, “Ümidli Gələcək” Gənclər Təşkilatı Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində müxtəlif yeni və davamlı layihələr həyata keçirilmişdir ki, bunlar da çoxlu sayda yetkinlik yaşına çatmayan uşaqların və onların ailələrinin sosial müdafiəsi, sağlam inkişafı, hüquqların qorunması, reabilitasiya xidmətlərinin təşkili, təhsilə yönləndirmə və ümumilikdə cəmiyyətə reinteqrasiyalarına köməklik etmişdir.

15 sentyabr 2007-ci il tarixində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, UNİCEF, Böyük Britaniya Səfirliyi, ATƏT-in Bakı Ofisi, Uşaq Hüquqları üzrə QHT Alyansı və Böyük Britaniyanın Esseks Universitetinin dəstəyi ilə “Ümidli Gələcək” Gənclər Təşkilatı tərəfindən Uşaq və Gənclər üçün Sosial Reabilitasiya Mərkəzi və Uşaq Hüquqları Klinikası yaradılmışdır. Uşaq Hüquqları Klinikası öz fəaliyyəti dövründə 2500-dən çox uşaq və ailəyə hüquqi yardım göstərmiş, uşaq hüquqlarının müdafiəsi ilə əlaqədar, dövlət orqanlarında, idarə və təşkilatlarda, eyni zamanda məhkəmələrdə müdafiə işini həyata keçirir.

2010-cu ildə “Ümidli Gələcək” Gənclər Təşkilatı və Təhsil Nazirliyi tərəfindən Azercell Telekom şirkəti, UNİCEF, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dünyaya Baxış və Uşaqların Xilası təşkilatlarının dəstəyi ilə “Azərbaycan Uşaq Qaynar Xətt” xidməti də yaradılmışdır. Bu Qaynar Xətt xidməti uşaqlara psixoloji, emosional, mənəvi yardım göstərən, habelə onları müxtəlif xidmətlərə yönəldən bu qəbildən olan yeganə qurumdur. Azərbaycan Uşaq Qaynar Xətt xidməti 100-dən çox ölkəni özündə birləşdirən və baş ofisi Niderlandda yerləşən Beynəlxaq Uşaq Qaynar Xəttlər Təşkilatının tam hüquqlu üzvüdür. Fəaliyyət göstərdiyi 5 il ərzində Uşaq Qaynar Xəttə müxtəlif problemlərlə bağlı uşaqlar və gənclər, habelə valideynlər tərəfindən 16.000–dən çox müraciət daxil olub.

2010-cu ildən etibarən Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Ümidli Gələcək" Gənclər Təşkilatı zorakılığın müxtəlif növləri ilə üzləşmiş, qurbanı olmuş uşaqlara psixo-sosial xidmət göstərməyə yönəlmiş Zorakılığın və Cinayətin qurbanı olmuş Uşaq və Gənclər üçün Sosial Reabilitasiya Mərkəzini təsis etmişdir. Reabilitasiya Mərkəzi zorakılıq və cinayətin qurbanı olan uşaqlara, gənclərə və onların ailələrinə xidmət göstərən ixtisaslaşmış mərkəzdir. Mərkəzin xidmətləri kənd və şəhərdə yaşayan hər hansı cinayət və zorakılığa, o cümlədən, məişət zorakılığına, cinsi, fiziki və emosional zorakılığa, etinasızlığa, zorlanmaya və ya təcavüzə məruz qalan, habelə işgəncə, məcburi yerdəyişmə, döyülməyə məruz qalan, əməyin istismarı bağlı fəaliyyətlərə sövq edilən, valideynlərinin və ya digər yaxın şəxslərin itkisindən psixoloji sarsıntı keçirən, həmyaşıdları tərəfindən təzyiqlə üzləşən, insan və uşaq hüquqlarının pozulmasından stress keçirən, müxtəlif hadisələr nəticəsində yaranmış emosional pozğunluq və sosial disadaptasiyadan əziyyət çəkən uşaq və gənclərə ixtisaslaşmış yardım göstərməyə yönəlmişdir. Mərkəz açılan gündən 350 -ə yaxın uşaqlara yardım etmiş və onların yenidən cəmiyyətə qaytarılması istiqamətində müvafiq fəaliyyətlər qurmuşdur. Bununla yanaşı, mərkəzin tərkibində uşaqlar üçün Sığınacaqda fəaliyyətə başlamış və zorakılığın ağır formalarında və əsasən, məişət zorakılığı nəticəsində travma almış uşaqlar müvəqqəti olaraq sığınacağa yerləşdirilmişdirlər. Mərkəzin yaradılmasında əsas məqsəd isə zorakılığa (fiziki, emosional, cinsi zorakılıq, istismar və etinasızlıq) məruz qalmış uşaq və gənclərə ixtisaslaşmış sosial, psixoloji və müvəqqəti sığınacaq xidmətinin göstərilməsidir. Mərkəzdə 18 yaşadək sosial təhlükəli vəziyyətdə olan, baxımsız, zorakılıq və digər neqativ hərəkətlərin qurbanı olan, intihar etmək istəyən və ümumiyyətlə müdafiəyə ehtiyacı olan uşaqlar üçün reabilitasiya xidmətləri təmin edilir, onların valideynləri və ya ailə üzvlərinə müvafiq hüquqi yardımlar göstərilir, uşaqların gələcəkdə baxımsızlığının profilaktikası məqsədilə valideynlərin valideynlik bacarıqları təkmilləşdirilir, təhsil müəssisələri, yerli dövlət qurumları ilə sıx əməkdaşlıq qurulacaq, risk altında olan uşaqların uşaq alveri və cinsi istismarın qurbanı olmamaları üçün müvafiq maarifləndirmə və digər tədbirlər görülür. Cəlb edilmiş uşaqlarla təcrübəli psixoloq, sosial işçi, pedaqoq və idman mütəxəssisləri reabilitasiya işini uğurla təşkil etməkdədirlər.Bununla yanaşı, təşkilatın nəzdində uşaqlar və onların ailələrinin problemlərinin həlli istiqamətində dövət qurumlarının nümayəndələrindən ibarət Koordinasiya Şurası yaradılmışdır. Koordinasiya Şurası – Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Təhsil Naziliyinin, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ombudsman Aparatı, Rayon İcra Hakimiyyəti nəzdində YYÇİHMK, rayon Polis İdaərələrinin, Prokurorluq, İnsan alverinə qarşı mübarizə idarəsinin nümayəndələrindən ibarətdir. 2009-cu ildən fəaliyyətə başlamış Koordinasiya Şurası bu günə qədər fəaliyyət göstərməklə müxtəlif dövlət qurumları ilə birgə uşaq və ailələrin problemlərinin həllində öz töhfəsini verir.

"Ümidli Gələcək" Gənclər Təşkilatı nəinki Bakı şəhəri, həmçinin Komitənin rayonlarda yaradılmış Uşaq və Ailələrə Dəstək Mərkəzləri ilə birgə proqramlar təşkil etmişdir. Bu proqramlar çərçivəsində Azərbaycanın regionlarında, kənd və qəsəbələrdə yaşayan yetkinlik yaşına çatmayan qızlar arasında maarifləndirmə işləri aparılmışdır. Maarifləndirmə əsasən qızların təhsil hüququnun təmin edilməsi, insan alveri və onun qarşısının alınması, erkən nikahlar, qızların ailələrdə ayrı-seçkilikdən kənarlaşdırılması, asudə vaxtının təşkili və s. mövzuları əhatə etmişdir. Uşaqların asudə vaxtının və fəaliyyətlərinin təşkili ilə bağlı "Şən İdman Avtobusu" layihəsi uğurla həyata keçirilmişdir. Layihə çərçivəsində təşkilat Azərbaycanın regionlarında (Ağdam, Tərtər, Ağcabədi, Goranboy) yaşayan əsasən qaçqın və köçkün ailələrdən olan uşaq və gənclərin yay tətili ərzində asudə vaxtlarının səmərəli təkilinə nail olmuşdur. Bu uşaq və gənclər arasında müxtəlif marafon və viktorinalar, uşaq hüquqlarına dair təlimlər və ümumi psixoloji durumun – özünəinam və özünəqiymətləndirmənin yüksəldilməsi məqsədi ilə qrup məşğələlərin keçirilməsi, uşaqların şənlənməsinə və yay tətilini səmərəli şəkildə keçirilmələrinə imkan yaratmışdır. Eyni zamanda bu layihə Komitənin regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzləri ilə birgə əməkdaşlıqda həyata keçirilmişdir.

"Məişət Zorakılığının qarşısının alınması haqqında" Qanunun tətbiqi prosesinə, habelə "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrasına töhfə vermək məqsədilə "Ümidli Gələcək" Gənclər Təşkilatı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) təsisatı və Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi ilə sıx əməkdaşlıqda məişət zorakılığına məruz qalan uşaq və gənclər, habelə onların ailələri ilə sosial, hüquqi və tibbi-psixoloji işin aparılmasına dair müvafiq yerli dövlət orqanlarının nümayəndələri üçün Bakı şəhəri və digər regionlarda bir sıra təlim və seminarlar keçirtmişdir. Həmçinin, Uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığının profilaktikası və zorakılığa məruz qalmış uşaq və yeniyetmələrin reabilitasiyası məsələlərinə cəmiyyətin və müvafiq qurumların diqqətinin artırılmasının məqsədi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıqda *"Məişət zorakılığına məruz qalan uşaqların müdafiəsi və tibbi-psixoloji-sosial reabilitasiyası"* mövzusunda Konfrans da həyata keçirtmişdir.

Bununla yanaşı, uşaqların əsasən qızların sağlamlığının qorunması, erkən nikahdan kənarlaşdırılması və zorakılığın qarşısının alınması məqsədilə təşkil edilmiş preventiv və maarifləndirici tədbirlərdən biri də "Reproduktiv sağlamlığın tədrisi" proqramı çərçivəsində Bakı və regionlarda 70.000 dən artıq 6-7-ci siniflərin şagirdləri və 10.000 yaxın valideynləri əhatə etməyə müvəffəq olmuşdur.

# Uşaqlarda estetik zövqün formalaşmasında valideynlərin iştirakı

“Etika Akademiyası”nın direktoru Günel İbrahim



Etika anlayışının dərinlikləri, fəlsəfəsi və tarixi barədə bir çox məlumatları əldə etmək mümkündür. Demək olar ki, bu bütün peşə sahələrində tədris olunur. Lakin etikanı yalnız ədəb və texniki qaydalar kimi qəbul etməklə onun effektivliyini azaldırıq. Etika Akademiyası olaraq etikanı uğur formulası, keyfiyyətli düşüncənin fundamenti, niyyət mədəniyyəti istiqamətində baxış formalaşdırırq. Milli kadr bazasına böyük ehtiyacımız var, lakin yalnız ölkə daxilində deyil, qlobal dünyada bütün standartlara cavab verən bir insan olmaq məqsədini daşımalıyıq.

İnsanlarda yaşamaq mənası öz potensiallarını realizə etməsindədir. Bu potensialın reallaşması xoşbəxtlik hissinin yaranmasına səbəb olur. Bu dəfəki mövzumuz uşaqlarda etika anlayışı və mədəni davranış qaydasıdırsa, ilk öncə vurğulamaq istədiyim mövzu fərdi inkişafdır. Bəli, ilk günlərdən artıq fərdi inkişaf proqramları başlamalıdır, hətta bir çox alimlər bunun ana bətnindən belə başladığına əmindirlər. İlk öncə valideynlər güzgü kimi olduqlarını bilməlidirlər. Bununla çox rahat uşaqlarda etikanın formalaşması üsulunun ilk fundamentini qoyacaqlar.

İnformasiyanı yuvarlaqlaşdırsaq 70 %-ə yaxın hissəsinin gözlə, 20% hissənin səslə və yalnız 10%-in sözlə ötürüldüyünü bilirik. Güzgü misalı, yəni gördüklərində məlumatları almaq və öyrənmək 70% təşkil etdiyini valideyn bilməlidir. Uşaq ilk yalanı valideyndən öyrənir, məsələn əgər ana evdədir və telefon zənginə :-mən yoxam evdə , deyin !- deyə göstəriş verirsə, yalanı uşağın həyatına adi hal kimi daxil etmiş olur . Bəzən bizdən soruşurlar :- axı olmadığımız kimi ailə içində, sünii olmaq, hərəkət etmək çətindir ! - və bununla mən razıyam . İnsan ailə quranda bəlli yaşda olur, həyat təcrübəsi onu vadar edir ki, özünə məxsus bir həyat tərzi formalaşdırsın. Razıyam ki, sünilik etmək olmaz. Ən yaxşı çıxış yolu valideyn oldunuzsa, daha yaxşı olmaq, pis vərdişlərindən tam azad olmaq, özünüz üzərinizdə daha uğurlu olmaq üçün etmədiyiniz işləri tamamlamaq, inkişaf etməkdir. Övladın sizə baxdıqda görə biləcəyi bütün müsbət keyfiyyətlərə tam sahib olmaqdır. Əgər siz yol piyadasına yol veririsinizsə daima, onu bir daha əlavə nəsihət etməyə ehtiyac olmayacaq övladınıza, əgər siz daim qonşunuza ürəklə salam verib xoş gün arzulayırsınızsa sosiallaşmanın ilk nümayişini etmiş olacaqsınız. Əgər siz ahıl yaşında olan insana ayağa qalxıb yer veririsinizsə, övladınız da bunu bir mənalı həqiqət kimi görüb və özündə əks etdirəcəkdir.



Müşahidələrimiz onu göstərir ki, ən çox danlayan və narazı olan valideyn övladından tələb etdiyi məqamları gündəlik həyatında özü etmir, çox danışır, hətta daim danışır. Tələb etdiyimiz kimi ilk öncə özümüz olmalıyıq, görmək istədiyimiz kimi ilk öncə özümüz görünəcəyik. Uşağın ilk dəyərlərə sahib olması, daha sonra onu cəmiyyətə nümayiş etdirmək ardıcıllığını bilməliyik. Sahiblik isə, ilk öncə töhfə tələb edir. Nəyə sahib olduğumuzu qurduqdan sonra, nümayiş hissəsi ilə məşğul olmaq gərəklidir. Sağlam mühitdə hər ikisini də paralel əldə etmək mümkündür.

Bildiyiniz kimi, məktəblərdə “Etika” dərnəklərimiz fəaliyyət göstərir. Nümayiş hissində problem olduğunu düşünən valideynlər daim müraciət edirlər və biz bunun ilk iki etapında olan problemlərdən, öncə valideynlərlə müzakirə edirik. Hər övladın öz komfort zonası olmalıdır, bu çox vacibdir. Bunun üçün bir neçə otaqlı mənzil gərəkli deyil, çox kiçik ev sahibləri belə evin bir balaca hissəini övadlarına ayırmalıdır. Etika bundan da başlayır, şəxsi komfort zonanın təminindən. Ailədaxili şərait bərabərliyi hər zaman təmin edilməlidir.

Müşahidə etdiyimiz bir məqama nəzər yetirmək istərdim. Bu fərdi inkişafda çox vacib amillərdən olan ad məsələsidir. Ünsiyyət zamanı uşağın yaşından asılı olmayaraq daim adı çəkilməlidir. Ən əzizləyici sözlər belə şəxsi adın səsləndirilməsinin effektini vermir. Beyin alimlərinin insanın öz adını çəkməklə, vaciblik hissinin ödənilməsini təmin etdiyini söyləyirlər. Övladınızı adı ilə çağırın , müraciət edin və onda baş verən böyüməni tezliklə müşahidə etmiş olacaqsınız. Balaca uşaqlarla ünsiyyətdə, bu zaman təlimat verirsiniz, ya xoş söz deyirsiniz və ya danlayırsınız fərq etmədən onun boyuna qədər enərək danışmaq lazımdır. Yəni gözə baxacaq səviyyədə olandan sonra cümlələrinizə başlaya bilərsiniz. Yuxarıdan aşağıya qurulan hər bir ünsiyyət təzyiqlidir. Verdiyiniz təlimatların öladınızın yadında qalmağınızı istəyirsinizsə mütləq boyca eyni səviyyəni təmin etdikdən sonra edin. Valideyn özü təsəvvür edə bilər. Əgər ondan boyca hündür bir insan yuxarıdan aşağıya ,xüsusən də, qəzəbli təlimatlar verir, onu icra etmək hissi yaranar , ya yox? Fikrimcə yox . Zaman aparan və töhfə tələb edən əsas hissə keyfiyyətli düşüncənin və düzgün niyyətin formalaşmasıdır, təbii burda ən böyük rolu informasiya təhlükəsizliyi oynayır. Bu da ilk öncə valideynlərin cəmiyyətdən gələn informasiya təminidir. İnsan bildiyi qədər görür. Valideynlərə ilk öncə özlərinin inkişaflarına və övladlarının dünya görüşlərinə və savadlarına ən böyük önəm və resurs xərcləməyi tövsiyə edirəm. Etikanın çox rahat bir formulasını hamımız blirik. Özünə arzulamadığını başqasına etmə. ***Özünüz gözəl və dəyərli olun ki, sizə baxan, gördüyü ilə böyüsün.***




# 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə yekun tədbir keçirildi




İyunun 1-də Beynəlxalq Muğam Mərkəzində millət vəkillərinin, dövlət orqanlarının, QHT-lərin nümayəndələrinin, BMT İnkişaf Proqramının (UNDP) Rezident Nümayəndəsinin müavini xanım Nato Alxazişvilinin, şəhər və regionları təmsil edən 250-yə yaxın uşaq, o cümlədən xüsusi qayğıya ehtiyacı olan və Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri olan uşaqların iştirakı ilə “İstedadlı uşaqlar festivalı-2016” adlı tədbir keçirilib. Tədbirdən əvvəl Fəxri Xiyabanda Ulu Öndər Heydər Əliyevin abidəsi və Şəhidlər Xiyabanı ziyarət edilib.

Tədbir dövlət himninin səslənməsi ilə başlayıb və “Azərbaycanda uşaq siyasəti” filmi nümayiş edilib.

Daha sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, Azərbaycanda uşaq məsələlərinə dövlət tərəfindən həmişə diqqət yetirilir. Ulu Öndər Heydər Əliyev uşaqlara dövlət səviyyəsində qayğını həmişə diqqətdə saxlayırdı. Cənab Prezident İlham Əliyev uşaqların sağlam və firavan böyüməsini, onların rifahının yüksəldilməsini dövlət siyasətinin başlıca vəzifələrindən biri kimi müəyyən edib. Ölkəmizdə uşaq hüquqları ilə bağlı güclü qanunvericilik bazasının mövcudluğunu qeyd edən Komitə sədri bildirib ki, mütəmadi olaraq, bu qanunlar və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, normal formalaşması, sağlam böyüməsinə yönəlmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilmişdir. O, eyni zamanda “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası çərçivəsində Uşaq Strategiyasının hazırlandığını, Uşaq Məcəlləsi ilə bağlı müəyyən işlərin görüldüyünü vurğulayıb.



Komitə sədri qeyd edib ki, biz çalışmalıyıq uşaqlar zərərli vərdişlərə, radikal və ortodoksal dini qruplara, sosial şəbəkələrə aludə olmasınlar. “Onların məruz qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Bununla bağlı, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunları qəbul edilib. Lakin bu istiqamətdə məlumatsızlığın olması maarifləndirmə işlərinə ehtiyacı daha da artırır. Bununla yanaşı, məktəbdə müəllimlər, psixoloqlar uşaqların davranışlarına, onların nizam-intizamına, dərslərə hazırlığına ciddi nəzarət etməlidirlər, problem varsa operativ müdaxilə olunmalıdır.”



Konstitusiya Məhkəməsinin sədr müavini Sona Salmanova çıxışında bildirib ki, ölkəmizdə uşaq hüquqları ilə bağlı mükəmməl qanunvericilik bazası mövcuddur. Konstitusiya Məhkəməsinin sədr müavini son illər ərzində uşaqların təlim-tərbiyəsi, sağlıq məsələləri ilə bağlı atılan mütərəqqi addımlardan danışıb. Sona Salmanova Azərbaycan Respublikasının qanunvericilik bazasında uşaq hüquqlarının hansı maddələrlə təsbit edildiyini, ölkənin ratifikasiya etdiyi beynəlxalq sənədləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra BMT-nin İnkişaf Proqramının Rezident Nümayəndəsinin müavini Nato Alxazişvili çıxış edərək Azərbaycanda reallaşdırılan dövlət uşaq siyasətini yüksək qiymətləndirib. O, eyni zamanda qeyd edib ki, BMT tərəfindən 17 məqsəd müəyyən edilmişdir. Bütün bu məqsədlər birbaşa uşaqlara təsir edir və BMT-ə üzv ölkələr bu məqsədlərə çatmaq üçün fəaliyyət göstərirlər.

Tədbirdə uşaqların rəsm əsərlərinin nümayişi, həmçinin 2015-2016-cı illərdə uğur qazanmış uşaqların uğurlarını əks etdirən “İstedadlı uşaqlar-2016” adlı qısa filmin təqdimatı baş tutub. Tədbirdə elm-təhsil, yaradıcılıq, incəsənət və idman sahələrində Azərbaycan Respublikasını beynəlxalq müsabiqələrdə və yarışlarda təmsil edərək qalib olmuş, yüksək nailiyyətlər əldə etmiş uşaqlar Komitə tərəfindən mükafatlandırılıb, “Azərbaycanın gələcəyi” kuboku ilə təltif olunub. Həmçinin tədbirdə Azərbaycanı ölkəmizin hüdudlarından kənarda müvəffəqiyyətlə tanıtmaqda, uşaqların yaradıcılıq imkanlarının artırılmasında, uşaq hüquqlarının təbliğində və müdafiəsində, onların sağlamlığının qorunmasında iştirakı olan təşkilatlar da mükafatlandırılıb. Tədbir müxtəlif müsabiqələrdə uğurlar qazanmış uşaqlar, eləcə də, uşaq yaradıcılıq qrupları tərəfindən konsert proqramı ilə yekunlaşıb.



















## *Məhəmməd Muradlı*

***01.08.2003-cü il- Bakı şəhəri***

***Qaradağ rayonu Lökbatan qəsəbəsi 106 saylı orta məktəbin 7-ci sinif şagirdi***

**Nailiyyətləri**

- Şahmat üzrə FİDE ustasıdır, beynəlxalq reytinqi – 2353
- Ən yüksək titulu- 12 yaşlı yeniyetmələr arasında Dünya çempiyonu olmuşdur.
- 2011, 2013- Azərbaycan çempionatı - 1-ci yer
- 2012- Bakı-OPEN (10 Yaş) – 1-ci yer
- 2012-Respublika Olimpiyadası (10 yaş) – 1-ci yer
- 2012-Respublika Olimpiyadası (12 yaş) – 1-ci yer (komanda hesabına)
- 2013- Bakı şəhər çempionatı (10 yaş) – 1-ci yer
- 2013- Moskva-Open– 1-ci yer
- 2013-Təhsil Respublika İdman Mərkəzinin Respublika Birinciliyi – 1-ci yer
- 2014- Avropa çempionatı – 1-ci yer (məktəblilər arasında)
- 2014- Ümummilli lider H.Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş ümumtəhsil məktəblərinin şagirdləri arasında Respublika şahmat festivalı – 1-ci yer
- 2014- Bakı-Open (12 yaş) – 1-ci yer



## *Samidə Məmmədova*



***23.10.2004- Bakı şəhəri***
***Bülbül adına Orta İxtisas Musiqi Məktəbi***

- 13-30 may 2014-cü ildə Azərbaycandakı Rus cəmiyyətinin ve Rus Mədəniyyətinin keçirdiyi "Rodniki duşi" müsabiqəsində 3-cü yer ve Laureat
- 2016-cı il yanvar ayında Belarusiyanın Minsk şəhərində keçirilən "Slavanskiye vstreci" adlı 4 -cü Beynəlxalq müsabiqədə 1-ci dərəcəli Laureat
- Ukraynanın Kiyev şəhərində keçirilən "Pokori scenu" müsabiqəsində Qran-Pri
- Bakı Amerika Mərkəzinin keçirdiyi "Talent Shou" müsabiqəsində 2-ci yerin sahibi
- Azərbaycan Respublikasının Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Azərbaycanın Gələcəyi" mükafatı
- İyun ayında Bolqariyanın Kiten - Primorsko şəhərlərində keçirilən "Zvezdniy Priboy" müsabiqəsində Qran- Pri sahibi

## Seyid-Oqtay Həsənov




***05.07.2003- Bakı şəhərində ziyalı ailəsində anadan olub.***

Yüksək təhsilli valideynlərin əhatəsində yaşından artıq dünyagörüşü, məlumatı ilə böyüyən Seyid-Oqtay 2009-cu ildə Nəsimi rayonundakı 23 saylı məktəbin I sinifinə getməklə məktəb adlı sehrlə tanış olub. Dərslərini əla qiymətlərlə oxuyan və tədris olunan bütün fənləri eyni həvəslə və məsuliyyətlə mənimsəməyə çalışan Seyid-Oqtayın bir eşqi, bir sevdası da var. O da uşaq dünyasını, qəlbindəki arzu və istəkləri rənglərin dilindən deyənlərdəndir. Elə bu sevgi və dərin maraq ona uğurlar da bəxş edib.

Rəsmdə ilk qələbəsini 5 yaşında ikən qazanıb “Baharın nəfəsi” adlı uşaq yaradıcılığı müsabiqə-sərgisinin qalibi olan Seyid-Oqtay Həsənov xalq rəssamı Ağəli İbrahimov və əməkdar rəssam Ənvər Qarayev tərəfindən diplomla təltif olunub.



Bundan başqa “Mənim sevimli rəqəmim” adlı layihədə fəal iştrakına görə də diplomla, 2009-cu ildə 20 Yanvar faciəsinin 19-cu il dönümünə həsr olunmuş “And yerimiz” mövzusunda keçirilən rəsm-plakat sərgisində iştirakına görə şəhadətnamə ilə təltif olunub.

1 İyun-Uşaqların Müdafiəsi Gününə həsr olunmuş “Vergi uşaqların gözü ilə” asfalt üzərində rəsm müsabiqəsində (2010-cu il) I yer tutaraq diplomlarının sayını daha da artırıb.

Bu illər ərzində Seyidoqtay ölkə daxili və nüfuzlu xarici müsabiqə-sərgilərdə iştirak edərək çoxsaylı uğurlar qazanmışdır. Ölkə daxilindəki sərgilər sırasında Gənclər və İdman Nazirliyinin, Təhsil Nazirliyinin, Vergilər Nazirliyinin, Azərbaycan Respublikasının Ombudsman Aparatının, Azərbaycan Rəssamlar İttifaqının, Dədə Qorqud Fondunun, Bakı və Azərbaycan yepiskopunun keçirdiyi müsabiqələri göstərmək olar.



Seyidoqtay Həsənov beynəlxalq rəsm müsabiqələrinin də fəal iştirakçısıdır. Uğur qazandığı xarici sərgilər sırasına Yaponiyada, Çində və Özbəkistanda keçirilən beynəlxalq müsabiqələr daxildir. 2012-ci ilin iyununda Türkmənistan Respublikasının Bakıdakı səfirliyi ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 20 illik yubileyinə həsr olunmuş “Türkmənistan – Azərbaycan əlaqələri dostluq və qardaşlıq nümunəsidir” devizi altında rəsm müsabiqəsi təşkil etmişdir. Respublikamızın ən qabiliyyətli uşaq və yeniyetmə rəssamlarının qatıldığı müsabiqədə Seyidoqtay Həsənov qalib olmuşdur.



Yeniyetmə rəssam Seyidoqtay Həsənovun fərdi sərgisi 24 may tarixinə kimi davam etmişdir. Sərgi həm də xeyriyyə xarakteri daşıyırdı. Gənc rəssam bir sıra işlərini sərgi gedişində realizə etmək və müalicəyə ehtiyacı olan uşaqların valideynlərinə təqdim etmək istəyirdi.

“Abşeron” qalereyasındakı sərgidə yeniyetmənin 26 rəsm əsəri nümayiş etdirilir. Seyidoqtay sənətsevərlərin mühakiməsinə müxtəlif texnikalarda işlədiyi rəngkarlıq və qrafika nümunələrini təqdim edir. Sərgi zalında Seyidoqtayın uğurlarından xəbər verən fəxri diplomlar, habelə onun yaradıcı fəaliyyətini əks etdirən fotolar yerləşdirilmişdir. Uğurlu tablolardan “Paris. Köhnə məhəllə”, “Yol mənzərəsi” kompozisiyasını, cəlbedici qrafika nümunələrindən isə 8 yaşında ikən çəkdiyi “Ulu Öndərin portreti” rəsmini göstərmək olar.

Seyidoqtay təkcə rəsm məşğuliyyətini deyil, musiqini, idmanı sevir, poetik məşğələlərə də vaxt tapır. Sərgidə mətnləri nümayiş etdirilən “Şuşa – dağlarımızın tacı” və Xocalı faciəsinə həsr edilmiş şeiri olduqca kövrək duyğularla yazılmışdır. S.Həsənov gələcəkdə memar olmaq, Vətəni gözəl binalarla bəzəmək arzusundadır. Lakin rəssamlığa olan həvəs, yəqin ki, onu ömrü boyu müşayiət edəcəkdir.

# Mədinə Məsimova



***16 yaş, Akademik Zərifə Əliyeva adına lisey,10-cu sinif şagirdi ,gənc rəssam.***

- Nailiyyətlər:
    - 2015-ci il: Shlumberger kampaniyasının ABŞ-ın Hyuston şəhərində keçirdiyi Beynəlxalq Planet Seed rəsm müsabiqəsinin qalibi və Gran Pri sahibi.
    - 2013-cü il:"A.S.Pushkin əsərlərində təbiət" rəsm müsabiqəsində II yerin sahibi.
    - 2014-cü il: 21 sentyabr Beynəlxalq Sülh Gününə həsr olunmuş uşaq və gənclər arasında keçirilmiş rəsm müsabiqəsində iştiraka görə sertifikatın sahibi.
    - 2015-ci il: Azərbaycan Respublikası Təhsil Nazirliyi İnformatika Olimpiada Mərkəzi. Akademik Zərifə Əliyeva adına lisey və "Peşəkar təlim" MMC-nin birgə keçirdiyi "Ümid-proqramçı məktəblilər" yarışmasının qalibi.
    - 2015-2016:Akademik Zərifə Əliyeva adına liseyin İDEA proyektinin "Best Speaker" Gran Pri-nin sahibi.
    - 2016-cı il:Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi "Ədəbiyyat biliciləri" müsabiqəsində I yerin sahibi.
    - 2016-cı il: ADA universitetinin keçirdiyi "Second Highschool British Parliamentary Debate"müsabiqəsində fərqlənmə sertifikatının sahibi.
    - 2016-cı il: Akademik Zərifə Əliyeva adına liseyin keçirdiyi "Ən yaxşı oxucu mənəm" müsabiqəsində I yerin sahibi.
    - 2016-cı ilin yazında keçirilmiş "Almaniya bir rəssamın gözü ilə" Bakı Rəssamlıq Müsabiqəsi N°9 uğurlu rəsm əsərinə görə təbrik və sertifikatın sahibi.









***Bu gün sevindirici haldır ki, şagirdlərimiz təhsildə yüksək uğurlar əldə etməklə yanaşı ailə, qadın və uşaq məsələlərinə də öz münasibətlərini bildirir və bizə maraqlı yazılar göndərirlər. İstərdik ki, bu maraqlı yazılardan birini sizlərə təqdim edək...***



## Nigar Səfərova

*Bakı Modern Məktəbinin X sinif şagirdi*

Ümummilli Liderimiz Heydər Əliyev qadınlara çox böyük dəyər verir və deyirdi: "Qadın dünyadır, qadın həyatdır, insanlığı yaşadan müqəddəs varlıqdır".

Tarixə nəzər salsaq görərik ki, dünyada o cümlədən Azərbaycanda mövcud olan ayrı-seçkiliyə və qadın hüquqlarının uzun müddət tapdanmasına baxmayaraq Azərbaycan qadını həmişə öz sözünü deməyi bacarmışdır. Tomris, Məhsəti Gəncəvi, Sara xatun və yüzlərlə digər qadınlarımız buna bariz nümunədir. XX yüzilliyə qədər qadınlar heç bir ölkədə vətəndaş hesab olunmamış, hüquqları tapdalanmışdır. Lakin mən qadınların tam hüquqsuz olması fikri ilə də razılaşmaq istəmirəm. Çünki, bir çox ölkələrdə qadınlar əmlakdan pay almaq, ailə qurmaq, boşanmaq və s. hüquqlara malik olmuşlar. Çox vaxt deyirlər ki, əhali siyahıya alınanda yalnız kişilər siyahıya alınır, qadınlar, uşaqlar, qocalar siyahıya alınmırdılar. Bildiyimiz kimi, vergiləri yalnız siyahıya alınmış adamlar ödəməli olurdular. Deməli, siyahıya alınmamağın qadınlar üşün müsbət cəhəti də var idi. Bu da onların bütün vergilərdən azad olunması idi. Lakin, bütün bunlara baxmayaraq qadınlar heç vaxt indiki qədər kişilərlə bərabər hüquqlara malik olmayıblar. Bu qismən bərabərlik isə qadınlara heç də asan başa gəlməyib. Qadınlar bütün dövrlərdə zorakılığa məruz qalıb, onlara bir çox işlərdə kişilər qədər etibar edilməyib. Apardığım araşdırmalara görə hesab edirəm ki, hazırda qadınların əsas problemləri aşağıdakılardır:

***1. Qadın alveri***
***2. Zorakılıq***
***3. Erkən yaşlarında nikah***
***4. Narkomaniya***
***5. Könülsüz ailə həyatı qurmağa məcbur edilmək və s.***

Hazırda qadınların sayının azalması qorxusu gözlənilir. Bunu statistik göstəricilər də təsdiq edir. Qadınların sayının azalmasının səbəblərindən biri dünyaya gələcək uşağın cinsiyyətinin əvvəlcədən müəyyənləşdirilməsinin mümkün olmasıdır və qız uşaqlarının doğulmadan valideyinlərin arzusu ilə məhv edilməsidir. Bu prosesin qarşısı mütləq alınmalıdır. İnsanlar təbiətin qanunlarını nə qədər çox pozurlarsa, təbiət də onları bir o qədər çox cəzalandırır.

Qadınların məruz qaldığı problemləri həll etməyin ən mühüm yolu onların sosial inkişafına nail olmaqdır. Bu məqsədlə:

1.Məktəbli və tələbə qızlar arasında mühazirələr təşkil edilməli və burada fikir mübadiləsi təmin olunmalıdır;
2. Onlara neqativ hallara qarşı birgə mübarizə aparmaq üçün müxtəlif birliklər yaratmağa imkan verilməlidir;
3. Xaricdə təhsil almaq istəyən qızlarımıza kömək etməli, onların fırıldaqçıların qurbanına çevrilməsinə yol verilməməlidir;
4.Kütləvi informasiya vasitələrinin köməyi ilə qadınların, xüsusilə gənc qızların maraq və arzularına uyğun olan səviyyəli verilişlər təşkil edilməlidir;
5.Qadınların bir çox problemlərini həll etmək üçün dövlət səviyyəsində təşkilatlar yaradılmalı, ya da mövcud olan təşkilatlara səmərəli iş üçün yardım və nəzarət olunmalıdır;

Məlum olduğu kimi müasir dövrdə qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, lider olması, təhsil alması olduqca vacibdir. Əks təqdirdə qadının idarəetmədə çalışması mümkün deyil. 1995-ci il Azərbaycan qadınları üçün əlamətdar olmuşdur. Həmin il Azərbaycan "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında "Konvensiyasına qoşulmuşdur. Konvensiyaya qoşulmaq elə də asan iş deyil, bunun üçün respublikada əlverişli şərait olmalı və müvafiq vəzifələr yerinə yetirilməlidir. Dövlətimizin keçid dövründə yaşamasına, ölkəmizdə müharibə getməsinə, torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında olmasına, bir milyondan artıq qaçqın və məcburi köçkünümüzün olmasına baxmayaraq bizim bu konvensiyaya qoşulmağımız Ulu öndərimiz Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Qadınların problemlərinin həlli yolunda atılan hər bir addım yüksək qiymətləndirilməlidir. Çünki bu addımlar daha sağlam körpə,daha qayğıkeş ana, daha gülərüz həyat yoldaşı, daha məsuliyyətli iş qadını deməkdir! Son zamanlar qadınlar heç də kişilərdən geri qalmayaraq, əvvəllər yalnız kişi peşəsi sayılan peşələrə də uğurla yiyələnirlər.Hazırda qadınlar arasında çoxlu sayda cərrah, diş həkimi, sürücü, menecer və dizayner vardır.

Mən apardığım araşdırmalardan belə qərara gəldim ki, qadınların kişilərlə bərabər səviyyədə karyera qurmasına mane olan bir çox səbəblər var:

1. Fiziki güclərinin kişilərdən az olması
2. Bir çox peşələrin yalnız kişi peşəsi hesab olunması
3. Bir çox qadınlarda ev işlərinə daha çox meyillilik
4. Ailədə qadına işləməyə icazə verilməməsi
5. Qadınların kişilərə nisbətən sosial həyatda daha az aktiv olması və s.

Bütün bunlara baxmayaraq, Azərbaycan qadınları cəmiyyətimizin tam hüquqlu üzvləri kimi ölkənin sosial, iqtisadi və ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Azərbaycanda hər zaman maarifçilik və xeyriyyəçilik ideyaları, milli-mənəvi dəyərlər əsasında fəaliyyət göstərən, örnək kimi qəbul etdiyimiz qadınlar olub və indi də vardır. Onlar cəmiyyətimizin inkişafına öz töhfələrini veriblər. Bu baxımdan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva həm ictimai-siyasi, həm xeyriyyəçilik fəaliyyəti, həm də elmi yaradıcılığı ilə müasir dövrdə Azərbaycan qadınlarına nümunədir.Mehriban xanım Əliyevanın şəxsində qadınlarımız dünya səviyyəsində öz sözünü deyir. Şərq və Qərb xüsusiyyətlərini özündə cəmləşdirən, milli dəyərlərimizin və mədəniyyətimizin təbliğatçısı, Azərbaycan adət-ənənələrinin qoruyucusu, ümumilli problemlərimizin dünya müstəvisinə çıxarılmasında əvəzsiz xidmətləri olan Mehriban xanım Əliyeva ideal bir qadın obrazıdır.Bu obraz Azərbaycan qadınlarının dünya baxışında, bu günkü və gələcək inkişafında mühüm rol oynayacaqdır".